Azerbaijan University

# PROCEEDINGS

International Conference on

## GENDER PROBLEMS
## and
## MODERN AZERBAIJAN

November 27, 2019

BAKU | AZERBAIJAN

## ORGANIZING COMMITTEE

**Saadat Aliyeva,** Rector, Azerbaijan University, Baku, Azerbaijan – **Chair**
**Nushaba Guliyeva**, Azerbaijan University, Baku, Azerbaijan
**Latifa Aghamaliyeva**, Azerbaijan University, Baku, Azerbaijan
**Safar Mammadov**, Azerbaijan University, Baku, Azerbaijan
**Gabil A. Aliyev**, Azerbaijan University, Baku, Azerbaijan
**Paul Gibbs**, Azerbaijan University, Baku, Azerbaijan
**Ulviyya Rahimova**, Azerbaijan University, Baku, Azerbaijan
**Samira Mammadova**, Azerbaijan University, Baku, Azerbaijan

## INTERNATIONAL PROGRAM COMMITTEE

**Yusif Gasimov**, vice-rector, Azerbaijan University, Baku, Azerbaijan
**Victoria de Rijke**, Middlesex University, London, UK
**Rena Ibrahimbeyova**, Baku State University, Baku, Azerbaijan
**Louise Dalingwater**, Sorbonne University, Paris, France
**Alison Beavis**, Technological University, Sydney, Australia
**Jamila Guliyeva**, Baku State University, Baku, Azerbaijan
**Kifayat Aghayeva**, Azerbaijan University of Languages, Baku, Azerbaijan
**Hikmet Alizade**, Baku State University, Baku, Azerbaijan
**Osmar Antonio Bonzanini**, University of Upper Uruqvay and Missions, Brazil

## CONTENTS


**PLENARY TALKS**

**Louise Dalingwater**........................................................................................................ 7
NEOLIBERAL REFORMS ANDWOMEN'S WELLBEING
IN THE WORKPLACE

**İbrahimbəyova Rəna**........................................................................................................ 7
GENDER YANAŞMASININ MÜASIR VƏZİYƏTİ

**SECTION TALKS**

**Abdullayeva Nərmin**........................................................................................................ 11
KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN TƏLİM ÇƏTİNLİKLƏRİNİN CİNS XÜSUSİYYƏTLƏRİ

**Aghayeva Kifayat**........................................................................................................ 14
GENDER POLICY IN THE REPUBLIC OF AZERBAIJAN:
CHALLENGES AND RECOMMENDATIONS

**Allahverdiyeva Fəridə**........................................................................................................ 17
ƏRƏB BAHARININ QADIN HAQQLARINA TƏSİRİ

**Anvari Roya, Zarifa Salimova**........................................................................................................ 20
THE IMPORTANCE OF GENDER EQUALITY AND WOMEN'S EMPOWERMENT
TO THE SUSTAINABLE GROWTH OF AZERBAIJAN

**Бабаева Лала**........................................................................................................ 21
ГЕНДЕРНАЯ ПРОБЛЕМА В ИСЛАМСКОЙ КУЛЬТУРЕ И
ЭМАНСИПАЦИЯ ЖЕНЩИН

**Beavis Alison**........................................................................................................ 23
THE GENDER DIFFERENCE IN PAY NEGOTIATIONS IN AUSTRALIA

**Çələbiyev Nuralı**........................................................................................................ 24
GƏNC AİLƏDƏ ƏR-ARVAD CİNSİ-ROL STEREOTİPLƏRİNİN
FORMALAŞMASININ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

**Dadaşova Aydan**........................................................................................................ 29
GENDER CİNSLƏR ARASINDA SOSİAL MÜNASİBƏTLƏRİN
MODELİ KİMİ

**Dünyamalıyev Fərid**........................................................................................................ 31
AZƏRBAYCANDA GƏNCLƏRİN SOSİAL-İQTİSADİ PROBLEMLƏRİNDƏ
GENDER FƏRQİ

**Əliyeva Səadət**........................................................................................................ 33
BRİTANİYA UŞAQ ƏDƏBİYYATI VƏ ONUN UŞAQ ŞƏXSİYYƏTİNİN
FORMALAŞMASINDA ROLU

**Əliyeva Ülviyyə**........................................................................................................ 38
MARQARET ETVUDUN "QULLUQÇUNUN HEKAYƏSI" ƏSƏRİNDƏ
QADIN PROBLEMİ

**Əliyeva Pərvin**........................................................................................................................ 41
YENİYETMƏLƏRDƏ MİLLİ XARAKTERİN FORMALAŞMASININ
GENDER ASPEKTLƏRİ

**Алиева Севиндж**..................................................................................................................... 43
ИЗМЕНЕНИЕ ОТНОШЕНИЯ К РОЛИ ЖЕНЩИНЫ В ОБЩЕСТВЕ
(на примере Азербайджана)

**Əliyeva Qüdrətxanım**.......................................................................................................... 47
QƏDİM TARİXDƏ TÜRK QADINI ROLUNA DAİR

**Əlizadə Hikmət**........................................................................................................................ 50
TƏRBİYƏDƏ FEMİNİZASİYA VƏ MASKULİNİZASİYA PROBLEMİ

**Fərəcova Aynur**...................................................................................................................... 53
OĞUZ CƏMİYYƏTİNDƏ QƏHRƏMAN ƏR-AİLƏ BAŞÇISI KİMİ

**Gibbs Paul** ............................................................................................................................... 56
ISN'T REASON GENDER NEUTRAL?

**Gündoğdu Səriyyə**.................................................................................................................. 56
II MƏŞRUTİYYƏT ELANINDAN SONRA "TANİN" QƏZETİNDƏ YAZARLARIN
GENDER MƏSƏLƏSİNƏ VƏ QADIN HAQLARINA MÜNASİBƏTİ

**Hasanova Ulkar**...................................................................................................................... 60
CHILDREN'S GENDER ROLE STEREOTYPES AND THEIR INFLUENCE ON THEIR
CAREER ASPIRATIONS

**Həmidova Nübar**.................................................................................................................... 62
UŞAQLARIN DÖVLƏT UŞAQ MÜƏSSİSƏLƏRİNƏ DÜŞMƏSİNDƏ
GENDER FAKTORLARI

**Исмайлова Айбаниз**............................................................................................................... 64
ГЕНДЕРНЫЕ ПРОБЛЕМЫ В ПРОИЗВЕДЕНИЯХ АНГЛИЙСКИХ И
АЗЕРБАЙДЖАНСКИХ ПИСАТЕЛЕЙ

**İsmayılbəyli Çimnaz**.............................................................................................................. 67
ALZAYMER XƏSTƏLİYİ GENDER KONTEKSTİNDƏ

**Mədətov Fərhad**...................................................................................................................... 70
C. CABBARLININ ŞEİR YARADICILIĞINDA QADIN OBRAZLARI

**Məhərrəmova Gülşən**............................................................................................................. 74
AZƏRBAYCANDA MƏİŞƏT ZORAKILIĞI

**Məlikli Günel**.......................................................................................................................... 77
AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ İNKİŞAFINDA GENDER DEMOKRATİYASI

**Məmmədbəyli Nərgiz**............................................................................................................. 79
QADIN POEZİYASINDA PARALELLƏR (E. DİKKİNSON VƏ X. NATƏVAN)

**Məmmədova Bənövşə**............................................................................................................. 81
ƏZİZƏ CƏFƏRZADƏNİN DİL KİMLİYİ VƏ GENDER ASİMMETRİYASI

**Mollayeva Elza**........................................................................................................................ 83
MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ MÜƏLLİMİN PEŞƏ FƏALİYYƏTİNİN GENDER ASPEKTLƏRİ

**Namazova Səba**........................................................................................................................ 87
BƏDİİ ƏDƏBİYYATDA GENDER PROBLEMİ

**Nəcəfova Züleyxa**.................................................................................................................... 88
SOSİAL İŞ MÜTƏXƏSSİSLƏRİNİN HAZIRLANMASI VƏ ONLARIN GENDER PROBLEMİNİN HƏLLİNDƏ ROLU

**Nərimanoğlu Hacı**.................................................................................................................... 91
AZƏRBAYCAN QADINLARI XALQIMIZIN AZADLIĞI, ÖLKƏMİZİN YÜKSƏLIŞI UĞRUNDA MÜBARIZƏDƏ

**Nəzərova Günay**...................................................................................................................... 93
ŞƏXSİYYƏTİN GENDER MƏDƏNİYYƏTİ PEDAQOJİ PARADİQMA KİMİ

**Nəzərov Müslüm**...................................................................................................................... 95
ALİ TƏHSİL SİSTEMİNDƏ GENDER MƏDƏNİYYƏTİNİN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

**Orucova Esmira**........................................................................................................................ 98
ERMƏNİ SOYQIRIMINA MƏRUZ QALMIŞ AZƏRBAYCAN QADINLARININ HÜQUQLARI GENDER MÜSTƏVİSİNDƏ

**Paşayev Asif, Əliyev Qabil** ........................................................................................................ 102
GENDERDƏ SOSİAL ŞƏBƏKƏLƏR AMİLİ

**Гасымлы Кенуль** ........................................................................................................................ 104
ГЕНДЕРНОЕ ПРЕДСТАВЛЕНИЕ В МОЛОДЕЖНОЙ СРЕДЕ

**Qasımova Aysel** ........................................................................................................................ 106
GENDER STEREOTİPLƏRİ VƏ STEREOTİPLƏŞMƏSİ

**Qəribov Ağalar**.......................................................................................................................... 108
GENDER PROBLEMİNİN KLASSİK ALMAN FƏLSƏFƏSİ MÜSTƏVİSİNDƏ QİYMƏTLƏNDİRİLMƏSİ

**Гулиева Нушаба**........................................................................................................................ 111
ПОЛОЖЕНИЕ ЖЕНЩИН В АЗЕРБАЙДЖАНЕ В XIX-XX ВЕКАХ

**Rəhimli Günay, Musayeva İlahiyə**............................................................................................ 113
TƏHSİLDƏ GENDER BƏRABƏRSİZLİYİNİN İQTİSADİ İNKİŞAFA TƏSİRİ

**Rəhimli Aynurə**.......................................................................................................................... 116
BÖYÜK BRİTANİYA LİNQVOKULTUROLOJİ PLASTINDA “GENDER” VƏ “ZADƏGANLIQ” (NOBILITY) KONSEPTLƏRİNİN ƏLAQƏLİ MƏQAMLARI HAQQINDA

**Сафарова Арзу**........................................................................................................................ 118
ЖЕНЩИНА ЗА РУЛЕМ: НЕОБОСНОВАННОСТЬ ГЕНДЕРНОГО СТЕРЕОТИПА

**Tağıyeva Tərlan**.......................................................................................................................... 122
MƏCBURİ KÖÇKÜNLƏRİN CƏMİYYƏTƏ İNTEQRASİYASINDA GENDER XÜSUSİYYƏTLƏRİ

**Тарвердиева Сабина**............................................................ 125
ФЕМИНИСТСКИЕ ИССЛЕДОВАНИЯ В СОВРЕМЕННОМ
РАКУРСЕ

**Vəliyeva Zülfiyyə**............................................................ 127
PEDAQOJİ TƏMAYÜLLÜ ALİ MƏKTƏB TƏLƏBƏLƏRİNDƏ GENDER
BƏRABƏRLİYİ DƏYƏRLƏRİNİN FORMALAŞMASI

**Verdiyeva Tünzalə**............................................................ 131
ƏLİLLİYİ OLAN QADINLARIN İŞ YERLƏRİNDƏ GENDER ƏSASLI
DİSKRİMİNASİYAYA MƏRUZ QALMASI

**Victoria de Rijke** ............................................................ 133
GENDER AS METAPHOR: PERFORMANCES OF GENDER IN POPULAR
CULTURE, CHILDREN'S LITERATURE & EDUCATION

**Xəlilova Əsli**............................................................ 133
ƏLİLLİYİ OLAN ŞƏXSLƏR ARASINDA GENDER ƏSASLI AYRISEÇKİLİK

**Khanahmedov Nariman, Ahmedli Sara**............................................................ 135
WOMEN'S RIGHTS IN TERMS OF LABOR LAW
IN THE REPUBLIC OF AZERBAIJAN

**Xia Summer**............................................................ 139
DIVERSITY AND GENDER EQUALITY

**Zeynalova Narınc**............................................................ 140
ƏLİ BƏY HÜSEYNZADƏNİN ƏDƏBİ-PUBLİSİSTİK
YARADICILIĞINDA QADIN AZADLIĞI MƏSƏLƏSİ

## NEOLIBERAL REFORMS ANDWOMEN'S WELLBEING IN THE WORKPLACE

**Louise Dalingwater**
Sorbonne University, Paris, France

Since the neo-liberal model has taken hold and become central in government policy in a number of countries, academics have studied the effects of neo-liberal policies on women. Elson (1992) contends that market liberalization may have contributed to women's empowerment. The argument follows that market liberalization and increasing trade provides a growing number of jobs in a wide range of areas and opportunities for women to become empowered by actively contributing to the wealth and richness of the nation. However, Hawkesworth (2006) posits that neo-liberal policies have actually destroyed parts of the state that previously supported feminist action. Social mobilization for empowerment has thus become fragmented and developed into less effective individual self-improvement movements. Women are said to have been uprooted from old institutions, which focused on equal outcomes for women, and now work in a flexible economy. Could it thus be contended that higher gender inequalities at work may be linked to neo-liberal policies? Taking a theoretical and evidence-based approach, I will thus assess this contention.

## GENDER YANAŞMASININ MÜASIR VƏZİYƏTİ

**Rəna İbrahimbəyova**
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan

Gender müasir dövrün ən aktual məsələlərindəndir. Bunun bir neçə səbəbi var: ilk növbədə XX əsrdə geniş vüsət almış demokratik prinsiplər əsasında cəmiyətin qurulmasının mümkünlüyü ideyasının real görünməsi və feminizmin geniş yayılması, həm iqtisadi, həm mədəni qlobalizasiya proseslərinin inkişaf etməsi, biologiya, tibb və texniki sahələrin intensiv şəkildə tərəqqisidir.

İki cins – kişilər və qadınlardan ibarət bəşəriyyət tarixinin təhlilində digər bir məfhumun işlədilməsinə nə kimi ehtiyac var?

Məlumdur ki, cins (seks) bioloji-fizioloji-anatomik xüsusiyyətləri, gender isə kişi və qadın münasibətlərinin sosial cizgilərini ehtiva edir. Qadın və ya kişi cinsi genetik elementlərin mövcudluğu ilə fərqlənir və fərqli reproduktiv orqanlar və hormonlarda (o cümlədən ikinci dərəcəli cinsi xüsusiyyətlər də) ifadə olunur.

Nəzəri baxımdan hər bir cinsin fizioloji xarakterik xüsusiyyətləri ilə də dünyaya gəlmək mümkündür. Cinsiyyət süni - hormon terapiyası və cərrahiyyə ilə - də dəyişə bilər.

Gender sonradan formalaşan xüsusiyyətləri ehtiva edir. Qızlar və oğlanlara onların cinsinə uyğun müəyyən ictimai-mədəni kontekstdə müxtəlif sosial xüsusiyyətlər, rollar, davranışlar və fəaliyyətlər öyrədilir. Cəmiyyət isə bunun əməl edilməsinə nəzarət edir. Beləliklə:

**Cins** anadan gəlmədir, genetik kombinasiyalar və hormonal nisbətlər (tibbi müdaxilə edilmədikdə) dəyişməzdir. Nəticəsi –kişi cinsi, qadın cinsi və interseks şəxsdir. İnterseks anlayışı fiziolojidir və seksual yönümə aid edilmir. İnterseks insanlar özlərini kişi və ya qadın kimi identikləşdirir.

**Gender** sosial həyatda formalaşan xüsusiyyətlərdən ibarətdir, dəyişkən və dinamikdir mədəniyyət daxilində və mədəniyyətlər arasında fərqlənir. Nəticəsi- kişi, qadın, transgender şəxsiyətlərdir.

Buna misal kişi şəxsiyyətini mənimsəmiş bir qadının əhvalatı ola bilər. Bu qadın təhsilsiz idivə ərinin ölümündən sonra özü və qızının yaşayışını təmin etmək üçün mədəniyətinin tələblərinə görə yenidən ailə qurmalı idi. Lakin bunun əvəzinə, o, kişi kimi geyinməyi və kişi işi hesab edilən - inşaatda çalışmağı seçdi. Daha sonra isə yaşlanmağı ilə əlaqədar yaşadığı ölkədə digər bir kişi işi sayılan ayaqqabı təmizləyicisi işi ilə məşğul oldu. Bu əhvalatdan bəlli olur ki, həqiqi cinsdən - qadın və ya kişi olmağından asılı olmayaraq, əks cins kimi geyinən və müvafiq hərəkət edən hər kəs cəmiyətin gözləmələrindən istifadə edərək, öz məqsədlərinə nail ola bilər.

Bu və buna bənzər digər faktlar gender stereotiplərin cəmiyyətdə cərayan etməsi ilə əlaqəlidir. Gender stereotiplərinin yaşadılmasının əsas mənbələri aşağıdakılardır:

- ❑ ailə mühiti
- ❑ məktəb dərslikləri
- ❑ KİV-lər
- ❑ Reklam

**Gender stereotipləri** insanın anadangəlmə məqamından başlayaraq məqsədyönlü təsirlər nəticəsində gender əsaslı sosial rolları müəyən edir.

- Gender rolları təhsilə və əmək bölgüsünə təsir göstərir
- Əməyin fərqli qiymətləndirilməsi gender stereotiplərini formalaşdırır
- Gender rolları mövcud münasibətlərə (qərarlara, gəlirlərə, xidmətlərdən istifadə imkanlarına) təsir edir
- Mövcud münasibətlər sistemi gender rolların fərqliyini dəstəkləyir.

**İctimai həyatda**

- Qadınların gender rolları yüksək dərəcədə differensiallaşdırılır
- Kişilərin gender rolları ümumiləşdirilir.

2013-cü ildə BMT-nin Statistika Komitəsi Gender İndukatorları Dəstini qəbul etmişdir.[1]. Bu indikatorlar vasitəsilə hər hansı ölkədə gender vəziyyətini qiymətləndirmək və ya ölkələrarası müqaisələr aparmaq mümkündür. Dəstdə 63 göstərici var - 52 kəmiyyət göstəricisi (say ilə aparılan hər hansı ölçülərdir, o cümlədən əhalinin sayı, məşğulluğu, gəlir və xərclərinin həcmi, yaş koqortaları və s.) və 11 keyfiyyət göstəricisi ( Say ilə ölçülməyən, o cümlədən etibarlıq, struktur xüsusiyyətləri, təhlükəsizlik və s.) var.

---

[1]https://www.un.org/development/desa/




**Gender bərabərliyinin əsas sahələri**

İqtisadi iştirak və qərar qəbuletmə də daxil olmaqla, cinsdən asılı olmayaraq resurslara və imkanlara bərabər şəkildə asan çıxış; və fərqli davranış, istək və ehtiyacları cinsdən asılı olmayaraq qiymətləndirmə halı. De Yurevə de Fakto.

- Məşğulluq
- Resursların paylanması
- Biliklərin əldə edilməsi
- Təhsil və tədris sistemləri
- Vaxt bölgüsü
- Gücün tətbiq etmək halları
- Sağlamlıq və səhiyyə
- Təhlükəsizlik və müdafiə
- İştirak
- Təmsilçilik

**Formal və həqiqi gender bərabərliyi**



**Gender maynstriminqi**. Bütün sahələrdə və səviyyələrdə qanunvericilik və proqramlar daxil olmaqla, hər hansı bir planlaşdırılmış siyasət fəaliyyətinin müxtəlif cinslərdən olan insanlar üçün fərqli nəticələrinin qiymətləndirilməsi prosesidir. Gender maynstriminqinə nail olmaq üçün gender stereotipləri aradan götürülməlidir. Gender stereotiplərin yaşadılmasının əsas mənbələri: Ailə mühiti, Məktəb dərslikləri, KİV-lər, Reklamdır.

Gender bərabərliyi beynəlxalq sənədlər və milli qanunvericiliklə təmin olunur.

Beynəlxalq sənədlərə ilk növbədə CEDAW (Qadınlara qarşı bütün növ ayrıseçkiliyyin ləğv edilməsi haqqında BMT-nin Konvensiyası), Pekin Fəaliyyət Platforması, BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri aiddir. Milli qanunvericiliyinə Azərbaycan Respublikasının "***Gender*** (kişi və qadınların) *bərabərliyinin* təminatları *haqqında"* Qanunu, "Məişət zorakılığının qarşısının alınması *haqqında"* Qanunu, Əmək Məcəlləsi, Ailə Məcəlləsi, Cinayət Məcəlləsi aiddir.

Azərbaycanda CEDAW Konvensiyasının tətbiqinin əsasını aşağıda göstərilən sənədlər təşkil edir:

- "Azərbaycan 2020: Cələcəyə baxış" İnkişaf Konsepsiyası
- İnsan alveri ilə mübarizə üzrə növbəti Milli Fəaliyyət Planı
- İnsan alveri qurbanlarının sosial reabilitasiyası və reinteqrasiyası üzrə Dövlət Proqramı
- Səhiyyə Nazirliyinin müasir kontrasepsiya metodlarının əldə edilməsini nəzərdə tutan 2014-2020-ci illər üzrə Strateji Planı
- Gender bərabərliyi üzrə Milli Fəaliyyət Planı.

**Açar sözlər:** cinslər, gender bərabərliyi, gender stereotipləri, gender rolları.

## Modern vision on the gender approach

Gender is one of the most pressing issues of our time. There are several reasons for this: first of all, it is a realistic vision of the possibility of building a society based on the democratic principles of the 20th century and the spread of feminism, the development of economic and cultural globalization, and the rapid advancement of biology, medicine and technology. In the paper these problems are analysed.

# KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN TƏLİM ÇƏTİNLİKLƏRİNİN CİNS XÜSUSİYYƏTLƏRİ

**Nərmin Abdullayeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
e-mail: nermin.abdullayeva.1991@inbox.ru

Kiçik məktəb yaşlı qız və oğlanların təlim fəaliyyəti zamanı qarşılaşdıqları çətinliklərin müqayisəli psixoloji təhlinin aparılması bizə imkan verir ki, onların çətinliklərinin bir qisminin cinsi xüsusiyyətlərdən qaynaqlandığını söyləyək. Bu məqsədlə onların təlim çətinliklərinə gender aspektindən baxış təşkil edib onlar arasındakı bir sıra cinsi fərqlərin olmasını nəzərinizə çatdırmaq istəyirik. Fiziki fərqlər aydın görünsə də, onlar arasındakı psixoloji fərqləri görmək bir qədər çətindir. Bu məqsədlə onların fərqli psixoloji xüsusiyyətləri (fərdi-psixoloji xüsusiyyətlər, koqnitiv, emosional-iradi sferalar) və sosiallaşma bacarıqları (ünsiyyət və qarşılıqlı münasibətlər) üzərində dayanacağıq.

“Gender fərqləri məktəbəqədər yaş dövründə olan uşaqlarda çox az aşkar edilir, lakin artıq 2-ci sinifdə onlar daha açıq şəkildə ifadə olunmağa başlayır”.

“4-7 yaş arasında qız və oğlanların riyazi qabiliyyətlərində ciddi fərqlər olmadığı halda, 8-10, 10-12 yaşlar arasında sürətlə artan bir fərq vardır” [ 7, s.49].

Mütəxəssislər hesab edir ki, oğlanlarda təlim çətinliklərini tez sezmək mümkündür. “Öyrənmə çətinliyi oğlanlarda qızlara nisbətən 3 qat artıq təsadüf olunur. Bu fərq həm bioloji amillərlə, həm də müəllimlərin oğlanlarda bu problemi daha asan və tez müəyyənləşdirməsi ilə əlaqədardır. Müəllimlər təsirli öyrənmə strategiyalarını tətbiq edə bilmədiklərindən çətinlik çəkən uşaqlar bu kateqoriyaya aid edilirlər” [10, s.110].

Sol və sağ yarımkürələrin aktiv fəaliyyətində də cinsi fərqlər üzə çıxır. Bu fərqlər onların tərbiyə edilməsində istifadə olunan üsullardan, oyun növlərindən, onlara fərqli yanaşma tərzindən irəli gəlir. Bu halların təsiri ilə qızlarda sağ, oğlanlarda isə sol yarımkürə daha aktiv olur. Bu səbəbdən digər yarımkürə ləng aktivləşdirilir.

“İbtidai siniflərdə oğlanlara nisbətən qızların uğurları daha yüksəkdir” [ 3, s.359].

Kiçik məktəb yaşlı qız və oğlanlar arasında bir sıra psixoloji və intellektual fərqlər mövcuddur və bu fərqlər onların təlim fəaliyyətinə əsaslı şəkildə təsir edir. Cinsi fərqlər kiçik məktəb yaşlı qız və oğlanların koqnitiv sahəsində də müşahidə edilir. 6-7 yaş ərəfəsində qızlar ümumi intellektual yetkinlik baxımından oğlan həmyaşıdlarını qabaqlayırlar. Oğlanlar qızlara nisbətən daha gec oxumaq (qiraət) vərdişləri qazanırlar. Qız uşaqları ilə övlad-valideyn münasibətləri daha asan qurulduğundan qızların nitqi oğlanlara nisbətən daha inkişaf etmiş və ifadəli olur. Ona görə də onlar verbal tapşırıqların öhdəsindən uğurla gəlirlər, əzbər qabiliyyətləri də oğlanlara nisbətən üstündür. Oğlanlar isə daha çox diqqət, məntiqi-riyazi təfəkkür, fəza təfəkkürü tələb edən tapşırıqların yerinə yetirilməsində uğur qazanırlar. N. Lansdillenin fikrincə, bunun əsas səbəbi oğlanların fəza təfəkkürünə və verbal qabiliyyətinə cavabdeh beyin hissələrinin müxtəlif yarımkürələrdə yerləşməsidir. Qızlarda isə bu funksiyalara cavabdeh olan beyin hissələri hər iki yarımkürədə bərabər nisbətdə yerləşmişdir. Məsələn, oğlanlar audial informasiyaları, həmçinin müəllimin şərhini, təlimatlarını dərk etmək üçün sağ beyin yarımkürəsindən, qızlar isə hər iki beyin yarımkürəsindən istifadə edirlər. Ona görə də qızlar bir işdən digər işin icrasına asan keçə bilirlər. Diqqətin davamlılığı baxımından da oğlanlarla müqayisədə daha üstündürlər. Oğlanlar da isə bu proses nisbətən çətindir. Belə ki, onlar eyni anda həm müəllimi dinləyə, həm də lazım olan tapşırığı yerinə yetirə bilmirlər. Qızların zehinləri meta-analiz qabiliyyəti əsasında detaylar üzərində davamlı olduğundan eyni anda bir çox işlə məşğul ola bilir.

Bir çox iradi keyfiyyətlər qız və oğlanlarda fərqli təzahür edir. Ailə tərbiyəsində olan fərqli yanaşma onların zəif və güclü xarakterə sahib olmasını müəyyənləşdirir. Qızların özünüqiymətləndirməsi, özünəinamı oğlanlara nisbətən daha zəifdir. Ailədə müstəqillik verilən tərəf oğlandır. Qızlar oğlanlara nisbətən məktəb qaydalarına tez uyğunlaşırlar, səliqəli, intizamlıdırlar. Təlim vərdişlərinə tez yiyələnirlər. Yazı xətləri daha səliqəli olur.

Müəllim-şagird münasibətlərinin qurulması baxımından oğlanlara nisbətən qızlarla ünsiyyət və qarşılıqlı münasibətlər yaratmaq daha asandır. Verbal sahənin inkişafı imkan verir ki, onlar öz fikirlərini sərbəst şəkildə ifadə etsinlər, dili daha yaxşı və tez mənimsəsinlər, müəllimlə və yoldaşları ilə rahat ünsiyyətə girsinlər. Onlar nəzakətli və qayğıkeş olmaqları və yüksək sosial bacarıqları, kommunikativ qabiliyyətləri ilə fərqlənirlər. Ünsiyyət çətinlikləri daha çox oğlanlarda təsadüf olunur. Oğlanların emosional reaksiyaları (Oğlan ağlamaz!) sıxışdırılmış olduğundan emosional münasibətlərini, düşüncəsini ifadə etmək onlar üçün çətindir. "Hələ kiçik məktəb yaşı dövründə oğlanların qızlara münasibətində kobudluq hallarına təsadüf olunur" [1]. Aktiv və bir qədər dalaşqan olmaqları qarşılıqlı münasibətlərinə mənfi təsir edir.

Qızlar utancaq, özlərinə yüksək nəzarətli, dostcanlı, istiqanlı, ünsiyyətcil, işgüzar, oğlanlar isə konstruktiv, dinamik keyfiyyətlərə sahibdirlər. Emosional proseslərin koqnitiv prosesləri tormozladığı bizə məlumdur. Oğlanların beyni hisslərə yox, düşüncəyə fokuslaşır. Emosional baxımdan oğlanlar soyuqqanlılığını qoruyub saxlaya bildiklərindən problem və çətinliklərlə qarşılaşanda məntiqi davrana bilirlər. Qızlar isə belə vəziyyətlərdə yüksək gərginlik, həyəcan, qorxu, təlaş yaşayırlar.

"Bir qrup psixoloqların fikrincə, Azərbaycandakı indiki tədris sistemi proqram baxımından oğlan, metodika baxımından isə qız psixologiyasının tələblərinə cavab verir. Bunu təsdiqləyən fakt kimi, hələ aşağı siniflərdən dərslərdə qızların oğlanlara nisbətən fəallığını misal göstərmək olar" [4].

Kiçikyaşlı məktəblilərin təlim çətinliklərinin formalaşmasına təsir edən cinsi fərqlərin nəzərə alınması onların aradan qaldırılması işində də əsaslı rol oynayacaqdır. Müəllimlər kiçik məktəb yaşlı oğlan və qızların psixi quruluşunun speksifliyindən irəli gələn fərdi fərqləri nəzərə almaqla tədrisin daha səmərəli təşkilinə nail ola bilərlər. Kiçik məktəb yaşlı oğlan və qızların fiziki, psixofizioloji, koqnitiv, intellektual, sosial, emosional, iradi inkişaf göstəricilərinin çox hallarda üst-üstə düşməməsi faktını əsas gətirərək, müəllimlərə bu cəhətləri öz pedaqoji fəaliyyətində nəzərə alınmasını tövsiyə edirik.

**Açar sözlər:** təlim fəaliyyəti, təlim çətinliyi, cinsi fərqlər.

## Ədəbiyyat

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı, Çinar-Çap Nəşriyyat Poliqrafiya müəssisəsi, 2009, 620 s.
2. Əfəndiyeva Ü.A. Əsrin gender konsepsiyası. Dərs vəsaiti. Bakı: 2017, 288 s.
3. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, Pedaqogika, 2004, 432 s.
4. Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı, Mütərcim, 2007, 448 s.
5. Atkinson ve Hilgard Psikolojiye giriş.
6. Banu Yazgan İnanç, Mehmet Bilgin, Meral Kılıç Atıcı Gelişim psikolojisi. Çocuk ve ergen gelişimi 9. Baskı Gegem Akademi, 2013 Eylül, 293 s.
7. Okulöncesi dönem çocuklarının cinsiyyet röllerine ilişkin algılarının incelenmesi Latife Bayramoğlu, Yüksek lisans tezi, 2015, 161 s.
8. Otto Vayninger Cins və xarakter. Xan nəşriyyatı, Bakı, 2017, 500 s.
9. Premium Rehber öğretmen ÖABT Hazırlık, 2016.
10. Melike Sayıl. Gelişim psikolojisi. 169 s.

## Gender features of training difficulties of primary school children

Although the physical differences between boys and girls in primary school can be clearly seen, the psychological differences between them are hard to see. For this purpose, we analyzed their different psychological features and their socialization skills. It was found that there were many psychological and intellectual differences between them and these differences had a great impact on the training activity. Gender differences were observed in the cognitive, intellectual, social, emotional and voluntary areas of primary school girls and boys. In our view, considering gender differences in the formation of training difficulties for primary school children will play an important role in eliminating them. Teachers can achieve more effective teaching by considering gender differences.

# GENDER POLICY IN THE REPUBLIC OF AZERBAIJAN: CHALLENGES AND RECOMMENDATIONS

**Kifayat Aghayeva**
Regional Studies Department, Azerbaijan University of Languages, Baku, Azerbaijan
e-mail: kifayat1955@mail.ru

The purpose of the research, "*Gender Policy in the Republic of Azerbaijan: Challenges and Recommendations*" is to review, analyze and identify the suitability of Azerbaijan gender policy for the changes taken place in the society. The Republic ofAzerbaijan made some significant strides in the directions of gender equality policy during the last three decades. Azerbaijan government has definitely made some adequate attempts to develop, improve and implement gender equality strategies and to ensure its international commitments. It has got significant successes in adopting legislative and policy reforms to foster gender equality and combat violence against women. Despite some progresses, number of ratified resolutions and decisions has not been fulfilled yet. The gender equality gaps in Azerbaijan highlighted in global and regional indexes reflect a situation where women's roles, opportunities, and rights are often constrained by conservative socio-cultural norms and gender stereotypes. Advancing women and gender equality is very important for inclusive growth as Azerbaijan continue to strive improving socio-economic development outcomes.

After collapsing of Soviet regime and getting its independence, the Republic of Azerbaijan made some serious steps toward achieving gender equality. The Azerbaijan Government hasmade several new legal codes, replacing them from the Soviet Era. The new codes included: a new criminal code, a code of criminal procedure, a family code, a civil code, a code of civil procedure, and a code on administrative violation. But Azerbaijan women are hindered by the gap between their legal situation and their real situation. Gaining gender equality and combating discrimination against women on the way to building a democratic state has been challenging for Azerbaijan. Azerbaijan government has definitely made some adequate attempts to develop, improve and implement gender equality strategies and to ensure its international commitments.

Like newly independent countries in the South Caucasus, our government also needs a greater commitment to ensure gender equality and work to avoid the discrimination of women. Azerbaijan is trying its best to develop into a European state while at the same time keeping its best values and traditions. Gender politics are essential dimensions of the democratic development.

The Constitution of the Republic of Azerbaijan recognizes the equality principle and forbids discrimination. According to Article 25 of the Constitution, State guarantees equality of rights and freedoms to every person irrespective of race, ethnic belonging, religion, language, sex, origin, property status, occupation, conviction, affiliation to political parties, trade unions and other public organizations. The article 24 of the Constitution deals basic principle of the rights and freedom of men and citizens. According to the article 25 of the Constitution, "Everyone is equal before the law

and the courts. Men and women have equal rights and freedoms. The State guarantees the equality of everyone's rights and freedoms irrespective of race, nationality, religion, language, sex, origin, property or official status, or membership of political parties, trade unions or other public organizations. Limitations of human and civil rights and freedoms on the grounds of racial, ethnic, religious or linguistic affiliation, sex, convictions and political or social affiliation are prohibited."

It is stated in the article 54 of the Constitution: "Citizens of the Republic of Azerbaijan have the rights to take part in political life of society and state without restrictions." It is noted in the Article 56 of the Constitution: "Citizens of the Azerbaijan Republic have the right to elect and to be elected to state bodies and to take part in referendums".

In the 1990s the Republic of Azerbaijan joined almost all essential international documents on the protection of women's rights. The Republic of Azerbaijan signed the UN Convention on the Political Rights of Women in August 1992 and in 1995 became a party to the UN Convention on the Elimination of All Forms of Discrimination Against Women and signed its Optional Protocol in 2000. The Government of Azerbaijan has made some achievements in the sphere of gender policy.

The State Committee on Women's Issues was established by Decree of the President of the Republic of Azerbaijan dated January 14, 1998 with a view to implement the state policy on gender. The main objectives and purposes of the Committee was the protection of the rights of women, increasing of women's participation in social and political life of the country.

The main purpose and duty of the Committee was the protection of women's rights and promotion of their participation in the social and political life of the country. Furthermore, in 1998, the President of Azerbaijan issued a special decree on "Measures to Reinforce Women's Role in Azerbaijan" and a National Plan of Action on Women's Policy (2000-2005), which were elaborated by the State Committee for Women's Issues and approved by the Cabinet of Ministries in March 2000. Decree of the President of the Republic of Azerbaijan of 6 March 2000 "On state women policy of the Republic of Azerbaijan" envisages ensuring equality between women and men in all state bodies, providing employment of IDP and refugee women in accordance with relevant state programmes, revision of legislation from the gender point of view. According to the Decree of the President of the Republic of Azerbaijan of 6 February, in 2006 the State Committee on Family, Women and Children Affairs was established on the basis of the State Committee on Women Issues.It is a central executive power body implementing and regulating the state policy on family, women and children's issues. The main objectives and purposes of the Committee are protection of the rights of women, increasing of women's participation in social and political life of the country.

Even if women have the same rights as men, they do not always have the same access to the opportunities offered to men and demands for their rights are not often successful. Many inequalities still prevent full respect and protection of women's human rights. They are structurally infringed when women are victims of various forms of violence, marginalized in political and public life, suffer discrimination in employment or difficulties in reconciling private and professional life, paid less for work of equal value and find themselves victims of poverty.

As above mentioned the Azerbaijan Constitution prohibits discrimination based on gender. Additionally,the 21-article Law of the Republic of Azerbaijan On State Guarantees of Equal Rights for Women and Men, adopted on 10 October 2006, aims to eliminate all forms of gender-based discrimination and ensure gender equality in the political, economic, social and cultural spheres. All human rights are guaranteed to women and men. Later, in2010the Law on the Prevention of Domestic Violence was adopted. But still domestic violence is the main gender problem in Azerbaijan.

The role of Media in fighting against gender stereotypes is undeniable.Mass media stands in a very importantplace in solution of family and gender problems. Regrettably, majority of Mass Media prefer either news or entertainmentprogramms.

The education also is an indispensable tool for identifying and combating all forms of stereotypes and sexism, but unfortunately the roles traditionally assigned to each sex influence and restrict the choices made by both sexes regarding education, professional activity and lifestyle.

Though legislation provides for the protection of women's rights but there is a large disparity between the proclaimed rights of women and freedom of women and the practices of each in reality. The most prevailing factors, which impede the realization of women's rights, are traditions that follow the rigid gender stereotypes.Even though there are essential achievements in some important fields of the society, but there is a lot to be done. Legislative and policy gaps, included gender inequality issuesstill exist in many fields: political participation, economic empowerment, violence against women, adequate gender relations in different spheres such as: politics, economy, health, education, peace and security, sports and culture, as well as the cross-thematic Gender Equality and Anti-Discrimination Laws. There are very serious measurements to be taken into account:

- to ensure equal and full participation and leadership of women and girls in decision-making at all levels based on the principle of parity in public and private institutions;
- to promote the availability of gender and age disaggregated data to improve the formulation, monitoring and evaluation of gender equality policies, laws and programs, including gender sensitive budgeting;
- to increase women's access to finance by promoting women's entrepreneurship;
- to end all forms of discrimination based on gender and against all women and girls of all ages, including by revoking all gender discriminatory legislation, policies and practices that contribute to gender inequalities, inhibit access to services and rights;
- to end harmful practices, including early and forced marriage;
- to reduce and redistribute the burden of unpaid domestic and care work.

One of the major reasons, why women are deprived of these political positions is the absence of financial resources. This factor prevents women from actively participating in politics, and that's why the advancement of women's political roles and social life is hindered. Moreover, the low representation of women in politics in the Azerbaijan government also caused by a lack of awareness of gender bias and deeply- rooted patriarchal ideas regarding women in the political sphere. Women's low representation at the decision-making level in the political field has serious

consequences for the advancement of women and the full enjoyment of their fundamental human rights as women. The full enjoyment of their fundamental human rights as women's needs will only be fulfilled if women are able to express themselves and ensure that their interests are taken into account when policies and laws are being developed.

Overcoming gap between *de jure* and *de facto* in the direction of gender equality is the main challenge for Azerbaijan. European developed countries enjoy rich experience in field of formation of the successful national policy on eliminating gender inequality. Women in these societies actively participate in all spheres of life - in business, political, financial, military spheres. There are serious problems in Azerbaijan in field of gender relations and women's status in family and society. It would be naivety to think of removing any inequality between men and women in society upon an international or local platforms or action plans only. Successes in changing the situation depend on a number of political, public, social, religious and moral factors. To promote enhanced gender equality outcomes, it is vital to ensure women of different groups where they can exercise their rights, have access to policies meeting their needs and have an active voice in decision-making at all levels. But in the end, everything depends on us – men and women living in this planet.

**Keywords**: the Constitution, gender equality, gender relations, woman status.

## ƏRƏB BAHARININ QADIN HAQQLARINA TƏSİRİ

**Fəridə Allahverdiyeva**
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
e-mail: faridaallahverdiyeva@gmail.com

Tarixdən məlum olduğu kimi, bir neçə əsr Osmanlı dövlətinin himayəsi altında olan ərəblər 19-cu əsrin sonlarından etibarən milliyyətçilik hissləri ilə Osmanlı dövlətinə qarşı baş qaldırdı və nəticədə müstəqil ərəb dövlətləri yarandı. 2010-cu ilin sonunda Tunisdə kütləvi ixtişaşlarla başalanan və sürətlə digər ərəb ölkələrinə yayılaraq hakimiyyət və rejim dəyişiliyinə səbəb olan "ərəb baharı" həmin dövrdə bir çox tədqiqatçılar tərəfindən demokratiyanın yeni dalğası kimi səciyyələndirildi. Nümayişlərin əsas səbəbləri polis, işsizlik, minimum əmək haqqının azaldılması, qida çatışmazlığı, fikir və söz azadlığının olmaması, korrupsiya halları, həyat səviyyəsinin aşağı olması idi. Üsyanlar ilk olaraq, 18 dekabr 2010-cu ildə Tunisdə başlayaraq daha sonra Misir, Yəmən, Əlcəzair, Suriya və digər ölkələrə yayıldı. Rejimə qarşı başlayan etirazlarda qadınlar da kişilər kimi nümayişə çıxırdılar.

Ərəb baharı, neoliberal iqtisadi siyasətin həyata keçirilməsi nəticəsində, qlobal iqtisadi böhran şəraitində meydana gəldi. Belə bir mühitdə azadlıq, demokratiya, bərabərlik kimi şüarlar, işsizlik və korrupsiyaya qarşı başlayan bu ictimai hərəkat tezliklə bir çox ərəb ölkələrinə təsir etdi. Ərəb Baharından təsirlənən bölgələrdə islam radikalizminin artması qadın haqqlarının və bölgədəki feminist hərəkatların taleyi ilə bağlı narahatlıq doğururdu. Tarixdən məlum olduğu kimi,bir çox inqilablarda, o cümlədən İran inqilabında və Şərqi Avropanın da əhatə etdiyi bir çox

demokratikləşmə hadisələrində, qadınlar mənfi təsirlərə məruz qalmış və hüquqlarını itirmişlər. Bundan əlavə, müsəlman ərəb qadınları, uzun illər, qərblilər tərəfindən passiv, itaətkar insanlar kimi tanidildilar. Ərəb baharı ilə birlikdə, represiv rejimlərə qarşı iğtişaşların baş verdiyi Orta Şərq və Şimali Afrika ölkələrində qadınlar da, ictimai hərəkatlarda fəal iştirak etmiş, demokratiya, ədalət və siyasi hüquqlar uğrunda kişilərlə birgə mübarizə aparmışlar.

Ərəb ölkələrində yayılan bu inqilab dalğası Misirə də gəlib çatdı. 2011-ci ildə xalq etirazları Misirdə uzun müddət xidmət edən və nüfuzlu lider sayılan Hüsnü Mübarəkin iqtidardan getməsi ilə nəticələndi. Mübarək rejiminə qarşı başlayan etirazlarda qadınlar da kişilər kimi nümayişə çıxırdılar. Əsma Məhfuzvə İsra Abdel Fəttah kimi gənc bloqqerlər bütün misirliləri əl elanları, sosial şəbəkələrdən videolar və bloqlarında paylaşdıqları xəbərlərlə etirazlara səsləyirdilər. Mübarəkin istefa verdiyi günlərdə,Təhrir meydanında iştirakçılarının 40-50 faizi qadınlardan ibarət nümayişçilər toplaşmışdı. İnqilabçı qadın qruplar arasında, Hüsnü Mübarəkin həyat yoldaşı Suzan Mübarəkdə iştirak edirdi. Suzan Mübarək qadın sünnətinin qadağa olunmasına qarşı və qadınların hakim ola bilməsi üçün gördüyü işlərlə tanınırdı. O, qadınların azadlıq uğrunda verdiyi mübarizəni dəstəkləyirdi. İnqilab zamanı divar rəsmlərində Misir tarixinin güclü qadınlarından ibarət qraffiti nümunələrini görmək olurdu. Əl-Ziftin Misir tarixinin güclü qadınlarından biri olan Nefertitinin rəsmindən istifadə etməsi, qadınların inqilabda iştirakına diqqət çəkmişdi. Bundan başqa, AlaaAvad 2012-ci ildə güclü qadınların rəsm səhnələrini çəkdi. “Nərdivana çıxan qadınlar” olaraq adlanan bu rəsm II Ramzesin qəbrinin olduğu məbəd divarlarında oyulmuş səhnədən idi. Bu təsvir II Ramzesin məbədində pilləkən vasitəsilə çıxan üç qadını təsvir edirdi. Həmin səhnəyə görə mərhum firon o biri dünyada onları gözləyir. Avad pilləkəni inkişafa aparan yol kimi təsvir etmis və ancaq, qadınların zirvəyə çatmağının vacibliyini vurğulamışdır. Mübarək rejimi devrildikdən sonra, cins, din və təbəqələr arasında yaranmış həmrəyliyin artıq aradan qaldırıldığı müşahidə olunurdu [6]. Thomson Reuters Fondunun hesabatında deyilirdi ki, Ərəb baharı və qiyamlardan sonra, Misir, qadınlara münasibət məsələsində ərəb dövlətləri arasında ən acınacaqlı vəziyyətdə olmuşdur. Etirazlardan sonra, Misir, Yəmən və Liviya kimi ölkələrdə təşkilati tənzimləmələr zamanı qadınlar danışıqlardan kənarlaşdırıldı.

Əhalisinin 90% -i müsəlmanlardan ibarət olan Tunisin rəsmi dini İslamdır və Ərəb ölkələri arasında, qadın hüquqları baxımından ən inkişaf etmiş ölkə olaraq tanınır. Tunisdə isə, fövqəladə bir vəziyyət yaşandı. Məğrib bölgəsinin ən məşhur feminist akademiki Liliya Labidi kabinetə daxil edildi [3]. Bu hadisə, qadınlar arasında mütərəqqi siyasətin qəbulu üçün zəmin yaratdı. Ərəb Baharı dövründə demokratik qazanc əldə edən Tunisdə, inqilabla bərabər, qadınlar, dünya standartlarına uyğun bir çox qazanc əldə etdilər. 2011-ci ildə hazırlanan seçki qanununda, partiyaların namizəd siyahılarında kişi və qadın sayının bərabərliyi şərti irəli sürüldü və bu şərt 2014-cü ildə qüvvəyə minən konstitusiya ilə qəbul edildi. İnqilabdan sonra, Ərəb dünyasının ən demokratik və pluralist dəyərlər əsasında tərtib edilən konstitusyası, 2014-cü il Tunis konstitusyası olmuşdur. Konstitusyada, qadınlara qarşı bütün ayrı-seçkiliyi aradan qaldırmaq, qadın və kişinin bərabərliyini, parlament və yerli seçkilərdə kişi və qadın namizədlərin bərabər sayını, qadınların təhsil hüququnun vurğulanması diqqətəlayiqdir. Ərəb Baharı etirazları, Suriyada 2011-ci ilin fevralında başladı və 15 Martda Dəməşqdəki etirazlarda 6 nəfər tutuldu. 13 may 2011-ci ildə qadınlar, “Azad Qadınların

Cümə Protesti" (Friday Protest of Free Women) adlı bir aksiya planlaşdırdılar [5]. Sosial media vasitəsilə təşkilatlanan qadınlar, etirazlar başlayandan bəri öldürülən, tutulan və ya itkin düşmüş qadınları xatırladılar. Etiraz aksiyasında iştirak edən bir çox qadın, öldürülməklə və ya evlərinin dağıdılması, özlərinin və ailə üzvlərinin zorlanması ilə təhdid edildi. Suriya isə, demokratik hərəkatların vətəndaş müharibəsi ilə nəticələndiyi, yeganə ərəb ölkəsidir. Suriyada etirazçılar əvvəlcə özlərini müdafiə etmək üçün silahlandılar, sonra isə, silahlı dəstələr arasında baş verən qarşıdurmalar vətəndaş müharibəsini başlatdı.Müharibənin mənfi təsirindən həm demokratiya göstəriciləri, həm də qadın haqqları göstəriciləri aşağı düşmüşdür. Suriyada davam edən vətəndaş müharibəsi nəticəsində, mülki əhali, xüsusən də qadınlar üzərində, zorakılıq və ayrı-seçkilik yüksək səviyyədə artmışdır.

Əhalinin yarisindan çoxunu qadınların təşkil etdiyi Liviyada, 1964-cü ildə, qadınlar, səsvermə hüququnu əldə etdilər. Müəmmər Qəddafi hakimiyyətə gəldikdən sonra, 1969-cu ildən bəri, qadın və kişilərə qanun qarşısında bərabər hüquqlar verildi. Qəddafi rəhbərliyi, qadınları ictimai, iqtisadi və siyasi həyatda fəal iştirak etməyə təşviq etmişdi. Ancaq, Liviyada da, qadınların, rəhbərlikdə mühüm vəzifələrə keçməsi uzun zaman almışdır. Çox sayda qadın, yalnız, 1987-ci ildən sonra, nazirlik səviyyəsində vəzifələrə gəlməyə başladı [1]. Müəmmər Qəddafi hakimiyyəti devrildikdən sonra, ölkə şəriət qanunları ilə idarə olunmağa başladı və parlament seçkilərində qadınlara 10%-lik seçim yeri verildi. Qəddafi dövründə, qadınların seçkilərdə iştirak yaşı 18 olmasına baxmayaraq, inqilabdan sonra 25 yaş həddi qoyuldu və Qəddafi dövründə rəsmi dövlət işində çalışmamaları şərt qoşuldu. Yeni seçki qanununun ilk layihəsində, qadınlara ayrılan 10%-lik seçki hüququ da, ləğv edildi və qadın təşkilatlarının etirazları diqqətə alınmadı.

Səudiyyə Ərəbistan, demokratik vəziyyətin pisləşməsinə baxmayaraq, qadın haqqlarında bəzi qazanclar əldə etməyə nail olmuşdur.Ərəb Baharı dövründə, səudi qadınları, digər ölkələrdəki qadınlar kimi etiraz nümayişlərində fəal yer almasalar da, sosial şəbəkə vasitəsi ilə, səsvermə hüquqları kampaniyasını davam etdirdilər.Bundan əlavə, 17 iyun 2011-ci ildə 60-dan çox qadın ölkənin müxtəlif şəhərlərində avtomobil ilə, nümayişə çıxdılar. Avtomobil idarə edən zamankı görüntülərini sosial şəbəkələrdəki hesablarında paylaşan qadınlar haqqında həbs qərarı verilsə də, sonradan, Səudiyyə hökuməti bu cəzaları ləğv etdi.Bu tətbiqlər, Səudiyyə rəhbərliyinin bu mövzuda münasibətinin yumşalmağa başladığını və qadınların, bu ölkədə bəzi əsas hüquqlara sahib ola biləcəyini göstərdi. Bundan başqa, Yəmən, Səudiyyə Ərəbistanı, Bəhreyn, Küveyt və Suriyada demokratiya və insanların azadlıq səviyyəsinin nəzərəçarpacaq dərəcədə azaldığı görülməkdədir. Əksəriyyətinin, Körfəz ölkələri olduğu, bu ölkələrdəki etirazların, demokratikləşmədən daha çox, cəmiyyət üzərində təzyiqlərin artırdığı qənaətinə gəlinə bilər. Demokratikləşmə hərəkatlarının uğurundan asılı olmayaraq, bəzi ölkələrdə qadın hüquqlarının yaxşılaşdığını görürük. İordaniya və Suriyadan fərqli olaraq, Yəmən, Mərakeş, Əlcəzair və Bəhreyndə gender göstəriciləri xeyli yaxşılaşmışdır. Bu təhlillərə görə, Tunis demokratikləşmə hərəkatını uğurla başa vuran yeganə ölkədir. Nəticələrə baxdığımız zaman, Ərəb Baharından təsirlənən ölkələrdə, vəziyyətin müxtəlif nəticələndiyini, demokratikləşmə hərəkatının uğurlu olmadığını və çox şey əldə etmədiyini deyə bilərik. Ərəb baharına baxanda görürük ki, meydanlarda kişilərlə birlikdə çıxış edən qadınlar

siyasətə gələn zaman arxa plana çəkilmişlər. Lakin, bu hadisələr, İslam dövlətlərinə xas bir hal deyil, patriarxal sistemin nəticəsidir.

**Açar sözlər:** Ərəb baharı, qadın haqqları, Yaxın Şərq.

**Ədəbiyyat**

1. Ahmed L., Women and Gender in Islam. Yale University Press. 1992.
2. Bora A., Ortadoğu'da Kadın Hareketleri: Farklı Yollar, Farklı Stratejiler". İ.Ü. Siyasal Bilgiler Fakültesi Dergisi, No:39, 2008.
3. Esfandiari H. Is the Arab Awakening Marginalizing Women?, Middle East Program Occasional Paper Series, Wilson Center, 2012.
4. Meriwether M. ve Tucker, J.A Social History of Women and Gender in the Modern Middle East. Colorado: Westview Press, 1999.
5. Murphy C., Arab Awakening Brings Hope, ChangetoSaudiWomen, Middle East Program OccasionalPaper Series, Wilson Center, 2012.
6. Salime Z., New Feminism? Gender Dynamics in Morocco'sFebruary 20th Movement, Journal of International Women'sStudies, 13(5), 2012.

**The impact of the Arab Spring on women rights**

Although Arab Spring that started in Tunisia in 2010 and later caused turmoil in many Arab countries, mainly in Egypt, Libya and Syria, started as a democracy movement, it caused civil wars, domestic unrest and armed conflicts in these countries. Although it is widely discussed in literature whether the context and objective of these movements, called as democracy seeking movements, are achieved, the role of women and how they are affected from these movements is not adequately examined. In this research, the role of women during the demonstrations leading to quick changes in socio-cultural and economic dynamics in the region, and how this movement has affected the women's rights will be discussed. The main purpose of this research is to reveal the positive and negative developments of women's rights during the Arab Spring.

## THE IMPORTANCE OF GENDER EQUALITY AND WOMEN'S EMPOWERMENT TO THE SUSTAINABLE GROWTH OF AZERBAIJAN

**Roya Anvari, Zarifa Salimova**
Azerbaijan University, Baku, Azerbaijan
e-mail: ry_anvari@yahoo.com

The main aim of this paper is identify the perception of sustainable development in accordance with gender equality and women empowerment in Azerbaijan. Thequalitative methodology based on secondary data is utilized by researcher in order to hit the mark. On a basis of the information examined, the research demonstrates that the responsibilities of ladies over

distinctive measurements of sustainable development are less considered in Azerbaijan. Findings show that ladies basicallyperformed assignments related to the physical care of the child, whereas dutiesconcerned spending time within children were more regularly shared similarly or done together. The political circle of the nation is saved only for men. Theposition of ladies in society is additionally as well as consigned to contributing negligibly to social advancement of the state.Moreover, women's rights are not legitimately being secured in arrange for ladies to take an interest in different the issues of their state, however are exposed to horrifying infringement. Additionally, ladies are exceedingly influenced by natural issues, however less accentuation is provided to women in securing the environment. The analyst concluded that if women are not empowered and gender equality is not attained in order to participate in national and social areas, the particular country will not able to get sustainable development with the acknowledgment of only men's support in environmental as well as social areas. It is the fact that approximately more than 50 percentage of population is consists of women in particular country and it is the one of the reason to be a dynamic part of the all improvement activities within the nation. Therefore, to achieve sustainable development this paper invites for the strong engagement of the government within making use of all the country's ability in order to empower women.

**Keywords:** Women's empowerment, gender equality, sustainable development, social development.

## ГЕНДЕРНАЯ ПРОБЛЕМА В ИСЛАМСКОЙ КУЛЬТУРЕ И ЭМАНСИПАЦИЯ ЖЕНЩИН

**Лала Бабаева**
Университет Азербайджан, Баку, Азербайджан
e-mail: Lala43.62.62@mail.ru

Положение женщины в исламе - традиционный пункт критики социального устройства мусульманского общества. Шариат (исламское право) предусматривает значительные различия ролей мужчины и женщины в области прав и обязанностей. Разные подходы к гендерной тематике формируют вера разных народов. Различия выражаются в вопросах брака, развода, юридического статуса и образования. В шариате предусмотрены права, которые помогли повысить статус женщины в обществе. Но тем не менее, положение женщин в исламе в целом соответствовало не идеалам Корана.

Часто в качестве причин ущемленного положения женщин в исламских странах ошибочно указывают ислам. Якобы идея превосходства мужчины над женщиной исходит из Корана, хотя авторы этих слов явно ошибочно трактуют этой священной книги. Кроме того, в Коране немало аятов, указывающих на то, что женщины получат не меньше, чем мужчины, а возможно, и больше воздаяние: «Не дам Я [говорит Господь миров] пропасть ни одному деянию людей, будь [совершавший его] мужчина или женщина» (см. Св. Коран, 3:195);«А

тот, кто делает добро, мужчина это или женщина, и верует при этом [в Бога], тот в Рай войдет…» (см. Св. Коран, 4:124); Нормы Шариата подробнейшим образом прописывают все тонкости отношений между мужчиной и женщиной.

Конечно, концепция пола, принципиальное различие между мужчиной и женщиной не является чем-то новым в научной и философской литературе. В этом отношении теория психоанализа Фрейда оказала глубокое влияние на исследователей и ученых, которые последовали за ним. Фрейд подчеркивает биологическое различие между мужчинами и женщинами и говорит, что «анатомия - это судьба». Прежде всего, следует отметить, что основными пациентами Фрейда были женщины, которые страдали от психического стресса, и кажется, что работы Фрейда показывают, что им противоречит не только «анатомия» женщин, но и женская психика.

Все знают природу биологических различий между мужчиной и женщиной. Однако многие не знают, что главный фактор, который отличает мужчину и женщину, отнюдь не является внешним, поскольку сходство между мужчиной и женщиной- это больше, чем различия. В большинстве случаев именно гендерные различия лежат в основе этих различий. Гендерные различия возникают в процессе взаимодействия людей и отношений.

Женское движение в стране, изучалось с глубоким пониманием основ и традиций женской деятельности в Азербайджане, ее истоков и интересов. Палитра истории достаточно богата: гордая царица Массагетов Томирис,Нушаба, Хейран Ниса Бегим, супруга Фатали хана Тути Бике, Сара хатун, Деспина хатун и Мехин бану Султаным ханум проявили себя в области дипломатии. В культурном плане сияет имена известных поэтесс как Махсати Гянджеви, Хуршудбану Натаван, Шахнигяр ханум, Ашуг Пери и др. Эти женщины-правители, воины, дипломаты, поэты и художники, проникшие в «мужскую» историю, были уникальными личностями. Еще сколько талантливых и умных женщин было забыто?"

XIX век в жизни Азербайджана характеризуется творческой активностью женщин. Политические, экономические и культурные процессы, происходящие в Азербайджане с этого столетия, дали импульс просвещению женщин и более активному участию их в общественной жизни. Знаменитыми творческими деятелями того периода являются Хуршидбану Натаван, Агабейим ага Агабаджи, Гончабейим, Фатмаханум Камины, Шахнигяр ханум и другие. В этот период, наряду с просветительством, важное место в обществе занимала и благотворительность. Говхар Гаджар, супруга Джалила Мамедкулузаде, Гамида Джаваншир, Нигяр Шихлинская, Мясьма Талышинская, Салтанат Ахмедова и другие создали женские благотворительные общества, которые проводили большую работу. Мечеть Тазапир, построенный Набат Ашурбейли-Рзаевой, является результатом одного из таких благотворительных мероприятий.

Сегодня одним из важных приоритетов в государственной политики Азербайджана, являются вопросы расширение прав женщин, защиты материнства и детей; созданы все условия для активного участия женщин в избирательных органах и в системе государственного управления, также политическим, экономическом, культурном и социальном развития страны. Отрадно, что многие из наших женщин сегодня занимают

руководящие должности и это еще раз доказывает обеспечении гендерного равенства во всех сферах республики. Назначение Президентом Азербайджанской Республики Ильхамом Алиевым Первым вице-президентом страны Мехрибан Алиевойявляетсяярким примером для Азербайджанских женщин. Это признание того, что сегодня у нас в стране женщины наравне с мужчинами.

**Ключевые слова**: гендер, гендерная политика, гендерная асимметрия, феминизм, шариат, шахидат, аят, женщины-правители.

**Литература**

1. Абдуллаева М.А. Правовое положение в исламе, Актуальные проблемы российского права, №3, 2008, с.569-575.
2. Коран. Перевод И.Ю. Крачковского под.ред. В.И.Беляева. М., 1990.
3. Мовсумова Л.Д. Анализ статуса женщины в контексте религиозного мировоззрения, Баку: Улу, 2007.
4. Мовсумова Л.Д. Проблема женщины в духовной культуры Азербайджана. Баку, Элм, 1990.

**The gender issue in Islamic culture and the emancipation of women**

The article considers the complex and controversial process of modernization of gender policy in the Islamic cultural space, which does not only contribute to the interpenetration of national traditions and values of Western culture, but also cause the actualization of markers of national and religious identity, as a result of which women's emancipation has acquired latent forms of manifestation.

## THE GENDER DIFFERENCE IN PAY NEGOTIATIONS IN AUSTRALIA

**Alison Beavis**

Faculty of Transdisciplinary Innovation, Technological University, Sydney, Australia

Based on an analysis of recent research in Australia this paper considers the evidence that gender differences exist in the propensity to negotiate and outcomes from negotiation. The study considers the propensity to negotiate over pay with the employer, the wage outcomes resulting from negotiation, and the impact on the gender wage gap. The result show that females are less likely to have the opportunity to negotiate over pay. However, conditional on the opportunity to negotiate, they are no less likely to actually negotiate. The analysis does not provide strong evidence that, in Australia women fare worse than men if negotiation occurs. The analysis is relevant given changes in the industrial relations landscape in Australia that have altered the role of collective bargaining vis-à-vis individual bargaining in the employment relationship.

# GƏNC AİLƏDƏ ƏR-ARVAD CİNSİ-ROL STEREOTİPLƏRİNİN FORMALAŞMASININ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

**Nuralı Çələbiyev**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı, Şəki, Azərbaycan
e-mail: n_chelebiyev@mail.ru

Ər-arvadlıq funksiyası cəmiyyətdə insana münasibət baxımından ailənin funksiyalarına aid edilən, həm də cinsi rol stereotiplərinin formalaşması və möhkəmlənməsini təmin edən başlıca amildir və o, valideynlik, məişətin təşkili funksiyaları ilə sıx şəkildə bağlıdır.

Amerikan sosioloqu K.Kripatrik cins- rol stereotipləri konteksində qadının -ananın ənənəvi funksiyalarına uşaq doğmaq və tərbiyə etməyi, ev, mənzil yaratmaqda ərini dəstəkləməyi; ailəyə xidmət göstərməyi; öz şəxsi maraqlarını sədaqətlə ərinin maraqlarına tabe etməyi, asılı olduğu sosial və iqtisadi statusa uyğunlaşmağı, məhdud fəaliyyət sahəsində daim səbrli olmağı, kişinin - atanın funksiyalarına isə, öz uşaqlarının anasına qarşı sədaqətli olmağı; ailənin iqtisadi təhlükəsizliyini və müdafiəsini, hakimiyyət və nəzarəti təmin etməyi; mühüm qərarların qəbulunda son söz sahibi olmağı; ərinə sədaqətli olduğuna görə qadınına daim hörmət bəsləməyi; emosional minnətdarlıq göstərməyi, boşanma halı baş verdikdə, aliment ödəməyi aid edirdi [7, s.311].

Ər-arvadlıq həyatından məmnunluq qadın və kişilərdə fərqli arqumentlər əsasında formalaşır. Qadınlarda buna perinetal dövrdə, yəni hamiləliyin başlanmasından uşağın altı aylığına qədər, kişilərdə isə uşağın doğulmasından sonrakı altı aylığından yaşyarıma qədərki dövrdə təsadüf olunur. Bu fərqlər az və ya çox dərəcədə qarşılıqlı yadlaşma hisslərinin baş qaldırmasına və öz növbəsində tərəflər arasında ciddi şəxsiyyətlərarası konfliktlərin baş verməsinə, hər iki tərəfdaşın nikahı qiymətləndirməsi perspektivinə təsir göstərə bilir. Hər iki cütlüyün ailə həyatında ilk uşağın doğulmasından başlamış onun yaş yarımaqədərki inkişaf dövrü qarşılıqlı münasibətlərin xaraktercə mürəkkəbləşməsi ilə müşayət olunur. Cütlüklərin valideynlik haqqında təsəvvürlərinin fərqli olması, birgə həyat şəraitinin qaneedici olmaması, maddi və mənzil təminatı və s. kimi amillər gənc ailələrdə qarşılıqlı münasibətlərin xarakterinə təsir göstərən ciddi amillər kimi qiymətləndirilə bilər.

"Gənc ailə" dedikdə, nikah yaşı beş ildən az olan ailə nəzərdə tutulur. Bu orta hesabla cütlüklərin 23-30 yaş hədlərini əhatə edir. Ailə quran gənc cütlüklər nikahın ilk beş ilində biri-birilərinə uyğunlaşır, mənzil üçün əlavə avadanlıqlar alır, adətən şəxsi mənzil olmadığından valideynləri ilə birlikdə və ya kirayədə yaşayırlar. Gənc cütlüklər mənzilə sahib olduqdan sonra özlərinin şəxsi ev təsərrüfatını yaradır, uşaq gözləyir, ailə planlaşdırılması əsasında arzu edilən uşaqların sayını müəyyənləşdirirlər. Ailədə körpə uşaqların olması gənc ailənin qayğılarını artırır, onlara qulluqla bağlı meydana çıxan yeni problemlərin həllinə daha çox vaxt sərf etməli olurlar. Ər-arvad cütlüyündən ibarət gənc ailənin həyatında uşaqların olub-olmamasından asılı olmayaraq ilk 5 il ən məsuliyyətli dövrdür. Gənc ailə həm də uşaq gözləyən və ya körpə uşaqları olan ailədir. Analıq psixologiyası sahəsində aparıcı mütəxəssislərdən biri Q.Q.Filippova analığa psixoloji hazırlığın aşağıdakı beş komponentini irəli sürmüşdür: şəxsi hazırlıq; motivasiya; valideynlik

modeli; analıq səriştəliliyi və analığa motivasiya sahəsi. Onun fikrincə, analığa psixoloji hazırlığın əsas strukturunu qadının ana davranışı üslubunda öz uşağına subyektiv münasibəti təşkil edir [1, s.100-101]. Müasir Azərbaycanda həyati reallıq sübut edir ki, ailə quran və gənc ailə adlanan cütlüklərin heç də hamısı həm iqtisadi, həm sosial, həm də psixoloji planda ailə həyatına tam hazırlıqlı olmurlar. "Qadın orqanizmi 18-21 yaşlarda uşaq doğmaq üçün kifayət qədər formalaşmış olur, lakin onlarda sağlam həyat tərzi, hamiləlik və uşağın sağlam böyüməsi məsələlərinə aid biliklərin səviyyəsi kifayət qədər yüksək deyil" [1, s.101].

Gənc ailənin həyatının ilk günlərində, birgəyaşayış şəraitində nigahaqədərki mərhələdə özünü göstərən romantik məhəbbət tədricən real məhəbbətə keçir. Qarşılıqlı anlaşma və güzəşt, qarşılıqlı hörmət və məsuliyyət real məhəbbətin təməl prinsipinə çevrilir. Normal intim münasibətlər gənclərin ailə həyatına cəlbedici rənglər qatır. Bununla belə, müşahidə faktlarına əsaslanmaqla qeyd edə bilərik ki, evdar gənc anaların əksəriyyəti bütün gün ərzində evə məhkum kimi bağlanmalarından əziyyət çəkir, diskomfort yaşayırlar.

Sevdiyi adamla birgə yaşayan hər bir kəsdə özünə inam, etibar və sədaqətlilik, daha sevimli olmaq, özünü başqasına həsr etmək tələbatı güclənir. Ailənin təşkili cütlüklərin birgəyaşayışına yol açır, burada məişət qayğıları, ailə öhdəlikləri, xarakterlərin uyuşması, iki "mən"in bir "biz"ə çevrilməsi prosesi başlanır. Gənc ailələrdə "qadın məhəbbətinin erotikləşməsi önəmli paradokslarla seçilir. Ər-arvad münasibətlərində bu fenomen emosiyaların dili ilə yaşayır, ancaq və ancaq romantik emotiv parametrlərlə reallaşır" [4, s.43] .

Gənc ailənin həyatında adaptasiya və inteqrasiya adlanan mərhələlər xüsusilə önəmlidir. Adaptasiya mərhələsində yeni ailə quran gənclər ailə naminə öz mövqelərini, təsəvvür və rəylərini, zövq və tələbatlarını könüllü şəkildə birləşdirməlidir. Buraya qarşılıqlı münasibətlərin üslubu, maddi və məişət problemləri, ailə büdcəsi, mənəvi həyatın, asudə vaxtın və istirahətin birgə təşkili, intim həyat, ilk uşağın doğuşunun gözlənilməsi, valideynlərlə qarşılıqlı münasibətlər, biri-birinin peşə və ictimai fəaliyyətinə, habelə mənəvi dəyərlərə münasibətin formalaşması daxildir. Ailənin inteqrasiyasında uğurlar ailə quran gənclərin ağıllı və düşünülmüş sosial-psixoloji adaptasiyası olmadan qeyri-mümkündür. Adaptasiya dedikdə, ər-arvadın biri-birinə, habelə ailənin ümumi iqliminə uyğunlaşması, ərlə- arvadı birləşdirən ümumi dəyərlərin birgə axtarışı nəzərdə tutulur. İnteqrasiya və adaptasiya qarşılıqlı asılı olan və qarşılıqlı şərtlənmiş, bir-birini tamamlayan sosial-psixoloji və mənəvi proseslərdir. Bu proseslər o halda uğurla nəticələnir ki, gənclərdən hər biri bu proseslərə öz töhfəsini versin, biri-birinə əl uzatsın, biri-birinin hisslərini anlayışla qarşılasın, biri-birinə dəstək verib həmdəm olsunlar. Eqoistik maraqlar, təzyiq və zorakılıq təzahürləri, kobudluq, bacarıqsızlıq, pintilik, tənbəllik, moda aludəçiliyi, ailənin real imkanları ilə hesablaşmamaq, şübhəmeyllilik, sosioneqativ vərdişlər, xəyanət və s. ailənin sütunlarında çatlar yaradır. Uzunmüddətli ayrılıq, tez-tez küsüşmə, inciklik ər-arvad cütlüyünün psixikasına zərbə vurur, mənəvi sağlamlığı zədələyir. Ailədə şəxsiyyətlərarası adaptasiya probleminin xüsusi önəm daşıdığını qeyd edən fəlsəfə elmləri doktoru professor Z.Hacıyev yazır: "Ailədə şəxsiyyətlərarası uyuşma çox çətin və incə məsələdir. Şəxsiyyətlərarası uyuşma ünsiyyətdə, birgə fəaliyyətdə və yaxud ailədə qarşılıqlı qəbuletmə deməkdir. O, dəyərlər oriyentasiyasının optimal

əlaqələndirilməsinə, sosial və əxlaqi mövqelərə, zövq ümumiliyinə temperament və xarakter göstəricilərinə, emosional və intellektual tərəflərə əsaslanır” [2, s.445].

Gənc ailədə sözün əsil mənasında cütlüklərin biri-birinə adaptasiyası bir sıra şərtlərdən asılıdır. Buraya düşüncəli səbr və dözüm, başqasının haqlarını tanımaqla səmimi hörmət, öz ləyaqətini qorumaqla yanaşı başqası üçün fədakarlıq və s. kimi müsbət davranış nümunələri daxildir. Bunlar isə birtərəfli yox, qarşılıqlı olmalıdır. Ailənin möhkəmliyində sevgi əsas şərtdir, lakin bu həm də aysberqin görünən romantik tərəfidir. Əsil sevgi isə həm də ailə həyatı dövründə onu qoruyub saxlamaqdır. Hamiləlik gənc qadının həyatında xüsusi mərhələdir. “Hamilə qadının şəxsiyyətində mühüm dəyişikliklər baş verir ki, bunlar da onda bəzən anlaşılmayan, tamamilə yeni ambivalent hisslər yaradır, özü və digərləri haqqında yeni təsəvvürlərin yaranması ailədə və bəzi hallarda isə çətin həll olunan konfliktlərin həllində yeni müsbət impulsun yaranmasına səbəb olur”. [5, s.9].

Bir çox hallarda ailənin həyat ahəngini və rahatlığını pozan səbəb böyüklərin gənc ailədən özləri kimi yaşamalarını, düşünmələrini və hərəkət etmələrini israrla tələb etmələridir. Bu tələb və tələbkarlıq yerinə yetirilməyəndə ailənin böhranı, “qiyamətli günləri” başlayır. Bu təzyiqlər gah oğlanın, gah da qızın valideynləri tərəfindən edilir və incikliklər qohumluq əlaqələrinin tellərini qırır, ailənin isti mühitini soyudur. Gənc ailənin həyatına yersiz müdaxilələr istər cəhalətdən, istərsə də səmimiyyətdən irəli gəlsin, hər iki halda yanlışlıqdır.

Cəmiyyətdə əxlaqi fəzilətə dəyər verən insanlar həmişə öz doğmaları ilə isti və ahəngdar münasibətlərdə olmağa önəm vermiş, bu məsələyə həssaslıqla yanaşmışlar. Əxlaqi fəzilət ədalət, doğruluq, səmimiyyət, mehribanlıq, həya, uyğunluq, gülərüzlülük, sədaqət və hörmətdən ibarətir. Nəsillərdən-nəsillərə keçərək günümüzədək gəlib çatmış bu mənəvi dəyərlər ailə ocağında mehribanlıq və səmimiyyətin əsasıdır. İslami dəyərlərin ailə həyatındakı rolu “Qurani-Kərim”də mükəmməl ifadə olunmuşdur. “Əl-Əhzab” surəsinin 33-cü ayəsində qadınlara xitabən buyurulur: “ Evlərinizdə qərar tutun. İlkin cahilliyyə dövründəki kimi açıq-saçıq olmayın. Bər-bəzəyinizi taxaraq evdən çıxıb özününzü, gözəlliyinizi yad kişilərə göstərməyin!”.

Müasir gənc ailələrin əksəriyyətində tərəflərin ər-arvadlılıqla bağlı “reallaşmayan rol gözləmələri”nin də mənfi təsiri böyükdür. Aşağı özünüqiymətləndirmə, qadının nikahdan yetərincə razı olmaması və bu fonda baş verən hamiləlik, adətən, onlarda fərdi və şəxsiyyətlərarası diskomforta, bir çox hallarda isə boşanmalara səbəb olur. Qadınlarda, adətən, depressiya onların həyatının ev işləri ilə məhdudlaşdırılması, ailədə iş bölgüsündə qadının hədsiz yüklənməsi nəticəsində inkişaf etməyə başlayır. Ər-arvadlılıq münasibətlərində diskomfort riski tərəflərdən birində uşağın doğulması istəyinin olmaması ilə əlaqədar daha da güclənmiş olur. Valideynliyə keçidin baş verməsi gənc ailədə kişi və qadının fərdi baxışlarında, ailə dəyərlərinə münasibətindəki fərqlərin daha da kəskinləşməsinə səbəb olur. İlk dəfə ata-ana olan valideynlərin müsbət davranış üslubu onlarda müsbət emosiyaların, əməkdaşlıq münasibətlərinin, yaradıcı fəaliyyətə marağın güclənməsinə, mənfi davranışı isə ruh düşkünlüyünə, tənbəlliyə, nəticədə isə konfliktli həyat tərzinin formalaşmasına gətirib çıxarır.

Ailə daxili münasibətlər problemini araşdıran xarici ölkə psixoloqlarından bir qrupu (D.M. Çeçot, L.V. Çayka, N.Y. Solovyev, M. Ceyms, L. Tamir, S. Antonussi, R. Şater, R. Ket və b.) belə

qənaətə gəlmişlər ki, ailə həyatının ilkin dövrlərində problemlərin və konfliktlərin yaranmasında emosional partlayış hallarının baş verməsində müxtəlif amillər (ər-arvad xəyanəti, seksual disharmoniya, "xarakterin uyğunsuzluğuna görə" boşanmalar, "başqa adama qarşı sevgi" və s. başlıca amillərdir.

İlk uşağın doğulması ilə gənc ailənin həyatında qayğılar artır və münasibətlərin xarakterində dəyişmələr nəzərə çarpmağa başlayır. Hələ uşaqla rəftar təcrübəsi olmayan gənc ər-arvad-valideynlər hər cür boş bir şeydən qorxur, əhəmiyyətsiz, xırda şeylərdən həyəcanlanır, çox keçmədən küyə düşürlər. Ailədə uşaq gözləmək məhəbbət üçün, onun doğulması isə ailə tellərinin əbədiliyi üçün əsil sınaqdır. Atanın hələ doğulmamış uşaqla psixoloji əlaqələrini araşdıran rus psixoloqu B.X. Manerov müəyyən etmişdir ki, hamiləliyin ilk dövrlərində kişilərin yalnız 27%-i bu əlaqəni hiss edir, hamiləliyin sonunda bu göstərici 82%-ə çatır [6, s.57].

Körpəyə qulluqla bağlı bütün işləri qadının üstünə atan ər əslində qadını evin digər qayğılarından ayırmış olur. Bütün gənc analar uşaqla rəftarda təcrübəsizlikdən irəli gələn çətinliklərdən ehtiyatlanırlar. Uşağa qulluq və onun tərbiyəsi ilə bağlı çətinlikləri ananın təkbaşına aradan qaldırmağa məcbur edilməsi gənc qadında gərəksizlik hisslərinə səbəb olur.

Ailə üzvlərinin xarakter fərqləri ailə münasibətlərinin pozulmasına təsir göstərən mühüm amillərdəndir. Əgər ailə üzvləri arasında mənəvi-psixoloji yaxınlıq yoxdursa, həm də hər kəs eqoistcəsinə öz "mən"inin üstünlüyünü sübuta yetirməyə, özünütəsdiqə can atırsa, vəziyyət xüsusilə kəskin xarakter alır.

Məlumdur ki, əxlaqi və emosional mədəniyyət insanın əxlaqi tərbiyəlilik səviyyəsini əks etdirir. Yeni ailə quran gənclərin gələcək həyatı bu səviyyədən əhəmiyyətli dərəcədə asılıdır. Müasir Azərbaycan ailələrinin əksəriyyətində "gəlin-baldız" və "gəlin-qaynana" tandemi tarixi psixodrama kimi öz təsirini qoruyub saxlamaqdadır.

Məşhur rus yazıçısı L.N.Tolstoyun qeyd etdiyi kimi, sevgi "insan həyatının daxili qanunu və arzu edilən xoşbəxtliyə çatmağın yeganə vasitəsidir". Sevgi üzərində qurulmuş münasibətlər insanlar arasında bağları, telləri daha da möhkəmləndirir. Allah insanların qəlbinə sevgi, mehr, ülfət hissləri qoymuşdur. Qarşılıqlı münasibətlərin qurulması və inkişaf etdirilməsinin əsasında ülfət və gözəl ünsiyyət durur. Ülfət gözəl əxlaqın, ayrılma və parçalanma isə pis davranışın nəticəsidir. Ailə cəmiyyətin təməli, dini, sosial-psixoloji və mənəvi davranışları ehtiva edən təsisatdır. Kiçik cəmiyyət adlandırdığımız ailənin də böyük cəmiyyətlər kimi vahid bir idarəçiyə ehtiyacı var. Ailə ilk ədəb-ərkan ocağı, ilk sevgi qaynağı, ilk təmasların yuvasıdır.

Ukrayna psixoloqu A.K.Dimitrenko "Ər-arvadlıq həyatının ilk illərində nikahın stabilliyinin sosial-psixoloji faktları" adlı dissertasiya işində nikahın stabilliyinin blok –faktorlarının konseptual sxemini tərtib etmiş və ailənin mövcudluğunun mahiyyətini aşağıdakı sxemlə izah etməyə təşəbbüs göstərmişdir. Onun qənaətinə görə, ər-arvadın nikahın ilk illərində funksional rol qarşılıqlı təsiri cəmiyyətin, ailənin və ailə üzvlərinin təsiri ilə şəxsiyyətin daxili mövqeyi əsasında formalaşır [3, s.14].

Müasir Azərbaycan reallığında hər 5 gənc ailədən 4-ü tam sərbəst yaşaya bilmir, valideynlərin bu və ya digər formada köməyinə ehtiyac hiss edirlər. Bütün günü körpə uşağa qulluq

etmək gənc anada əsəbi yorğunluğa səbəb olur. Ona görə də, gənc ana üçün ən çətin fəaliyyət uşağın böyüdülməsinin və tərbiyəsinin ilk illərində tənha vəköməksiz qalmaqdır. Mənzil- məişət, maddi təminat, işlə bağlı problemlər, həmçinin ailədə körpə uşağa qulluqla bağlı çətinliklər gənc ailəyə dəstək göstərilməsini tələb edir. Müasir gənc ailənin qarşılaşdığı ən başlıca problem mənzil-məişət problemidir. Gənc ailənin möhkəmlənməsində, ər-arvad cütlüyü arasında adaptasiya dövrünün uğurla keçməsində ad günlərinin qeyd edilməsinin, bayramlarda hədiyyələrin bəxş edilməsinin, sürpriz və komplimentlərin, birgə gəzinti və istirahətin önəmli təsiri vardır.

**Açar sözlər:** gənc ailə, inteqrasiya, adaptasiya, cinsi–rol stereotipləri, ər-arvadlıq funksiyaları.

## Ədəbiyyat

1. Жупиева Е.Н. Особенности психологической готовности к материнству студенток, Сибирский психологический журнал. Томский Государственный Университет, 2015, №56, стр.100-108.
2. Hacıyev Z. Fəlsəfə. Ali məktəblər üçün dərslik. B:, “Adiloğlu” nəşriyyatı, 2001.
3. Димитренко А.К. Социально –психологические факторы стабильности брака в первые годы супружеской жизни, Афтореферат диссертации на соискание катдидата психогогических наук. Киев, 1989.
4. Əlizadə Ə.Ə. Qadın psixologiyası (Fəlsəfi psixoloji esselər) B: Təhsil, 2015.
5. Quliyeva İ.S. Hamiləlik dövründə qadının psixoloji vəziyyəti və onun analığa hazırlığı. Psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. B:, 2013, 23 səh.
6. Дорошина П.Г. Психологические особенности отношения супругов, ожидающих проявления ребёнка, Сибирский психологический журнал. Томский Государственный Университет. 2010, № 35, стр.57-60.
7. Çələbiyev N.Z. Ailə psixologiyası. B: “Mütərcim”, 2015.

## Psychological features of the formation of sex -role stereotypes in the young family

The article states that the family is a social group based on the relationship of matrimony and kinship. The formation of this relation is expressed in the process of marriage and family arrangements. According to psychological and demographic dimensions, families under 10 years of marriage are called "young families." Getting married and embracing stereotypes of sexuality, such as husband and wife, is a complex and long-lasting process. The article discusses the psychological features of the man's ability to acquire social functions as a husband and father, and woman’s ability to acquire social function as a wife and mother in a young family, and the difficulties that arise in this process.

# GENDER CİNSLƏR ARASINDA SOSİAL MÜNASİBƏTLƏRİN MODELİ KİMİ

**Aydan Dadaşova**
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
e-mail: aydan.dadasova93@mail.ru

Gender psixologiyası insanların cinsi mənsubiyyətindən asılı olaraq, sosial davranışını müəyyənləşdirən identikliyinin xarakteristikasını öyrənən psixologiya sahəsidir [1]. Bu sahədə aparılan tədqiqatlarda cinslərin şəxsiyyət keyfiyyətlərinin müqayisəli təhlilinə diqqət yönəldilir. Gender münasibətlərinin psixologiyası sosial psixologiyanın cinslərarası qarşılıqlı təsir dairəsində münasibətlərin fərqlərini və qanunauyğunluqlarını iyerarxik şəkildə öyrənən tətbiqi psixologiyanın bir sahəsidir. Gender münasibətləri psixologiyası yeni tədqiqat sahəsi sayılır çünki, burada sosial psixoloji gərçəkliyin əsas və xüsusi elementlərinin birləşdirilmiş şəkildə öyrənilməsi xüsusi aktuallıq kəsb edir. Məsələni sosial psixoloji cəhətdən nəzərdən keçirsək, görərik ki, həyatımızın hər anında gender bərabərsizliyi, gender boşluğu və gender stereotipləri ilə qarşılaşırıq.

Gender münasibətlərinin təhlili bir neçə səviyyədə özünü göstərir. Makrososial səviyyədə münasibətlər "şəxsiyyət- cəmiyyət- mədəniyyət", "qrup - cəmiyyət-mədəniyyət" sistemində təhlil edilir [4]. Qruplararası münasibətləri təhlil etsək qarşılıqlı təsir səviyyəsinin "qrup-qrup" sistemində nəzərdən keçirildiyini görərik. Bu səviyyədə münasibətlərə təsir edən xüsusi bir amil kimi sosial stereotiplər çıxış edir. Müasir sosial psixologiyada sosial stereotiplərə hansısa sosial qrupun və ya birliyin sadələşdirilmiş, sxemləşdirilmiş, emosional çalar verilmiş, sosial dəyərlərə bağlı olan və son dərəcə dayanıqlı təsəvvürlər kimi tərif verilir ki, bunlar da qrupun və ya birliyin bütün üzvlərinə asanlıqla şamil edilir. İ.S.Kon yazır: "Stereotipləşdirmə ondan ibarətdir ki, mürəkkəb fərdi hadisə mexaniki olaraq bu qəbildən olan hadisələr sinfini səciyyələndirən sadə formul və ya obraza aid edilir [3].

Hər bir cəmiyyət üçün xüsusi sayılan bir sıra stereotiplər vardır ki, insan özünü dərk edən andan etibarən, müəyyən bir etnosun, mədəniyyətin bir hissəsinə çevrildiyi gündən məhz bu stereotipləri mənimsəməyə başlayır. Gender stereotipləri cinslərin həyatın müəyyən dövründə, şəxsiyyətlərarası münasibətlərdə özlərini idarəetmələrinə dair cəmiyyət tərəfindən tərtib edilmiş, ümumiləşmiş təsəvvürlərdir. Cəmiyyət tərəfindən yaranmış və ümumiləşmiş bu fikirlər nəticəsində qadın və kişi şəxsiyyət keyfiyyətləri daim müqayisə olunaraq hansısa cinsin üstünlüklərinin vurğulanması əsasında formalaşmış gender münasibətləri gender stereotiplərinin meydana çıxmasına və münasibətlərin bu şəkildə qurulmasına səbəb olmuşdur. Stereotiplər cəmiyyətin inkişafı ilə bağlı baş verən dəyişikliklərdən asılı olaraq zamanla dəyişmiş, tədricən yeniləri ilə əvəz olunmuş və ya tamamilə aradan qaldırılmışdır. Lakin təcrübə göstərir ki, milli xarakterdən çıxış edərək müəyyən xüsusiyyətləri özündə birləşdirən bəzi ümumiləşmiş stereotiplər bu günə qədər qorunub saxlanır. Cəmiyyətin mentalitetini özündə əks etdirən sabit stereotiplərdən biri də gender

stereotipləridir ki,qadın stereotipləri onların ayrılmaz tərkib hissəsini təşkil edir [3]. Keçirilən tədqiqatlar və sorğuların nəticəsinə əsaslanaraq deyə bilərik ki, hansı cinsə mənsub olmaqla bağlı bəzi stereotiplər Azərbaycan kişi və qadınlarının şüurunda dərin köklər salmışdır.

Gender rolları dedikdə, sosial rolların bir növü, cinslər üçün standartlaşdırılmış davranış formaları başa düşülür. Rollar sosial psixologiya çərçivəsində insanların hər hansı sosial vəziyyətə necə reaksiya vermələrini tənzimləyən normalar kimi vurğulanır və sosial münasibətlərin qurulmasına əsaslı şəkildə təsir göstərir.

Kişi və qadınların müvafiq rollarına dair münasibət və bunlarla bağlı mövcud normalar insan həyatının bütün aspektlərində onun davranış və təcrübəsini formalaşdırır.

Gender münasibətlərinin formalaşmasında mədəniyyət faktorunun təsiri danılmazdır. Mədəniyyət dedikdə, insanın mənəvi tələbatlarının ifadəsini özündə cəmləşdirən fenomen, cəmiyyətin, insanın yaradıcı qüvvəsi və bacarıqlarının inkişafının insanların həyat fəaliyyətinin təşkili formalarında, həmçinin onun yaratdığı maddi və əxlaqi dəyərlərdə tapan tarixən müəyyən səciyyəsi nəzərdə tutulur. Genderin mədəniyyət simvolu kimi qavranılması onunla əlaqədardır ki, insanın cinsi yalnız sosial deyil, həm də mədəni interpretasiyaya malikdir [5].

Gender problemi gender mədəniyyəti ilə sıx bağlıdır, çünki bioloji cinsin fərqləndirilməsi mədəniyyətdə kişi və qadın mənşəli simvolika yolu ilə göstərilmiş və möhkəmləndirilmişdir. Gender mədəniyyəti kişi və qadınların tarixən yaranmış dünyagörüşü və maraqları əsasında formalaşmaqdadır. Gender problemini sosial psixoloji cəhətdən təhlil etsək, həm şəxsiyyətlərarası, həm qruplararası, həm də ünsiyyət prosesində yaranan sosial münasibətlərə bu 3 faktorun əsaslı şəkildə təsirini görmək mümkündür.

**Açar sözlər:** gender münasibətləri, gender rolları, gender stereotipləri, gender mədəniyyəti

## Ədəbiyyat

1. Abasov Ə.S., Mirzəzadə R.S. Genderə giriş: Cəmiyyətdə cinslərin sosial rolları və qarşılıqlı münasibəti problemləri. Bakı: Gender və İnsan hüququ Araşdırma Birliyi (GİHAB), 2004,120s.
2. Ağayeva K.C. Azərbaycanda gender məsələləri. Bakı: Qərb Universiteti, 2014, 416 s.
3. Abdullazadə S. Ədəbiyyatda etnik stereotiplər və millət imici. Bakı: 2008,158 s.
4. Бендас Т.В. Гендерная психология: учебное пособие. СПб: Питер, 2009,430 с.
5. Берн Ш. Гендерная психология. Законы мужского и женского поведения, СПб, 2007.

## Gender as a model of social relations between genders

Psychology of gender relations is an area of applied psychology that studies differences and similarities of relations on gender interactions in social psychology. Psychology of gender relations is considered a study of primary and special elements of social psychological realities plays an essential role in it.

# AZƏRBAYCANDA GƏNCLƏRİN SOSİAL-İQTİSADİ PROBLEMLƏRİNDƏ GENDER FƏRQİ

**Fərid Dünyamalıyev**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: farid.dunyamaliyev14@mail.ru

Gənclik dövrü yeniyetməlik dövrünün başa çatması, fiziki, əqli və psixoloji xüsusiyyətlərin, özünəməxsus keyfiyyətlərin daha da inkişaf edib formalaşması dövrüdür. Gənclik dövrü haqqında bir çox mənbələrdə fərqli yaş aralıqları götürülmüşdür. Bu fikirlərdən ən çox qəbul olunanı 14-29 yaş aralığıdır. 14 yaşından sonra gənclərdə sosiallaşma və həyati məsələlərdə daha məsuliyyətli, fəal iştirakı müşahidə edilir [3].

Müasir dövrdə bazar iqtisadiyyatına keçid qabaqcıl ideyaların daşıyıcısı olan gənclərin sosial durumuna əsaslı təsir göstərmişdir. Gənclər həm də,ən həssas soisal qrup hesab olunur. Ona görə ki, onlar ölkənin gələcəyidirlər [1].

İnkişafda olan gənc nəsil tez-tez müəyyən sosial və iqtisadi problemlərlə üzləşə bilir. Bu problemlər müxtəlif səpkidə olur və gənclərin şüurunda əks olunaraq, onların davranışına, sərvət meyillərinə, maraqlarına ciddi surətdə təsir göstərir, bu da gənclərin sosial simasına siraət edir. Yoxsulluq, evsizlik, və s. kimi iqtisadi, bərabərsizlik, cinayətkarlıq, narkomaniya, məşğulluq, əlillik, təhsil və s. kimi sosial problemlər gənclərə ən çox təsir göstərən problemlərdir. Bu problemlərdə gender fərqi də açıq-aşkar özünü göstərməkdədir [1].

Gender cəmiyyətin qadın və kişi üçün müəyyənləşdirdiyi ictimai rolları dərk etmək üçün cins məhfumudur. Britaniya sosioloqu Ann Oakleyin araşdırmalarına görə, qadın və kişiyə məxsus fərqliliklər uşaq doğulan vaxtdan valideynlər tərəfindən müəyyənləşdirilir. Məsələn, qız uşaqlarına uşaqlıqda qırmızı və yaxud çəhrayı geyimlər, gəlinciklər, oğlan uşaqlarına isə mavi geyimlər, maşın, əsgərlər, silahlar və s. oyuncaqlar alınır. Amma bu faktorlar uşağın böyüyəndə hansı peşəni seçməsinə təsir göstərmir [2].

Digər diqqət çəkən problem  yoxsulluqdur. O, həm sosial, həm də iqtisadi problemdir. Yoxsulluğun ən əsas səbəbi sərvətlərin düzgün bölüşdürülməməsidir. Dünya əhalisinin 1.5 milyardı yoxsulluqdan əziyyət çəkir. Dünya üzrə əz zəngin 500 nəfərdən 450 nəfəri kişilər, aclıq çəkən insanlar arasında isə 75 faizi qadınlardır. Azərbaycanda isə yoxsulluq səviyyəsi 3-5 faiz təşkil edir. Təbii ki, yoxsulluğun digər səbəbləri də mövcuddur. Buna misal olaraq ölkələrdə fərqli səbəblər göstərilir; əhalinin sayının çox olması, iş yerlərinin az olması, təhsil göstəricilərinin aşağı səviyyədə olması, müharibə şəraiti və.s. Yoxsulluq problemi gənclərdə digər problemlərə də yol açır. Gənclər arasında yoxsulluq artdıqca təhsil səviyyəsi aşağı düşür, sosiallaşma çətinləşir, ailə-məişət problemləri və cinayətkarlıq artır.Azərbaycanda belə halların qarşısının alınması üçün bir sıra tədbirlər görülür, məşğulluğun artırılması ilə bağlı müxtəlif layihələr işlənib hazırlanır.

Bu layihələri hazırlayan zaman gender məsələlərinə də xüsusi diqqət yetirilmişdir [1].

Zorakılıq halları:Zorakılıq fiziki, psixoloji, sosial və məişət zorakılığı olaraq müxtəlif formalarda təzahür edir. Zorakılıq hallarının gender fərqinə baxsaq görərik ki, qadınlar daha çox zorakılığa məruz qalırlar. Azərbaycanda zorakılıq hallarını qarşısının alınması və zorakılıq törədən şəxslərin cinayət məsuliyyətinə cəlb olunaraq cəzalandırılması ən əsas istiqamətlərdəndir. Azərbaycanda gender siyasətini həyata keçirən əsas qurum Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsidir [5].

Təhsil: Dövlətin təhsil siyasəti birbaşa gənclərin fasiləsiz təhsilinə yönəlib. Bu sahədə qızlar çoxluq təşkil edir. Məktəb dərsliklərdə də qadınların inkişafına mane olan streotiplerin olmamasına xüsusi olaraq diqqət edilir. Müxtəlif QHT -lər də Azərbaycanın bölgələrində qız uşaqlarının təhsil alması və karyera inkişafı ilə əlaqədar maarifləndirmə tədbirləri həyata keçirirlər. Ali məktəblərə qəbul statistikasında gender fərqinə nəzər salsaq ali təhsil müəssisələrinə qəbul olan qızların sayı oğlanların sayına nisbətən üstünlük təşkli edir. Məs: 2010-2011-ci tədris ilində 14928 qız, 13809 oğlan ali məktəbə qəbul olmuşdur. Məktəblərdə dərs deyən müəllimlərin arasında da qadınlar çoxluq təşkil edir. Amma burada da gender fərqi fərqli ixtisaslara görə özünü göstərir. Texniki fənləri tədris edən müəllimlər arasında kişilər daha çoxdur,humanitar fənlərdə isə qadınlar üstünluk təşkil edir [4].

Gənclər arasında cinayətkarlıq: Son zamanlar dövlətin uğurlu siyasəti nəticəsində gənclər arasında cinayətkarlıq hallarının sayı azalıb. Bu məsələ barədə konkret statistik məlumat vermək mümkün deyil, amma say etibarilə kişilər çoxluq təşkil edir. Müxtlif tipli cinayətlərin törədilməsində də oğlanlar çoxluq təşkil edir. 2018-ci ildə 14-17 yaşlı gənclərin arasında aparılmış təhlillər göstərir ki, törədilmiş 301 cinayətdən 300-ü oğlan, yalnız 1-i qızlar tərəfindən törədilib [6].

Bütün deyilənləri nəzrə alaraq əminliklə deyə bilərik ki, Azərbaycanda gender problemlərinin həlli istiqamətində mühüm addımlar atılmış və cox ciddi nailiyyətlər əldə olunmuşdur.

**Açar sözlər:** gənclər, gender problemi, statistik göstəricilər.

## Ədəbiyyat


1. Zamanov A., Sosial işin əsasları, Təhsil işçisi mətbəəsi MMC, 2015.
2. http://cemiyyet.org/gender-n%C9%99dir/
3. https://kayzen.az/blog/pedaqoq/8185/gənclik-yaşı.html
4. https://modern.az/az/news/7239
5. http://scfwca.gov.az/store/media/cedaw_az_ministries[1].pdf
6. https://www.stat.gov.az/source/crimes/


## Gender difference in youth social-economic problems in Azerbaijan

The developing young generation can often face with social and economic problems. Youth period is the end of adolescence years, the improvement of physical, mental and psychological features. When we tell social-economic problems, we consider poverty, violence, education and so on. When we say economic problem of young generation, we can talk about poverty which mainly

men have. Talking about social problems, it would be more relevant to consider laws and measures against social violence. Between young generation, who was exposed to physical violence is women, who was exposed to psychological violence is both women and men. In Azerbaijan, the attitude of young people to education is changing day by day, we can give an example by comprising the number of students who entered university in 2010-2011 and in 2018-2019.When we point out education problem of young generation, it would be suitable to talk about educational policy of our government and young approach to education.

## BRİTANİYA UŞAQ ƏDƏBİYYATI VƏ ONUN UŞAQ ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA ROLU

**Səadət Əliyeva**
Azərbaycan Universiteti, Bakı Azərbaycan

Müasir Britaniyanın uşaq kitabları bazarında həm köhnə, həm də yeni yazılmış əsərlər çap olunur və bu kitabları alan baba-nənələr də, valideynlər də, bibi-xalalar da, əmi-dayılar da dünyanın su, hava qədər ürəklərə rahatlıq gətirən bu böyük nemətin işığında sabaha vətəndaşlıq vəsiqəsi alırlar. İndi Britaniya uşaq ədəbiyyatının yalnız Coan Roulinqi deyil, Deyvid Ualliamsı (David Walliams, 1971), Yulya Donaldsonu (Julia Donaldson, 1948), Françeska Saymonu (Francesca Simon, 1955), Antoni Horovitsi (Antony Horowitz, 1955) çoxsaylı oxucu auditoriyasının daimi müəllifləridirlər.

Britaniya ədəbiyyat professoru M.O.Qrenbi (M.O.Grenby) "İbrət dərsi və öyrədici uşaq ədəbiyyatı" adlı araşdırmasında Britaniya ictimai həyatında uşaqların keçirdiyi ağır həyat tərzinə ekskurs edərək uşaq ədəbiyyatının qarşısında dayanan əsas məqsəd və qayələri müəyyənləşdirməyə çalışmışdır. O, yazıçı və şairlərin yaratdığı sənət əsərlərində bu kimi kriteriyaların olduğunu göstərmişdir: "Uşaq kitablarını yaradanlar həmişə oxucularını fakt, din, sosial kodlar, düşüncə tərzi, yaxud da bu və ya digər inanc, ya da ideyaların təlqin edilməsinə gördükləri işin bir hissəsi kimi baxmışlar" [5, s.63].

Britaniya uşaq ədəbiyyatı tarixinin ayrı-ayrı mərhələlərində öyrədici ədəbiyyatın çapı naşirlərin daim diqqət mərkəzində olmuşdur. 1740 və 1750-ci illər uşaq yazıçılarının pionerləri əsrin sonlarına qədər uşaqların təlim-tərbiyəsinə xidmət edən, eləcə də onlara etik dərslərin verilməsini təlqin edən qısa nəsr əsərlərinin çapına və yayılmasına ciddi maraq göstərmişlər. Bu nəşrlər sırasında M.Kuper (M.Cooper) və M.Bormənin (M.Boreman) nəşr etdiyi "Milad bayramı qutusu" ("The Christmass-Box") kitabı, Meri Kollyer (Mary Collyer) (o, ədəbiyyatda Mary Homebred təxəllüsü ilə tanınır – S.Ə.) əsərləri müstəsna yeri ilə seçilmişdir.

Yazıçı Sara Fildinqin (Sarah Fielding, 1710-1768) 1749-cu ildə nəşr etdiyi ibrət dərsi hekayələri silsiləsinə daxil olan "Mürəbbiyə" ("The Governess") ingilis məktəblərində geniş yayılmışdır. Qeyd olunan kitab ingilis ədəbiyyatının yaradıcısı Cefri Çoserin (Geoffrey Chaucer,

s.1343-1400) məşhur "Kənterberi hekayələri"nin ("The Canterbury Tales") strukturunu xatırladır. Sara Fildinqin kitabında məktəbli qızların hər biri öz həyatı haqqında hekayələr söyləyir və daha sonra həmin qızlar bütün sinif uşaqlarının təlim-tərbiyəsi üçün əxlaqi nəticəsi olan hekayələrini nəql edirlər.

Britaniya uşaq ədəbiyyatının ayrılmaz qollarından biri hesab edilən təmsillərin Ezop dövründən müasir günlərimizə qədər ədəbi janr kimi yenə də populyarlığı ilə seçildiyini söyləmək istərdik. Təmsilin özünəxas səciyyələrini qoruyub saxlamasının əsas kriteriyalarından biri onun əxlaqi, tərbiyəvi elementləri özündə cəm etməsidir. İkinci bir tərəfdən isə, təmsillər bir qayda olaraq insan xarakterlərinin və həyat hadisələrinin heyvan, bitki aləminin dili ilə oxucu diqqətinə çatdırılması ilə əlamətdar olmuşdur.

Ezop təmsillərinin ingilis dilinə edilmiş tərcümə variantının ingilis naşiri Uilyam Kəqston (William Caxton, c.1422-1491) tərəfindən ilk çapı 26 mart 1484-cü il tarixə təsadüf edir. Əsrlər boyu nəsr və şeirlə yazılan təmsillərin Britaniyada dəfələrlə ingilis dilində nəşrləri bütün oxucuların sevə-sevə oxuduğu əsərlər sırasına daxil olmuşdur.

Son dövrün Ezop təmsillərinin ingilis nəşrləri sırasında Olivia və Robert Templin (Olivia and Robert Temple) 1998-ci ildəki Penqvin nəşri (Penguin edition) "Ezopun bütün təmsilləri" ("The Complete Fables by Aesop") adı ilə toplanmış təmsillərin bütövlükdə Ezopa aid edilməsi müəyyən debatlara səbəb olmuşdur. Ən son dövr nəşrlərdən biri də Oksford Dünya klassikləri seriyası ilə Laura Gibbsin (Laura Gibbs) ingilis dilinə tərcümə etdiyi "Ezopun təmsilləri" ("Aesop's Fables") nəşri 2002-ci ilə təsadüf edir.

Ezop təmsillərinin uşaq ədəbiyyatında məşhurlaşması heç şübhəsiz ki, Ezop təmsillərində əxlaqi nəticə öyüd və nəsihətin heyvan, bitki, cansız əşyaların dili ilə interpretasiyası ilə bağlıdır. Eramızdan əvvəl IV-III əsrlərdən başlayaraq 300-ə yaxın Ezop təmsillərinin bu gün də Britaniya uşaq ədəbiyyatında yeni təmsil süjetlərinin yaranmasında təsir böyükdür.

XIX əsr Britaniya uşaq ədəbiyyatının məşhur nümayəndəsi Çarlz Kinqsleyin (Charles Kingsley, 1819-1875) dövrünün ictimai xadimi kimi tanınması, Kembric Universitetində tarix elmi üzrə professor kimi çalışması, xüsusilə uşaq ədəbiyyatına böyük töhfələr verməsi indi də ehtiramla xatırlanır. Onun 1863-cü ildə nəşr etdirdiyi "Su uşaqları" ("The Water-Babies") adlı kitabı əslində oğlu Qrinvill (Grenville) üçün yazılsa da, bu əsərin çoxsaylı nüsxələri oxucular arasında maraqla oxunan və ən yaxşı uşaq ədəbiyyatı nümunəsi kimi dəyərləndirilmişdir. İngilis yazıçısı Marqaret Drabl (Margaret Drabble, 1939-) yazır: "Bu hekayə kraliça Viktoriyanın sevdiyi əsər olmuşdur və onu öz uşaqları üçün oxumuşdur. İndi də bu əsər psixoanalitik interpretasiya üçün zəngin imkan yaratsa da, uşaq oxucuları arasında məşhurdur" [4, s.1047].

Çarlz Kinqsleyin yazıçı təxəyyülünün, düşüncəsinin qeyri-adi məhsulu olan bu əsər oxucunu sualtı dünyanın cəzbedici aləminin sehrinə salır. Dalaşqan cənab Qraymsın (the bully Mr.Grimes) muzd işə götürdüyü baca təmizləyən balaca Tomun macəraları fonunda ədib uşaq dünyasının sehrli aləminin görünməyən tərəflərini təsvir edir.

XIX əsrin kraliça Viktoriya dövründə uşaq həyatı və ədəbiyyatı məsələlərinə müəyyən yer ayıran Piter Akroyd yazır: "Uşaq şeirlərinin və tapmacaların əsas təyinatı, yaxud məqsədi çətin vəziyyətə düşərkən belə vəziyyətdən çıxmaq üçün kiçik yaşlı uşaqların fərasət və qabiliyyətini

inkişaf etdirməyə yönəldilmişdi. Elə bu baxımdan gənc London uşaqları arasında zirəklik və ədəbsizlik ənənələri yaranmışdı” [3, s.539].

Onu da qeyd edək ki, hər əsrdə uşaq yaddaşına zamanın yazarlarının həkk etdiyi söz çələngi yaşanan ictimai-siyasi həyatın əks-sədasına çevrilmiş, uşaqların keçdiyi həyat yoluna işıq salmış,onların təlim-tərbiyəsinə xidmət etmişdir.

XIX əsrdə kraliça Viktoriyanın hakimiyyəti dövründə (1832-1900) Britaniya nəsrində “küçə ərəbi” (“street arab”) janrı geniş yayılmağa başlamışdır. Ümumiyyətlə, “küçə ərəbi” həm də bir termin kimi Britaniyanın ayrı-ayrı şəhərlərində, xüsusilə Londonda günbəgün çoxalan, əsasən küçələrdə özlərinə yurd-yuva quran, gecələr küçələrdə yatan çoxsaylı uşaqlara şamil edilmişdir.

Lakin onu da qeyd edək ki, “küçə ərəbi nəsri” (“street arab fiction”) haqqında yazan tədqiqatçı alimlər bəzən onu “kimsəsiz, yurdsuzlar hekayələri” (“waif stories”) də adlandırmışlar. Birləşmiş Krallıqda Nyukasl Universitetinin İngilis ədəbiyyatı, dili və linqvistikası fakültəsinin Uşaq ədəbiyyatı üzrə professoru Kimberley Reynoldz (Kimberley Reynolds) qeyd etdiyimiz problemlə bağlı “Froqqinin balaca qardaşı: yoxsulluğun siyasəti” adlı araşdırmasında [6, s.255-274] qeyd etdiyimiz problemlə bağlı elmi mühakimələrini təqdim etmişdir. Müəllif əsərində Brenda təxəllüsü ilə tanınan Xanım Georgina Kasl Smitin (Mrs.Georgina Castle Smith, 1845-1933) yaradıcılığında “küçə ərəbi” janrının xüsusi yer tutduğundan bəhs etmişdir. Sağlığında xeyli sayda populyar uşaq kitablarının müəllifi olan Brenda 59 illik yaradıcılığı dövründə 23 əsəri ilə tanınmışdır.

Britaniya uşaq ədəbiyyatının böyük zaman kəsiyində, təxminən 60 ilində (o, 87 yaşında özünün son kitabını nəşr etdirmişdir) əsasən “küçə ərəbi” janrında yazdığı uşaq əsərləri ilə o, qeyri-adi populyar yazıçı kimi oxucuların sevimlisinə çevrilmişdir. Ədibin yaradıcılığında xüsusi yeri ilə seçilən “Froqqinin balaca qardaşı” (“Froggy is Little Brother”, 1875) adlı sayca ikinci romanı həm oxucular, həm də uşaq ədəbiyyatı tənqidçiləri tərəfindən yüksək mündəricəli uşaq ədəbiyyatı əsəri kimi dəyərləndirilmişdir.

Uşaq yazıçısı Brenda Viktoriya dövrü ədəbiyyatında irqindən, cinsindən, milliyyətindən asılı olmayaraq Britaniyada lövbər salan həmin kasıb uşaqların yaşayış və iş şəraitinin yaxşılaşdırılması, yiyələnəcəyi sənətə daha yaxından bələd olmağın sirlərinə vaqif olması naminə onların realist bədii obazlarının yeni tipini yaratmışdır.

Kimberley Reynolds ədibin pafos və həqiqətlə yoğrulmuş “Froqqinin balaca qardaşı” romanında uşaqların sərgərdan həyatı, onların küçələrdə ac-susuz, bir tikə çörəyə möhtac günlərinin bədii təsvirinin incə təfərrüatı ilə qələmə alındığını qeyd edərək yazır: “Froqqinin balaca qardaşı” kitabını postkolonial perspektiv bucağından oxuyub, onun Britaniyanın kasıb uşaqları haqqında daha geniş bir diskursun hissəsi olduğunu dərk etmək üçün kraliça Viktoriyanın hakimiyyəti dövründə küçə uşaqları haqqında yazılmış romanın bəzi incəliklərinə diqqət yetirilməsi çox vacibdir” [6, s.258].

Bir sıra tarixi kitablar, eləcə də ictimai xadimlərin yazıya alınmış çıxışları “London sərçələri kimi çirkab içərisində yaşayan solğun bənizli, ac-yalavac qaldığı günlərini sayan” London

uşaqlarının "barbar azadlığı"("barbarian freedom") kraliça Viktoriya dövrünün orta sinif cəmiyyətinin uşaqlığının antitezisi olmuşdur.

Brendanın o dövr üçün yeni olan kitabının ilk nəşrinə həyat yoldaşı Qəs (Gas) xeyli sayda illüstrasiyalar çəkmişdir. Bu illüstrasiyalar kraliça Viktoriya dövrünün ərəb, yaxud özgə uşaqlarının realist bədii portretinə yeni çalar, rəng gətirmişdir. O, balaca uşaqların rəsmlərini çirkli nimdaş paltarlarda yox, cır-cındır içində, onların açıq-aydın görünə biləcək simalarını isə çardağın pəncərəsindən düşən işığın fonunda oxucu diqqətinə çatdırmağa çalışmışdır. 12.3. saylı rəsmində isə rəssam əyninə cır-cındır paltar geyinmiş Froqqinin anasını və onun gələcək xoşbəxt zamanları düşündüyü xəyalət aləminin təsirli səhnələrini yaratmışdır.

Onu da qeyd edək ki, kraliça Viktoriya dövrünün məşhur uşaq yazıçılarından biri olan Çarlz Dikkens də Londonun kasıb, yalqız uşaqlarının ağır vəziyyətini və güzəranını romanlarında sənətkarlıqla qələmə almışdır. Ədibin özü də küçə ərəbi nəsrini yaradan çox-çox yazıçıların həm modeli, həm də arxa-dayağı olmuşdur. Çarlz Dikkensin uşaq həyatına həsr etdiyi əsərləri ilə bəzi paralelləri müqayisə edən Kimberley Reynoldsun "Froqqi" əsərinə onun təsiri olduğunu ədəbi-bədii faktlarla sübuta yetirməyə çalışması inandırıcı görünür.

Beləliklə, Çarlz Dikkensin 1851-1852-ci illərdə yazdığı "Soyuq ev" ("Bleak House") romanı ilə Brendanın 1875-ci ildə nəşr etdirdiyi "Froqqi" (doğrudur, Brendanın romanı 1873-cü ilin qışında "kasıb Londonun hələ indiyə qədər belə çətin günlər görmədiyi" zamana aid edilir – S.Ə.) romanı arasında zaman fərqi olsa da, hər iki romanda London uşaqlarının ağır həyat səhnələri qələmə alınmışdır fikrini söyləmək mümkündür.

Lakin Britaniyada kraliça Viktoriya dövründən əvvəl də uşaqlığın acı günlərini yaşayan Çarlz Dikkensin (1812-1870) sonralar qələmə aldığı romanları ilə müqayisədə xanım Brendanın görüb şahidi olduğu və qələmə aldığı əsərlərində uşaq həyatının nisbətən yüngül olduğunu söyləyənlər də vardır.

Kimberley Reynolds haqlı olaraq qeyd edir ki, Çarlz Dikkens "Soyuq ev" əsərini 1851-ci ildə yazmağa başlamışdısa, Brenda "Froqqi" romanını təxminən əsrin dörddə bir hissəsi keçəndən sonra – 1875-ci ildə nəşr etdirmişdir. Bu müddət ərzində uşaq yurdsuzlar evinin rejimində xeyli müsbət dəyişikliklər, islahatlar aparılmışdır ki, bu da uşaqların həyatında, heç şübhəsiz ki, müəyyən dönüş yaratmışdır. Lakin yenə də Brendanın əsərində təsvir olunan Froqqi, Benninin və onların bütün qonşu uşaqlarının yenidən həmin evə – yurdsuzlar evinə göndərilmələri küçə uşaqlarının həyatı haqqında müəyyən təsəvvür yaradır.

İkinci bir tərəfdən uşaqlar haqqında əsərlər yazan yazıçılardan söhbət açarkən belə bir vacib məqamı da unutmaq olmaz. Əgər Çarlz Dikkens xırda məmur kilsəsində doğulub boya-başa çatan, borclular həbsxanasına düşən bir ailənin övladı kimi erkən yaşlarından bir tikə çörək pulu uğrunda min bir əzab-əziyyətə düçar olan kasıblar zümrəsinin yazıçısı idisə, Brenda Britaniyanın orta sinfinə məxsus zümrənin övladı, yazarı idi.

Çarlz Dikkensdən fərqli olaraq Brendanın küçə ərəbi janrında yazdığı əsərlərində dini təsəlli daha güclü şəkildə ifadə olunmuşdur. Bu isə səbəbsiz deyildir: "... çoxsaylı küçə ərəbi hekayələri dini nəşriyyat evləri tərəfindən" [6, s.269] çap olunurdu. Bu isə, hər şeydən əvvəl, həmin naşirlərin öz vətənində missionerlik fəaliyyətinin bir hissəsi kimi qəbul edilmişdi.

Kraliça Viktoriyanın hakimiyyəti dövründə Britaniya uşaq ədəbiyyatının inkişaf istiqamətləri əsasən dövrün ictimai-siyasi ab-havası, bu dövrün tanınmış ədəbi simalarının yaradıcılığı əsasında da təyin edilə bilər. Hər şeydən əvvəl, onu qeyd edək ki, əvvəlki dönəmin məşhur uşaq yazıçılarından ədəbiyyatda M.P. və Meri Pelham (M.P. and Mary Pelham) təxəllüsü ilə tanınan ingilis Doroti Kilner (Dorothy Kilner, 1755-1836), irland Mariya Ecuort (Maria Edgeworth, 1768-1849), ingilis Anna Laktitia Barbauldun (Anna Lactitia Barbauld, 1743-1825) və başqalarının əsərlərində mücəssəməsini tapmış əxlaqi hekayələr yazmaq ənənəsi bu dövrdə də davam etdirilmişdir. Britaniya uşaq nəsrində fentezi ilə realizmin vəhdəti bir çox yazıçıların, o cümlədən şotland uşaq yazıçısı Katerina Sinklerin (Catherine Sinclair, 1800-1864) "Tətil evi" ("Holiday House", 1839) əsərində bədii ifadəsini tapmışdır. Eləcə də uşaqlar üçün əxlaqi məktəbin davamçılarından olan ingilis şairi və yazıçısı Meri Hovit (Mary Howitt, 1799-1888) Danimarkanın nağıl şahzadəsi, XIX əsrdə Danimarkanın tanınmış nağıl ustadı Hans Kristian Andersenin (1805-1875) sehrli nağıllarının ingilis dilinə tərcüməsi (1845-1847) ilə əxlaqi nağıllarla fentezi janrı arasında yeni bir əlaqənin yaradılmasına yardımçı oldu.

Britaniya uşaq ədəbiyyatının bu dönəmində sehrli nağıllar və fentezi dalğası bir sıra yazıçıların yaradıcılığına müsbət təsirini göstərdi. İngilis keşişi, tarixçi və yazıçısı Çarlz Kinqsleyin (Charles Kingsley, 1819-1875), ingilis yazıçısı və fotoqrafı Lüis Kerollun (Lewis Carrol, 1832-1898), şotland jurnalisti, yazıçı və şairi Corc Mək Donaldın (George Mac Donald, 1824-1905) bu dövrdə yazdığı nağıl-povestləri belə bir ədəbi təsirdən yarandı.

Bu dövrdə fentezi janrı uşaq ədəbiyyatında dominantlıq qazanmışdır. İngilis ədibi Mariya Moulsvors (Maria Molesworth, 1839-1921), ingilis yazıçısı və şairi Dina Mariya Malok Krayk (Dinah Maria Mulock Craik, 1826-1887), ingilis yazıçısı Meri De Morqan (Mary DeMorgan, 1850-1907), ingilis uşaq yazıçısı Marqaret Qatti (Margaret Gatty, 1809-1873), ingilis-amerikan uşaq dramaturqu və yazıçısı Françes Hocson Burnett (Frances Hodgson Burnett, 1849-1924), Britaniya yazıçısı Lyüsi Leyn Klifford (Lucy Lane Clifford, 1846-1929) kimi realist yazıçıların əsərlərində uşaq xarakterləri və həyati hadisələr bədii təcəssümünü tapmışdır.

1892-ci ildən 1934-cü ilə qədər Londonda nəşr olunan "Chums" uşaq jurnalının öz oxucularına uşaqların həyatına həsr olunmuş əsərlərlə yanaşı heyvanlar aləminə və idmana dair ədəbi-bədii yazıların çapına xüsusi diqqət yetirməsi uşaqların şəxsiyyətinin formalaşmasına xidmət məqsədi daşımışdır.

**Açar sözlər:** Britaniya uşaq ədəbiyyatı, uşaq kitabları, "küçə ərəbi" janrı.

## Ədəbiyyat

1. Azərbaycan uşaq ədəbiyyatı antologiyası. Tərtib edəni: Qara Namazov. 3 cilddə. Bakı: Öndər nəşriyyat, 2005, 248 s.
2. Xəlilli Ş. Britaniya uşaq ədəbiyyatı və onun Azərbaycanda öyrənilməsi. II Beynəlxalq Türk xalqları uşaq ədəbiyyatı konqresi materialları, Bakı, 11-13 oktyabr, 2012-ci il, s.60-66.
3. Ackroyd P. London. The Concise Biography. London: Vintage Books, 2012, 661 p.

4. Drabble M. Children’s Literature. The Oxford Companion to English Literature. Fifth Edition. Printed in Great Britain: Oxford University Press, 1994, 1155 p.
5. Grenby M.O. Children’s Literature. Copyrighted Material. Published by Edinburgh University Press, 2008, 232 p.
6. Reynolds Kimberley. Froggy’s Little Brother: Nineteenth – Century Evangelical Writing for Children and the Politics of Poverty. – The Oxford Handbook of Children’s Literature. Edited by Julia L.Mickenberg and Lynne Vallone. Oxford: Oxford University Press, Inc., 2011, p.255-274.
7. www.bl.uk/romantics-and-victorians /articles/the origins-of-childrens-literature

**British children's literature and its role in shaping the child's individuality**

The paper is devoted to the development of British children's literature and its role in the upbringing of children, as well as their forming as individuals. It is shown also that the fables, which are an integral part of the British children's literature, are still popular in the literary genre from the Ezop time to the present. The paper also says that in every age, the words of the writers of the time have become a reflection of the social and political life of the past, have shed light on the way in which children have lived and educated.

## MARQARET ETVUDUN “QULLUQÇUNUN HEKAYƏSI” ƏSƏRİNDƏ QADIN PROBLEMİ

**Ülviyyə Əliyeva**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan

Kanada ədədbiyyatında öz yaradıcılığı, dəsti-xətti, hadisələrə münasibətilə fərqlənən XX əsr yazıçılarınndan biri də, Marqaret Etvuddur. 1939-ci ildə Kanadanın Ontario əyalətinin Ottava şəhərində anadan olmuş Marqaret Etvud, Kanada ədəbiyyatında roman yazıçısı, hekayə yazıçısı və eyni zamanda şair kimi məşhurluq qazanmışdır.

Marqaret Etvudun əsərləri yazıldığı dövrdən böyük oxucu kütləsi qazanmış və daim tənqidçilərin diqqət mərkəzində saxlanmışdır. Xüsusilə də əsərlərinin siyasi, sosial və feminist mövqeyinə münasibət bildirən tənqidçilərin bir qismi yazıçının feminist mövqeyini müsbət dəyərləndirməsələr də, digər qismi feminist mövqeyi ilə ədəbiyyata yeni nəfəs gətirdiyini söyləmişdilər.

XVIII əsrdən başlayaraq qadınlar cəmiyyətdəki statuslarının müəyyən etməyə başlamışdılar. Bu dövrdə qadınlar siyasi-iqtisadi, sosial, hüquqi bərabərsizliklərə qarşı mübarizə etməyə başlamışdılar. İlk dəfə elm aləmində olaraq feminizmlə bağlı fikirlər Meri Uolstounkraft tərəfindən təqdim edilmiş "Qadın hüquqlarının qorunması" (A Vindication of the Rights of woman) əsərində öz əksini tapmışdır. XIX əsrdə qadınların kişilərlərlə bərabər statusu, haqları və müstəqilliyi üçün aparılan mübarizələrin nəticəsi olaraq "feminizm" anlayışı yaranmışdır. Hələ ilk zamanlarda

feminizm müəyyən qruplar tərəfindən həyata keçirilir daha sonra isə siyasi əhəmiyyət daşıyan anlayışa çevrilmişdir.

Ümumiyyətlə XIX-XX əsr tarixində baş verən hadisələr xüsusilədə feminizm məsələsi bir çox yazıçıların bu mövzaya marağının artmasına səbəb olmuşdur. Əlbəttə ki bu cür yazıçılar siyahısına Marqaret Eyvud da daxildir. Feminizm dalğası Etvud yaradıcılığına təsirsiz ötüşməmişdir.

Patricia F. Goldblatt "Reconstructing Margaret Atwood's Protogonists" adlı məqaləsində Marqaret Etvud yatadıcılığında feminizm mövzusuna münasibət bildirmişdir. O, qeyd etmişdir ki, Etvud əsərlərindəki qadın qəhrəmanlarının simasında öz oxucularına, xüsusilə də qadınlara həyatlarını istədikləri kimi qurmaq ixtiyarlarının olduğunu və bəzən bunun üçün cəmiyyətə qarşı çıxmalı olduqlarını vurğulamışdır. Buna nümunə olaraq, Etvudun romanlarında təsvir edilən qadınların öz varlıqların qorumaq üçün cəmiyyətə, dövrə, siyasi qurumlara qarşı çıxmalrını nümunə göstərə bilərik [5, s.100-108].

Etvud Redklif kollecinə getmiş və buranın kişilər dünyası olduğunun fərqinə varmışdır. Bununla yanaşı yazıçı bir çox sahələrdə qadınların diqqətdən kənar qaldığını daha doğrusu sayılmadığını hiss etmişdir. Etvdudu ən çox narahat edən məsələlərdən biri burada qadınların köməkçi kimi işlədilməsi idi. Yaşadığı bu dövrü təsvir etmək üçün yazıçı, bu ifadəni işlətmişdir: "Böyük bir boşqabla özümü bir növ yumru yağ yığıntısı kimi hiss etmişəm" [2, 8].

Qəribə və təzadlı məqamlardan biri yazıçının özünü feminist adlandırmamasıdır. Etvud yaradıcılığını diqqətlə izlədikdə əsərlərindəki qadınların sıradan bir xarakter olmadığını, paradoksal vəziyyətlərdə təsvir edilən, fərqli, dünyaya meydan oxumağa çalışan bəzən isə antifeminist mövqelərini ortaya qoyan qadınlar olduğunu görə bilərik. Etvud bu məsələyə münasibətini bu cür səsləndirmişdir.

1985-ci ildə yazılmış və ən çox oxucu kütləsi qazanmış “Qulluqçunun hekayəsi” (The Handmaid”s Tale) romanında totalitarlıq, idarəetmə, müstəqillik, fəlsəfə, xəyanət, siyasət kimi temalar öz əksini tapmışdır. Antiutopik janrda yazılmış əsərlər sırasında öz təsirlilik gücünə və dəstixəttinə görə fərqlənən roman, yazıçıya böyük şöhrət qazandırmışdır. Romanın baş qəhrəmanı Offredin başına gələn hadisələr keçmiş və gələcək zamanda təsvir edilir. Romanda antiutopik janrın əsas xüsusiyyətlərindən olan özgələşmə, sevgisizlik qabarıq şəkildə göstərilir.

Antiutopiya janrında yazılmış "Qulluqçunun hekayəsi" romanında əsas xarakterlərdən biri Offreddir. Qadınların adının belə olmadığı dövrdə yaşayan "Offred" xidmət etmək üçün təhkim olunduğu ev sahibinin adıyla Of-Fred; Fredinki kimi adlandırılır.

Antiutopiya janrında yazılmış romanında Marqaret Etvud öz fikirlərini gələcəkdə baş verə biləcək hadisələri Gilead adlı yerdə canlandırmışdır. Gilead - totalitar rejimlə idarə edilən, diktatorial bir yerdir. Sabit idarəetmə sistemində qurulan ölkədə qadınların danışmaq, düşünmək, görmək, bəzənmək ixtiyarı yoxdur. Tək bir nəfər tərəfindən idarə edilən diktatorial ölkədə hər kəsin əməl etməli olduğu, heç bir əsası olmayan qanunlar qoyulmuşdur. Sanki Gilead də təbii dünya tamamilə yoxa çıxmış, yeni, qaranlıq bir dünya yaradılmışdır. Vətəndaşlara qorxu hissini aşılamaqla onları daim nəzarət altında saxlayan, informasiya mübadiləsinin, fikir azadlığının tamamilə qadağan

olunduğu ölkədə yuxarıda sadaladıqlarımız hələ işin görünən hissəsidir. Eyni zamanda qeyd edə bilərik ki, “Qulluqçunun hekayəsi” romanında baş verən hadisələr bir neçə il sonra alimlər tərəfindən aşkar edilmişdir.

Ölümün adiləşməsi, antiutopiya janrında yazılmış romanların ən qabarıq cəhətlərindəndir. "Qulluqçunun hekayəsi" romanında da, ölüm artıq adi anlayışa çevrilmişdir. Romanda sədaqətsiz, tabe olmayan insanlar xüsusi işgəncələr edilməklə öldürülürlər. Bəzən isə günahkar insanlar öldürülmür, ağır şəraitdə yaşamağa məhkum edilirlər. Əsərdə ölüm, təcavüz, işgəncə kimi anlayışlar getdikcə adiləşir. Lidiya bu vəziyyətin normal olmadığını, lakin zaman keçdikcə adiləşəcəyini hələ əsərin əvvəlində vurğulamışdır.Eyni zamanda əsərdə insanların asıldığı divar bəzi mənbələrdə Harvard universitetin divarları olduğu hesab edilir. XVII əsrdən bəri elm-təhsil mərkəzi olan doğrunu, düzgünlüyü aşılayan bu universitetin divarları artıq işgəncənin, yox etmənin mərkəzinə çevrilmişdir. Yazıçı elm və ölüm arasında ziddiyyət yaradaraq əsas mənanı daha aydın azah edir.

Suyu, havası zəhərli maddələrlə çirklənən, dünyaya övlad gətirmək qabiliyyətini itirmiş qadınların və onların funksiyasını yerinə yetirən qulluqçu qadınların yaşadığı Gilead, televizordan başqa müharibələrin daxil ola bilmədiyi yer kimi təsvir edilir. Eyni zamanda əsərdə Lidiya xala tərəfindən vurğulanır ki, Gilead cumhuriyyəti sərhəd tanımır. Gilead, burada yaşayan hər bir insanın içindədir. Bununla yanaşı qadınların seçim şanslarının çox olduğu üçün ölümə məhkum olunduqları da, vurğulanır.

Hər bir utopiyanın içində antiutopiya və hər antiutopiyanın içində utopiya ola bilər. Bu fikirlərə əsaslanaraq gözəl ədəbi nümunə yaratmağa müvəffəq olan Marqaret Etvud "Qulluqçunun hekayəsi" romanını yazmağa başlamazdan əvvəl G.Oruel, O.Haksli, H.G.Uels kimi yazıçıların yaradıcılığı ilə yaxından tanış olmuşdur. Yazıçı əsəri yazmağa başlayarkən hansı istiqamətdə yazacağını müəyyənləşdirə bilməsə də, qadın probleminin əsas məsələ olacağını yəqin etmişdir. Qadınların hüquqlarını hələ gənclik vaxtlarından müdafiə etməyə çalışan yazıçı, qadınların və kişilərin bərabər olduqlarını vurğulamışdır. Lakin əsərdə yalnız feminizm məsələsi deyil, eyni zamanda siyasi rejimə, mühitə qarşı münasibətlər öz əksini tapmışdır.

**Acar sözlər:** Kanada ədəbiyyatı, qadın azadlığı, feminizm, totalitar rejim.

## Ədəbiyyat

1. Atwood M. The Handmaid's Tale, Canada: Hardback&Paperbac, 1985, 311s.
2. Cooke N. Margaret Atwood: A Critical Companion. London: Greenwood Press, 2004, 192 p.
3. Macpherson H.S. The Cambridge Introduction to Margaret Atwood. Cambridge: Cambridge University Press, 2010.
4. Macpherson H.S. The Cambridge Introduction to Margaret Atwood. Cambridge: Cambridge University Press, 2010, 144, p.
5. Patricia F. Reconstructing Margaret Atwood’s Protogonist. Amerika: Thomson&Gale 2005, 100-108, s.
6. https://www.notablebiographies.com/An-Ba/Atwood-Margaret.html.

## The theme of women and feminism in the novel “The Handmaid's Tale“ by Margaret Atwood

This thesis is about feminist ideas of Margaret Atwood`s novel “Handmaid`s tale”. From the analysis of novel we can see many aspects of women`s emancipation. The role of women in society, the main character`s psychology and inner world are the main lines of this distopic novel.

## YENİYETMƏLƏRDƏ MİLLİ XARAKTERİN FORMALAŞMASININ GENDER ASPEKTLƏRİ

**Pərvin Əliyeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
e-mail: Parvin.aliyeva15@gmail.com

Yeniyetmələrdə xarakterin və mənlik şüurunun formalaşması bilavasitə etnogen amillərlə əlaqələndirilir. İnsanda ictimai əxlaqın, mənlik şüurunun ən yüksək göstəricisi kimi vətəndaşlıq məsuliyyəti və vətənpərvərlik hissi göstərilir. Yeniyetmə oğlan və qızlar artıq özünün şəxsi və ictimai vəzifəsini, borcunu dərk etməli, mənlik şüuru ilə ictimai şüurun vəhdətini yaratmalıdırlar. Onlar bilməlidirlər ki, vətənpərvər olmaq özünü və soykökünü, yaşadığı torpağın dəyərini, xalqın tarixini bilməklə qiymətləndirməklə bitmir, bu dəyərlərin qorunmasında o da cavabdehdir. Məhz bu cavabdehlik onların xarakterində cəsarət, əməksevərlik, ləyaqət, qeyrət, namus, alicənablıq, prinsipiallılıq kimi davamlı keyfiyyətlərin inkişafına gətirib çıxarır. Bütün bunlar əxlaqi idrakın məhsulu olmaqla fəaliyyətdə özünü göstərir.

Yeniyetməlik dövrünün xüsusiyyətlərinə gender baxımından yanaşma onların şüurunun, davranışının formalaşmasında böyük əhəmiyyət kəsb edir. Müasir dövrdə yeniyetmələr üçün ümumi cəhət onların formalaşmasında maskulinizasiyanın ön plana çıxmasından ibarətdir. Bu mövqedən çıxış edərək kişinin güclü, müstəqil, aktiv, aqressiv, şəxsi nailiyyətlərə yönəlmiş və s., qadının isə zərif, dözümlü, zərif, asılı, emosional, nəzakətli, ailənin maraqlarına istiqamətlənmiş olmasına xüsusi diqqət yetirilir.

Uşağın gələcək kişi və qadın kimi formalaşmasının əsası ailədə qoyulur. Oğlan və qızlar doğulduqları gündən gələcək kişi və qadın rollarına hazırlanır, rollara uyğun onlara milli xarakter keyfiyyətləri aşılanır. Oğlan uşaqlarına kişi dəyanəti, qeyrəti, cəsurluq, mərdlik, alicənablıq, igidlik kimi milli xarakter əlamətlərinin aşılanmasında atalar daha çox rol oynayırlar. Azərbaycanlı ata ilk növbədə oğluna kişilik, bütövlük, namusluluq, Vətən təəssübkeşliyi, milli ləyaqət aşılamalıdır. Azərbaycanlı oğul cəsur, mərd olmalı, anasının, bacısının namusunu qorumalı, Vətəni mübariz əsgər kimi yadellilərdən qəhrəmanlıqla müdafiə etməlidir [5, s.75-76].

Qızlarda oğlanlarla bərabər formalaşdırılan cəsurluq, mərdlik kimi milli xarakter əlamətləri azərbaycanlıların sosial mühiti və psixologiyasının əksidir. Bu etnos daxilindəki cinslərarası münasibətləri göstərir. “Aslanın erkəyi dişisi olmaz” sözü Azərbaycan milli şüurunun qadına

verdiyi dəyərdir. Həqiqətən də xalqımız qadına və qadınlığa böyük hörmətlə yanaşmış, onun şərəf və namusunu, ləyaqət və mənliyini uca tutmuş, ölməz Hüseyin Cavidin yazdığı kimi, "sürüklənən bəşəriyyət qadınla yüksələcək" inam və etiqad göstərmişdir.

Azərbaycan cəmiyyətində qadın və kişi xarakterləri üçün müəyyən rol gözləmələri mövcuddur. Qadının səliqəliliyi, mehribanlılığı, ünsiyyətcilliyi, namusluluğu, abırlılığı daim diqqət mərkəzində olur. Onun tam sərbəstliyi qəbul edilmir, müəyyən mənada o həmişə idarə olunur. Ailədə və cəmiyyətdə kişi nüfuzunu qeyd-şərtsiz qəbul etməsi onun müsbət cəhəti kimi dəyərləndirilir. Müasir dövrdə qadınların təhsil alması və iş həyatlarını qurması onun milli xarakterində müəyyən dəyişikliklərin yaranmasına səbəb olmuşdur. Onlarda sərbəstlik, özünəinam artmışdır. Karyera qurmasına baxmayaraq Azərbaycan qadını milli dəyərlərdən imtina etməz, lazım gələrsə bu dəyərlər üçün karyerasından imtina edər. Onlar həm karyerasını davam etdirir həm də ailəcanlılığı, qonaqpərvərliyi və təvazökarlığı ilə seçilir. Azərbaycan qadını bütün xüsusiyyətləri ilə bəşəriyyətin qadın dəyərlərinin ən gözəl daşıyıcılarındandır.

Qeyd etmək lazımdır ki, müasir cəmiyyətimizdə yeniyetmələrdə, xüsusilə qızlarda ya ifrat avropalaşma, ya da dinə meyillilik halları da artmaqdadır. Əslində bu prosesdə hələ də bir çox problemlər, natamamlıqlar özünü göstərməkdədir. Məsələn, biz Qərb sivilizasiyası deyəndə yalnız geyimi, rok-pop musiqisini, lüks həyatı anlayırıq. Amma nədənsə Avropa dəyərlərini, mədəniyyətini, etikasını, təhsilini, özünüdərkini, insana verdiyi dəyərini hələ də anlamamışıq və bəlkə də anlayırıq amma qəbul etmək istəmirik. Bu kimi halların səbəbləri müxtəlif ola bilər. Əvvəla, müasir ailə tərbiyəsi də bir çox hallarda ya tamamilə əks qütblərə ayırma, yaxud da bu fərqlərə tamamilə biganə yanaşma əsasında qurulur. Ya oğlanın qızla, qızın oğlanla əlbir fəaliyyəti qadağan olunur, əks cins haqqında düşmən obrazı yaradılır, yaxud da oğlan qız təbiətli, qız oğlan təbiətli böyüdülür. Bu hallar hər iki cinsə eyni dərəcdə zərərlidir. Birinci halda ailə həyatın hazırlıq, qarşılıqlı güzəşt, hörmət yox olur, ikinci halda hər iki cinsin özünəməxsusluğu itir.

Müşahidələr göstərir ki, Azərbaycan şəraitində valideynlər və ətrafdakı adamlar qızlara təlqin edirlər ki, onlar özlərini "balaca xanım" kimi aparmalıdırlar. Bu xanımlar oğlan kimi bərkdən qışqırmırlar. Əgər qızlar hirslənirsə, onları daha sərt cəzalandırırlar. Çılğınlığı oğlanlar üçün səciyyəvi sayırlar və onların özlərini belə aparmasına icazə verirlər. Qızlardan isə sözə qulaq asmağı və tabe olmağı gözləyirlər. Bəlkə də ona görədir ki, Azərbaycan mühitində avropalaşmaya meyl oğlanlar arasında üstünlük təşkil edir. Xüsusilə yeniyetməlik yaş dövrü bu hal üçün səciyyəvidir. Nəzərə almaq lazımdır ki, oğlanlarda milli xarakter haqqında təsəvvürlərin formalaşmasında atanın, qızlarda isə ananın rolu əvəzolunmazdır. Oğlan atanın anaya münasibətini, qız isə ananın ataya münasibətini görməklə cinslərarası münasibətlər inkişaf edir.

Müasir dövrdə qadınlarla bərabər kişi xarakterində də müəyyən dəyişiklik baş verir. Azərbaycan kişi xarakteri sərtliyindən bir az daha mülayimləşməyə doğru gedir. Bəzi məsələlərdə bunu müsbət, bəzi məsələlərdə isə mənfi hal kimi qeyd etmək olar. İndiki dövrdə sözübütövlülüyün zəifləməsini bunun mənfi nəticəsi kimi götürmək olar. Gənc qızların isə son zamanlar daha çox kişi xarakterində böyüdülməsi və kişi kimi davranma hallarına rast gəlinir. Çalışmaq lazımdır ki, bu hallar aradan qaldırılsın. Bu gün ailələrimizin ən ümdə vəzifəsi yeniyetmələrimizin Azərbaycan xalqına xas olan milli-mənəvi ənənələr əsasında tərbiyə edilməsi ilə bağlıdır. Bu gün təhsil, təlim,

onun məzmunu milli xarakterimizə əsaslanmalıdır. Mənbə isə “Kitabi Dədə Qorqud”da, Nizaminin Xəmsəsində və digər bu kimi əsərlərdədir. Zamanın gərdişiylə təbiətimizə kök salmış bir çox nöqsan, yaramazlıqlardan bu yolla xilas ola bilərik.

**Açar sözləri:** Yeniyetmə, tərbiyə, milli xarakter, cinsi fərqlər, milli xüsusiyyətlər.

### Ədəbiyyat

1. Ağayev İ. Müasir şəraitdə Azərbaycanda milli etnik proseslər. Bakı MBM, 2006, 180s.
2. Baxşəliyev Ə.T. Azərbaycan milli-mənəvi dəyərlərinin sosial-psixoloji mahiyyəti. Bakı, 2011.
3. Cabbarov R.V. Yeniyetmələrdə özünüdərketmə prosesinin psixoloji təhlili. Bakı, 2004, 150s.
4. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı.1998, 368s.
5. Əliyev R.İ. Etnopsixologiya, qloballaşma və millilik, Bakı, 2007, 215 s.
6. Əlizadə Ə.Ə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. Psixoloji problemlər. Bakı:Maarif, 1986.

### Gender aspects of the national character formation in teenagers

The period of adolescence covers a cycle of between 10 and 11 years of age, from 14 to 15 years. At this age, adolescents have the same gender roles as gender, self-esteem and sex. Gender roles mean expected behavioral patterns for women and men. Male and female roles are relative, meaning that these roles are different in each society. Individuals are influenced by the gender system since their birth. The ceremonies, items taken from them on the first day, and the manner in which they behave, are carried out under the influence of such sexual roles, and the gender system is taken into account. In the education process family, education system (educators and teachers in child care institutions), culture (books and mass media) are the place where the norms of the children's brain are shaped, formulate certain behavioral rules, and imply that they are "noble men" and what the "real woman" is. It follows from this that the gender system has a great impact on the preservation, shaping and strengthening of national characteristics, in particular the national character.

## ИЗМЕНЕНИЕ ОТНОШЕНИЯ К РОЛИ ЖЕНЩИНЫ В ОБЩЕСТВЕ
## (на примере Азербайджана)

**Севиндж Алиева**
Институт Истории им. А.Бакиханова НАНА, Баку, Азербайджан
e-mail: sevincaliyeva2000@gmail.com

Как и во всем Востоке роль мусульманской женщины в Азербайджане к началу XX века была минимальной. Женщина в восточной культуре воспринималась как хранительница семейного очага. Мужчина в восточном обществе должен был обеспечивать и охранять свою семью. «Дом» как категория априори считался «миром женщин».

Общественные роли мужчины и женщины, гендерные отношения претерпевали изменения в результате следующих мероприятий со стороны самого государства: принятие и распространение законов, обеспечивающих право равенства мужчин и женщин; всеобщее образование, просвещение; влияние передовых взглядов, почерпнутых из иностранной литературы, печати и т.д.; осознание гендерных проблем, связанные с ними переживания и осмысление несправедливости, восприятие различия мужского и женского как неравенство возможностей.

В период Азербайджанской Демократической Республики (1918-1920) был провозглашен демократический строй, гражданские права и свободы, впервые женщине были даны права. Это отразилось на участии женщин в жизни общества и страны. В законе «О выборах в Учредительное Собрание Азербайджанской Республики», принятого Парламентом Азербайджанской Республики 21 июля 1919 года отмечалось: «Учредительное собрание образуется из членов, избранных населением на основе всеобщего без различия пола и равного избирательного права, посредством прямых выборов и тайного голосования, с применением начала пропорционального представительства». В 3 третьем пункте, Главы II значилось: «Правом участия в выборах в Учредительное собрание пользуются граждане республики обоего пола, коим ко дню выборов исполняется 20 лет» [1, s.75].

Существенные изменения произошли в период советской власти. Одной из задач советской власти стала борьба с религией, религиозными и патриархальными пережитками. В Азербайджане это вылилось в борьбу с ношением чадры, которая рассматривалась как средство угнетения женщин, способ патриархального контроля над ними, а также элемент, скрывающий и искажающий человеческую идентичность. Привлечение женщин к работе и учебе было добровольно-принудительным. Регламентировалось число женщин на руководящих должностях, даже представительство в Верховном Совете СССР. Существенные перемены в советское время привели к привлечению женщин во все сферы жизнедеятельности и выравниванию зарплат мужчин и женщин, работающих по одной специальности. Благодаря этой политике, в советское время появились женские кадры. Женщины, занятые на производстве стали экономически независимыми от мужчин. При этом, государство социально обеспечивала и поддерживала матерей-работниц. Система квот для женщин, партийные структуры женотделов (1919-1930), пособия материям, ограничение труда женщин на вредных и тяжелых работах, - защищали женщин как отдельную категорию населения. Индустриализация сопровождалась жилищной политикой, предоставлением льгот многодетным и одиноким материям, расширением сети детских садов и т.д., облегчавшим положение женщин. В результате опроса[2] мужчин с высшим образованием 1950-1970 г.р., изменение роли женщины в обществе было оценено как необходимый процесс. Отвечая на вопрос, как мужчины отнеслись к изменению роли женщин в обществе, они ответили, что в случаях, когда на содержание семьи не хватает средств одного мужчины, работа женской части семьи поощряется. Они подчеркнули меркантильный интерес, необходимость пополнения бюджета семьи. Мужчина (отец, муж, брат, т.е. мужчина главный в семье),

[2] Автор провел социологические исследования в мае-июне 2018 года.

разрешая жене работать, не исходит из того, что она имеет равные права с ним. Все респонденты подчеркнули, что мужчины, которые хотели бы или хотят, чтобы женщина работала, имеют финансовый интерес. При этом стоит отметить, что Азербайджан можно разделить на город Баку и остальную часть страны, т.е. провинциальные города, районы и села. И отношение к поставленной проблеме в них разное [2, s.26]. В результате армяно-азербайджанского нагорно-карабахского конфликта и социально-экономических тягот начала 1990-х годов, в Азербайджане много мужчин погибло на войне или было покалечено, многие уехали на заработки в ближнее зарубежье. Все тяготы легли на плечи женщин и это вынудило их примерить на себе новые обязанности. Со временем ситуация стабилизировалась, но отныне отношение к работающим и активным женщинам в обществе было также стабильным.

По опубликованным данным за 2009 год, Азербайджан по деловой активности женщин занимает 32 место среди 134 стран, а по разнице в зарплате за один и тот же труд наравне с мужчинами - 14 место, по возможности женщин занимать руководящую должность - на 118 месте [3, s.31]. В Азербайджане в последнее время появилась прослойка женщин-предпринимателей. По данным статистики, женщины-предприниматели без образования юридического лица, составляют 17% [4, s.285]. Респонденты, опрошенные нами, подчеркивают огромную прогрессивную роль зарубежного телевидения на сознание и мышление современной женщины. При этом, критикуется местное телевидение, отсутствие образовательных программ. Все респонденты отмечают, что активность женщин в общественной жизни позволяет ей самоутверждаться и развиваться. Главный тезис – даже образованная женщина только дома, без живого общения с социумом не может развиваться в должной степени. По существующему мнению, в современном Азербайджане женщины хоть и имеют права, но социальная дискриминация женщин по-прежнему существует. Респонденты признали, женщины не могут в полной мере воспользоваться своими правами и бороться за свои интересы. Сводки СМИ пестрят сообщениями о самоубийствах женщин и насилием над ними. И сегодня некоторые женщины терпят гнет в семье, мужчины ограничивают круг их общения, лишают возможности свободного передвижения, не разрешают работать. При этом, заставляют женщину выполнять все обязанности по дому. Со временем, когда проходит молодость и женщина обременена детьми, ей могут позволить работать. Но, как правило, такая женщина не имеет опыта работы, должного образования, подготовки и не может претендовать на приличную работу. Зарплата жены не интересует, может быть, только 5% мужчин. Считается, что женщина после развода становится более свободной, она вынуждена «вертеться», выживать, но при этом над ней не властвует муж и не стесняет ее действия. Если раньше меньше отцов и мужей хотели бы, чтобы их дочери и жены получили профессию и работали, то сейчас намного больше. Мужчины называют один мотив: женщина должна сама зарабатывать и ценить заработок мужчины, вносить свой материальный вклад в дом. Сегодня при выборе невестки или жены, руководствуются принципом: образованная или работающая женщина принесет материальную выгоду, будет

подспорьем для бюджета семьи. В тоже время, многие образованные мужчины стремятся к браку с образованной девушкой для лучшего взаимопонимания. Но при этом часть мужчин думает: «А зачем мне нужна ее работа?». В ходе опроса учителей мужчин разных районов Азербайджанской Республики, выяснилось, что мужчины привыкают к возрастанию роли женщин в обществе. Мужчины вынуждены смириться с социально активными женщинами, т.к. если женщина не будет работать, семье будет трудно. По мнению 95% опрошенных мужчин, женщина может быть учительницей, врачом. И ей разрешается работать ради материального благополучия семьи. Не всем, получившим высшее образование девушкам, мужья разрешают работать. Такие мужчины подчеркивают, что свои знания и культуру она передаст своим детям и этого достаточно. Некоторые родители, создавая условия для карьерного роста своих дочерей, надеются, что это позволит им быть независимыми или поможет в трудное время самой стать на ноги и обеспечить себя. Если 50-60 лет назад, признается старшее поколение, женить детей было легче, то сегодня – это очень трудно. Проблема в социально-экономических реалиях, очень много материальных проблем. Или родители должны помочь молодым или молодые сами должны себя обеспечивать. Поэтому необходимость работающей женщины в семье возрастает как потребность. Практически все опрошенные мужчины и большинство женщин подчеркнули, что хотели бы работать под началом руководителя – женщины, т.к. с ней удобней, легче, лучше, женщины-директора способны пойти на встречу, менее склонны к риску и конфликту, они добрее и мягче. Таким образом, обращается внимание на эмоциональность, коммерциализацию эмоций и гендерных стереотипов. Между тем, закон не имеет гендерной привязанности, профессионализм и квалификация прописаны во всех конкурсах на должность учителя и руководителя школы.

Если 20 лет назад в районах Азербайджана невозможно было практически увидеть женщину за рулем, то теперь этим никого не удивишь. Отношение к деловой и современной женщине в районах позитивное. На вопрос, смирились ли мужчины или они проявляют уважение и признают женские права, подавляющее большинство ответили, что принятие новой современной женщины: деловой, успешной и активной – нормально. При этом все подчеркивают позитивное, положительное отношение к образованной женщине.

Для полного решения всех этих проблем необходима жесткая позиция государства, усиление просветительской и диагностической деятельности общественных организаций. Социальная активность и роль женщин в обществе признана необходимой и прогрессивной. Отношение к возрастающей роли женщины в обществе позитивное. Отношение это формируется на основании объективных и субъективных факторов: глобализация, модернизация, роль СМИ, вестернизация, влияние урбанизации и т.д. Стремление женщин занять достойное место в обществе нарастает. Для достижения этой цели, необходимо с самого рождения заниматься не только образованием, но и воспитанием детей. Воспитание и кругозор, заложенные в ребенка в семье и укрепляющиеся в школе, а также достойный уровень образования позволят и женщине быть достойной частью общества, и мужчине быть на высоте и с уважением относиться к женщинам. Активность женщин в социуме влияет на ее статус, моральное удовлетворение и запросы самого социума. В азербайджанском

обществе в целом положительное отношение к женщинам, ориентированным на успех. Достижение гендерного равенства и утверждение прав человека имеет как практическую, так и эмоциональную пользу.

**Ключевые слова**: Азербайджанское общество, проблема женщин, современное мышление, право, опрос.

**Литература**

1. Положение о выборах в Учредительное собрание Азербайджанской Республики, Азербайджанская Демократическая Республика (1918 1920 гг.). Законодательные акты (Сборник документов). Баку, издательство «Азербайджан», 21 июля, 1998, с.75.
2. Azərbaycanda gender münasibətləri: meyllər və cəhdlər. Bakı: BMTİP, 2007.
3. Gender Bərabərliyi və Qadın Təşəbbüsləri İctimai Birliyi. Rüblük Bülleten (1) № 2. Oktyabr, Noyabr, Dekabr 2009.
4. Xalqa həsr olunan illər. Bakı: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2013.

## Changing attitudes to the role of women in society (on the example of Azerbaijan)

Based on an analysis of a sociological survey and a study of published data, the article examines how attitudes toward the role of women in Azerbaijani society have changed.

# QƏDİM TARİXDƏ TÜRK QADININ ROLUNA DAİR

**Qüdrətxanım Əliyeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan

Keçmişdə türk qadının rolu nə idi, ona münasibət necə idi? Türk qadını Avropa, Afrika, Ərəb qadını kimi deyildi. Onlar at çapmaqda, qılınc oynatmaqda məharətli idilər, kişilərlə bərabər hüquqa malik idilər.

Doğrudur, qədim və orta əsrlər köçərilərinin cəmiyyətlərində baş rol kişi döyüşçüyə məxsus idi. Bununla yanaşı, İskit-Sarmatiya dövrünün "görkəmli" qadınlarının dəfn olunduğu yerlər onların cəmiyyətdə kifayət qədər yüksək yer tutduqlarına və onların sosial rolunun yalnız ev işləri ilə məhdudlaşmadığına dəlalət edir. İnventarizasiya baxımından qadın döyüşçülərə aid dəfn yerləri kişilərinkinə nisbətən daha zəngindir [14, s.109-127]. Bir çox tədqiqatçının əsərində əvvəldən qədim türklərin cəmiyyətində qadının olduqca yüksək mövqeyi, ev təsərrüfatındakı rolu haqqında qəti fikir formalaşmışdır [5, s.74-75].

Türk sosioloqu M. Ziya (Gök Alp) hesab edirdi ki, İslamdan əvvəlki türklər arasında qadınların zadəganların yığıncaqlarında iştirak etmək (toy, qurultay) hüququ var idi və xaqan həyat

yoldaşı xatun ilə birlikdə qərarlar verirdi [6, s.90-91]. Buna baxmayaraq, türklərin ənənəvi ailələri ata-baba, patriarxal xarakterə sahib idilər [7, s.127–128; 8, s.136–137; 9, s.65-66].

Qadın əsasən ev təsərrüfatı ilə məşğul olur, kişi isə ovçuluq edir, müharibədə döyüşür və mal-qara və qoyun-keçini otarmaqla məşğul olurdu (baxmayaraq ki, qadınlar da mal-qaranı otarmaqla məşğul olurdular). Çingiz xana aid edilən belə bir fikir vardır: "Kişi günəş deyil ki, hər kəsə hər yerdə eyni zamanda görünsün. Qadın, həyat yoldaşı ova və ya döyüşə getdikdə, evi səliqəli saxlamalıdır ki, səfir və ya qonaq gəldikdə görsün ki, hər şey qaydasındadır. Qadın qonaq üçün yaxşı yemək hazırlasın, nə lazımdırsa onu etsin. Belə həyat yoldaşı təbii ki, ərinin nüfuzunu artırır, adını ucaldır və ictimai yığıncaqlarda əri dağ kimi ucalır. Ərin yaxşı keyfiyyətləri arvadın yaxşı keyfiyyətləri ilə tanınır. Əgər qadın ağılsız və şərəfsizdirsə, onda ər də ona görə tanınır! " (10, s. 261). Bir köçəri üçün ideal qadın stereotipi Oğuz epik eposu olan "Kitab-i Dədə Qorqud"-da öz əksini tapmışdır: "Evin dirəyi odur ki, çöldən evə qonaq gələndə, əri ovda olanda, o qonağı yedirtsin, içirtsin, hörmət etsin və yola salsın" [11, s.13].

Ancaq qadınların rolu təsərrüfat ilə məhdudlaşmırdı. "Tszyu Tan Şu" da "şimal barbarlarının adətlərinə görə qadınlar (xatun) hərbi tədbirlərdə iştirak edirlər" - mesajı var. İbn Əl-Cahiz türk qadınları haqqında yazmışdır: " Qadınlar öz ərlərinə bənzəyirlər, onların atları isə yalnız onlar üçün uyğunlaşdırılır" [13, s.339-343].

"Kitab-i Dədə Qorqud" eposunda belə bir epizod vardır: toy yaşına çatmış oğul atasının - "hansı qadını istəyirsən?" - sualına belə cavab verir: "Ata, mən belə arvad istəyirəm: Mən yerimdən qalxmamış, qoy o, yerindən qalxsın. Mən öz atıma minməmiş qoy o, minsin. Qaniçən gavurların yanına mən getməmiş, qoy o getsin və onun başını gətirsin"

At sürmə, at capma yarışlarında türk qadınları kişilərdən geri qalmırdılar, bəzən döyüşlərdə də iştirak edirdilər.

İskit türklərinin qadınları ictimai, siyasi, hərbi və iqtisadi həyatda əhəmiyyəti ilə fərqlənirdi. Onlar "amazonlar" adı ilə məşhur idilər. Qədim Yunan və Roma əfsanələrində amazon qadınların qəhrəmanlığından, döyüşkənliyindən bəhs edilir [13, s.339-343]. Bu döyüşçü türk qadınları dövrün digər qəbilələrinin qadınlarının heç vaxt malik ola bilmədikləri hüquqlara sahib idilər. Heredotun "Tarix" əsərində dünyanın ilk qadın hökmdarı kimi massagetlərin başçısı Tomris haqqında məlumat verilmişdir.

İskitlərlə eyni dövrdə yaşamış Aşşur qadınlarının hüquqları çox məhdud idi. Onlar saraydan kənara tək başına çıxa bilməz, ailə üzvlərindən başqa kişiylə danışa bilməzdi [1, s.187-194].

Demokratiyanın əsası qoyulan Qədim Yunanıstanda qadının haqları yetkin yaşına çatmayan uşağın haqları qədər idi [2, s.87]. Qədim Spartada qadına mülk və miras hüququ verilirdi. Lakin bütün Qədim Yunanıstanda qadının təhsil alma hüququ yox idi.

Bütün digər qədim dövlətlərdə qadınlar bu səviyyədə məhdud bir həyat yaşasalar da, İskit qadınları cəmiyyətdə yüksək hörmətə və mövqeyə sahib idilər. Bunun nəticəsi olaraq digər xalqlar "amazon" qadını mifik obrazını yaratmışdılar. Bu faktlar türk xalqlarının yaratdıqları dövlətlərdə qadın və kişi bərabərliyi olduğuna sübutdur. Türk cəmiyyətində qadınların üstünlüyü iskitlərdən sonra da davam etmişdir. Sonrakı dövrdə hunlarda, göytürklərdə və uyğurlarda qadınlar hər sahədə kişilərlə bərabər hesab olunurdu. Türklər İslamı qəbul etdikdən sonra köhnə inanclarını və adət-

ənənələrini İslam mədəniyyətinə uyğunlaşdırdılar. Ərəb tarixçisi ət-Təbəri və ibn Batuta qeyd etmişlər ki, türklər çox döyüşçü millətdir, lakin qadına çox dəyər verirlər [3].

Qədimdə cəmiyyətdə türk qadını ilə Çindəki qadınların rolu, onlara verilən qiymət aşağıda qeyd edilən faktlarda özünü daha aydın birüzə verir. Belə ki, Çində kişilər həmişə üstünlük təşkil etmiş, qadınlar isə həmişə alçaldılmışdır. Hətta qadına ad belə verilmirdi. Çində kişilərin qadınlar üzərində qurduğu üstünlük Çin fəlsəfəsinə əsaslanırdı. Bu fəlsəfəyə görə dünya Yin və Yang adı verilən 2 hissədən ibarətdir. Yin qadınları, Yang isə kişiləri təmsil edirdi.Yin qaranlıq, passiv, zəif tərəf idi. Yang isə aydınlıq, aktiv, güclü tərəf idi. Bu ideyalogiya əsrlər boyu Çində insanların həyatının parçası olmuşdur [4, s.59].

Slavyanlar da qadını əşya kimi görürdülər. Onlar qadını "zodruga" (əşya) adlandırırdılar. İngiltərədə qadına orta yüzilliklərdə murdar varlıq kimi baxılırdı və onların İncilə əl vurması qadağan idi. XI əsrə qədər ərlər arvadlarını sata bilərdilər. Avropada xristianlar qadını şeytan kimi görürdülər. İslam dininə qədər ərəblər qız uşaqlarını diri-diri basdırırdılar. Həmən dövrdə türk aləmində qadınların vəziyyəti başqa idi.

Bütün bu faktlardan belə bir nəticəyə gəlmək olar ki, tarix boyu türklər qədər qadına dəyər verən, qadını ucaldan tayfa, xalq olmamışdır. Türk qadını daima hürr və azad yaşamışdır. Onlar döyüşlərdə iştirak etmiş, şeir yazmış, ailəsinə baxmışdır. Və bu baxımdan müasir türk dövlətlərinin kişiləri sələflərinə sadiqlik nümayiş etdirərək tarixi ənənələri qoruyur, əcdadlarının qadına necə yüksək dəyər verdiklərini unutmurlar.

**Açar sözləri**: türk, qadın, gender, haqq, tarix.

### Ədəbiyyat

1. Brooks B.A. Some Observations Concerning Ancient Mesopotomian Women, The American Journal of Semitic Languages and Literatures, s. 3, 1923.
2. Sowerby R. Yunan Kültür Tarihi, Çev. Ö. Umut Hoşafçı, İnkılap Yayınları, İstanbul, 2012.
3. Karaman S. İbn-Battuta'ya Göre 14. Yüzyılda Anadolu, 2015, Kozmos Yayınları.
4. Guisso R.W. Women İn China, Philo Press, United States of America, 1981.
5. Гумилев Л.Н. 1993. Древние тюрки. М.: Клышников, 1993.
6. Gökalp Z. Türklerde Milli İktisat Devreleri. B: Gökalp, Z., Makaleler VIII. Ankara: Gündüz Matbaası, 1981.
7. Zeki Validi Togan, A. Ibn Faḍlān's Reisebericht. Leipzig: Kommissionsverlag F. A. Brockhaus. 1939.
8. İnan, A. Göçebe Türk Boylarında Evlâtlık Müesseseleriyle İlgili Gelenekler. Ankara Üniversitesi Dil ve Tarih-Coğrafya Fakültesi Dergisi VI/3, 1948.
9. Андреев. И. Г. Описание средней орды киргиз-кайсаков. Алматы: Гылым, 1998.
10. Рашид ад-Дин. Сборник летописей. Т. 1. Кн. 2. М.; Л.: АН СССР. 1952.
11. Бартольд, В. В. Книга моего деда Коркута. Огузский героический эпос. М.; Л.:Наука. 1962.

12. Асадов. Ф. М. (пер.). Арабские источники о тюрках в раннее Средневековье. Баку: Элм. 1993.
13. Herodotos. Tarih, Çev. M. Ökmen, Türkiye İş Bankası Yayınları, İstanbul, 2011.
14. Тишин В.В., Серегин Н.Н. Положение женщины в древнетюркском обществе, Историческая психология и социология истории. 2015, Том 8, № 1.

**In ancient history the Turkish woman's role**

The article talks about gender and the role of women in Turkish history. The analysis of ancient Turkic peoples' attitudes towards women and the attitude of other nations to women was analyzed.

## TƏRBİYƏDƏ FEMİNİZASİYA VƏ MASKULİNİZASİYA PROBLEMİ

**Hikmət Əlizadə**
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
e-mail: hikmet56@gmail.com

Hələ qədim zamanlarda qız və oğlan ideallarının güzəran psixologiyasında xüsusi əhəmiyyət kəsb etdiyi bir şəraitdə maraqlı psixoloji fenomen ata-babalarımızın diqqətini özünə cəlb etmişdi. Onlar bəzi oğlanların, tutaq ki, xasiyyətcə daha çox qıza, bəzi qızların isə oğlana oxşamasını müşahidə etmişdilər. Güzəran psixologiyasında "qızbacı", "oğlanabənzər qız" anlayışları əmələ gəlmişdi [1].

Ağız ədəbiyyatında elin-obanın kişi və qadın ölçülərinə sığmayan bu oğlan və qızlar barəsində o qədər məzəli deyimləri var ki…. Onların hamısında da bir cəhət aydın nəzərə çarpır: el-oba "qızbacı" oğlanları da, "oğlanabənzər" qızları rəğbətləndirmir, təqdir etmirdilər. Onlardan həminə rişxəndlə, kinayə ilə danışır, yeri gələndə, duzlu-məzəli sözlərlə ələ salırdılar… El-obanın gözündə kişilik və qadınlığın nəinki özünəməxsus bənzərsiz anlamı, həm də sərt ölçüləri var idi.

Psixologiyada "Qızbacı" oğlanların və "oğlanabənzər" qızların, psixoloji portretini feminizasiya (latınca-feminius-qadınaməxsus) və maskulinizasiya (masculinus-kişiyəməxsus) terminləri ilə təsvir edirlər. Feminizasiya və maskulinizasiya effektləri diqqəti çoxdan çəksədə, bir elmi fakt kimi əsasən XIX yüzilliyin sonlarında dərk olunmağa başlayıb.

Mürəkkəb ailədə oğlan və qız tərbiyəsi sahəsində bərqərar olmuş ənənələrə ciddi əməl olunurdu. Bu şəraitdə feminizasiya və maskulinizasiya effektləri yalnız tək-tək hallarda müşahidə olunurdu. Bu hallar daha çox uşaqların temperament xüsusiyyətləri kökündə əmələ gəlirdi. Məsələn, melanxolik oğlanlarda qız uşağı üçün səciyyəvi əlamətləri və ya xolerik təbiətli qızlarda oğlan xüsusiyyətləri özünü göstərirdi.

Keçən əsrin 60-70-ci illərində ailədə baş verən köklü demoqrafik dəyişikliklər, xüsusilə nuklear ailənin əmələ gəlməsi, ailədə uşaqların sayının kəskin surətdə azalması və s. nəticəsində feminizasiya və maskulinizasiya problemi feminizasiya və maskulinizasiya problemi feminizasiya

və maskulinizasiya problemi yeni məzmun kəsb etdi, urbanizasiya şəraitində isə geniş şəkildə özünü göstərdi və diqqəti elə bu yönümdə daha çox cəlb etdi [3, s.11-20].

80-90-cı illərdə qender məsələsi aktuallaşanda feminizasiya və maskulinizasiya problemi daha çox gündəmi zəbt etdi. Bu ilk növbədə gender bərabərliyi probleminin məzmununun gənclər arasında düzgün dərk edilməməsinin nəticəsi kimi qiymətləndirilməlidir.

Feminizasiya əlamətləri əlverişli şəraitdə bəzi oğlan uşaqlarının, ilk növbədə, tələbat-motivasiya sahəsində, iradi keyftyyətlərinin və xarakter əlamətlərinin dinamikasında özünü göstərir: bu oğlan uşaqları səhərdən axşamacan qız kimi güzgü ilə oynayır, bəzənib-düzənməyi xoşlayır, saç düzümündə, geyim tərzində qadınsayağı ünsürlərdən həvəslə istifadə edir, kiməsə işləri düşəndə əzilib-büzülür, nazlana-nazlana danışır, bərkə düşəndə isə gözləri yaşarır, qorxaqlıq göstərir, qətiyyətli addım ata bimırlər. Evdə, məktəbdə, küçədə özlərini sakit aparır, heç kəsə dəyib-dolaşmırlar…[2, s.89-91].

Qəribə də olsa, oğlanların feminizasiyası ilə paralel olaraq qızların maskulinizasiya prosesi də sürətlə artır. Bəzi müəlliflərin qeyd etdikləri kimi, qızların bir çoxu artıq özünü oğlan üsulları ilə tətbiq etməyə başlamışdır. Onlar oğlan kimi şalvar geyir, oğlan ədalarına yiyələnirlər. Görəsən, bu gün diqqəti daha çox cəlb edən və günü-gündən artan belə faktlar nə ilə şərtlənir?

Feminizasiya effektlərini təhlil edəndə sosioloqlar və psixoloqlar diqqəti oğlanların tərbiyəsində qadınların – evdə ananın, məktəbdə isə çoxluq təşkil edən qadın müəllimlərin daha fəal rol oynaması faktına cəlb edirlər: günün çox hissəsini qadınlarla ünsiyyət şəraitində keçirən oğlan uşaqlarının çox vaxt onların təkcə düşüncə tərzini götürmür, həm də məhz qadın meyarlarını mənimsəyir, başqa sözlə, dünyaya qadın gözü ilə baxmağa başlayırlar.

Bəs maskulinizasiya efektlərini nə ilə izah etmək olar? Qızlar cinsi mənlik şüurunun formalaşması baxımından əlverişli şəraitdə böyüyürlər: evdə ana ilə, məktəbdə isə çoxluq təşkil edən qadın müəllimlərlə ünsüyyətdə olur, əsasən qızlarla oturub-dururlar. Sinifdə oğlanlarla ünsiyyət şəraitində («oğlanlar–biz» dixotomiyası ölçüləri ilə ) isə öz cinslərinin xüsusiyyətlərini daha yaxşı dərk edirlər. Ancaq bununla belə onların bir çoxu oğlanlara həsəd aparır, özünü həvəslə oğlanlara oxşatmaq istəyir və oxşadırda…

Müxtəlif faktların təhlili aydın şəkildə göstərir ki, feminizasiya və maskulinizasiya effektlərinin kökləri daha dərindir, hər şeydən öncə, ailə tərbiyəsinin özünün xüsusiyyətləri ilə, ailədə uşaq üçün yaranmış sosial inkişaf şəraiti ilə bağlıdır (3,203-215). Bəzi ailələrdə, xüsusilə şəhər yerlərində oğlan və qız uşaqlarının tərbiyəsi bu sahədə əmələ gəlmiş və neçə-neçə nəslin təcrübəsində sınaqdan çıxmış ənənələrlə, sadəcə olaraq səsləşmir.

Təsəvvür edin ki, evdə aman-güman bircə oğlan uşağı böyüyür. Ana-ata onun üstündə yarpaq kimi əsirlər, gözlərindən uzağa qoymurlar. Günü evdə kompyuterə və əyləncəli teleproqramlara baxmaqla keçir. Onun yaxşı təhsil almasına xüsusi diqqət yetirirlər, repititorlar tuturlar, ingilis dili öyrədirlər, musiqi məşğələlərinə aparırlar. Ancaq tərbiyəsinə, şəxsiyyət kimi formalaşmasına əhəmiyyət vermirlər. Evdə-eşikdə onları yerli-yersiz qorxudurlar və bu vahimə ovqatında böyüdürlər. Vuruşma, qaçma, gecə vaxtı küçəyə tək çıxma…. bununla da onda əslində kişi başlancığını məhv edirlər. Bu oğlan uşaqlarının bütün problemlərini valideynlərin özləri həll edəndə

onda dözümlülük, mərdlik, qətiyyətlilik, qorxmazlıq kimi kişi məziyyətlərinin formalaşması qayğısına nəinki qalmırlar, hətta onda özünü göstərən qız məziyyətlərini görmürlər. Təəssüf ki, nəinki valideynlər, həm də müəllmlər çox vaxt oğlan uşaqlarının «sakit», «sözə baxan» olmasını «heç kəslə vuruşmamasını» rəğbətləndirirlər.

Çağdaş Azərbaycan ailəsində qız uşaqlarına münasibət köklü şəkildə dəyişilmişdir. Əgər vaxtilə qız doğulanda evdə qəmə-kədərə batırdılarsa, bu gün şadlıq edirlər, sevinirlər və onlara onomastik tədqiqatların göstərdiyi kimi, bir-birindən yaraşıqlı poetik adlar qoyurlar. Onların təhsil almasına xüsusi qayğı göstərirlər. Bir çox hallarda isə… qonşuya baxıb qız uşağını kiçik yaşlarından oğlan sayağı geyindirib-keçirən ana öz övladında qız məziyyətlərinin tərbiyə olunmasına əhəmiyyət vermir. Qız uşağı xüsusilə 2 və ya 3 qardaşın əhatəsində böyüyəndə, öz təbiəti etibarilə xolerik temperament tipinə mənsub olanda, oğlan keyfiyyətlərini daha tez götürür. Ana çox vaxt təcrübəsizlik edib ona evdarlıq vərdişləri aşılamır, qız uşağı üçün səciyyəvi olan kommunikativ keyfiyyətlər tərbiyə etmir, kobüdlüq edəndə, üzə duranda, cavab qaytaranda oğlanvari ədalarına dözür, onun qəlbində nurlanan analıq hikmətinə istiqamət verə bilmir, ailə həyatına hazırlamır…

Feminizasiya və maskulinizasiya effektlərini həyat həqiqətlərinin sərt ölçüləri ilə qiymətləndirdikdə onların birbaşa, dolayı və əlavə nəticələri daha aydın olur: valideynlər də, müəllim və tərbiyəçilər də bu haqda ciddi düşünməlidirlər.

Sosioloqlar, psixoloqlar və pedaqoqlar bu önəmli məsələləri həll etmək üçün yollar axtarırlar. Onlardan bəziləri, hətta oğlanları yay aylarında xüsusi düşərgələrdə, Spartasayağı tərbiyə etməyi, sərt düşərgə şəraitində bərkə-boşa salmaqla kişi məziyyətləri aşılamağı məsləhət görürlər. Bu «layihələr» öz-özlüyündə bəlkə də maraqlı görünür, lakin bizim günlərimizdə onu həyata keçirməyin özünəməxsus çətinlikləri var.

Feminizasiyaya və maskulinizasiya effektlərini vaxtında neytrallaşdırmağın, islah etməyin və aradan qaldırmağın optimal yolu ancaq ailədə qız və oğlan tərbiyəsinin etnopsixoloji və etnopedaqoji köklərini sistemli öyrənməkdən, bu sahədə nəinki ailənin, həm də məktəbin tərbiyə imkanlarından səmərəli istifadə etməkdən ibarətdir.

Azərbaycan ailəsində qız və oğlan tərbiyəsinin özünəməxsus sistemi vardır. Məktəb təcrübəsində isə bu önəmli məsələyə əslində əhəmiyyət verilmir. Müəllimlər və tərbiyəçilər şagirdlərin yaş və fərdi xüsusiyyətlərini bu və ya digər dərəcədə nəzərə alsalar da, cinsi xüsusiyyətlər barəsində aydın təsəvvürə malik deyillər və tərbiyə işində məhz bu sahədə daha ciddi səhvlərə yol verirlər. Səriştəli müəllimlər və ya tərbiyəçilər öz təcrübələrində cins amilini bu və ya digər dərəcədə dəyərləndirirlər, lakin bu köklü məsələlərlə rastlaşanda çox vaxt hər hansı bir işi elmi prinsipə və ya meyara əsasən deyil, daha çox özlərinin valideynlik təcrübəsinə, ana və ya ata fəhminə söykənir və əksər hallarda səhvə yol verirlər. Onlar əslində cins xüsusiyyətlərinin fərqinə varmırlar.

Bir çox ailələrdə qız və oğlanın tərbiyə sahəsində də köklü nöqsanlar özünü göstərir. Məktəb isə bu nöqsanların nəinki islah edə bilmir, hətta neytarallaşdırmaqda çətinlik çəkir…

70-ci illərdə pedaqoqları cinsi xüsusiyyətləri nəzərə almamaqda günahlandırırdılar. Bu ağır, lakin ədalətli ittiham idi. Köklü bir amilin – cins fenomeninin sistemli şəkildə öyrənilməsinin ağır

pedaqoji nəticələri məktəb təcrübəsində addımbaşı hiss olunurdu. 80-ci illərdə isə… artıq uşaqların tərbiyəsi prosesində cinsi xüsusiyyətlərin nəinki nəzərə alınmasının əhəmiyyəti, həm də onun zəruri olması pedaqoqların özləri tərəfindən də bütün aydınlığı ilə dərk edilirdi. Tərbiyə prosesində cinsi xüsusiyyətləri necə nəzərə almaq olar? Bu işin məzmunu və sistemi necə olmalıdır?

Tərbiyə işini optimallaşdırmaq üçün bu məsələləri ətraflı öyrənmək zəruridir. Bizim fikrimizcə, ilk növbədə, xalqımızın oğlan və qız tərbiyəsi sahəsindəki zəngin təcrübəsini sistemli şəkildə öyrənmək, qız və oğlanın bir şəxsiyyət kimi formalaşması prosesinin xüsusiyyətlərini aydınlaşdırmaq, bu əvəzsiz sərvətlər əsasında isə məktəbdə cinsi xüsusiyyətlərin nəzərə alınması yollarını araşdırmaq günün ən vacib problemidir. Şagird şəxsiyyətinin formalaşdırılmasına sistemli yanaşma yeni tərbiyə texnologiyasının əsasını təşkil etməlidir.

**Açar sözlər:** tərbiyə, feminizasiya, maskulinizasiya, cinsi xüsusiyyətlər, mürəkkəb ailə, nuklear ailə.

## Ədəbiyyat

1. Əlizadə Ə.Ə. Azərbaycan güzəran psixologiyası məsələləri. Etnopsixoloji araşdırmalar. I hissə, Bakı, ADPU, 1994, 121 s.
2. Əlizadə Ə.Ə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. Bakı, Maarif, 1986, 236 s.
3. Əlizadə H.Ə. Tərbiyənin demoqrafik problemləri. Bakı, Maarif, 1993, 232 s.

### The problem of feminization and masculinization in education

The article discusses the issues of feminization and masculinization, identifies the ethno-pedagogical roots of the development of girls as boys and boys as girls. Attention is also paid to the rapid spread of feminization and masculinization in the modern period, ways to prevent the development of this social phenomenon are identified. The problem of feminization and masculinization in education.

## OĞUZ CƏMİYYƏTİNDƏ QƏHRƏMAN ƏR-AİLƏ BAŞÇISI KİMİ

**Aynur Fərəcova**
Azərbaycan Texniki Universiteti, Bakı, Azərbaycan
e-mail: karimovaaynur@gmail.com

“Kitabi-Dədə Qorqud” bir dastan kimi “Oğuznamə” epik silsiləsinə daxildir. Dastanda bir çox boyların sonunda boylar “Oğuznamə” adlandırılır. Məsələn, dastanın birinci boyunda: “Dədəm Qorqut boy boyladı, soy soyladı, bu Oğuznaməyi düzdi-qoşdı...” [4, s.41].

Ə.Əsgərə görə, oğuznamələr oğuz etnosunun ədəbi irsidir [3, s.49-53]. Müəllif yazır ki, oğuznamələr türkman dastanlarıdır və onlar bu dastanları özlərinin əcdadları olan oğuzların şanına qoşurdular [2, s.24].

"Kitabi-Dədə Qorqud" bir dastan kimi "Oğuznamə" epik silsiləsinə daxildir. Dastanda bir çox boyların sonunda boylar "Oğuznamə" adlandırılır. Məsələn, dastanın birinci boyunda: "Dədəm Qorqut boy boyladı, soy soyladı, bu Oğuznaməyi düzdi-qoşdı..." [4, s.41].

Ramazan Qafarlı yazır ki, "oğuznamə" türk xalqlarının oğuz qrupunun şifahi epik ənənəsinin nəzm və nəsrlə yaranan eposlarına orta çağların əvvəllərində yazıya alınarkən verilən addır. "Oğuznamə" deyəndə, hər şeydən əvvəl, folklorla yazılı ədəbiyyatın bir nöqtədə birləşdiyi məqam yada düşməlidir. Faktlar göstərir ki, türkün təkcə eposları deyil, başqa folklor əsərlərindən ibarət əlyazma mətnləri də Azərbaycanda XVII-XVIII yüzilliklərdə "oğuznamə" adlandırılırdı [5, s.577].

Buradan məlum olur ki, "Oğuznamə" oğuzların dastanlarının ümumi adıdır. Özü də "Oğuznamə" dedikdə təkcə dastanlar yox, həm də başqa janrlar da, məsələn, atalar sözləri, məsəllər və s. də nəzərdə tutulmuşdur. Bunu nəzərdə tutan Füzuli Bayat yazır ki, oğuzların ictimai-siyasi, tarixi-mifoloji, dini-fəlsəfi görüşlərini, epik-bədii təfəkkürünü əks etdirən nümunələrə elmi ədəbiyyatda "Oğuznamə" deyilir [1, s.255].

"Kitabi-Dədə Qorqud" dastanını bu istiqmətdə nəzərdə keçirdikdə görürük ki, əsərdə qəhrəman və cəmiyyət münasibətləri bir sıra xətləri əhatə edir. Dastanında qəhrəman və cəmiyyət münasibətlərinin öz təcəssümünü tapdığı xətlərdən biri "ər-sevgili qəhrəman" obrazı ilə bağlıdır.Yəni dastanda oğuz igidlərinin bir ailə başçısı, bir qadının əri, bir qızın sevgilisi kimi təsvirləri də birmənalı şəkildə qəhrəmanlığın təcəssümünə xidmət edir. Biz bu zaman baş kəsən, qan tökən, döyüşlərdə hünər göstərən, düşmənə qan udduran qəhrəmanları ailə-məişət planında görürük. Axı bu qəhrəmanlar alp igid olmaqla yanaşı, həm də bir ailənin başçısı, bir xanımın həyat yoldaşı, bir vəfalı qızın nişanlısı, sevgilisidir. Oğuz qəhrəmanlarının həyatına bu yöndən baxış oğuz qəhrəman obrazını daha real, daha əhatəli cizgiləri ilə görməyə imkan verir.Oğuz ərləri nə qədər qəzəbli insan olsalar da, xanımları onları çox sevirlər. Çünki oğuz ərləri sədaqətli, namuslu, ailələrini canlarından çox sevən düzgün insanlardır. Ona görə də oğuz qadınları öz ərlərinə qarşı təmkinli davranırlar.

Maraqlıdır ki, oğuz ərlərinin xarakterinin görünməyən tərəflərini biz daha çox onların xanımlarının dilindən təqdim olunan soylamalardan öyrənirik. Məsələn, Dirsə xanın qadını onun haqqında deyir:

Bərü gəlgil, başım bəxti, evim təxti!
Xan babamın göygisi!
Qadın anamın sevgisi!
Atam-anam verdigi,
Göz açuban gördigim,
Könül verib sevdigim, a Dirsə xan [4, s.38].

Buradan məlum olur ki, oğuz kişisi onun xanımının bəxt-taleyi, başının tacıdır. Oğuz qadını öz ərinin onun atasının kürəkəni olması və anasının sevgisini qazanması ilə fəxr edir.

O cümlədən dastanın dördüncü boyunda Burla xatun da öz əri Qazanı "başının tacı" adlandırır: "Başım tacı Qazan gəlmədi" deyü izin izlədi, getdi" [4, s.76].

Dastanda oğuz ərlərinin xarakterindəki namus, vəfa, sədaqət kimi keyfiyyətlərin açılması baxımından Beyrək-Banıçiçək münasibətləri səciyyəvidir. Bunlar beşikkəsmə nişanlılardır. Hər iki gəncin dastanda təsvir olunmuş sevgisi vəfa və sədaqətin simvolu səviyyəsinə qalxır. Belə ki, düşmənlər Beyrəyi toy gecəsi oğurlayırlar. O, on altı il əsirlikdə qalır. Lakin Beyrək öz sevgilisini bir an da olsun unutmur.

Eyni sözlər Beyrəyin nişanlısı Banıçiçəyə də aiddir. O, daim gözü yollarda Beyrəyin qayıtmasını gözləyir. Beyrək kafir bəyinin gənc qızının köməyi ilə əsirlikdən qaçıb gəlir və onlar yenidən bir-birinə qovuşurlar. Beləliklə, dastanda vəfa, sədaqət kimi dəyərlər oğuz ərləri və xanımlarının xarakterlərinin aparıcı keyfiyyətləri kimi tərənnüm olunur. Dastan qəhrəmanlarının ər və sevgili kimi təsviri onların xarakter zənginliyinin təqdiminə xidmət edir.

**Açar sözlər:** folklor, epos, dastan, Kitabi-Dədə Qorqud, qəhrəman, cəmiyyət.

## Ədəbiyyat

1. Bayat F. “Oğuznamə(lər)” oçerki, Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. Bakı: Öndər Nəşriyyat, 2004, s.255-274.
2. Əsgər Ə. Oğuznamələrdə müsəlman-oğuz və oğuznamələrin yaranması problemi, Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XXVI kitab. Bakı: Səda, 2007, s. 24-37.
3. Əsgər Ə. Ölən etnosun ədəbi irsi, «Dədə Qorqud», 2001, № 1, s.49-53.
4. Kitabi-Dədə Qorqud, Tərtib, transkripsiya, sadələşdirilmiş variant və müqəddimə F.Zeynalov və S.Əlizadənindir. Bakı: Yazıçı, 1988, 265 s.
5. Qafarlı R. Mif, əfsanə, nağıl və epos (şifahi epik ənənədə janrlararası əlaqə). Bakı: ADPU nəşri, 2002, 758 s.

## Hero as the brave head of the family in Oghuz society

The article notes that the whole history of the heroism of the Oghuz society, along with Oghuzname (the Book of Oghuz), was also reflected in the Kitabi-Dede Korkud. That's why, it is impossible to consider the heroic type in the dastan and its relations with the society as a stable, unchanging, frozen occurrence. In these relations, the thoughts and images of the Oghuz society about the hero were reflected with all the historical color, poetic diversity. Oghuznama means artistic and historical works, generally created by Oghuzes. As we know, the Dresden copy of Kitabi-Dede Korkud consists of 12 epics. Each epic is full of different courage shown by the Oghuz heroes. At first glance, it seems difficult to generalize, typify these occurrences.

However, when sorting occurrences from the point of view of typological similarities, the picture becomes clearer and stable formulas of the relations between the hero and society, repeatedly indicated, noted in the scientific literature, appear. One of the most reflected lines of relations between the hero and society is associated with the image of the "brave husband, beloved hero". That is, in the dastan, the description of the Oghuz brave men as the head of the family, as the husband of some woman, lover of some lady also turned to a manifestation of the heroism. At

the same time, we see in the family and everyday life the heroes who are cutthroats for their enemies, who shed the blood of their enemies, show courage in battles. Indeed, along with the fact that these heroes are alp-braves, they are also the heads of the family, the husbands of their wives, lovers of their ladies. Such a view of the life of the Oghuz heroes allows us to consider the image of the Oghuz hero in more real, more extensive description.

## ISN'T REASON GENDER NEUTRAL?

**Paul Gibbs**
Azerbaijan University, Baku, Azerbaijan

Claims that reason knows no gender has, I will argue, been largely a historical and male self-deception by hiding a premise of gender neutrality that has tried to hide its gender bias through social convention and power. Confronting this does not necessarily require us to adopt 'gender relativism' about rationality but it does help our contemporary understanding of identity and inequality.

The obstacles to female philosophical cultivation of Reason springs to a large extent from the fact that our ideals of Reason have historically incorporated an exclusion of the feminine, and that femininity itself has been partly constituted through such processes of exclusion. What emerges from a historical analysis of maleness of reason, however, does help to illuminate some of the perplexity of economic gender inequalities. This short paper will seek a conversation on this topic.

## II MƏŞRUTİYYƏT ELANINDAN SONRA "TANİN" QƏZETİNDƏ YAZARLARIN GENDER MƏSƏLƏSİNƏ VƏ QADIN HAQLARINA MÜNASİBƏTİ

**Səriyyə Gündoğdu**
AMEA Şərqşünaslıq İnstitutu, Bakı, Azərbaycan
e-mail: seriyye@yahoo.com

XIX əsr bütün dünyada yenilik hərəkatlarının başladığı bir dönəmdir. Milliyətçilik ideologiyasının vüsət aldığı, imperatorluqların dağılmağa başladığı bu dövrdə, ideoloji fikirdə də köklü dəyişiklər baş vermişdir. Hürriyyət, bərabərlik, ədalət və feminizm kimi məfhumlar ifadə edilməyə başlanmışdır. Bütün dünyada cərəyan edən bu dəyişikliklər Osmanlı İmperatorluğundan da yan ötməmişdir. Belə ki, Osmanlı qadınlarının da hüquqlarının qorunması yönündə bəzi addımlar atılmışdır. Bu məsələdə mətbuatın böyük rolu olmuşdur. İlk qadın hərəkatı məhz mətbuat vasitəsi ilə fəaliyyətə başlamışdır. Bunlardan dövrünün ən mühüm qəzetlərindən biri hesab edilən "Tərəqqi" qəzetini göstərmək olar. Burada qadın haqlarının qorunması yönündə kişi yazarlar da öz qələmləri ilə xidmət etməyə çalışmışdırlar.

23 iyul 1908-ci ildə II Məşrutiyyətin elan edilməsiylə ölkədə böyük bir canlanma və ruh yüksəkliyi hiss edilirdi. Tənzimatın elanından sonra hər sahədə yeniliklər edən, modernləşən Osmanlı dövləti ilk dəfə olaraq qadınlrın təhsil almasına imkan yaratmış, qadınlara məxsus qəzet və jurnalların nəşrinə izin vermişdir. Lakin müəyyən bir çərçivə daxilində həyata keçən yeniliklər II Məşrutiyyətin və hürriyyətin elanı ilə böyük ölçüdə artmışdır. Bu dönəm, qadınların daha mütəşəkkil bir şəkildə fəaliyyət göstərdikləri və gender məsələsinə yenidən baxılmasını tələb etdiklərini mətbuat vasitəsiylə daha aydın görmək mümkündür. Burada qadının ailə və cəmiyyət həyatında tutduğu yer mühüm bir məsələ olaraq gündəmə gətirilir. Bir çox yeni qadın qəzet və jurnalları yayın həyatına başlayır. Bunlardan "Vakit", "Şükûfezâr", "İnsaniyət", "Âyinə", "Parça Boxçası", "Ailə" və digərlərinın adını çəkə bilərik. Qadın jurnal və qəzetlərin artmasıla yanaşı, digər müxtəlif ideolgiyalara mənsub bütün qəzet və jurnallarda da "qadın problemi" məsələsi mühüm yer alır. Bunlardan "Tanin", "İqdam", "Sıratı-müstəqim kimi qəzet və jurnalları göstərmək olar. Hürriyyətin elanı ilə birlikdə ilk olaraq qadın azadlığının gündəmə gəldiyi, bunula yanaşı onların təhsil alması və bir peşə sahibi olması, cəmiyyət həyatında yer almaları üçün bütün əngəllərin qaldırılması haqda tələblər irəli sürülür. Bu tələblər dönəmə damğasını vuran "hüquqi-nisvan" (qadın hüququ/ haqları) və "qadınlığın tealisi" (qadınlığın yüksəlməsi) məfhumları altında ortaya atılırdı.

Qadınların ictimai həyata qatılmaları XX əsrin əvvəllərində var olma mübarizəsi ilə böyük məsafə qət etmişdir. Aldıqları təhsil sayəsində özlərinə yönəlik bir oyanışı həyata keçirən qadınlar, 1908-ci ildə elan edilən Məşrutiyyətin verdiyi haqlarla bir az daha güvən qazanırlar. Artıq onlar üçün yetərsiz olan, həyatın qatacağı təcrübədir. Bu təcrübəni uzun və çətin müharibə illərində qazanırlar. Bu illərdə həyatda qalma mübarizəsi verən və cəbhəyə gedən kişilərin yerini dolduran və arxa cəbhədə həyatı davam etdirmək üçün bütün yükü çiyinlərinə alan qadınlar, özlərini birdən-birə ictimai həyatın tam ortasında və mühüm bir fərd olaraq gördülər [1].

Bütün dünyada olduğu kimi Türkiyədə də qadını adət-ənənələrin buxovundan, gender bərabərsizliyindən, cahillikdən qurtarmaq üçün mübarizə aparılmağa başlanmışdı. Bu məqsədlə istər ailə, istərsə də cəmiyyət həyatında gender problemi ilə əlaqədar olaraq islahatlar aparılması məsələsi irəli sürüldü. Qadının kişidən heç də geri qalmadığını, təhsil aldıqdan sonra kişilərlə çiyin çiyinə hər sahədə müvəffəqiyyə qazana biləcəyi fikri aktuallıq qazandı. Bu fikir müxtəlif ideologiya mənsublarını düşündürməyə və məsələyə müxtəlif aspektlərdən baxmağa vadar etdi. Belə ki, Qərb meyilli ziyalılar bu məsələyə Avropa dəsti-xətti ilə yanaşmağa üstünlük verdikləri halda, milliyətçi və islamçılar problemə yerli və milli nöqteyi-nəzərdən yanaşaraq, dini təmayülləri ön plana çıxarır. İslamın deyil, yanlış adətlərin qadınların inkişafında və modenləşməsində bir əngəl təşkil etdiyi düşüncəsi yer alır.

Bu məsələnin həllinə yönəldilən bütün fikirlər ziyalı və ədiblərin qələmindən çıxaraq, mətbuat səhifələrində yerini almışdır.

"Tanin" qəzeti Qərbyönümlü düşüncəyi təmsil etdiyi üçün türk qadınının Avropa qadınları ilə eyni haqlara sahib olması üçün mübarizə aparmışdır. Maraqlıdır ki, bu mübarizə ilk dəfə olaraq kişilər tərəfindən və onların dəstəyi ilə başladılmışdır. "Tanin" qəzetinin baş redaktoru Hüseyin

Cahid məhz belə insanlardandır. Onunla bərabər qəzetdə ədəbi və publisistik yazıları çıxan Halid Ziya Uşaklıgil, şair, yazıçı Cənab Şəhabəddinin adlarını çəkmək olar.

Tənzimatdan Cumhuriyyətə qədər keçən zaman içində dövlətin və ziyalıların əsas problemi Şərq və Qərb arasında sıxışıb qalmış bir cəmiyyət üçün şərq və qərb dəyərləri arasında qarşılıqlı anlaşmanın olub olmaması məsələsi bu problemin və onun həlli yollarının axtarılması indiyə qədər də aktual məsələ kimi qarşıda durur. II Məşrutiyyət dövründə qadın mövzusu Qərb meyilli ziyalılar və İslamcılar tərəfindən müxtəlif şəkildə dərk edildiyi görünür. Qərb tərəfdarları qadının hər yöndən Avropalı bir qadın kimi təhsil alması gərəkdiyinə, həyat yoldaşı və ana olaraq da qərb qadını kimi hərəkət etməsinin vacibliyinə və qadının cəmiyyətdən kənara atılmaması fikrini irəli sürürlər. "İttihad və Tərəqqi Cəmiyyəti"nin qurucuları olan Abdullah Cevdet, Tevfik Fikrət və Salahaddin Asım kimi ziyalılar, din anlayışının qadının kişi tərəfindən ikinci dərəcəli bir varlıq olaraq dəyərləndirilməsinə yol açdığını bildirərək, modern cəmiyyət qurmaq üçün Avropalılar kimi qadını insan mərtəbəsinə yüksəltməyin vacibliyini vurğulayar [6]. Türk qadınının Avropalı müasirləri ilə eyni haqlara sahib olması üçün mübarizə aparan ziyalı xanımlardan biri də Xalidə Ədib Adıvardır. 1908-ci ildən "Tanin" qəzetində yazmağa başlayan X. Ədib istər məqalələrində, istərsə də qəzetin səhifələrində nəşr olunan romanlarında qızlar üçün məktəblərin açılmasını, türk qadınının təhsil almasını və cəhalətdən qurtulmasını sərt, lakin gözəl bir dillə ifadə etmişdir. Eyni zamanda konfrans və mitinqlərdə bu mövzudakı fikirlərini ifadə edərək, qadın hərəkatlarına qoşulmuşdur. X.Ədib iki uşaq anası olmuşdur. Yazıçı əsərlərində bir qadının və bir anaın duyğu və düşüncələrini əks etdirmişdir.

Kişi və qadın arasındakı qarşılıqlı münasibət, fərqlilik və güc tarazlığı əsrlər boyu bütün dünyada mübahisə doğurmuşdur. Bu mübahisələrdə əsl məsələ qadın sözünün yanına "problem" sözünün əlavə edilməsi və bununla da bir "qadın problemi" birləşməsinin ortaya çıxmasıdır. Problemi yaradan qadınmıdır, yoxsa qadınların həllini gözləyən problemlərimi var? Məhz bu suallaın cavabı bütün dünyada öz həllini axtarır. "Tanin" yazarları da bu sualların cavabını verməyə çalışmış və məsələni "qadınların problemləri var və gəlin onları birlikdə aradan qaldıraq" deyə yazı və çıxışlarında xüsusi vurğulayırdılar.

X.Ədibin 1908-ci ilin avqust- dekabr aylarında "Tanin" qəzetində yayımlanan silsilə məqalələrində qadınların problemlərini dilə gətirir. İlk olaraq bütün diqqətin təhsilə verilməsi fikri irəli sürür. Təhsildə geri qalan türk qadınlarını digər millətlərin qadınları ilə müqaisə edərək vəziyyətin ağırlığına diqqət yetirdilər. Cahil bir qadının yetişdirdiyi uşağın da cahil olacağına və bununla da cəmiyyətin inkişafdan qalacağını həyəcanla dilə gətirən yazıçı ailədəki problemin də məhz cahillikdən irəli gəldiyini yazır. Eyni zamanda X. Ədib "Tanin"də təfriqə etdirdiyi romanlarında da qadın problemlərinə xüsusi yer verir. Belə ki, yazıçının 1912-ci ildə "Tanin" qəzetində çap edilən "Handan" romanı eşqi, sevgini və evliliyi ön plana çəkir. Romanda kişi qəhrəmanı, eləcə də intelektual zümrəni təmsil edən Rəfiq Camal onunla fikir alış-verişi edə bilən bir qadın axtarır. Digər tərəfdən bir başqa kişi qəhrəman Nazim qadını öz siyasi mənfəətləri üçün istifadə etmək istəyir. Hüsnü Paşa isə qadın ruhunu nəzərə almadan onu fetişləşdirməyə çalışır. Əsərdə qadının kişilər tərəfindən bir vasitə olaraq istifadə edilməsi tənqid edilir. Lakin romanda sadəcə kişilər deyil zəif və cahil qadınlar da tənqid edilir.

X.Ədib 13 sentyabr-12 dekabr 1913-cü il tarixlərində "Tanin" qəzetində çap edilən "Son əsəri" adlı romanında da qadının zavallılığını göstərməklə yanaşı, eyni zamanda həmcinsini də tənqid edir. Ailənin və cəmiyyətin inkişafını qadınla əlaqələndirən yazıçı oxumuş qadının ərini də məmnun edə biləcəyini, bunula yanaşı mədəni və intelekt səviyyəsi yüksək övladlar da yetişidrəcəyi fikrindədir. Əsərdə cütlüyün bir-birini anlamamasının, aralarında yaranan problemin qadının cahilliyindən irəli gəldiyi vurğulanır. Firudin həyat yoldaşı ilə düşüncə baxımından bölüşəcək ortaq bir yön tapa bilmir.

Cənab Şəhabəddin və Xalid Ziya da "Tanin" qəzetində gendr məsələsi və qadın problemi ilə əlaqədar yazılar yazmışlar. 12 sentyabr 1908-ci il nömrəsində X. Ziya çox evliliyə qarşı çıxır, bunun qadın haqları baxımından səhv olduğunu və cəmiyyətə zərər vurduğunu yazır. Daha sonra yenə bir məqaləsində qadınların təhsilinə diqqət çəkərək onların cahillikdən qurtulmalarını arzu edir. 8 avqust 1908-ci il nömrəsində X.Ziya uşaqlıqdan tanıdığı bir qızın evlənməsini və ən son gördüyü zaman qayğısız qızcığazın yerinə solğun, həyatdan küsmüş bir qıza çevrilməsini qələmə alır. Həmin andan yazıçı qızın duyğu və hisslərinə yer ayırır, anaların qızlarını düzgün yetişdirməməsinə, qızların cahil böyüməsinə diqqət çəkir.

Eyni dövrdə sadəcə "Tanin" deyil, fərqli idealogiyanı təmsil edən qəzet və jurnallar qadın problemi və geneder məsələsinə, hətta feminizm düşüncəsinə öz münasibətlərini bildirərək, qadının cəmiyyətə qazandırılmasına çalışmışlar.

Beləliklə, əminliklə demək olar ki, II Məşrutiyyət dövrü hər sahədə hürriyyət rüzgarlarının əsməyə başladığı bir dövrdür. Bu zamandan etibarən qadının cəmiyyətdə daha çox görünməsi, Türkiyədə qadın hərəkatlarının yaranması və qadının cəmiyyətə inteqrasiyası qadın məsələsinin, başda ziyalılar olmaqla, cəmiyyətin yüksək təbəqələri tərəfindən ələ alınmasına imkan yaratmışdır [3].

**Açar sözlər**: "Tanin" qəzeti, II Məşrutiyyət dövrü, Osmanlı İmperatorluğu.

## Ədəbiyyat

1. Argunşah H., İlk Kadın Yazarlarda Toplumsal Kimliğin Yapılandırılması Sürecinde Babanın Keşfi, İzmir: Uluslararası Multidisipliner Kadın Kongresi Kitabı, 2009.
2. Gürsel A., Türk Romanında Feminist Söylem. Türk Edebiyatı Tarihi 4. Cilt. Ed. Talât Sait Halman. Ankara: Kültür ve Turizm Bakanlığı Yayınları, 2007. 393- 399.
3. Durakbaşa A., Cumhuriyet Döneminde Modern Kadın ve Erkek Kimliklerinin Oluşumu: Kemalist Kadın Kimliği ve "Münevver Erkekler", 75 Yılda Kadınlar ve Erkekler, Tarih Vakfı Yayınları, İstanbul 1998. s. 29-51.
4. Ramazan G., The Development of a Feminist Discourse and Feminist Writing in Turkey, Kadın/Women 2000 Journal for Woman Studies. S.1. C. 2.(2001).s. 93-116.
5. Seymus G., "Tanzimat‟tan Cumhuriyet‟e Toplumsal Değişim ve Kadın, Tanzimat‟tan Cumhuriyete Türkiye Ansiklopedisi, 3. Cilt. İletişim Yayınları, İstanbul 1985, s.858-864.
6. Göle N., Modern Mahrem, Metis Yayınları, İstanbul 2008.

7. Tezel S. (1983). Atatürk ve kadın hakları. Atatürk ve Kadın Hakları: Kadın Dernekleri Federasyonu ve Gönüllü Kuruluşlar, Ankara.
8. Tanin qəzeti (2 avqust-29 dekabr 1908) Ankara Universiteti arxivi.
9. Tanin qəzeti 1909-19012 Ankara Universiteti arxivi .

**Relatıonshıp wıth the gender problems and women's wrıters ın the Tanın newspaper after II Meshrutiyet**

Following the announcement of the Tanzimat, the modernizing Ottoman state, which has made innovations in every field, has allowed women to study and publish women's newspapers and magazines for the first time. However, the innovations that have taken place within a certain framework have increased greatly with the announcement of the II Meshrutiyet and the Freedom. This period can be seen more clearly in the press as women act more organized and demand a revision of gender. Here the role of women in family and community life is raised as an important issue. Many new women are starting the summer of newspapers and magazines. We can name "Vakit", "Shuküfezzar", "Humanity", "Horses", "Fabric Box", "Family" and others. In addition to the growing number of female magazines and newspapers, the issue of "women's issues" is also important in all newspapers and magazines, which have different ideologies. Among them are newspapers and magazines such as Tanin, Igdam, Sarkat-independent.

This article will review some of the literary articles from the Tanin newspaper, which began its publication during the Second Edition and looks at the issue of gender and gender issues, as well as Western issues.

## CHILDREN’S GENDER ROLE STEREOTYPES AND THEIR INFLUENCE ON THEIR CAREER ASPIRATIONS

**Ulkar Hasanova**
Baku State University, Baku, Azerbaijan
e-mail: hasanova_ulker@mail.ru

Gender, as one of the fundamental units of identity influences how we think, behave, interact and experience the world and ourselves. Gender is a socio-cultural interpretation of our biological sex which interpretation is mainly painted by culture [3]. The concept of gender can be presented in the following “gender path”: biological sex - assigned gender (boy/girl) - gender role (masculine/feminine) - gender identity (internalization) - gender expression (externalization). Assigned genders are experienced within the prescribed frameworks called gender roles. This framework exists for different aspects of our daily life, for instance, how we speak, dress, occupations we choose, etc. These gender roles differ from culture to culture and may change over time [3]. The internalization of gender roles, in other words, understanding and accepting these

frameworks, called gender identity. One of the substituents and factors influencing gender identity are gender role stereotypes, which are peoples' shared beliefs about the behaviors and characteristics of females and males. Studies show that gender stereotypes influence students' academic achievement, career aspirations, well-being as well. According to the Drawing the Future report 2018, gender stereotyping exists from the age of 7. (Erin & Priscilla, 2015, the Drawing the Future report, 2018). Why do children's aspirations matter? They influence their individual career path and in the long term the occupational segregation and economic outcomes in the country. Different longitudinal studies also show that children without STEM-related aspirations at an early age are unlikely to express interest in these fields by older ages. A comparison of children's aspirations and real labor marker demand also shows the gap between the two, which can be seen from Figure 1 (Drawing the Future report, 2018).




Figure 1. Career aspirations of young people aged 15-20 mapped against projected labor market demand

Results of different studies show that school children consider some jobs as feminine or masculine and it influences their future choices and changes their interests in subjects. For example, STEM-related professions expressed to be chosen more by boys in comparison to girls. Nearly twice as many boys want to be a scientist than girls. Meanwhile, girls are more interested in nurturing and caring related roles than boys [2, 4]. Alongside gender stereotypes, there are other variables influencing this disparity, like age, sex, socio-economic background, etc.

Hence, early intervention and help in the form of providing primary-age children with information on non-stereotypical roles, alongside sectors and occupations are very important for their future choices.

**Keywords**: gender, roles, stereotypes, career aspiration.

## References

1. Archer L., Osbourne J., DeWitt J., Dillon J., Wong B. (2013). ASPIRES: Young People's science and career aspirations, age 10-14. London: King's College

2. Chambers D.W. (1983). Stereotypical images of the scientist: The Draw-a-Scientist Test. Science Education, 67(2), 255–265.
3. Wood G. (2018). The psychology of gender. Abingdon, Oxon: Routledge.
4. Exploring the career aspirations of primary school children from around the world. Drawing the Future (2018) Accessed October 27, 2019. https://www.educationandemployers.org/wp-content/uploads/2018/01/Drawing-the-Future-FINAL-REPORT.pdf

## UŞAQLARIN DÖVLƏT UŞAQ MÜƏSSİSƏLƏRİNƏ DÜŞMƏSİNDƏ GENDER FAKTORLARI

**Nübar Həmidova**
Azərbaycan Universiteti, Azərbaycan, Bakı
e-mail: hemidova.nubar@mail.ru

Sovet hakimiyyəti süqut etdikdən sonra Azərbaycan Respublikasının ərazisində 63 dövlət uşaq müəssisəsi var idi və bu müəssisələrdə 20 mindən artıq uşaq yaşayır, təlim və tərbiyə alırdı. Bu sovetlər birliyinin digər ölkələri ilə müqayisədə böyük bir rəqəm olmasa da, Azərbaycanın ərazinin və əhalisinin sayına görə olduqca böyük rəqəm hesab olunurdu [1].

“Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı (2006-2015-ci illər)” Tədbirlər Planının12-ci (Dövlət himayəsində olan uşaqlar saxlanılan dövlət təlim-tərbiyə müəssisələrinin şəbəkəsinə yenidən baxılması, onların sayının azaldılması üçün müvafiq tədbirlərin görülməsi) və 13-cü (Ümumtəhsil internat məktəblərinin (ümumi tipli internat evlərinin) bazasında ümumi təyinatlı ümumtəhsil məktəblərinin, lisey və gimnaziyaların yaradılması məqsədilə tədbirlərin görülməsi) bəndlərinin və dövlət uşaq müəssisələrinin transformasiya üzrə Baş Planının icrası olaraq 12 internat məktəbi peşə-liseyinə, ümumtəhsil məktəblərinə və gimnaziyalara transformasiya olunmuş, 2 internat məktəbi isə ləğv edilmişdir. Cari ildə daha 7 internat məktəbinin transformasiyası nəzərdə tutulmuşdur. Proqramın icrası olaraq yalnız Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində olan dövlət uşaq müəssisələri transformasiya olunmuş və ya ləğv edilmişdir [2].

Bu Dövlət Proqramının icrası nəticəsində dövlət uşaq müəssisələrində yaşayan, təlim və tərbiyə alan uşaqların sayı azalmışdır. Dövlət uşaq müəssisələrinin Reablitasiya xidmət mərkəzlərində 220 nəfər uşaq reablitasiya xidmətinə cəlb olunmuşdur. Onun 79 nəfəri qız, 141 nəfəri isə oğlandır. İnternat məktəblərində 4650 nəfərtəlim və tərbiyə alır, onlardan 1673 nəfəri qız, 2977 nəfəri isə oğlandır. Ailə tipli kiçik qrup evlərində yaşayan uşaqlar isə 20 nəfərdir və onlardan Xəzər rayonunda yerləşən 1 nömrəli Ailə tipli kiçik qrup evi qızlar üçündür və orada 12 qız yaşayır, Lənkəran şəhərində yerləşən 2 nömrəli Ailə tipli kiçik qrup evi isə oğlanlar üçündür, orada isə 8 oğlan yaşayır [4].

Dövlət uşaq müəssisələrində təlim və tərbiyə alan uşaqlardan oğlanların qızlardan çox olmasının səbəbləri aşağıdakılardır:

1. Azərbaycan Respublikasında doğulan uşaqlar arasında oğlan uşaqları çoxluq təşkil etməsi [3].
2. Milli mentalitet. Başqa sözlə, qız uşağının ailə həyatı quranadək bakirə qalması. Bu səbəbdən də ailələr və valideyinlər daha çox qızları qoruyur və onların kənar yerdə yaşamasından narahat olurlar.

Dövlət uşaq müəssisələrində (internat məktəblərinə) təlim və tərbiyə alan uşaqların müəssisəyə düşmə səbəbləri aşağıdakı qruplara bölünürlər:

- ✓ Tək valideyinli olanlar – 1142 nəfər [1] (2018-ci ilin statistikasına görə)
- ✓ Tək valideynli olanlar - 1239 nəfər [4] (2018-ci ilin statistikasına görə)

Dövlət uşaq müəssisələrində yaşayan uşaqların tək valideyinli olmalarının əsas səbəbləri erkən nikahların, boşanmaların sayının artması göstərilir. Tənha qalmış ata və ya ana övladına baxmaqda maddi və mənəvi çətinlik çəkdikdə övladını müəssisəyə yerləşdirməyə məcbur qalır.

Ölkəmizdə dövlət uşaq müəssisəinə düşmüş uşaqların əksəriyyəti tək valideyinin (ananın və yaxud atanın) himayəsində olan uşaqlardır. Bu uşaqlardan 1061 nəfəri anasının, 178 nəfəri isə atasının himayəsindədir. Göründüyü kimi ana himayəsində olan uşaqların sayı, ata himayəsində olan uşaqların sayından 883 nəfər çoxdur. Əksər tənha anaları uşaqları dövlət uşaq müəssisələrinə yerləşdirməsinə səbəb isə daimi iş yerinin olmaması və ya günün çox hissəsini işdə olması, eyni zamanda aztəminatlı olmasıdır. Belə analarla sorğu aparılan zaman 70%-dən çoxu işləmək məcburiyyətində olduğu və işləyərkən uşağın təlim və tərbiyəsi ilə məşğul ola bilmədiyindən dövlət uşaq müəssisəsinə yerləşdirdiyini bildirir [4].

Tənha ataların övladlarını dövlət uşaq müəssisəsinə yerləşdirməsinin səbəbi aşağıdakılardır.

- ✓ Həbsdə olması;
- ✓ Spirtli içki aludəçisi olması;
- ✓ Həyat yoldaşı vəfat etdikdən sonra ikinci dəfə ailə həyatı qurması;
- ✓ İşsiz olması və uşağa baxa bilməməsi və s. [4].

**Açar sözlər:** internat məktəbləri, tək valideyinli uşaqlar, dövlət uşaq müəssisələri.

## Ədəbiyyat

1. Azərbaycanda Dövlət uşaq müəssisələrinin ilkin qiymətləndirilməsi üzrə hesabat.
2. "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı (2006-2015-ci illər)"-nın nəticəsinə dair hesabat,
3. Demoqrafik Praqnozlar, 2014-2050: Azərbaycanda Doğulan Uşaqların Cinsi Nisbətinin Müxtəlif Ssenarilər.
4. Təhsil Nazirliyinin 2018-cil il üzrə hesabat jurnalı.

**Gender factors in leaving children to nurseries**

When we tell government child institutions, we consider toddlers houses, nurseries, boarding schools, children shelters and so on. Children who live in governmental children institutions differ mainly according to social status; 1) children deprived of parental care, 2) street children, 3) children needing special education.

When we pay attention to statistics who were left to government educational institutions,males are observed to be more than females. The reason of that is; 1) Children born in Azerbaijan constitute more boys than girls, 2) In Azerbaijan, traditions are superior. One of the conservative traditions is to be virgin until they get married for females. For this reason, families mostly protect girls and worry about them to live away from home.

# ГЕНДЕРНЫЕ ПРОБЛЕМЫ В ПРОИЗВЕДЕНИЯХ АНГЛИЙСКИХ И АЗЕРБАЙДЖАНСКИХ ПИСАТЕЛЕЙ

**Айбаниз Исмайлова**
Азербайджанский Университет Языков, Баку, Азербайджан
e-mail: aybanizismayilova26@gmail.com

Гендерные проблемы всегда были в сфере внимания искусства, в том числе и литературы. Их изучение в художественной литературе актуализировалось в конце XIX в, не теряло своей актуальности вXX в, и эти проблемы все еще остаются в центре внимания писателей в начале XXI в. Женщины в обществе всегда рассматривались как приложение к мужчине, а не как самостоятельная личность; в художественной литературе их описывали слабыми, послушными и глупыми.

Особым интересом к гендерным проблемам отличаются произведения выдающейся английской писательницы Вирджинии Вулф. Вирджиния Вулф (1882-1941) считается одной из самых известных и замечательных модернистских писателей XX в. и символом феминистского движения. Модернистская литература охватывала такие важные проблемы, как гендерные проблемы, классовые различия, социальные проблемы, отчужденность личности и т.д. Наряду с Дж. Джойсом, Д. Лоуренсом, Т. Элиотом, Вулф оказала важное влияние на литературу модернизма.

Романы Вулф рассматривались не только сквозь призму модернизма, но и с феминистской точки зрения. Вулф сформировалась как феминистка после определенных драматических событий в своей жизни и разработала «контртеорию о гендерных ролях викторианской Англии» [3, с.114]. Ее борьба против традиционных взглядов общества и желание быть полностью независимой реализовались в интеллектуальном кружке «Блумсбери».

В своем эссе «Своя комната» (1929) Вулф заявляет, что «женщина должна иметь свои деньги и свою комнату, если она намерена писать художественное произведение» [4, с.4]. Таким образом, она требует права женщины на свободное время, уединение и финансовую независимость, которая позволит ей раскрыть интеллектуальный потенциал. Более того целью Вулф является установление традиции женской литературы, потому что она убеждена что «литературе надо иметь как отца, так и мать» [4, с.103].

Вулф можно считать одной из основательниц феминисткой литературной критики. Писательница была озабочена такими вопросами, как «социальный и экономический контекст женской литературы, гендерная природа языка, необходимость вернуться к литературной истории и установить женскую литературную традицию и социальное положение женщин» [1, с.45]

Вулф стала продвигать идею феминизма в своих произведениях через призыв к равенству полов и наиболее полное отражение эта идея получила в эссе «Своя комната». Этой работой Вулф подвергает сомнению политику Англии, которая игнорировала права женщин. Здесь Вулф не только обвиняет страну за допущение дискриминации по отношению к женщинам, но и матерей, которые обязаны помочь дочерям получить образование и построить профессиональную карьеру.

Тема феминизма актуальна для многих романов Вулф и роман «На маяк» (1927) не исключение. Главными героинями романа являются две женщины, которые представляют собой две противоположности. Одна из них Лили Бриско, женщина, которая отвергает викторианские условности и решает оставаться незамужней для того, чтобы не идти на компромисс с «обществом управляемым мужчинами»; другая героиня, миссис Рамзей – женщина, которая понимает, что общество имеет предрассудки в отношении к женщинам, но предпочитает пассивно наблюдать и бездействовать. Именно через характер миссис Рамзей, Вулф старается показать проблемы, которые существуют не только в обществе, но и среди женщин, которые не желали положить конец гендерной несправедливости, а посредством образа Лили она показывает свободу и независимость, которые женщины могут иметь. Образ Лили, созданный Вулф, обладает характеристиками обоих полов и «объединяет рациональное и воображение в андрогенное целое» [2, с.2].

Еще один феминистский роман Вулф «Орландо» (1928) рассказывает историю красивого молодого поэта и писателя, который в один день стал женщиной. Вулф объясняет читателям, как эта перемена уничтожила свободы, которые он имел, потому что Орландо превращается из независимого и свободомыслящего писателя в человека, которому отказывают в привилегиях, которыми он обладал. Поэтому Орландо развязывает долгую борьбу за свои права, включая право на собственность.

Гендерные проблемы находят отражение и в азербайджанской литературе, и в качестве примера рассмотрим эти проблемы в творчестве Афаг Масуд и Азизы Джафарзаде.

Афаг Масуд (род.1957г.) - выдающаяся прозаик, драматург, публицист, переводчик, автор эссе, литературно-критических статей в современной азербайджанской литературе.

Существует определенная аналогия между творчеством В. Вулф и А. Масуд. Обеих писательниц можно назвать представителями психологической модернистской прозы. В произведенияхэтих писательниц на первый план выдвигается отчуждение человека, двойственность натуры, экзистенциальное одиночество, раскрытие подсознательных тайн.

Женские образы Масуд относятся к новому типу женщин. Героини Масуд не феминистки, - они универсальные люди, озабоченные экзистенциальными проблемами. Они полны бурных эмоций, страстей, гнева; их образы трагичны и среда их общения довольно узкая. Иногда трудно бывает проследить логику их действий: возможно Масуд считает логику не самой главной чертой женщины, потому что для нее в женщине основные черты это любовь и забота, чувствительность и самоотверженность [5]. Трагедия женской доли изображена в рассказах «Воробьи», «Смерть кролика», «Одна», «Выдумка», «Субботний вечер» и др. В них описана дисгармония жизни, дисгармония в отношениях между мужчинами и женщинами.

Другой азербайджанской писательницей, чьи произведения, посвященные теме женщины, матери, снискали ей славу, является Азиза Джафарзаде (1921-2003). Азиза Джафарзаде была выдающимся литературоведом, общественным деятелем, доктором филологических наук, профессором, членом Союза писателей Азербайджана.

Тема матери и женщины, в целом, всегда выдвигалась на первый план в произведениях Азизы Джафарзаде. Писательница пыталась донести до читателей положительные качества, чувства, переживания и смелость азербайджанских женщин. Причем эти мысли она пыталась передать не только в художественной литературе, но и в своих многочисленных статьях, очерках, научно-публицистических статьях, в своих выступлениях в местных и зарубежных СМИ.

В творчестве Азизы Джафарзаде четко проявляется дух воинственной женщины-амазонки. Женские образы, созданные писательницей на историческом фоне, объединены одной общей чертой -они мудрые, вдумчивые, разумные, показывающие свой твердый характер. Они независимы и мужественны, в то же время они женственны и прекрасны. Вдобавок эти женщины обладают мужским интеллектом. Образом идеальной женщины в творчестве Азизы Джафарзаде является образ правительницы Барды -Нушабы. Романы «Джалалие» (1983) и «Зарринтадж-Тахира» (1996) также посвящены образам выдающихся представительниц азербайджанского народа.

Писательница создала множество исторических романов. Несмотря на то, что основной упор в историческом романе «Баку1501» (1981) делается на образ шаха Исмаила Хатаи, женские образы, созданные Джафарзаде, обогащают сюжет романа и составляют параллельную линию в романе. Женские героини в романе успешно справляются со своей политической миссией, ситуацией и решают судьбоносные вопросы.

В заключении необходимо отметить, что феминизм Вулф носил несколько ограниченный характер: несмотря на то, что она требует предоставить женщинам полноценные права, она подвергает сомнению способность женщин из рабочей среды создавать произведения искусства, иметь творческий потенциал. Женские образы, созданные

Афаг Масуд, обладают независимым характером, интеллигентны, и проблемы, которыми они озабочены не феминистского толка, а имеют в основном бытовой характер. Что касается героинь Азизы Джафарзаде - они сильны духом, мужественны и способны разрешать критические ситуации не хуже мужчин.

**Ключевые слова:** гендерные проблемы, модернистская литература, феминизм, женские образы.

**Литературы**

1. Habib, R. Modern literary criticism and theory: A history. New York: Blackwell Pub., 2008.
2. Picker, J.M. Victorian Soundscapes. Oxford: Oxford University Press, 2003.
3. Wheare, J. Virginia Woolf: Dramatic novelist. Hampshire: Macmillan, 1989.
4. Woolf V. A Room of One's Own. Boston: Houghton Mifflin Harcourt, 1989.
5. Ədəbi yaradıcılıqda müstəsnalıq: Afaq Məsud nümunəsi https://www.afaqmesud.az

## Gender problems in the works of English and Azerbaijani writers

Gender problems have always been in the focus of both art and literature. Virginia Woolf's works are distinguished for their special interest in gender problems. Virginia Woolf (1882-1941) is considered to be the symbol of the XX century feminist movement and one of the prominent modernist writers.

In her novels, Woolf demands that women should get education for demonstrating their intellectual potential and for financial independence from men. In Azerbaijani literature, Afag Masud and Aziza Jafarzade have a special approach to gender problems. Afag Masud approaches the problem from the psychological point of view. As for Aziza Jafarzade, she describes her women characters in critical situations in her historical novels, where they along with men are able to fulfill political missions.

# ALZAYMER XƏSTƏLİYİ GENDER KONTEKSTİNDƏ

**Çimnaz İsmayılbəyli**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: cismayilbeyli@mail.ru

Alzaymer xəstəliyi, xüsusən korteksdə və hipokampusda neyronların qaçılmaz itkisi ilə nəticələnən mütərəqqi nevroloji və xəstəliyi ən çox rast gəlinənneyrodegenerativ xəstəlikdir. O, ümumi demensiya keyslərinin 2/3-ni təşkil edir: Müxtəlif araşdırmaların nəticəsi olaraq, Alzaymer xəstəliyi demensiya hallarının 42-81 %-ni təşkil edir [5]. Xəstəliyin əsas kliniki əlamətləri yaddaş, düşünmə, qərar qəbulu, fiziki orientasiya və nitqdə mütərəqqi nasazlıqlardır [6].

ABŞ-ın Tibb İnstitutunun 2001-ci ildə nəşr etdiyi hesabatda deyilir ki, kliniki tədqiqat zamanı gender diqqətdə saxlanılması vacib olan ən əsas məqamlardandır. Tibbi tədqiqatlarda gender xromosom, hormon və reproduktiv hüceyrələri ifadə edir. Eyni zamanda, gender kişilər və qadınlar arasındakı psixo-sosial və mədəni fərqləri əks etdirir. Hər iki faktor da Alzaymerin aid olduğu ümumi xəstəliklərin (MCI, Demansiya) arzuolunmaz inkişafında önəmli rol oynayır.

İstənilən mövzuda olduğu kimi Alzaymer xəstəliyi ilə mübarizə aparan kişilər və qadınlar, o cümlədən onların üzləşdiyi çətinliklər arasında da gender fərqlilikləri mövcuddur. Xəstəliyin yayılmasının cinsə görə fərqliliyinin araşdırılması bəzi səbəblərdən çətin ola bilər, çünki hər hansı bir xəstəliyin bir cəmiyyətdə yayılma göstəricisi  həm xəstəlik hallarının yayılma sürəti, həm də xəstəliyin başlamasından sonra yaşama müddəti ilə müəyyən edilir. Alzaymer xəstəliyinə məruz qalan insanların böyük bir hissəsi qadınlardır. Epidemoloji araşdırmalar göstərir ki, qadınlarda menopauzadan sonra cinsi steroid hormonlarının azalması Alzaymer xəstəliyi üçün bir risk faktorudur. Xəstəliklə mübarizə aparan şəxslərin daha çox qadın olmasının səbəbi hələ ki, məlum deyildir [8]. Həmin statistikanın əsasən, iki motivi göstərilir. İlk öncə, qadınlar xəstəliklərə qarşı daha həssasdırlar və ya risk faktorlarına  daha çox məruz  qalırlar. Digər tərəfdən isə, Alzaymer xəstəliyinə tutulma yaşlarında qadınlar sayca daha çox üstünlük təşkil edir.

Ümumiyyətlə, aparılan tədqiqatlar nəticəsində, statistik əhəmiyyətli cinsi fərqliliklər aşkarlanmamışdır. Belə ki, bu araşdırmaların böyük bir hissəsi kiçik intervalı əhatə etmiş və sadəcə olaraq, bu xəstəlik hallarının ən yüksək olduğu yaşlarda kişilərin sayının azlığı məlum olmuşdur [7]. Eyni zamanda, yaşlılıq prosesi ilə birlikdə testosteron hormonun azalması kişilərdə xəstəlik riskini artıra bilər.

Alzaymer xəstəliyinin qadınlara və kişilərə təsiri tamamilə onların fərqli psixologiyaya malik olmasından irəli gəlir. Amerikalı həkimSamuel Mudda görə, qadınların hədəfləri, arzuları, həssaslığı və ümumiyyətlə, ruh aləmləri özlərinə xasdır və bu, onların ətraf mühitlə əlaqəsinə birbaşa təsir edir [3]. Qadınlar öz münasibətlərində daha emosional, dəstəkləyici və açıq olmağı seçirlər. Halbuki, kişilər öz ehtiyaclarını daha ön planda tutmağa və şəxsi olmayan dostluq və ictimai münasibətlərə üstünlük verirlər. Xoşməramlılıq, mərhəmət, məsuliyyət və özünü kiməsə həsr etmək daha çox qadınlara məxsusdur [2, s. 436-437]. Bu da ona dələlət edir ki, sözügedən xəstəliklə üzləşdiyi zaman kişilərə nisbətən qadınlar daha çox emosional sarsıntı yaşayırlar.

Alzaymer xəstəliyinin birbaşa insanın yaddaşına təsir etməsinə baxmayaraq, xəstəliklə mübarizə aparan şəxslər onlara doğma olan, birinci dərəcəli ailə üzvlərini və çox yaxın dostlarını heç vaxt tamamilə unutmur, sadəcə, vaxtaşırı onların adlarını qarışdırır, hansı peşəyə sahib olduqlarını və yaxud da yaşlarını unudurlar. Özlərinə yaxın hesab etdikləri həmin şəxslərin onlara yad kimi davranması, bu xəstəliyə düçar olduqları üçün nadir hallarda yada salmaları və ya onların şəxsi qulluğunu başqalarına həvalə etmələri xəstəliklə mübarizə aparan şəxslərdə daha çox sarsıntı yaşadır. Bu zaman qadınlar və kişilər arasındakı emosional fərqlilik önə çıxır. Alzaymerlə mübarizə aparan kişilər yuxarıdakı hallar baş verdiyində bunu adi hal kimi qəbul edib, fərqlilik hiss etməsə də, qadınlar xəstəliyin gətirdiyi həssaslıqla birlikdə bu halların çətinliyi ilə də üz-üzə qalır [4].

Alzaymerlə mübarizə aparan qadın və kişilər arasında digər fərq onların şəxsi bacarıqları və peşə seçimlərində özünü göstərir. Allport və Vernonun apardıqları tədqiqatdan məlum olmuşdur ki,

kişilər daha çox intellektual, iqtisadi və siyasi dəyərlərə, o cümlədən uğura, qadınlar isə sevgi, sosial, ailəvi və dini dəyərlərə daha çox önəm verir [1]. Məlumdur ki, Alzaymer xəstəliyi olan şəxslər keçmişdə baş vermiş hadisələri hələ də davam edirmiş kimi yaşayır, özlərini hələ də o dövrdə olduğu kimi hiss edirlər. Məsələn, gənc yaşlarında cərrah olan və ailə üzvlərini yol qəzasında itirən bir kişi artıq 80 yaşındadır və Alzaymer xəstəliyinə düçar olub. O, hazırda keçmiş ailəsinin var olduğunu, onlarla birlikdə olduğunu deyil, hələ də cərrah olduğunu düşünür və vaxtaşırı yaxın günlərdə edəcəyi əməliyyatlardan bəhs edir. Halbuki, onun yerində bir qadın olsaydı, o, daha çox ailə üzvlərinin hələ də həyatda olduğunu zənn edəcək, ətrafındakı şəxslərlə ailə üzvlərindən biri imiş kimi davranacaqdı. Bütün bunlardan da gender fərqliliyinin Alzaymer xəstəliyinin gətirdiyi nəticələrdə nə qədər önəmli rol oynadığı məlum olur.

**Açar sözlər**: alzaymer, gender, xəstəlik, demensiya.

### Ədəbiyyat

1. Atkinson, R., Atkinson, R. C., Hilgard, E. R. (1995). Psikolojiye giriş II. Sosyal Yayınlar, İstanbul, 581-584.
2. Beutel M., Marini M. Gender and Values. American Sociological Review, 60, 436-448.
3. Ersoy E., Cinsiyet kültürü içerisinde kadın ve erkek kimliği, Elazığ: Fırat Üniversitesi Sosyal Bilimler Dergisi,19, 2009, s.231.
4. Trumbach R. (1991). Sex, Gender and Sexual Identity in Modern Culture: Male Sodomy and Female Prostitution in Enlightenment London, Journal of the History of Sexuality, V.2, No.2, p.186-193.
5. Helmer C., Joly P., Letenneur L., Commenges D., Dartigues F. Mortality with dementia: results from a French prospective community-based cohort, American Journal of Epidemiology, 2001, v 154, p.p. 642-648.
6. McKhann G., Drachman D., Folstein M. et al. Clinical diagnosis of Alzheimer's disease: report of the NINCDS-ADRDA Work Group under the auspices of Department of Health and Human Services Task Force on Alzheimer's Disease, Neurology,1984, v 7 , pp. 263-269.
7. Nilsson V. Incidence of severe dementia in an urban sample followed from 70 to 79 years of age. Acta Psychiatry Scand, 1984, v.70, pp.478–86.

## Alzheimer's disease in the context of gender

Alzheimer's disease is an old age disease and occurs in 1-3 out of every 100 people around the age of 65. This incidence doubles every 5 years. A large proportion of people suffering from Alzheimer's disease are women. On the other hand, women are more abundant at the age of Alzheimer's disease than men.As a result of research, it has been determined that the decrease of steroid hormones in women after menopause is a risk factor for Alzheimer 's disease. From a psychological point of view, while women give more importance to family, religion, values and love, men, on the contrary, give importance to their professions, politics, income and success.

Therefore, for example, an 80-year-old man suffering from Alzheimer's disease remembers more of his profession when he thinks of himself in the past. If he was a surgeon, he still thinks he is a surgeon. Women who are in the same situation do not remember the profession of the past and the work they do, on the contrary, they think that their family, mother and father still exist.

## C. CABBARLININ ŞEİR YARADICILIĞINDA QADIN OBRAZLARI

**Fərhad Mədətov**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan

C. Cabbarlı XX əsr Azərbaycan ədəbiyyatının yetirdiyi nadir şəxsiyyətlərdəndir. Azərbaycan Xalq Cumhuriyyətini hərarətlə qarşılayan və ona bütün varlığı ilə xidmət edənlərdən biri də o olmuşdur. Ölkəmiz Sovet imperiyası tərəfindən işğal olunduqdan sonra bunula barışa bilməyən C. Cabbarlının gizli fəaliyyətinə görə həbs olunması, daha sonra ciddi senzura nəzarəti onun xalqa olan məhəbbətinə kölgə sala bilmədi. Yüksək sənətkarlıq məharəti onun dayağına çevrildi. Bu zəngin və çoxşaxəli yaradıcılığın, demək olar ki, hamısının mayasını milli-azadlıq iddeyaları təşkil edir.

"Ana" şeirində böyük sənətkar ana sevgisinin möhtəşəmliyini, ülviyyətini bədii boyalarla əks etdirmişdir. Bu yüksək sevgini bütün incəliklərinə qədər göstərmək üçün şair təzadlardan məharətlə istifadə etmişdir. Əvvəlcə şeirdə lirik qəhrəmanın həyatda çox güclü qüvvələr qarşısında baş əyməyən məğrur bir obrazı canlanır. Lakin sonra məlum olur ki, o,"zəif bir vücud", yəni ana qarşısında hər an rahib kimi itaət etməyə, hər cür əzab-əziyyətlərə qatlaşmağa hazırdır:

Onun əliylə bəla bəhrinə yuvarlansam,
Yenə xəyal edərəm, bəzmi-istirahətdir ! [1, səh.45]

Şeirə vətən məhəbbəti, azadlıq ideyaları aşılanması onun bədii keyfiyyətlərini daha da artırır. C. Cabbarlı Vətən adı çəkməsə də, qəhrəmanının sadaladığı dəhşətli qüvvələrdən qorxmaması, ancaq ana qarşısında qul tək dayanması bunu yada salır. C. Cabbarlı öz şəxsi həyatında şeirdəki qayəsinə həmişə sədaqətli olmuş, qısa müddət ərzində dönə-dönə həbs edilməsi onu yolundan döndərməmişdi.

C. Cabbarlı yaradıcılığında "Qız qalası" (1922-1923) poemasının xüsusi mövqeyi var. Zamanla bağlı olaraq Sovet dönəmində ədəbi tənqiddə daha çox əsərin üst qatlarına toxunulmuşdur. Bu isə əsərin ideyasının açılmasına maneələr törətmiş, müxtəlif ziddiyyətli fikirlərin yaranmasına səbəb olmuşdur. Şairin məqsədi Sovet imperiyasının qəsbkarlıq siyasətini, işğal etdiyi ölkələrdəki xalqların dinini, adət-ənənəsini, mədəniyyətini taptalamağı, xalqın qeyrətli oğul və qızlarının bu haqsızlıqlara ciddi müqavimətlərini əks etdirmək idi. Əsər haqqında 1944-cü ildə məqalə yazmış M. Arif poemanı yüksək qiymətləndirmiş, poemanın bu xüsusiyyətlərinə üstüörtülü münasibət bildirmişdir: "Cabbarlı sanki o qantəmirlər və durnalar dünyasını, o qüvvətli hiss və ehtiras sahiblırini, öz istəkləri uğrunda heç bir müqavimətin qarşısında durmayan, öz namusunu qorumaq üçün ölümü cəsarətlə qarşılayan insanları... həqir simalara qarşı qoyur" [4, s.313].

M. Arif tarixi mövzuda yazılmış romantik səpkili bu poemadakı müasirliyi, xüsusilə insan psixologiyalarının reallığını nəzərdən qaçırmır.

Əsər yazılana qədər tarixlər şahidi olan Qız qalası haqqında xalq arasında çoxlu rəvayətlər, əfsanələr mövcud idi. Bunlardan birini C. Cabbarlı da yada saiır: Abşeron xanının Bakı xanının qızını oğluna almaq istəmiş, o isə buna razı olmamış və qızını qörumaq üçün həmin qalanı inşa etdirmişdi. Əslində isə qalanın quruluşu onun hərbi məqsədlər üçün tikildiyini açıq-aşkar sübut edir. C. Cabbarlını nə vadar etmişdi ki, Qız qalası haqqındakı müxtəlif əfsanələri yox, məhz xalqımızın milli mentalitetinə tamamilə yabançı olan bir movzunu-Bakı xanı Qantəmirin qızı Durnayaya vurulması və onu nəyin bahasına olusa-olsun ələ keçirməyə cəhd etməsini ətə-qana dolduraraq genişləndirmiş, poemaya çevirmişdi? Bu sözsüz ki, səbəbsiz deyildi və onun mənasını başa düşmək üçün dövranın söz sənətkarları qarşısında qoyduğu sərt tələbləri yaddan çıxarmaq olmaz; hər şey kommunizm ideologiyasının tələblərinə uyğunlaşdırılmalı idi. Poemanın zahiri tərəfi-Qantəmirin Allahdan, dindən, adət-ənənələrdən uzaqlaşması ateizmi təbliğ edən bir dövlət üçün çox əlverişli idi. Əslində isə poemanın daxili qatlarında milli azadlığı və mustəqilliyi əlindən alınaraq faciələrə düçar olmuş, mənəvi əzablara uğradılmış insanların acınacaqlı taleyi, onları bu hala salan dövlət siyasətinin rəzil və iyrəncliyi ifşa olunur. Gənc şair əsərdəki bütün hadisələri bu fikirlərə tabe etdirmişdir.

Poemada Qız qalası namus, ismət, istiqlaliyyət və müstəqqillik məkanı, xüsusilə Xalq Cümhuriyyətinin rəmzi kimi diqqəti cəlb edir. Qalanın may ayında inşasına başlanması və iki ildən sonra aprelin sonunda yekunlaşması fikirlərin dəqiqləşməsinə imkan verir:

İki illik əzabdan sonra
Su içində bu dik bina bitmiş;
...İştə son gün ki, bu bina bitmiş,
Yenə axşam mayis...sevimli bahar [1, s.189-190].

Şeirin sonuncu misrasındakı qalanın yekunlaşma tarixini şair diqqəti sovet senzurasının nəzərlərindən yayındırmaq üçün maraqlı bir formada ifadə edir. Tarixi həqiqətə uyğun olaraq Xalq Cümhuriyyətinin aprelin 28-də suqut etdiyini əsərdə əks etdirmək, onsuz da dövlətin gözündə çox qorxulu görünən, bir neçə dəfə həbs olunmuş C. Cabbarlını, ən yaxşı halda Sibirin dəhşətli şaxtaları və ağlagəlməyən daha nələr gözləyirdi. Ona görə də o, aprel sözünün “əvəzedicisi” olan “axşam mayıs” deməklə vəziyyətdən çıxır.

Poemadakı bütun hadisələr də, zaman da, yer də, obrazlar da, bir sözlə, hər şey incə bir simvolik pərdəyə bürünmüşdür. Əsərin mahiyyətini düzgün dərk etmək üçün bu sətraltı qatların daxilinə nüfuz etmək ən əsas şərtlərdəndir. Bəlkə, elə bunlara əməl edilmədiyinə ğörədir ki, bu gözəl əsər, ədəbi tənqidin diqqətindən nisbətən yayınmış, ondan ötəri bəhs edilmişdir.

Bakı xanı Qantəmir “Qiz qalası” poemasının baş qəhrəmanlarından biridir. Əsərdə deyildiyi kimi, o, altı yüz il əvvəl yaşamışdır. Bu dövrdə indiki Rusiya Federasiyasının ərazisinin böyük bir hissəsi qədim türklərin ana vətənləri və möhtəşəm imperiyalarından ibarət idi. Təsadüfi deyildir ki, Rusiya prezidenti V. Putin Almaniyadakı müsahibəsi zamanı demişdir ki, axtarsan məlum olar ki, rusların böyük bir qisminin damarlarından türk qanı axır. Bu haqda tarixçi alim Ə. Ələkbərovun “Rus xaqanlığının-dövlətinin mənşəyi haqqında” (Sosial bilgilər: “Bilgi dərgisi” seriyası, Bakı, 2000, №3) məqaləsində qədim rus səlnamələrinə və tarixi faktlara əsaslanaraq rusların qıpçaqlardan

yaranmasını əsaslandırır. Görünür, bu faktlar C. Cabbarlıya tanış imiş. O, Qantəmiri türk öğlu kimi təqdim edərkən, simvolik mənada Rus imperiyası və onun varisi olan Sovet hökumətinin rüsvayçı əməllərinə-işğalçılıq siyasətinə işarə etmişdir. Cabbarlı yaradıcılığının əlçatmazlığı, bir də burasındadır ki, o sözü lakonok bir formada işlədir, bəzən böyük bir aləmi bir zərrədə yüksək sənətkarlıqla yerləşdirə bilir. O, turklərin qəhrəmanlıq tarixinin, şərəfli keçmişinin yasaq edilərək xalqdan gizlədildiyi bir zamanda Qantəmiri türk oğlu adlandırması bu qaranlıq tarixə projektor kimi işıq saçır. Bu "türk öğlu" ifadəsi ilə Cabbarlı həm də əsərini kodlaşdıraraq zamanın quduzlaşmış pəncəsindən yayına bilmiş, milli azadlıq ideyalarını əhatəli şəkildə ifadə edə bilmişdir. Əsəri bürümüş pərdə açılandan sonra oxucuların ğözləri qarşısında real həyat səhnələri canlanır, onlar Azərbaycan xalqının Cumhuriyyət dövründə qarşılaşdıqları ədalətsizlikləri, ölkəmizin zorakalıqla –Qantəmirin simasında "qan, dəmir" gücünə işğalını, Durnanın simasında isə xalqımızın qeyrətli oğul və qızlarının istiqlaliyyət uğrunda durna qatarı kimi nizamlanmasını, öz canlarını əsirgəməməsini, onların didərgin düşmələrini bir daha yada salır.

C. Cabbarlı Durnanın ziddiyyətli psixoloji hallar keçirməsini təsvir edir. O bununla Çar rusiyasının devrilməsindən sonra Azərbaycanda yaranmış qeyri-sabit vəziyyəti, insanlarda bir tərəfdən milli-müstəqillik arzularının reallaşmasına inamın çoxalmasını, digər tərəfdən daxili və xarici siyasi çarpışmalar nəticəsində yaranmış ümidsizliyi əks etdirmişdir:

Gülüyor, ağlıyor deyil bəlli,
İnliyor, dinliyor çətin həlli!
İri, süzgün, qara kömür gözlər
Bu üfüqlərdə, ax, nələr gözlər?!
Keçmişin bu işıqlı ulduzunun,
Allah, allah bu gündoğuş qızının
Nələr etmiş xəyalını məğşuş,
O ayıqdırmı, yoxsa bir bihuş?! [1, s.174]

Durnaya qayıqla yaxınlaşan sevgilisi ona qovuşmaq arzusunu bildirir. Lakin yox cavabı alan oğlan özünü "Kaspidə boğur". Oğlanın gəmi ilə gəlməsi, onun ölümü də metaforik qatlara malikdir. Bu Cənubi Azərbaycanda baş qaldıran milli-azadlıq, müstəqillik və Azərbaycanın bütövlüyü uğrunda Səttarxan və Bağır xanın başçılığı ilə gedən qanlı çarpışmalar, Rusiya və İran işğalçılarının müqaviməti ucbatından Şimali Azərbaycanın bu xalq hərəkatından və vahid Azərbaycan ideyasından uzaqlaşdırılması və inqilabın qan içində boğulması kimi hadisələri yada salır.

Bundan bir az sonra Durnanın problemləri daha da çoxalır. Atası Qantəmir ona sevgi-məhəbbət elan edir. Oxucunu ən çox çaşdıran, məntiqsiz görunən məqamlardan biri də Qantəmirin bu iyrənc təklifidir. Bu addımı əvvəlcə Durna da birmənalı şəkildə dəf etmir, hətta Qantəmirə söz də verir. Xan bunu onun yadına salır:

-Durna... artıq bu sözlərin yersiz.
Sən unutdunmu? Bağda verdin söz...
Mən də, eşqim də suçluyuq bəlkə,
Andı qırmaq yaqışmayır türkə [1, s.192].

Tərəddüd içində çarpınan Durna bu sözlərin həqiqət olduğunu təsdiqləyir. Lakin indiki halda o, Qantəmirin daxili aləminə baş vuraraq onun "qadınçı bir sima" olduğunu yəqin edir. Onun hədələrinə -"Ya bu gün öl və ya ki, təslim ol!" etinasız yanaşır, belə cavablandırır:

-Andı qırmaq yaqışmayır türkə,
Kib bilir, mən alışqanam bəlkə.
Ona söz verdim öncə, son döndüm,
İkiillik öz iztirabımdan,
Anladım mən nədir dəyərli həyat [1, s.193].

Durnanın bu cavabları ilk baxışda psixoloji cəhətdən çox mürəkkəb təsir bağışladığından bəzən əsərə marağı azaltmışdır. Bunun da əsas səbəbi poemanın zahiri mənasının daha çox ön plana çəkilməsidir. Doğrudur, Qantəmiri tənqid etmək üçün əsərdə kifayət qədər material tapmaq mümkündür. Yuxarıdakı dialoqların zahiri mənasına fikir verdikdə Durnanın da hərəkətlərində müsbət xüsusuyyətlərlə birlikdə, həm də mənfi çalarların olması nəzərdən qaçmır. Qüdrətli sənətkar oxuculara dolaşıq və ziddiyyətli görünən bütün hadisələri nizamlı şəkildə, məntiqi ardıcıllıqla düzməyə müvəffəq olmuşdur. Əgər simvolik mənada Qantəmiri Sovet imperiyasının rəmzi kimi götürsək, onda Qız qalasını, yəni Xalq Cümhuriyyətini Sovet siyasi rejiminin yaratması ilk baxışda hiss olunmur. Ancaq tarixi hadisələrə məntiqi şəkildə yanaşdıqda, yəni Romanovlar sülaləsinin - Rus imperiyasının süqutuna səbəb olması və bu təsir nəticəsində də Xalq Cümhuriiyyətinin yaranmasını nəzərə aldıqda hər şey dəqiqləşir. Durnanın Qantəmirə müəyyən qədər meyllənməsi də həyat həqiqətlərindən xəbər verir: o dövrdə "Hümmətçilər" kimi qruplaşmalar sovet hökumətinin yalan vədlərinə inanaraq onlara meyllənməsi, sonra isə peşmançılıq hissləri keçirmələri tarixdən məlumdur. Ədib belə bir kodlaşmadan istifadə etməklə tarixi həqiqətlərə sadiq qalmış, həm də cəza tədbirlərindən yaxa qurtara bilmişdir.

**Açar sözlər:** Qantəmir, Qız qalası, Durna, milli- azadlıq, sovet imperiyası.

### Ədəbiyyat

1. Cabbarlı C. Əsərləri. Dörd cilddə. I cild. Bakı, Şərq-Qərb, 2005, 328 s.
2. Arif M. Seçilmiş əsərləri, 2-ci cild, Bakı, 1968, 313 s.
3. Ələkbərov Ə. Rus xaqanlığının-dövlətinin mənşəyi haqqında, Sosial bilgilər: Bilgi dərgisi seriyası, Bakı, 2000, №3.

### The women characters in the poetry of J.Jabbarly

In J. Jabbarly's article "Women characters in the poetry of J. Jabbarly "the women's problems are highlighted in the poems "Mother" and "Maiden Tower". In the depths of this work J. Jabbarly notes the problems of People's Republic in the embodiment of women's problems. At the same time, he shows his anxiety in inequality of women in society.

# AZƏRBAYCANDA MƏİŞƏT ZORAKILIĞI

**Gülşən Məhərrəmova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
e-mail: Mhrrmovagulsn@gmail.com

Müasir dövrdə Azərbaycan ailələrinin əksəriyyətinin ən böyük problemlərindən biridə ailədaxili məişət zorakılığıdır.Əksər ailələrdə qadınlar müxtəlif işgəncələrə, şiddətlərə məruz qalırlar. Artıq son zamanlarda bu şiddətlər bəzən ölümlə də nəticələnir. Son günlərdə belə halların artmasının şahidi oluruq. Belə ki 28 mayda övladlarının gözü qarşısında öldürülən bir ananın faciəsini hər kəs şahidi oldu. Şəhərlərdə bu kimi hallar az baş versə də təəsüf ki, rayonlarımızda belə halların sayı artır. Məişət zorakılığının yaranmasında patriarxal dəyərlərin və güc ilə, nəzarəti ilə əldə etmək üçün zorakılıqdan istifadənin seçimi də ən başlıca səbəblərdən biridir. Demək olar ki, əksər ailələrdə məişət zorakılığı özünü müəyyən formalarda biruzə verir. Kimdə isə bu fiziki, cinsi, şiddət, kimdə isə də psixoloji təzyiq və təcrid edilmə kimi formalarda müşahidə olunur. Cəmiyyətdə qadınlara qarşı zorakılıq əsas insan hüquq və azadlıqlarının pozulması kimi qəbul edilir. Təəssüflər olsun ki, hazırda bütün dünyada hər 3 qadından 1-i həyatı boyu fiziki zorakılığa məruz qalır. Hər il dünyada zorakılıq səbəbindən öz həyat yoldaşı və qohumları tərəfindən 1200-ə yaxın qadın öldürülür, 2 milyon qadın yaralanır, 4 minə yaxın qadın evdə ağır şəkildə döyülür, 1000-ə yaxın qadın isə hər gün müxtəlif təzyiqlərlə üzləşir. 750 milyon qız 18 yaşına çatmamış erkən nikaha girir. Hər bir zorakılıq əməli, o cümlədən, məişət zorakılığı qadınlar, uşaqlar, ailələr və bütövlükdə cəmiyyət üçün ağır fiziki, emosional, iqtisadi və sosial nəticələr doğurur. Uşaqlıq dövründə zorakılığa məruz qalan və ya zorakılıq şahidi olan uşaqların böyüdükdə zorakılıq törətməyə meyilli olmaları ehtimalı çox yüksəkdir. Bu da onların gələcəkdə davranışlarında, psixologiyasında özünü biruzə verərək, sağlam düşüncəli insan kimi formalaşmasına mənfi təsir edir. Məişət zorakılığı müxtəlif formalarda təzahür edir – fiziki, psixoloji və iqtisadi zorakılıq. Fiziki zorakılıq "üzə vurulan sillə" dən tutmuş həyata qəsdetmə və öldürülməyə qədər olan hərəkətləri əhatə edir. Buraya itələmə, sürükləmə, şilləmə, yumruqlama, təpikləmə, boğma, ev dustağı etmə, əl-qolun bağlanması və ya hərəkətin məhdudlaşdırılması,xəstə və ya yaralı olduqda yardım göstərməkdən imtina halları daxildir. Psixoloji zorakılıq təcrid etmək, xəsarət yetirməklə təhdid etmək, hədə-qorxu gəlmək, təqib etmək, təhrik etmək, incitmək, ləkələmək, fiziki və sosial baxımdan təcrid etmək, etimadı itirmək və s. daxildir.

Məişət zorakılığının artması o deməkdir ki, ölkədə psixi problemləri olan insanların da sayı ciddi surətdə artıb. Azərbaycanda Məişət zorakılığı nəticəsində zərərçəkənlərin sayı 3,6 faiz artaraq 1031 nəfər, ölənlərin sayı isə 18.6 faiz artaraq 51 nəfər olub. Ailədaxili münaqişələrin, qadınların öldürülməsi, uşaqların öldürürlməsi və döyülməsi, intihar həddinə çatdırma və s. bu kimi hallar məişət zorakılığı hesab edilir. Azərbaycanda son dövrdə uşaqlara qarşıda məişət zoraklığı baş verir beləki əksər ailələrdəki kişilər qız övladı istəmirlər qızları olduqda isə onlarala kobud

münasibət göstərirlər buna misal olaraq Azərbaycan da baş verən hadisəni göstərə bilərəm ki bu hadisədə ata öz qızını su hovuzuna atmışdır səbəb isə qız övladı olduğu üçün.

Məişət zorakılığının qarşısın almaq mümkündürmü? Sosioloqlar hesab edirlər ki, bu, mümkün deyil. Məişət zorakılığı halları inkişaf etmiş cəmiyyətlərdə belə baş verir. Məişət zorakılığının qarşısını almaq mümkün olmasa da fəsadlarının qarşısının alınması üçün müəyyən sənədlər nəzərdə tutulub. Bura Mühafizə Orderi də daxildir. Məişət zorakıklığı ilə qarşılaşan insanların 90 faizi utandığı üçün hüquq-mühafizə orqanlarına müraciət etməkdən boyun qaçırır. İnsanlar "camaat nə deyər?" kimi söz-söhbəti eşitməmək üçün qarşılaşdıqları zorakılıq hallarını gizlətməyə çalışırlar. Zorakılıq halları cinayətlə nəticələndiyi zaman isə artıq gec olur. Uşaqların, qadınların öldürülməsi, döyülməsi, yaşlılara qarşı zorakılıq hallarının psixoloji səbəbləri də vardır. Yəni ağlı başında olan, psixloji problemi olmayan insan heç vaxt zorakılığa yol verməz. Psixoloqların sözlərinə görə affekt vəziyyətinə çox zaman uşaqlıqdan psixoloji zərbə almış insanlar sonradan qəddar cinayətkara çevrilə bilərlər. Buna görə də valideynlər övladlarını sevgi ilə böyütməyə çalışmalıdır. Sonra isə ən əsası onlara təhsil verməyə çalışsınlar. Ali məktəb olmasa belə bir peşə verməyə çalışsınlar. Uşaqlıqdan qızlara cehiz əvəzi kitab almağa çalışsınlar. Oğlanlarına etikadan kənar sözlər və ya sən oğlansan hər şeyi edə bilərsən deyil onlar ilk növbədə əks cinsiylə nəzakətlə davranmağı öyrətsinlər. Öyrətsinlər ki, gələcəkdə bu cür problemlər ortaya çıxmasın. Zorakılıq halları o qədər normal hal sayılır ki demək olar hər bir kiçik və böyük problemə görə qadına şiddət göstərməklə cəzalandırmaq həm kişilər, həm də qadınların demək olar ki, yarısı tərəfindən normal hesab edilir. Tədqiqatlar həm də onu sübut etmişdir ki, şiddət görən ana öz uşaqlarına qarşı da şiddət törətməyə meylli olur,zorakılıq nəticəsində yaranmış aqressiyanı,kini,zorakı şəxsə qarşı göstərməyə gücü olmayan ana bəzi hallarda bu aqressiyanı uşaqlarına qarşı yönəldir. Əksər hallarda fiziki və psixoloji şiddətin təsirindən ana üçün uşaqlarına vaxt ayırmaq və sevgi göstərməkdə maneələr yaranır.

Şiddət hallarının intensivliyi şəhər yerindən yerindən rayon və kənd yerlərinə getdikcə daha da çoxaldığı halda, məişət zorakılığının profilaktikası və törətdiyi əmələ görə məişət zorakılığı qanunundan irəli gələn qaydalarla təqsirli şəxslərin ittiham edilməsi hallarında zəifləmə baş verir. Qanundan irəli gələrək yaradılmış qadin krizis mərkəzlərində işçilər çalışmır və bu yerlərin aktiv fəaliyyət göstərməsi üçün maddi yardım yönəltmə və digər islahatlar aparılmır. Buna görə də çox vaxt məktəb və ya maarif mərkəzlərində yaradılmış bu otaqlar yaranma məqsədləri üçün istifadə edilmir və ya bağlıdır. Məişət zorakılığının cəmiyyət üçün ən başlıca ağır fəsadlarından biri də ruhi travma almış uşaqlardır. Tədqiqatlar nəticəsində məlum olmuşdur ki məişət zorakılığı mühütində yaşayan uşaqların 60 faizi inkişaflarının sonrakı dövrlərində müəyyən növ psixi problemlər yaşayırlar və bu simptomlar irəliləyərək hətta klinik səviyyəyə də çata bilir. Əlbəttə ki, burada məişət zorakılığı zamanı uşağın buna necə şahid olduğu,onun nəyi gördüyü, nəyi eşitdiyi və neçə yaşında olması da öz təsrini göstərir. Körpə uşaqlar olan ailələrdə baş verən məişət zorakılığı hallarında adətən uşağın yatmaq və yemək rejimində ciddi problemlər yaşandığından uşaqda artıq dərəcədə çığırmaq və ağlamaq vərdişləri yaranır və körpənin normal inkişafı təmin edilmir. Məktəbəqədər uşaqlarda isə həddən artıq utancaqlıq, ünsiyyətdən çəkinmə və digər ibtidai və orta

məktəb yaşlı uşaqlar kimi məişət zorakılığının baş verməsində özlərini günahlandırma halları müşahidə edilir. Bəzən psixoloji travmanın təsirindən uşaqlarda əsəb tutmaları, ürəkkeçmələr kimi fiziki əlamətlər müşahidə olunur və bəzən özləri də fiziki şiddətin qurbanlarına çevrilirlər. Məişət zorakılığının cəmiyyətin inkişafına zərər vuran əsas amilləirindən biri də məişət zorakılığının bir yoluxucu xəstəlik kimi bir nəsildən digərinə yayılması halıdır, şiddətə bəraət qazandıran cəmiyyətdə və ailənin kişi üzvü tərəfindən qadın üzvünə və ya üzvlərinə şiddət törədilmiş ailədə böyüyən yeni nəsil kişilər də gələcəkdə öz partnyor münasibətlərində şiddət göstərməyi haqları çatdığını düşünəcək və bununla da gələcək münasibətlərə öz mənfi təsirlərini göstərəcəklər. Məişət zorakılığını qarşını almaq üçün 1 nəfər və yaxud 1 dövlət çalışmamalıdır bu bütün cəmiyyətin həll edə bilcəcəyi bir məsələ olmalıdır. Biz də arzulayırıq ki elə bir cəmiyyətdə yaşayaq ki, şiddətə məruz qalan insanlar üçün sığınacaq və yaxud qanunlar qəbul edilməsin və ya bunlara ehtiyac duyulmasın. Azərbaycanda son dövrdə qadınların qorunması üçün sığınacaqların sayı artmışdır. Əsasən üstünlük Bakı şəhərindədir. Zorakılığa məruz qalan qadınlar bu sığınacaqlara üz tuturlar.

Məişət zorakılığının aradan qaldırılmasına dair bir çox qanunlar qəbul edilmişdir. 30 iyun 2017 –ci ildə qəbul edilən qanuna əsasən yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşayışdan sui-istifadə etməklə törədilən zorakılığın, onun doğurduğu mənfi hüquqi, tibbi və sosial nəticələrin qarşısının alınması, məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial müdafiəsi, hüquqi yardımla təmin edilməsi, habelə məişət zorakılığına səbəb olan halların aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirləri müəyyən edir və tənzimləyir.

**Açar sözlər**: Azərbaycan, qadın, zorakılıq, cəmiyyət, qanun, uşaq.

## Ədəbiyyat

1. Azərbaycanda gender bərabərliyi və gender münasibətləri:mövcud vəziyyət və imkanlar https://azerbaijan.unfpa.org/
2. Haqverdiyeva K., Azərbaycanda gender bərabərliyinin təmin edilməsi və qadın hərakatı http://static.bsu.az/

## Domestic violence in Azerbaijan

We know that domestic violence is happening in many families in Azerbaijan. In many families, there are various forms of violence against women. In the modern era, many laws have been in this area. But we have to work harder on this problem and find ways to adopted educate people.

# AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ İNKİŞAFINDA GENDER DEMOKRATİYASI

**Günel Məlikli**
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
e-mail: gunelmelikli88@gmail.com

Azərbaycan Respublikasının milli inkişaf sistemində qadın hüquqları, gender problemi xüsusi rola malikdir. Gender problemi hər zaman ictimai həyatın bütün sahələrində aktual olmuşdur. Gender balansının qorunması, kişilərə və qadınlara bərabər hüquqların verilməsi müasir sosial münasibətlərin əsas prinsiplərindən biridir [7, s.129].

Cəmiyyətdə qadın probleminə əvvəl feminizm, sonradan da gender mövqeyindən yanaşılmasının əsas səbəbi qarşılıqlı cəmiyyət münasibətlərdə kişi dəyərlərin və stereotiplərin üstün tutulması olmuşdur. Bunun da daha dərin səbəbi qadın və kişi arasında həyatda (məişətdə, ailədə) təbii iş və vəzifə bölgüsü olmuşdur [2, s. 39].

Sosial siyasətin gender amilinin təhlili sosial hüququn, vətəndaşlıq və sosial siyasət rejimlərinin ümumi nəzəriyyələrinə əsaslanmaqla yanaşı, eləcə də feminizm nəzəriyyəsi nümayəndələri tərəfindən xüsusi konsepsiyalarına əsaslanır. Sosial siyasətin ilk feminist tədqiqatları 1970-ci illərin sonlarına təsadüf edir. Bu tədqiqatlarda müxtəlif ölkələrin gender amillərinin müqayisəsi aparılmamış, yalnız ingilis-sakson ölkələrinin təcrübələri əsasında gender və sosial dövlət arasında münasibətlərinin universal misalı kimi nəzərdən keçirilmişdir. Lakin 1990-cı illərin əvvəllərində sosial siyasətin komporativ (müqayisəli) feminist tədqiqatları inkişaf etməyə başladı. [9, s.37].

Belə ki, Azərbaycan qadını 1918-1919-cu illərdə Azərbaycan Xalq Cümhuriyyəti dönəmində ilk dəfə seçmək və seçilmək hüququ qazanaraq, cəmiyyətdə kişilərlə bərabər hüquqlara malik olaraq, ölkəmizin ictimai-siyasi həyatında fəaliyyət göstərdi. 1977-ci ildə isə Ulu öndərimiz Heydər Əliyevin qadınlar haqqında dediyi müdrik sözlər Azərbaycan qadınına inamı, güvəni, qayığını bir daha artırmış oldu. "Azərbaycan qadını öz ağlına, zəkasına, biliyinə güvənən bir qadındır və bu qadın hər zaman Azərbaycanın adını yüksəklərdə tutur". Məhz milli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra qadınlar ölkənin ictimai siyasi həyatında önə çəkildilər.

O demişdi: "Siz Azərbaycanın ictimai-siyasi həyatının fəal iştirakçılarısız və arzu edirəm ki, bundan sonra da belə fəal olasınız və mən də öz tərəfimdən bütün imkanları yaratmağa çalışacağam" və bütün imkanları yaratdı. Azərbaycan qadınının şəxsiyyətinə böyük hörmətlə yanaşan Ulu öndər Heydər Əliyev ölkəmizdə görülən qadın siyasətinin əsasını qoyaraq, ölkə həyatının bütün sahələrində qadınlara xüsusi yer ayırdı. Qadınların qabiliyyətlərini üzə çıxararaq, onlara dəstək oldu. Dövlət qadın siyasəti, cəmiyyətdə qadınların rolunun artırılması, qadın problemlərinin həll olunması onun məqsədinə çevrilmişdi. Bu demokratik imkanlara malik olan

cəmiyyətin yaradılmasının göstəricisi oldu. Qadınlar barədə dövlət siyasətinin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 14 yanvar 1998-ci il tarixli Fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradıldı. Sonradan ailə və uşaq problemlərinin qadın problemləri ilə əlaqəli olduğu və bu istiqamətdə tədbirlərin kompleks həyata keçirilməsinin zəruriliyi nəzərə alındı və 2006-cı ildə prezident İlham Əliyevin fərmanı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradıldı [7, s.130].

Komitənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

- müvafiq sahədə vahid dövlət siyasətinin formalaşdırılmasında iştirak edir və bu siyasətin həyata keçirilməsini təmin edir;
- müvafiq sahənin inkişafını təmin edir;

qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir [4].

Dövlətimizin həyata keçirdiyi qadın siyasətinin uğurlu nəticələri barədə danışarkən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova söyləmişdir: “Azərbaycanda qadın hərəkatı gündən-günə inkişaf edir. Qadınlarımız dövlətin yaratdığı bütün imkanlardan istifadə edirlər. Sərbəst təhsil almaqla, peşəkarlıq səviyyələrini artırmaqla bərabər, cəmiyyətin qurucusu kimi ictimai-siyasi proseslərin fəal iştirakçısına çevrilir, liderlik xüsusiyyətlərinə yiyələnirlər” [5].

Azərbaycan Prezidentinin qanunvericilik təşəbbüsü əsasında 2006-cı ilin dekabrında Milli Məclisdə qəbul olunmuş “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının Qanunu, həmçinin 2010-cu ildə təsdiq olunan “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanunu da zorakılığın doğurduğu mənfi nəticələrin qarşısının alınması və məişət zorakılığına səbəb olan halların aradan qaldırılması istiqamətində mühüm əhəmiyyətlidir. Cəmiyyətdə gender bərabərliyinə nail olmaq üçün həmçinin maarifləndirmə işlərinin aparılması təqdirəlayiqdir. Bu istiqamət müasir dövrün tələblərinə cavab verir.

Respublikamızda qadın hərəkatının geniş vüsət alması, xanımlarımızın nəcib və xeyirxah məqsədlər naminə sistemli və ardıcıl fəaliyyətinin genişləndirilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycanın birinci xanımı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Mehriban xanım Əliyevanın adı ilə bağlıdır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun əhaliyə göstərilən xidməti təqdirəlayiqdir. Mehriban xanım cəmiyyətdə qadınların rolu barədə demişdir: “Azərbaycan qadınları həyatın bir çox sahələrində əldə etdikləri uğurlarla haqlı olaraq fəxr edirlər. Tarix boyu Azərbaycanda mədəniyyətimizin, milli dəyərlərimizin, adət-ənənələrimizin qorunub saxlanılmasında qadınların misilsiz xidməti olubdur.Azərbaycanda qadın, ana hər zaman müqəddəs sayılıbdır” [6, s.5].

Cənab prezidentimiz İham Əliyev Azərbaycan qadınına böyük diqqət və qayğı göstərərək deyir:- “Əminəm ki cəmiyyət qarşısında öz məsuliyyətini bütün dərinliyi ilə dərk edən Azərbaycan qadını bundan sonra da müstəqil respublikamızın tərəqqisinə böyük töhfələr verəcəkdir”, Dövlət müstəqilliyinin bərpasından ötən 20 il ərzində Azərbaycan qadını milli dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilib. Ölkəmizin sosial, iqtisadi, intellektual və mədəni potensialının

artırılması üçün dəyərli töhfələr verib. Elm və təhsil səhiyyə və mədəniyyət, eləcə də digər sahələrdə qazandığı uğurları ilə o öz nüfuzunu ilbəil artırmağa müvəffəq olub. Məhz o gender siyasətinin gücləndirilməsi, qadınların hüquqlarının qorunması yolunda təqdirə layiq işlər görür.

**Açar sözlər:** gender problemi, gender amili, qadın hüquqları, qadın siyasəti.

**Ədəbiyyat**

1. http://azerbaijan.az
2. Engels F. Ailənin, Xüsusi Mülkiyyətin və Dövlətin Mənşəyi. Bakı: 1986. - 191 s.
3. Heydər Əliyev. Müstəqillik yolu. Bakı: Azərbaycan universiteti nəşriyyatı, 1997, 136 s.
4. http://scfwca.gov.az/news/a-21.html
5. http://scfwca.gov.az/news/a-441.html
6. Məlikli G. Azərbaycan qadınları həyatın bir çox sahələrində əldə etdikləri uğurlarla fəxr edirlər. // "Respublika"qəzeti, 10 mart 2019-cu il.
7. Məlikli G. Azərbaycan respublikasının dövlət təhlükəsizliyində sosial siyasətin yeri və rolu. B.: İndiqo mətbəəsi, 2018. – 208 s.
8. Women are better off today, but still far from being equal with men, https://www.theguardian.com
9. Социальная политика и социальная работа: гендерные аспекты: Учебное пособие для студентов высших учебных заведений, Под ред. Е. Р. Ярской-Смирновой.М.: «Российская политическая энциклопедия»,2004. -292 с.

## QADIN POEZİYASINDA PARALELLƏR (E. DİKKİNSON VƏ X. NATƏVAN)

**Nərgiz Məmmədbəyli**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: Nargiz.Mammadbayli@student.au.edu.az

Istər Amerika, istərsə də Azərbaycan ədəbiyyatında yaradıcılıq bənzərliyi olan sənətkarlar olmuşdur. Buna nümunələrdən biri Emili Dikkinson və Xurşidbanu Natəvan yaradıcılığıdır. . Bu iki şairə fərqli paralelərdə, lakin eyni zaman kəsimində yaşamşlar. Onların şeirləri istər məzmun, istərsə də forma cəhətdən oxşarlıq təşkil edir. Hər iki müəllifin ölüm, sevgi, həyatı dərketmə kimi oxşar mövzulara münasibəti vardır.

Hicran ilə kim, dəməni-qəm dəstrəsimdir,
Şadəm ki, xəyalın,gözəlim, həmnəfəsimdir.
Gül ayrısı bir bülbili-bimari qəminəm
Əfğan ilə bu guşeyi-möhnət qəfəsimdir.
Cismimdəki bimar könül naləsi, guya,
Bir qəmzədə məhmildən asılmış cərəsimdir.
Görmək üzünü qayəti-hər fikrü xəyalım,

Öpmək ayağın, mayeyi-şövqü həvəsimdir.
Xurşidə yetər başım əgər, çakərin olsam,
Bu rütbə ilə aləm arə fəxr bəsimdir [2, s.20]

Natəvanın sevgi məzmunlu şeirləri üçün kədər səciyyəvidir. Müəllifin şeirlərinin əsas obrazı olan aşiq sevginin dərdini dünyəvi sevincə dəyişmir. Lirik qəhrəman qismində çıxış edən aşiq daim sevdiyinin xəyalı ilə yaşayır . Lakin növbəti bəndlərdə artıq aşiqin həsrətinə şahid oluruq. O, yarından ayrı düşməsini bülbülün çəməndən ayrı düşməsi ilə müqayisə edir. Qəzəl ənənəyə uyğun olaraq şairənin təxəllüsü ilə bitir.

Emili Dikkinson yaradıcılığında da oxşar mövzuların davam etdiyini görə bilərik. Natəvanla oxşar cəhəti onun da sevgi məzmunlu şeirlərinin əksəriyyətinin ümidsizlik və kədər məzmunu daşımasıdır.

I hide myself within my flower,
That wearing on your breast,
You, unsuspecting, wear me too—
And angels know the rest.
I hide myself within my flower,
That, fading from your vase,
You, unsuspecting, feel for me
Almost a loneliness [3, s.431].

Mən özümü gülün içərisində gizlədəcəm
Sənin köksünə taxılacaq
Sən, şübhəsiz, mənlə bəzənəcəksən
Və ardını mələklər biləcək.
Mən özümü gülün içərisində gizlətdim.
O, güldanında solacaq,
Sən, şübhəsiz məni duyacaqsan
Hardasa tənhalığımı da. (Məmmədbəyli. N)

Şeirin məzmunundan aydın olur ki, lirik qəhrəman sevdiyindən uzaqdır. Buna görə özünü gül içinə "həbs etmək" istəyir. Gül simvol kimi zərifliyi, gözəlliyi təmsil edir. Burdan onu demək olar ki, lirik qəhrəman daha incə və daha gözəldir. O, sevgilisinin həmin gülü dərəcəyindən əmindir. Şübhəsiz, həmin şəxs bu gülün gözəlliyinə laqeyd qala bilməz, onu üzərində daşımaq istəyəcək. Mələklər belə bu gözəl çiçəkdən zövq alacaq. Lakin ikinci bənddə artıq müəllifin ümidsizlik yaşadığını görürük. O, sevdiyinin laqeydliyindən şikayətlənir. Belə ki, gözəlliyi ilə diqqəti cəlb edən gül artıq güldanda solmaqdadır. Dikkinson bu məqamda öz yalnızlığı ilə gülün solmasını eyniləşdirir.

**Açar sözlər:** Azərbaycan-Amerika ədəbi əlaqələri, Xurşidbanu Natəvan, Emili Dikkinson.

**Ədəbiyyat**

1. Quliyev Q., Əliyeva Ü. Amerika Ədəbiyyatı: Tarixi Oçerklər. Elm və təhsil. Bakı, 2016.
2. Xurşidbanu N., Əsərləri. Lider nəşriyyatı, Bakı, 2004.
3. Johnson T.H. The complete poems of Emily Dickinson. Boston: Brown & Company, 1960.

**Parallels in Woman Poetry ( Emily Dickinson and Khurshidbanu Natavan)**

In this article poems of two authors are compared. Similar and different sides in their poetry are investigated.

## ƏZİZƏ CƏFƏRZADƏNİN DİL KİMLİYİ VƏ GENDER ASİMMETRİYASI
## ("Bakı-1501" romanı əsasında)

**Bənövşə Məmmədova**
Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
e-mail: benovshemamedova@yandex.ru

Məlumdur ki, dil kimliyi fərdin daxili aləminin, emosional bloklarının, ifadəsini tapmamış geştaltlarının, intellektual səviyyəsinin, emossionla intellektinin, yaşadığı toplumun onun üzərindəki (ektralinqvitik planlı) təsirinin, fərdi və toplumsal dünya mənzərəsinin dil formatının və s. bu kimi faktorların şərtlənməsilə formalaşır. Və heç şübhəsiz ki, qadın dil kimliyi, eynilə kişi dil kimliyi kimi, aid olduğu toplumun dünyanın dil mənzərəsinin konsept və stereotiplərinin "möhürünü" daşıyır. Milli dil mənzərəsindəki gender diferensiasiyası ilə bağlı stereotipikləşmənin bir təcrübi araşdırmanın nümunəsində aydın şəkildə izləyə bilərik. Belə ki, P.Eckert və S. Makkon-nell-Ginetin məşhur "Language and Gender" araşdırmasında qeyd olunur ki, aparılan müvafiq məramlı təcrübədə respondentlər eyni bir sözün (***stol***) alman və fransız dilindəki fərqli cins xarakteristikasından çıxış edərək ona fərqli metaforik səciyyələndirmələr "qazandırmışlar". Belə ki, alman dilində **tisch** "stol" kişi cinsində, fransız dilində isə **table** "stol" qadın cinsində olan söz kimi qəbul edilir [2, s.68]. Deməli, qrammatik cins fərqləndirməsi bu dillərə xas dünyanın dil mənzərəsinə müvafiq korrektələr tətbiq edə bilir. Onu da qeyd edək ki, tədqiqatçılar əks istiqamətli proseslərdə, yəni fiunksionallığa əsaslanan assosiasiyaların gender xarakterli metaforik keçidlərlə "sonlana" bilməsinə diqqət çəkuirlər. Məsələn, S.Romeynə görə, "torpağ"ın funksiyasından törəyən assosiasiyaların onun bir çox hind-Avropa dillərində qadın cinsində və ya qadına xarakterik metaforalarla eyni kontekstdə təqdim edilməsinə yol açmışdır [3, s.83]. Azərbaycan qadın yazıçılarının və o cümlədən, konkret olaraq, Ə.Cəfərzadənin dil kimliyinin tədqiqi burada milli dil mənzərəsində əks olunan gender streotiplərinin müvafiq xarakterli metafora və assosiasiyalarda ifadə tapdığını ortaya qoyur. Bu stereotiplərdən ən qabarığı heç şübhəsiz ki, "gender asim-metriyası" olaraq səciyyələndirilən və əslində universal mahiyyət kəsb edən [5] psixoemossional göstəriş və yönləndirmə sistemləridir. Belə ki, gender asimmetriyası zamanı qadın və kişinin təbii

fizioloji, sosial, psixoloji mahiyyətinin müqayisəsi aparılır və bu müqayisə birmənalı şəkildə maskulin xüsusiyyətlərin lehinə yekunlaşır. Bunun ən parlaq örnəyi olaraq, dilimizdəki “kişi kimi qadın” və “arvad kimi (kişi haqqında) metaforalarının müqayisəsində görə bilərik: birinci halda biz meliorativ (tərif) səciyyələndirmə ilə, ikinci halda isə peyorativ xarakteristika (təhqir) ilə qarşılaşırıq. İlk baxışdan paradoksal olsa da, Əzizə Cəfərzadə kimi əsərlərində (süjet və fabula səviyyəsində) qadın güçünü vəsf edən, qadının mənəvi paklıq və yüksəliyinin tərənnümçüsü olan bir yazıçı, qadın yazıçı özü də bu gender asimmetriyasının izlərini daşıyan metafora və assosiasiyalara müraciət edir. Belə ki, Ə.Cəfərzadə öz qadın qəhrəmanlarının toplumdakı uğurlarını əyani şəkildə göstərmək üçün onları, maskulin dəyərlər sistemi aspektində əhəmiyyətli sayıla biləcək özəlliklərlə mükafatlandırırlar. Belə ki, Ə.Cəfərzadənin “Bakı-1501” romanının baş qadın qəhrəmanı Bibixanım – Sultanım xanım qaynanası və qaynatasının (Şirvan şahının və xanımının) rəğbətini qazanmaq üçün “***ər ürəkli, mərdanə qəlbli vətən igidlərindən*** (yəni, kişilərdən – B.M.) ***seçməyən***” bir qadına çevrilməli olur və yalnız bu zaman “***tez-tez gənc döyüşçü paltarı geymiş*** Sultanım xanım” həyat yoldaşı ilə “***atlanıb***, ... gözlərdən iraq bir yerdə onunla ***ox atıb, qılınc oynadıb, at çapdıqdan***” sonra saray əyanlarınınn təqdir və hörmətini qazanmış olur.Digər nümunələrə diqqət edək: – *Allah bilər* ***bu arvad xeylağlarının işini****. Onlarınkı nağıldı, vallah!; – Olar dəəə...* ***Dava arvad işi deyil axı****, ay balam.* [1, s.205]; – *Axı anam-bacım,* ***dava-şava kişi işidi. Sən, zənən xeylağı****, onun qibleyi-aləm olub-olmadığını* ***nə bilirsən****?* [1, s.172]. Göründüyü kimi, Ə.Cəfərzadə dolayısı ilə dilimizdəki gender stereotiplərini ifşa edən dialoji nitq nümunələri ortaya qoyur.

Ə.Cəfərzadə Azərbaycan dil kimliyinin daşıyıcısı kimi gender asimmetriyasının xalqımıza xas olan təzahür formalarından (atalar sözləri və frazeoloji vahidlərdən) ustalıqla yararlanır: “***Ər qarağan kolunun dibində otursa, arvad da gərək gedib onun yanındakı yovşan kolunun dibində əyləşə***”, – deyib dədələr [1, s.81]. Yazıçının dilində bir çox hallarda “**arvad**” sözü neqativ konnotasiya daşıyan metafora kimi işlədilir. Belə ki, həyat yoldaşını döyüşə yola salan Sultanımın ərinin dilindən bu stereotipik yanaşmanın ən bariz formasını izləmiş oluruq: – ***Sən də? Sultanım, sən da arvadlara dönürsən nədi? Bu nəm neyçündür****?* [1, s.146]. “***Arvada dönmək***” frazeoloji vahidinin peyorativ anlamı heş şübhə doğurmur. Özü qadın olan yazarın bu metaforik keçid seçimi heç şübhəzsiz ki, “***arvadsifət***” sözünü təhqir (məsələn: *Qoy bu uşaqsifət,* ***arvadsifət*** *şahzadənin bağır-öfkəsi partlasın, daha yaxşı*! [1, s.167], “kişi qeyrətli” ifadəsini isə tərif statusunda dəyərləndirən Azərbaycan (simfonik) dil kimliyinin daşıyıcısı olması ilə şərtlənir. Müqayisə üçün deyək həmin iqtibas hissəsi rus dilində “- *И ты?! Султаным, уж не превратишься ли ты в* ***плакальщицу****? К чему эти слезы*?” tərcümə edilmişdir [4, s.35] və göründüyü kimi, burada “***arvad***” sözü öz ilkin anlamında (***женщина***) deyil, Ə.Cəfərzadənin “qazandırıdığı”, daha dəqiq desək, gender asimmetriyası ilə şərtlənən əlavə məcazi anlamında tərcümə edilmişdir. Maraqlıdır ki, Ə.Cəfərzadənin elə özü də həmin dialoq kontekstində gender asimmtrikliyi ifşa etməyə cəhd edir. “*...Mən səni ər ürəkli, mərdanə qəlbli vətən igidlərindən seçmirəm. Onların birisən, göyərçinim, qumrum mənim! Sultanım xanımın yaş kirpikləri səyrişdi, gözlərində birər ulduz sayrışdı. –* ***Bu «mərdanə» ilə «göyərçin» sözləri tutmadı***” [1, s.146]. Burada biz, L.Vitgenşteynin təsbit etdiyi və sonralar dil kimliyi nəzəriyyəsi çərçivəsində tədqiq edilən “dil oyunu” faktı ilə qarşılaşırıq.

Daha bir nümunədə gender asimmetrikliyinin izlərini müşahidə edə bilirk: – *Adə, Allahun olsun*! ***Elə vuruşan igidə arvad deyərlər?*** [1, s.195]– nümunəsində bu qohumluq terminin neqativ konnotasiyasını aşkar şəkildə izləyirik. Göründüyü kimi, burada "igid" və "arvad" sözləri bir növ, oksümoron xarakterli qarşılıqlı semantik istisna korrelyasiyası yaratmışdır.

**Açar sözlər:** ədəbiyyat, gender, dil kimliyi, gender asimmetriyas, Ə.Cəfərzadə.

## Ədəbiyyat


1. Cəfərzadə Ə. Bakı.1501, Yazıcı, Bakı, 1981.
2. Eckert P., McConnell-Ginet S. (2013). Language and gender. Cambridge University Press.
3. Romaine S. Communicating Gender. London: Lawrence EAP, 1999, 406 p.
4. Джафарзаде А. Баку – 1501http://gakh.cls.az/
5. Кирилина А. Гендерная асимметрия в языке, Женщина плюс..., 2003, №1.


## The language identity of Aziza Jafarzade and gender asymmetry (on the basis of novel "Baku.1501")

The article deals with the language identity of distinguished Azerbaijani writer Aziza Jafarzade and the facts of gender asymmetry of her novel "Baku.1501". It is known that Aziza Jafarzade wrote about the rights and freedom of women in case of progressive approach throughout her artistic works. But in the mentioned novel of Aziza Jafarzade, we come across with some expressions that contradict gender equality. Our studies reveal that the expressions used by the author give preference to men for their valor, bravery and hardiness. The expressions refer to the "standard" phrases of the Azerbaijani mentality. It displays that the writer can not avoid from her national language identity in the context of her individual language identity.

# MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ MÜƏLLİMİN PEŞƏ FƏALİYYƏTİNİN GENDER ASPEKTLƏRİ

**Elza Mollayeva**
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
e-mail: elzamollayeva@rambler.ru

Təhsil sistemində gender yanaşmasının həyata keçirilməsi prosesində müəllim əsas fiqur olaraq qalır. Təlim və tərbiyə prosesinə gender yanaşması təcrübəsinin realizə edilməsində müəyyən edilən üç səviyyədən biri – mezo səviyyə birbaşa müəllimin gender bacarıqları ilə bağlıdır.

A.N.Kamenskayaya görə «pedaqoqun gender bacarıqları üç istiqaməti özündə birləşdirir: pedaqoji fəaliyyətdə gender bacarıqları, pedaqoji ünsiyyətdə və şəxsi gender bacarıqları» [1, s.269].

Pedaqoji fəaliyyətdə gender bacarıqlarına daxildir: tərbiyə olunanların gender aspektindən psixoloji və yaş xüsusiyyətlərini bilmək, onların gender özünüdərkinə məktəbəqədər müəssisə proqramının və dərsliklərinin təsiri haqqında biliklərə malik olmaq, pedaqoji bacarıqlar, uşaqlara gender dəyərlərinin aşılanması prosesində səmərəliliyi artırmaq üçün zəruri tədris materialını düzgün seçmək, onu qruplaşdırmaq, praqnozlaşdırmaq, gizli gender imkanlarının üzə çıxarılması.

Müasir gender tədqiqatları göstərir ki, həm məktəbəqədər təhsil müəssisələrində, həm də digər təhsil mərhələlərində müəllimlər pedaqoji prosesin həyata keçirilməsində qadın və kişi xüsusiyyətlərini ənənəvi gender ustanovkası ilə differensiallaşma aparırlar. Məktəbəqədər təhsil müəssisələri pedaqoqlarının fəaliyyətini gender aspektindən araşdıran O.B.Otveçalina qeyd edir ki, bağça müəllimələrində gender assimetriyası özünü göstərir ki, bu da onların gender dünyagörüşünün ziddiyyətli olması ilə bağlıdır. Sözdə gender bərabərliyini pedaqoji prosesin əsas amillərindən biri kimi qəbul edən pedaqoqlar, iş prosesində, uşaqların geyiminə münasibətində, uşaqlara verilən əmək tapşırıqlarının bölgüsündə, şəxsi keyfiyyətlərin və uğurların qiymətləndirilməsində, cəzalandırmada bu amili unudurlar [3].

Müəllimlər oğlanlarla ünsiyyətdə qızlara nisbətən daha sərt rəftar üslubu seçirlər və onları tez-tez cəzalandırırlar. Oğlanların aqressivliyini, davakarlığını təbii qəbul edən pedaqoqlar, qızlar üçün bu xüsusiyyəti arzuedilməz sayırlar. Bu da pedaqoqların gender dünyagörüşünün ənənəvi tələblərə əsaslanması ilə şərtlənir ki, məhz bu yanaşmanı pedaqoqların demək olar ki, hamısı nümayiş etdirirlər. Ancaq müasir pedaqoqların özləri təlim-tərbiyə prosesində gender yanaşmasının zəruriliyini qeyd etsələr də onu həyata keçirtmək üçün gender haqqında nəzəri biliklərə və gender bacarıqlarına malik deyillər. Tədqiqatçı Q.A.Olxovikə görə, gender baxımından düzgün oriyentasiyaya malik müəllim öz gender identikliyini düzgün məyyən etməyi, uşaqlara gender bərabərliyi dəyərlərini aşılamağı, pedaqoji prosesin səmərəsinin yüksəldilməsində gender pedaqogikasının imkanlarını müəyyən etməyi bacarmalıdır [2]. Müəllimin gender bacarıqlarına həm də uşaq fəaliyyətinə psixoloji-pedaqoji və didaktik aspektdən rəhbərliyində gender xüsusiyyətlərinin nəzərə alıması daxildir. Mövcud elmi-pedaqoji ədəbiyyatda müəllimin gender bacarıqlarının məlumatverici, refleksiv və təşkilatı komponentləri verilir [5].

**Məlumatverici komponentə** gender pedaqogikası və gender psixologiyasına aid müxtəlif suallar, məlumatlar daxildir ki, bura da təlim-tərbiyə prosesinin subyektlərinin gender xüsusiyyətləri haqqında biliklər, cəmiyyət daxilində qadın və kişinin vəziyyəti haqqında dünyagörüş və uşaq ədəbiyyatının, dərsliklərin gender ekspertizası daxildir.

**Refleksiv komponent** müxtəlif gender problemlərinə şəxsi münasibəti, özünü təkmilləşdirməni ifadə edir.

**Təşkilati komponent** dedikdə buraya gender sosiallaşmasının təşkil edilməsi və təhsildə mövcud olan gender problemlərinin, fərqlərinin düzgün dərk edilməsi, onlara təsir edə bilmək, pedaqoji-psixoloji cəhətdən əlverişli şəraitin yaradılması daxildir.

Pedaqoji prosesin səmərəliliyinin artırılmasında gender aspektinin nəzərə alınması pedaqoji prosesin yeni modelinin əsasını təşkil edir. V.P.Simonova [6] görə, müəllimin özünün və uşaqların gender dominantlığını müəyyən etməsi təlim prosesinin səmərəsini yüksəldir. Gender dominantlığı dedikdə insanda hansı başlanğıcın, femin və ya maskulin başlanğıcın dominant olması nəzərdə

tutulur. İnsanlar gender dominantlığına görə dörd tipə bölünürlər: maskulin, femin, androqin və amorf tip. Maskulin oriyentasiaylı qruplarla işləyən pedaqoq bunları bilməlidir:

- Vizual informasiyaya daha çox yer verməklə, məlumatı sütunlarda yerləşdirmək;
- Materialın izahında abstrakt təfəkkürə müəyyən qədər yer vermək;
- Hər bir məşğələnin sonunda mütləq ümumiləşdirmə və nəticə vermək lazımdır;
- Dialoqların və disskusiyaların təşkil edilməsi;
- Fikirlərin məntiqiliyinə və sübüt edilməsinə xüsusi diqqət yetirmək;
- Cütlərlə işi təşkil etmək və özünüqiymətləndirməyə etimad göstərmək;

  Femin oriyentasiyalı qruplarda işləyən müəllim üçün bunları bilmək vacibdir:

- Konkret yazılı nümunələr və hesablamalar tətbiq etmək;
- İştirakçıların nitq bacarıqlarından istifadə etmək;
- Kollektiv iş formasından istifadə etmək;
- Təlim-tərbiyə prosesinin gedişini və nəticəsini mütləq şərh etmək;
- Emosional sferaya təsir edən həyati misalların gətirilməsi.

Məktəbəqədər yaş dövrü ilə işləyən müəllimin gender yanaşmasına əsaslanan fəaliyyət modelinin işlənib hazırlanması O.P.Naqelə [4] məxsusdur. Onun təsnifatında aşağıdakı bacarıqlar sadalanır:

**Nəzəri bacarıqlar**: oğlan və qızların psixoloji statuslarının fərqləri, məktəbəqədər yaşda uşaqların cinsi-rol sosiallaşmasının inkişafı, qadın və kişi başlanğıcının formalaşdırlmasının metod və vasitələri haqqında biliklərə malik olması.

**Diaqnostik bacarıqlar:** Cinsi –rol sosiallaşmasında tədqiqatın diaqnostik metodlarından istifadə etmək səriştəsinin olması.

**Şəxsi bacarıqlar**: özünün şəxsi keyfiyyətlərini, gender stereotiplərini, identikliyini, reallaşdırdığı gender rolunu dərk etməsi.

**Texnoloji bacarıqlar**: Məktəbəqədər yaş dövrünün fəaliyyətinin təşkilində müəllimin gender yanaşmasını tətbiq edə bilməsi.

Məktəbəqədər yaş dövrürünün tərbiyəsində gender yanaşmasını həyata keçirməyi öz qarşısına məqsəd qoyan müəllimin bunları bilməsi vacibdir:

- Məktəbəqədər yaş dövrünün cinsi-rol sosiallaşmasının səviyyəsinin diaqnostlaşdırılması:
- Uşaqların gender xüsusiyyətlərini nəzərə almaqla ətraf mühitin layihələndirilməsini həyata keçirmək, yəni onları əhatə edən mühitdə genderlə bağlı modelin üzə çıxarılması və istifadə edilməsi.
- Mövcud ümumtəhsil proqramlarının və texnologiyaların gender aspektindən təhlil edilməsi.
- Cinsi-rol tərbiyəsinin metodiki və didaktik təmin olunması yollarını hazırlamaq.
- Valideyinlər üçün göstəriş və məsləhətlərin hazırlanması.

Hər iki cinsdən ibarət qruplarla iş aparan müəllim iş prosesində bir sıra amilləri nəzərə almalıdır ki, bu da uşaqların gender tərbiyəsinə müsbət təsir göstərə bilər:

- Gender baxımından qrupda istifadə edilən forma və metodların, verilən tapşırıqları seçilməsində müəllim üçün zərurudir:
- Qrupun gender tərkibinin nəzərə alınması: əgər cinslərdən birinin sayı digərinə nisbətən çoxdursa, belə şəraitdə gender xüsusiyyətləri özünü çox gec biruzə verir.
- Cinslərin psixofizioloji xarakteristikasının, hafizə, qavrama, riyazi və nitq qabiliyyətlərinin, hisslərin, utancaqlığın, maraqların, özünüqiymətləndirmənin, özünənəzarətin, daxili motivasiyanın, ünsiyyət üslubunun nəzərə alınması.
- Hər bir uşağın fərdi gender səviyyəsi nəzərə alınmaqla onun gender baxımından inkişafını stimullaşdırmaq məqsədilə ona öz qabiliyyətlərini, yaradıcı potensialını, gender unikallığını üzə çıxarmaqda yardım etmək.
- Oğlanların daha çox fəallığını və özünəinamını hiss edən müəllim, qızları da fəallaşdırmağa çalışmalıdır.

Təhsilin bütün səviyyələrində olduğu kimi məktəbəqədər təhsil müəssisəsində də təlim və tərbiyə prosesinə gender yanaşması təcrübəsinin realizə edilməsində müəyyən edilən üç səviyyədən biri – mezosəviyyə birbaşa müəllimin gender bacarıqları ilə bağlıdır.

**Açar sözlər:** məktəbəqədər yaş dövrü, gender bərabərliyi, gender identikliyi, gender bacarıqları, pedaqoji proses.

### Ədəbiyyat

1. Каменская А.Н. Гендерный подход в педагогике. Дисс... Док. Пед. Наук. Ростов-на-Дону, 2006.
2. Гендерное образование в подготовке учителя: материалы Всероссийской конференции- Томск, 2006.
3. Отвечалина О.Б. Особенности гендерных представлений воспитательниц дошкольных образовательных учреждений: автореф. дисс…канд.псих. наук., М., 2005.
4. Нагель О.П. О гендерном образовании дошкольников, Дошкольное воспитание, 2008, №4.
5. Чекалина А.А. Гендерная психология: Учебное пособие, М: Ось-89, 2006.
6. Симонов В.П. Учет гендерних различий в образовательном процессе, Педагогика, 2005, №4.

## Gender aspects of teacher professional activity in preschool educational institutions

Contemporary gender studies show that teachers, both in preschool and at other stages of education, differentiate between male and female traditional gender orientation in the pedagogical process. Gender skills in pedagogical activities include: knowledge of the psychological and age characteristics of foster children by gender, knowledge of the impact of pre-school programs and textbooks on gender self-determination, the correct selection of teaching material, and the necessary teaching material to enhance the effectiveness of gender awareness in children; grouping, forecasting, uncovering hidden gender opportunities.

# BƏDİİ ƏDƏBİYYATDA GENDER PROBLEMİ

**Səba Namazova**
Gəncə Dövlət Universiteti, Gəncə, Azərbaycan
e-mail: seba8080@mail.ru

XX yüzilliyin başlanğıcında Azərbaycanın ictimai-siyasi və ədəbi-mədəni mühitində qadın azadlığı məsələsiön planda dayanmış, böyük satirik şair Mirzə Ələkbər Sabir qadın hüquqlarının tapdalanmasına qarşı kəskin şəkildə qələmə aldığı əsərləri vasitəsilə mübarizə aparmışdır. Belə ki, sənətkar kiçik yaşlı qızların zorla qoca kişilərə ərə verilməsi məsələsinə şeirlərində qətiyyətlə qarşı çıxmış, bunu satirik dillə tənqid etmişdir:

Ol gün ki, adaxladız, utandım,
Oğlandı dediz, ərin, inandım,
Ər böylə olurmuş?! İndi qandım,
Xandostu, amandı, qoyma gəldi!
Kirdarı yamandı, qoyma gəldi!

Görkəmli romantik şair Hüseyn Cavidin yaradıcılığında da gender sisteminin hərtərəfli şərhi verilmişdir. Onun əsərlərində qadın azadlığı problemi məxsusi diqqət mərkəzində saxlanılmış,sənətkar bəşəriyyətin yüksəlişini, gerilikdən qurtuluşunu ilk növbədə qadının cəmiyyətdə durumu ilə bağlamışdır:

Qadın gülərsə, şu issız mühitimiz güləcək,
Sürüklənən bəşəriyyət qadınla yüksələcək.

Ən əsası isə “şair haqlı olaraq qadın azadlığının və ümumiyyətlə əsl azadlığın, hər şeydən əvvəl, beyinlərdə, düşüncələrdə, şüurlardaqələbə çalmasının zəruriliyini vurğulayır və Azərbaycan qadınlarının azadlığın bu yüksək zirvəsini fəth etməsini arzu edirdi” [1, s.9].

Bir sözlə, cəmiyyət həyatında baş verən sosial-siyasi dəyişmələr, təbəddülatlar gender sisteminin məzmununda da müfəssəl şəkildətəzahürünü tapmışdır.

Yeri gəlmişkən, Cəlil Məmmədquluzadənin “Danabaş kəndinin əhvalatları” povestində də qadın hüquqsuzluğu məsələsi qabarıq şəkildə bədii boyalarla təqdim olunmuş, Xudayarla Zeynəbin münasibətlərində gender bərabərsizliyinin tipik təcəssümünə yer ayrılmışdır. “Ölülər” tragikomediyasındakı İskəndər – Nazlı xətti cəmiyyətdəki sözügedən münasibətlərin durumunu aydın şəkildə nəzərə çatdırır. İskəndərin kiçik yaşlı bacısı Nazlıya müraciətlə dediyi sözlər mövcud həyatdakı gender münasibətlərini aydın surətdə xarakterizə edir: “Ey mənim gözəl bacım Nazlı. Bax, həyətdə gün çıxıb; sən ki, o günü görməyəcəksən, nəyə lazımdır onun işığı? Çöldə otlar göyərib, ağaclar çiçək açıb; amma nəyə lazımdır sənsiz o çiçəklər, o çəmənlər?” [3, s.387]

Bütün bunlara rəğmən, Mirzə Cəlilin əsərlərində cəmiyyətdəki gender münasibətləri daha sərt şəkildə, real duruma uyğun formada diqqətə çatdırılmışdır.

Ümumiyyətlə, "dövrün problemlərini, zövq və ideallarını əks etdirən bədii ədəbiyyat və musiqi əsərlərinin gender təhlili "məhdud hüquqlu qadın" obrazından "öz mübarizliyi ilə özünü təsdiqləyən qadın" obrazına doğru bir yüksəlişi izləməyə imkan verir" [2, s.242].

Hal-hazırkı dönəmdə cəmiyyətdə baş verən demokratik dəyişmələrin fövqündə qadınlar kişilərlə bərabər fəallıq göstərir və özlərinin vətəndaş hüquqlarını təsdiqləməyə səylə çalışırlar. Bu xüsusda ölkədə baş verən tərəqqinin, inkişafın əldə olunmasında, əksər sahələrdə yüksəlişə nail olunmasında qadınların rolu şəksizdir.

**Açar sözlər:** gender, qadın hərəkatı, bədii ədəbiyyat, obraz, ictimai həyat.

### Ədəbiyyat

1. "Elm" qəzeti, 30 oktyabr 2012, səh. 9.
2. Mədəniyyət tarixi və nəzəriyyəsi. Bakı, 2010, 876 səh.
3. Məmmədquluzadə C. Əsərləri. Dörd cilddə. I cild. Bakı, 2004, 664 səh.

### Gender problem in the artistic literature

The rise of women's social status in public life is also reflected in fiction. In this regard, Mirza Fatali Akhundzade, Jalil Mammadguluzade, Mirza Alekper Sabir, Jafar Jabbarli, Ilyas Afandiyev and other writers' creativity allow a comparative analysis of the gender problem, as well as create a real picture of gender relations of the time. For example, the outstanding writer, classic of Azerbaijani literature Jafar Jabbarli wrote a series of short stories and plays under female names, thereby trying to convey gender relations in the artistic expression of his characters.

One of Ilyas Afendiyev's most successful works was "The bridgebuilders" novel written in 1960, at the time feminism wave spread in the West, the influence of which was also felt in the countries of the Soviet Union, including Azerbaijan. The images of Saria and Adil in the novel clearly reflect the gender relations existing in the sociocultural life of Azerbaijan.

## SOSİAL İŞ MÜTƏXƏSSİSLƏRİNİN HAZIRLANMASI VƏ ONLARIN GENDER PROBLEMİNİN HƏLLİNDƏ ROLU

**Züleyxa Nəcəfova**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: zuleykha-najafova@rambler.ru

Sosial müdafiə müəssisələrinin işinin xüsusiyyətlərinə əsaslanaraq demək olar ki, qadınlar və ailələr, onların və yaxın ətrafının sosial problemləri sosial işin prioritet sahələrindən biridir.

Sosial siyasətin vacib sahələrindən biri onu həyata keçirə biləcək kadr resurslarının formalaşdırılmasıdır. Ölkəmizdə bir sıra ali və orta ixtisas təhsil müəssisələri sosial iş üzrə

mütəxəssislər hazırlayır. Lakin gələcək sosial işçilərin mikromühitdə qadınlar və ailələrlə sosial-gender fəaliyyətləri üçün məqsədyönlü təlim aparılmır.

Bu problemin həlli, bir tərəfdən, mövcud kadrların bu istiqamətdə təkmilləşdirilməsini və onların gələcək peşə inkişafı üçün imkanların yaradılmasını, digər tərəfdən ali təhsil sistemində qadınlar və ailərlə sosial-gender işlərini aparmaq üçün mütəxəssis hazırlanmasını tələb edir.

Sosial iş və gender problemləri bir-biri ilə sıx bağlıdır. Sosial xidmətlərin əksər müştəriləri qadınlardır (yoxsul, tənha ahıl qadınlar, tənha və çoxuşaqlı analar, əlilliyi olan uşaqlı analar, əlilliyi olan, işsiz qadınlar). Ayrı-seçkilik əleyhinə xidmətlərin və sosial ədalətin perspektivləri sosial işçilərin fərdi səviyyədə, xidmət istifadəçiləri ilə birbaşa qarşılıqlı əlaqədə və ya təşkilati, ictimai və siyasi münasibətlərin struktur səviyyəsində gender bərabərsizliyini tanımasından asılı olur.

Təcrübə göstərir ki, sosial işçilərin hansı problemlərlə üzləşməsindən asılı olmayaraq - yoxsulluq, narkomaniya, uşaq və ya gənclərin problemləri, yaşlıların, tənha anaların, çoxuşaqlı və ya əlil uşağı olan ailələrin problemləri, məişət zorakılığı - bu və ya digər şəkildə patriarxal münasibətlərlə qarşılaşırlar. Və bütün bu hallarda insanın yaşı, etnik mənsubiyyəti və sosial-iqtisadi vəziyyəti kimi xüsusiyyətləri ilə əlaqəli ədalətsizlik təzahürlərini gücləndirən gender amili çox əhəmiyyətli bir rol oynayır.

Tədqiqatlar göstərir ki, sosial işçilər bəzən qadın müştərilərini həyat və "qadın" təcrübəsi prizmasından baxmaqla, onların yalnız ailə rolunun və funksiyalarının daşıyıcısı kimi qəbul edirlər. Tələbələrin ailələrlə sosial iş sahəsində əldə etdikləri biliklərin həcmi qadınlar və ailələrlə sosial-gender fəaliyyətlərinin peşəkar təşkili və yüksək səviyyədə aparılması üçün kifayət deyil.

Qərbi Avropa və Amerika ölkələrində, o cümlədən MDB ölkələrində sosial iş ixtisası tələbələrinin tədris proqramlarına Genderologiya və Feminologiya kursları daxil edilmişdir. Bu proqramlarda kişi və qadınlarla gender işinə müxtəlif yanaşmalar əks etdirilir, cins və gender problemləri sosial işin gender aspektlərini daha yaxşı dərk etməyə və gələcək mütəxəssislərin praktik fəaliyyətində mürəkkəb problemlərin öhdəsindən gəlməsinə kömək edəcək bir fəlsəfi, mədəni və sosioloji biliklərin məntiqi bir dövr kimi təqdim edilir.

Əsas anlayışları, istiqamətləri və amilləri öyrənmək tələbələrə ailələrin və qadınların maraqlarının qorunması sahəsində əldə olunan biliklərdən istifadə etməklə yanaşı, müasir cəmiyyətdə qadınların rolu və mövqeyi haqqında yeni stereotiplərin yaradılmasında iştirak etməyə də imkan verir.

Sosial işçinin qadınlar və ailərlə gender işi sahəsində "peşə səriştəsi" anlayışı onun bu kateqoriyaya aid insanlarla sosial fəaliyyəti həyata keçirməyə nəzəri və praktiki hazırlığının vəhdətini özündə cəmləşdirir. Bu bacarıqlara aşağıdakılar aid edilir:

- qadın hüquq və azadlıqlarının həyata keçirilməsi üçün lazımi şəraitin yaradılmasına yönəldilmiş sosial və pedaqoji yardım göstərmək;
- cinslərarası münasibətlərdə gender səhvlərini və münaqişə vəziyyətlərini aradan qaldırmaq;
- zorakılığa və ayrıseçkiliyə səbəb olan münaqişə vəziyyətlərinin qarşısını almaq;
- qadın və ailə ilə gender işinin metod və texnologiyalarını mənimsəmək;

- qadın və ailənin probleminin gender iş metodları və texnologiyaları ilə həllini proqnozlaşdırmaq;
- müəyyən bir qadın və ailə üçün sosial-gender fəaliyyət proqramı yaratmaq və s.;

Yuxarıda göstərilənlərə əsaslanaraq belə bir nəticəyə gəlmək olar ki, "Genderologiya və Feminologiya" kursunun tədris edilməsi gələcək sosial iş mütəxəssislərinə qadın və ailə ilə gender işində iştirak edən ictimai və dövlət təşkilatlar sisteminin və onların ətraf mühitdə bu cür fəaliyyətlərin təşkil edilməsi imkanlarının öyrənməsi; ayrıseçkilik və zorakılıq sahəsindəki faktları və vəziyyətləri düzgün qiymətləndirilməsi və təsnif edilməsi; peşəkar şəkildə düzgün qərarların qəbul edilməsi və çətin həyat şəraitində olan qadınlara sosial yardımın göstərilməsi qabiliyyətlərinin inkişafı üçün çox vacibdir.

**Açar sözlər:** sosial işçi, sosial-gender fəaliyyəti, genderologiya, feminologiya, qadın, ailə, təhsil sistemi.

## Ədəbiyyat

1. Государственная система социальной помощи семье и детям: Официальные документы и материалы, Вып. 1, М.: Минсоцзащиты РФ, 1991.
2. Кожамкулова Л. Гендерно-чувствительная модель социальной работы, Мысль. 2003.
3. Социальная педагогика: Курс лекций: Учеб пособие, Под общ. ред. М.А.Галагузовой, М.: Гуманит.-изд. центр ВЛАДОС, 2001.
4. Москвина Е.В. Обусловленность профессиональной подготовки специалиста по работе с молодежью в современном вузе, Университеты и современная образовательная политика: Материалы международной научной-практической конференции. Курган: РИЦ КГУ, 2005.

## Preparation of the social work experts and their role in solving gender problems

One of the priority areas of social work is the social problems of women and families. Inadequate training for future social work experts on social and gender activities by women and families, high level of social skills by women and families, high level of social and gender activities by women and families. Inadequate training is required to include Gender and Feminology courses in the curriculum.

Inclusion in the curriculum of the course "Genderology and Feminology" will help future social work experts to better understand the gender aspects of social work and cope with complex problems in their future practical activities.

# AZƏRBAYCAN QADINLARI XALQIMIZIN AZADLIĞI, ÖLKƏMİZİN YÜKSƏLIŞI UĞRUNDA MÜBARIZƏDƏ
## (Qubadlı rayonu müstəvisində)

**Hacı Nərimanoğlu**
Zəngəzur Cəmiyyətləri İctimai Birliyi
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: haci_narimanoglu@mail.ru

Xalqımızın azadlıq, müstəqillik uğrunda mübarizəsində, dövlət quruculuğu, elmi, mədəni, iqtisadi yüksəlişi uğrunda mübarizəsində 1993-cü ildən erməni işğalında olan Qubadlı rayonunda dünyaya göz açmış xanımlar da fəal iştirak etmişlər.

Azərbaycanın məşhur xalq qəhrəmanı Qaçaq Nəbinin çar Rusiyasının müstəmləkə üsul-idarəsinə qarşı 20 ildən artıq davam edən silahlı mübarizəsində vəfalı ömür yoldaşı Həcər xanım da onunla birlikdə olmuşdur. Dəfələrlə həbs edilmiş, yaralanmış, ancaq əqidəsindən dönməmişdir. Həcər xanım vəfalı həyat yoldaşı, dəstədə gözəl dost və ağıllı məsləhətçi, mahir nişançı idi. Azərbaycan Cümhuriyyətinin qurucusu Məhəmməd Əmin Rəsulzadə “Azərbaycan tarixində qaçaq hərəkatı” məqaləsində, Zəngəzurun sonuncu qazısı, tarixçi alim Bəhlul Behcət 1920-ci illərdə yazdığı “Qaçaq Nəbinin tarixi” (vəsiqə və sənədlər üzrə)” kitabında, Qori müəllimlər seminariyasının məzunu, uzun müddət Zəngəzur qəzasının mərkəzi olan Gorusda məktəb müdiri işləyərkən Həcəri görüb tanımış P.Vostrikov xatirələrində Həcərin bu keyfiyyətlərini xüsusi vurğulamışlar. Xalqımız Qaçaq Nəbi ilə birlikdə Həcərə də mahnılar qoşmuş, dastanlar yaratmış, onlara 20-dək roman, povest, poema, hekayə, bədii, sənədli film həsr edilmişdir. Qəhrəman qadınlarımızın igidlik ənənələrini davam etdirib ən yüksək zirvəyə qaldıran Həcərin adı mübarizlik örnəyi, cəsur qadın simvoludur.

Həcərin ənənəsini yaşadan, davam etdirən qadın qəhrəmanlarımızdan biri də Harallı Kərbalayı Məmmədin ailəsində dünyaya göz açmış Tavat Hümbətova –“Kişi Tavat”dır. Bu ailənin Həsən və Həsənalı adlı iki oğlu da olub. Qarabağdakı qonşu Xozabird erməniləri onların kəndinə məxsus torpaqları məkrli hiylə ilə ələ keçirməyə çalışır, ancaq bu iki qardaş sipər olur. Qardaşları hiylə ilə aldadıb nalbənd Sərkisin evində vəhşiliklə öldürürlər. Tavat günahsız qan axıdılmaması üçün həmkəndlilərinin qisas hərəkətlərinin qarşısını alır, qəbirləri üstündə and içdikdən sonra qardaşlarının paltarını geyinib silah əldə edir, gecə-gündüz məşq edir, sərrast atıcılardan dərs alır. Bir müddət keçir, ermənilər arxayınlaşır, nəhayət, intiqam zamanı çatır; Tavat meşədə əvvəlcə qatilləri, sonra da onların harayına gələn erməniləri öldürüb dağlara çəkilir. Ermənilər bəd hərəkətlərə son verirlər. Çar üsuli-idarəsinin təqiblərindən qaçan Tavat atasını da götürüb Arazın gah o tayına, gah da bu tayına keçir, gizlənir, aranda, yaylaqda tək-tənha uzun illər ermənilərə qənim kəsilir. Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra N.Nərimanov və S.Ağamalıoğlunun yardımı ilə üzə çıxan Tavat xanım kommunist partiyası sıralarına daxil olur,

Laçın, Kəlbəcər, Ağdam qəza icraiyyə komitələrinin sədri kimi yeni cəmiyyət quruculuğunda fəal təşkilatçılıq işi aparır.

Zəhra Kərimova ilk komsomolçu, Bakı Partiya Məktəbinin ilk məzunlarından biri idi, 1930-cu illərdən başlayaraq Bakının Kirov RPK-nın 1-ci katibi, Sosial Təminat naziri, respublika həmkarlar təşkilatının- AHİŞ-in sədri vəzifələrində çalışmışdır. Sosialist Əməyi Qəhrəmanları, Ali Sovetin deputatları Çiçək Həsənova, Badam Quliyeva, Lenin ordenli kolxoz sədri Arasta Şahsuvarovanın (şair Qasım Qasımzadənin anası) adları məşhur idi. 1960-80-ci illərdə bu torpağın yetirmələri olan Firuzə Məmmədova, Məsudə Rüstəmova uzun illər rayon partiya komitəsinin birinci katibi işləmiş, ən yüksək dövlət mükafatlarına layiq görülmüşdülər. Siyasi elmlər doktoru, professor Hicran Hüseynova 2006-cı ildən AR Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədridir.

Xalq yazıçısı, Əməkdar incəsənət xadimi, Azərbaycan Dövlət Tərcümə Mərkəzinin İdarə heyətinin sədri Afaq Məsud, şair, tədqiqatçı alim Mahirə Abdulla, Türkiyədə “İlin rektoru” adı olmuş Giresun Universitetinin keçmiş rektoru, professor Aygün Həşimova (Aygün Əttar), hazırda respublikamızın elmi-tədqiqat institutlarında, ali məktəblərində çalışan 60-dan çox Qubadlılı xanım elmlər doktoru, professor, dosent respublikamızın elmi, mədəni potensialının yüksəlişinə öz töhfələrini verir.

Qarabağ müharibəsində 40 qubadlılı xanım da müqəddəs Şəhid adına yüksəlmişdir. Torpaqlarımızın müdafiəsi uğrunda gedən döyüşlərdə 238 qubadlılı Şəhidin anası, bacısı, həyat yoldaşı, qız övladları Vətənimizin ən hörmətli vətəndaşları sırasındadır.

**Açar sözlər**: Qubadlı rayonu, mübariz xanımlar, Həcər, Tavat, xanım nazirlər, deputatlar.

### Ədəbiyyat

1. Qubadlı: Qədim Azərbaycan torpağı Zəngəzurun qapısı. Bakı: Turxan, 2013, 424 s.
2. Nərimanoğlu H. Azərbaycanın işıqlı məkanlarından biri-130 yaşlı Qubadlı məktəbi, “Azərbaycan müəllimi” qəzeti, 28 dekabr 2012. 12 s.
3. Nərimanoğlu H. XIX-XX əsrlərdə Azərbaycanın Zəngəzur bölgəsində ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırım və deportasiyanın demoqrafik nəticələri, European Journal of Humanities and Social Sciences. 3, 2017. Austria, Vienna, s. 8-11.
4. Nərimanoğlu H. Qaçqın və məcburi köçkünlərin pozulmuş hüquqlarının bərpası Azərbaycan dövlətinin siyasətində, "İnsan hüquqlarının müdafiəsi Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi” elmi konfransın materialları. AMEA, AR Konstitusiya Məhkəməsi, AR Prezidenti yanında Bilik Fondu. Bakı: Mütərcim, 2016, s. 49-58.
5. Nərimanoğlu H. Qubadlısız 16 il. Bakı: Elm və Təhsil, 2009, 258 s.
6. Nərimanoğlu H. Oğuz yurdum Qubadlı. Azərbaycan jurnalı, 1999, №7,148 s.
7. http://www.qubadli-ih.gov.az/

**Azerbaijan women's struggle for freedom of our people, scientific, cultural and economic development of our country**

(In the context of Gubadli region)

Gubadli the region of Azerbaijan, which has been occupied by the Armenian invaders for 26 years, has given us many well-known persons. There were famous women among them. The article is about these women.

## ŞƏXSİYYƏTİN GENDER MƏDƏNİYYƏTİ PEDAQOJİ PARADİQMA KİMİ

**Günay Nəzərova**

Bakı Slavyan Universiteti, Bakı, Azərbaycan

Təhsilin fərdi yaradıcılıq paradiqmasına keçid şəraitində problem yeni bir istiqamətin inkişafı üçün səmərəli mexanizmlərin işlənib hazırlanması və təhsil müəssisələrinin tədris və peşə fəaliyyətlərində onun sistemli şəkildə həyata keçirilməsini və sabit fəaliyyətini təmin edən optimal pedaqoji şəraitin yaradılmasından ibarətdir.

Təlim və təhsil prosesi subyektlərinin gender əlaqələrinin formalaşdırılması məsələləri son zamanlarda tədqiqatçıların diqqətini cəlb etmişdir.

Elmi bilik inkişaf etdikcə kişilərlə qadınlar arasında bərabərlik məsələləri, onların imkan və qabiliyyətləri təkcə fəlsəfi traktatlarda deyil, digər elmlərdə,o cümlədən Pedaqogikada da tədqiqatçılar tərəfindən ənənəvi olaraq gender rolunun ictimailəşdirilməsinə və gender tərbiyəsi işlərinə daha çox diqqət yetirirlər

"Gender mədəniyyəti" "kişi" və "qadın" prinsipləri arasındakı əlaqələrin təsirli formalarını, davranış mədəniyyətinin, gender normaları və funksiyaları ilə cəmiyyətdə qəbul edilən fərdi davranışların adekvatlığında özünü göstərən inteqrativ şəxsiyyət təhsili olan əsas anlayışlardan biridir.

Gender mədəniyyəti dedikdə, *subyektiv olaraq müəyyən edilmiş inteqrasiya olunmuş şəxsiyyət keyfiyyətlərinin, o cümlədən aksioloji, əməliyyat və fərdi – yaradıcı komponentlər, cinsi ictimailəşməsinin ölçü və metodunu əks etdirən, subyektlərin gender-rol davranışlarında özünü büruzə verən və gender münasibətləri, hazırlıq qurma uğurlarını təyin edən bir sistem kimi* başa düşülür .

Gender məsələlərinə dair tədqiqatlar göstərir ki, bu bir tərəfdən problemin özünün çox-şaxəli mahiyyətini əks etdirir, digər tərəfdən ictimai şüurda mövcud olanlara nisbətən müəyyən bir cinsə aid olan gender xüsusiyyətlərinin mövcudluğunu göstərir. Buna görə gender araşdırmalarının əsas vəzifələrindən biri sosial stereotiplərin reallığa necə uyğun gəldiyini tapmaqdır.

Bununla yanaşı, təhsilin inkişafındakı ziddiyyətlər hələ formalaşdırılmamışdır ki, bu da onun həlli prosesində müəllimin pedaqoji mədəniyyətinin gender xüsusiyyətləri əsasında mümkündür. Bu sahədə ən ciddi olan ziddiyyətlər aşağıdakılardır:

- cəmiyyətin özlərinə həvalə edilmiş funksiyaları səmərəli şəkildə yerinə yetirməyi bacaran müəllimlərə olan ehtiyacı ilə gender xüsusiyyətlərini nəzərə almadan müəllim heyətinin hazırlanması arasında;
- müasir pedaqogikada yeni tipli şəxsiyyət yetişdirməyin müxtəlif anlayışların mövcudluğu və onlarda gender yönümlü metod və texnologiyaların olmaması arasında;
- təhsil sahəsinin feminizasiya prosesi ilə bu fenomenin həm müsbət, həm də mənfi nəticələrini öyrənməyə yönəlmiş tədqiqat sayının az olması arasında;
- cəmiyyətin müəllimlərin peşə fəaliyyətinə vahid tələbləri ilə kişi və qadın müəllimlərin davranışları və fərdi keyfiyyətləri arasındakı fərqlərlə bağlı ziddiyyətlər.

Bu baxımdan pedaqoji paradiqmanın məzmunu, fikrimizcə, təhsil sisteminin gender yeniliyinin tələblərinə uyğun olaraq cəmiyyətin ehtiyaclarını ödəməyə çalışır.

Pedaqoji paradiqmanın və ya genderləşmənin məqsədi təhsildə əlaqələrin yenilənmiş məzmunu üçün metodik dəstəyi inkişaf etdirməkdir.Pedaqoji paradiqma baxımından gender yönümlü təhsil konsepsiyasının əsas prinsiplərini aşağıdakı kimi müəyyənləşdirmək olar: 1) kişilərin və qadınların vəziyyətinin bərabərliyini əsaslandırmaq üçün cəmiyyətin sosial-mədəni normalarından istifadə; 2) əməkdaşlığa, əməkdaşlığa nail olmaq üçün gender rollarının sosial əhəmiyyətini vurğulamaq; 3) cins fərqliliyini yalnız sosial şəxsiyyətin fərdi düzəldilməsi məqsədi ilə uçotu; 4) kişilərin qarşılıqlı münasibətləri baxımından bir insanın sosial yetkinliyi olaraq cinsin mövqeyi.

Cəmiyyətin inkişafında yeni bir mərhələnin fenomeni kimi genderin mahiyyəti şəxsiyyət quruluşunun sosial komponentinin tənzimlənməsidir. Bu sosial özünüdərkin bir növ şəxsi süzgəci rolunu oynayır, yəni bu konsepsiyanın epistemoloji komponenti çox vacibdir.

Beləliklə, fərdin sosial inkişafı problemini ünsiyyət prosesində gender sosiallaşması və sosial uyğunlaşma problemi olaraq təyin edə bilərik və aşağıdakı ziddiyyətləri qeyd edə bilərik:

1. Təhsil aspekti: təhsildə ünsiyyət prosesləri cinsi ictimailəşmə prinsiplərini əks etdirmir, bu da eqalitar dəyər yönümlü gender şəxsiyyətinin formalaşmasını əhatə edir.
2. Tərbiyə aspekti: təhsildə şəxsiyyətin peşə yönümünə təsir edən sosial uyğunlaşma, özünü həyata keçirməyin gender amilini nəzərə almır.
3. Metodoloji aspekt: gender təhsili, təhsil sisteminin qurulmuş ideologiyasına və metodologiyasına meydan oxumaqla, təhsilin sosial keyfiyyətinin yüksəldilməsinin vacibliyini nəzərdə tutur.

Bütün bunlar gələcək mütəxəssislər arasında gender mədəniyyətinin formalaşması probleminin aktuallığının sübutudur və kommunikativ qarşılıqlı fəaliyyət prinsipləri yeni bir təhsil paradiqmasının həyata keçirilməsi üçün əsasdır.

Pedaqoji təcrübənin təhlili bizə tələbələrin gender mədəniyyətinin uğurlu formalaşmasına mane olan bir sıra *ziddiyyətləri* qeyd etməyə imkan verdi.

- inkişaf prosesinin ayrılmaz təbiəti ilə parçalanmış nəzəri cəhətdən, cinsi sosiallaşmanın kortəbii təbiəti arasında;
- müvəffəqiyyətli ictimailəşmə üçün gənclərin rol və funksiyalarının inkişafına və pedaqogikada gender mədəniyyətinin formalaşması prosesinin nəzəri və texnoloji əsaslarının yetərincə inkişaf etməməsinə gənclərin təcili ehtiyacı arasında;
- cəmiyyətin təhsil və peşə fəaliyyətinin vahid tələbləri və müəyyən bir cinsin nümayəndələri kimi təhsil mühitinin subyektlərinin fərdi keyfiyyətləri və davranışları arasında ciddi fərqlər arasında.

Müasir orta səviyyəli bir mütəxəssisin gender mədəniyyətini inkişaf etdirən aparıcı vasitə olaraq, gender rolunu fərqləndirən paradiqmaya və onların dəyişdirilməsinə əsaslanan gender təhsilini təyin edirik.

**Acar sözlər:** gender, mədəniyyət, şəxsiyyət, paradiqma, təlim və təhsil prosesi.

### Ədəbiyyat

1. Məmmədov F.T. İdarəetmə mədəniyyəti: xarici ölkələrin təcrübəsi. Bakı: Apostrof, 2013.
2. Mollayeva E.Ə. Azərbaycan xalq pedaqogikasında gender bərabərliyinə münasibət. Metodik vəsait. Bakı: ADPU, 2010, 26s.
3. Nəzərov M.H., Babayeva A.R. Mədəniyyət və təhsilin ümumi əsasları. Bakı: 2016, 200 s.
4. Корнеева Ж.А. Гендерные стереотипы в средней школе, Вестн. Моск. ун-та. Сер. 20, Педагогическое образование. 2008, № 1, с.93-96.
5. Омельченко Е.Л. Молодежные культуры и субкультуры. М.: Ин-т социологии РАН, 2000, 261 с.

### Gender culture of personality as a pedagogical paradigm

The article highlights the main principles of gender mainstreaming in terms of pedagogical paradigm or gendering, the definition of gender education based on changing gender roles and changing gender paradigms, in modern times.

## ALİ TƏHSİL SİSTEMİNDƏ GENDER MƏDƏNİYYƏTİNİN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

**Müslüm Nəzərov**
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
e-mail: muslimnazarov@mail.ru

Müasir cəmiyyətin inkişafı sivilizasiyalı həyat normalarının təsdiqlənməsi və sosial münasibətləri uyğunlaşdırmaq istəyi ilə xarakterizə olunur. Cəmiyyətin inkişafındakı bu meyllər ictimai həyatın müxtəlif sahələrində qadın və kişilər üçün bərabər imkanların təmin edilməsinə yönəlmiş köklü dəyişikliklərin tətbiq olunması məqsədinə çatmaq üçün gender siyasətinin inkişafı,

onun qanunvericilikdə konsolidasiyası və real həyata keçirilməsi tələb olunur. Bu tələb insanın "sosial" statusunu əldə etməsinə, onun təhsil, peşə fəaliyyətində və digər ictimai sahələrdə imkanlarını müəyyənləşdirməyə imkan verir.

Müasir tədqiqatların nəticələri universitet təhsili çərçivəsində tam hüquqlu gender təhsili və mədəniyyətinin ehtiyacını əsaslandırmağa imkan verir. İndiki mərhələdə gender mədəniyyətinin formalaşmasına yönəlmiş gender təhsili şəxsiyyətin formalaşması proseslərinin məzmununun məcburi tərkib hissələrindən biridir.

Pedaqoji elmdə gender münasibətləri sisteminin transformasiyası cəmiyyət nümayəndələrinin, xüsusən də, gənc nəslin gender mədəniyyətinin formalaşması prosesində bilik, əxlaqi dəyərlər, sosial ideallar və normaların bir nəsildən o biri nəslə ötürülməsi funksiyalarını yerinə yetirən ən vacib sosial təsisatlardan biri olan təhsilə mühüm yer verilir. Bu baxımdan müasir ali təhsilin vəzifələrindən biri gələcək mütəxəssislərin gender mədəniyyətinin nəzəri və praktik əsaslarının formalaşdırılmasıdır.

Gender mədəniyyəti fərdi xüsusiyyətdir, dünyanın gender mənzərəsini, özünəməxsus dəyər yönümlərini və davranışlarını özündə cəmləşdirən ümumi mədəniyyətin bir hissəsidir. Onun inkişaf səviyyəsinin meyarlarını müəyyənləşdirmək üçün zəruri olan müxtəlif xüsusiyyətləri kifayət qədər əks etdirmələri və eyni zamanda olduqca spesifik olmalarıdır. Universitet tələbələrinin gender mədəniyyəti cəmiyyətdə yerinə yetirdiyi sosial funksiyaya görə böyük tədqiqat marağı daşıyır.

Təhsil prosesinə gender mədəniyyətinin tətbiqi ideyasının inkişafına tələbələrin xüsusi təsirini öyrənməkdir. Bu vəziyyətdə tədris prosesinin faktorlarına: tədris metodları, məktəb həyatının məzmunu və təşkili, pedaqoji ünsiyyət və s. daxildir.

Tələbələrə gender yanaşmasından istifadə edərək tədris prosesi tələbə şəxsiyyətinin axtarışı ilə əlaqəli gender sosiallaşmasını əhatə edir. Gender ictimailəşdirilməsi, oğlan və qızın necə davranmaları haqqında mədəniyyətdə formalaşan fikirlərin ötürülməsi yolu ilə həyata keçirilir.

Məktəb - təməl dəyərlər sisteminin, normaların nəsildən-nəslə ötürülməsi funksiyasını yerinə yetirən sosial bir qurumdur. Gender problemi həssas bir təhsilin yaradılması ictimailəşmə institutunun zərurətidir, buna görə gender biliklərini aşılamaq, bacarıqları inkişaf etdirmək, özünü həyata keçirmə və yaradıcılıq təşviq edəcək qabiliyyətlər inkişaf etdirmək vacibdir [4].

Gender pedaqogikası - gender sosiallaşması, təlim və tərbiyə xüsusiyyətlərini öyrənir. Gender pedaqogikasının əsas vəzifələrinə aşağıdakıları daxil etmk olar:

- gender təhsilinin nəzəri əsaslarını, konsepsiyalarını inkişaf etdirmək;
- tələbələrin cins fərqliliyi nəzərə alınmaqla təhsil və təlim üçün proqramlar və texnologiyaların inkişafı.

Pedaqogikanın əsas vəzifələrindən biri də gender əlaqələrini uyğunlaşdırmaq, kişi və qadın şəxsiyyətinin yaxşılaşdırılmasına pedaqoji dəstək vermək və bərabərlik əsasında gender qarşılıqlı mədəniyyətini formalaşdırmaqdan ibarətdir.

Gender pedaqogikası, təhsil və təlim sistemindəki uşaqların pedaqoji və şəxsiyyətlərarası qarşılıqlı əlaqədə özlərini rahat hiss etmələrinə və ictimailəşmə problemlərinin öhdəsindən gələ bilmələrinə kömək etmək məqsədi daşıyan yanaşmaların birləşməsidir. Pedaqoji gender yanaşması kişi və qadın sosial rollarının, statuslarının, cinsi davranışların sərt şəkildə müəyyənləşdirilməsi

baxımından uzaqlaşmağa kömək edir, gender asimmetriyası və gender stereotiplərinin gənc nəslə mənfi təsirini azaldır.

Şəxsiyyətin təməl mədəniyyətinin bütün komponentləri bir-biri ilə əlaqəlidir və bir-birindən asılıdır, buna görə də gender mədəniyyətinin reallaşdırılması üçün müxtəlif təhsil səviyyələrində oğlan və qızların təhsili və tərbiyəsinin məzmunu, formaları, gender yönümlü texnologiyaların təyini və inkişaf etdirilməsi xüsusiyyətlərinə üstünlük vermək lazımdır [1].

Gender mədəniyyətinin vəzifələrini müəyyənləşdirmək ehtiyacı müasir cəmiyyətdə kişi və qadın cinsi rollarının normativ konsepsiyalarının dəyişdirilməsi prosesi və gənc nəslin cins rollarını yerinə yetirməyə hazırlanması ilə müəyyən edilir.

Gender - təhsil texnologiyalarının məqsədi cəmiyyətdə gender bərabərliyini təmin etmək, tolerantlığın və digərinə hörmətin formalaşması, gender bərabərsizliyi faktlarına həssaslığın inkişafı, gender stereotiplərindən azad, öz fərdi inkişaf yolunu qura bilən şəxsiyyətin formalaşdırılması, fərdin sosial-mədəni məkanını genişləndirmək və tolerant yönümlü vətəndaşların təhsili, qarşılıqlı əlaqədə gender üstünlüklərinə riayət edilməlidir. Hər bir müəllim məlumat mənbəyidir və özünün tədris materialını təqdim etmə tərzinə malikdir, müəyyən bir cinsi davranışın daşıyıcısı kimi çıxış edir.

Tələbələr müəyyən gender xüsusiyyətləri ilə fərqlənirlər, buna görə universitetlərin ən vacib vəzifəsi müəllim və tələbələrin gender mədəniyyətinə tələbat mühiti yaratmaqdan ibarət olmalıdır.

Beləliklə, gender mədəniyyətinin meyarları ümumbəşəri xarakter daşımalı və geniş nəzəri əhatə imkanlarını empirik iş üçün kifayət qədər birləşdirməlidir.

**Açar sözlər:** Gender, mədəniyyət, təhsil, gender təhsili, gender pedaqogikası .

### Ədəbiyyat

1. Nəzərov M.H. Müasir dövrdə təhsilin sosialmədəni problemləri. Monoqrafiya. Bakı, Mütərcim, 2018, 296 s.
2. Созаев В.В. Гендерная теория как фактор формирования гендерной компетентности в школьников, Аспирантские тетради, СПб, 2008, № 33(73), с.426–430.
3. Швецова А.В. Возможности развития гендерной культуры в контексте компетентностного подхода к образованию, 2011, №3, с.64-71 (0,5 п.л.).
4. Зенкевич Е.В. Гендерный подход в образовании [Электронный ресурс], Педагогический вестник Карелии, № 3 (39), 2014 г.

### Features of development of gender culture in higher education

In the article, the transformation of gender relations in the system of higher education focuses on the process of the transfer of knowledge, morals, social ideals and norms from one generation to the next, in the process of shaping the gender culture of the younger generation, and the individual features of gender culture. It also covers the social functions of the university students' gender culture and the development of the idea of the use of gender culture in the educational process.

# ERMƏNİ SOYQIRIMINA MƏRUZ QALMIŞ AZƏRBAYCAN QADINLARININ HÜQUQLARI GENDER MÜSTƏVİSİNDƏ

**Esmira Orucova**
AMEA-nın Hüquq və İnsan Haqları İnstitutu, Bakı, Azərbaycan
e-mail: orucovaesmira@mail.ru

Tarixi inkişafın müxtəlif sosial şərtlərində cəmiyyətdə qadın və kişilərin rollarını subyektiv amillərlə izah etmək mümkün olmadığı üçün özünəməxsus formada müəyyən edilib. Müxtəlif dövrlərdə cəmiyyətdə cinslərin diferensiasiyası, gender münasibətlərinin dünəni və bu günü ilə bağlı baxışları öyrənmək, hər iki cinsin qarşılıqlı fəaliyyəti nəticəsində qadınlıq və kişilik təzahürünü dərk etmək deməkdir.

Gender – şəxslərin bir-birlərinə qarşılıqlı təsir sistemidir. Bu təsirin nəticəsində sosial nizam kateqoriyası yaradılır, təsdiq edilir və təsəvvür məcmusu kimi formalaşır.

Bu gün genderin elm, dünyagörüşü, fəlsəfə, mədəniyyət, siyasət və ideologiya faktoru olmasını birmənalı müəyyən etmək çətindir. Çünki, hətta bütün bu sahələr birlikdə gender yanaşmasının məğzini açmır [1, s.9].

Gender insana sosiallaşma prosesində yaşadığı cəmiyyətin mədəniyyəti vasitəsi ilə aşılanır. Gender dinamik konsepsiyadır, yəni anlayışları dəyişəndir. Bəzən isə bu dəyişikliklər daimi xarakter daşıyır [13, s.38 ].

Qadın və kişi arasında mövcud olan qarşılıqlı münasibət hər zaman aktual olan məsələlərdəndir. Belə ki, davranış və əxlaq nümunələri, müvafiq şəxslərin cinsinə uyğun olaraq tənzimlənir. Bu da həm sosial-mədəni həyatda, həm də məişət çərçivəsində özünü büruzə verir.

Sovet hakimiyyəti illərində öz vahid ideologiyasının qüvvəsini, sistemin üstünlüklərini, onun humanist təsirini göstərmək üçün ölkənin əsas qanununda-Konstitutsiyada qadınlara kişilərlə bərabər hüquq verilməsi təsbit edilmişdi. Sosializmlə rəqabətdə bu istiqamətdə üstünlüyü əldən verməmək üçün Qərb də uyğun tədbirlər görürdü. Bütün bunların nəticəsidir ki, XX əsrdə Qərb və Şərqin, o cümlədən Azərbaycanın həyatında baş verən ictimai-siyasi və mədəni tərəqqi sahəsində baş verən dəyişikliklərdə qadınların rolu böyük olmuşdur [13, s.279-280].

Qadın hüququ insan hüququnun sıx tərkib hissəsi kimi müasir dövrün ən aktual mövzularındandır. İnsan hüquqları dedikdə cəmiyyət üzvü olan fərdin hüquqları, şəxsiyyətin hüquqları başa düşülür [8, s.9].

BMT 26 iyun 1945-ci ildə yaranandan bu günə kimi qadın hüquqları problemi onun qarşısında duran ən aktual məsələlərdən biri olmuşdur. Dünyanın hər bir yerində dövlətlərin diqqətinin qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması, onların nəinki sosial və ictimai həyatda, iqtisadi inkişafın bütün sahələrində bərabər hüquqlarının təmin olunmasına cəlb edilməsində bu qurum ən böyük təcrübəyə malik olan təşkilatdır.

BMT-nin 1945-ci ildə San-Fransiskoda imzalanmış Xartiyası cinslərin bərabərliyini fundamental insan hüquqlarının əsası kimi bəyan edən ilk beynəlxalq saziş olmuşdur.

Gender problemləri BMT-nin bütün global konfranslarında aparıcı mövzu kimi dünya ictimaiyyəti tərəfindən müzakirə olunmuşdur. Bunlardan İnsan Hüquqları üzrə Vyanada (1993), Əhali və İnkişaf mövzusunda Qahirədə (1994), Sosial inkişaf problemləri üzrə Kopenhaqendə (1995), Habitat - İstanbulda (1996) keçirilənləri və digərlərini göstərmək olar. Həmin konfranslar indiyədək beş ildən bir müxtəlif ölkələrdə müvafiq sahədə vəziyyəti dəyərləndirmək və qarşıda duran vəzifələri müəyyən etmək məqsədilə təşkil olunur [3, s.2.]

BMT Baş Assambleyasının 10 dekabr 1948-ci il tarixli İnsan Hüquqları Haqqında Bəyannaməsinin 2-ci və 7-ci maddələrində deyilir ki, hər bir şəxs irqindən, rəngindən, cinsindən, dilindən, dinindən ... və digər vəziyyətindən asılı olmayaraq, bu Bəyannamədə elan olunmuş bütün hüquq və azadlıqlara malik olmalıdır. Bütün insanlar qanun qarşısında bərabərdir və heç bir ayrı-seçkilik olmadan qanun tərəfindən eyni dərəcədə müdafiə olunmaq hüququna malikdir. BMT Bəyannamədə qadın və kişilərin bərabərlik ideyasına tərəfdar çıxmışdır.

BMT Baş Məclisinin 2200A (XX1) saylı 16 dekabr 1966-cı il tarixli Qətnaməsi ilə qəbul edilmiş İqtisadi, Sosial və Mədəni Hüquqlar Haqqında Beynəlxalq Pakt, Baş Məclisin 34 /180 saylı 18 dekabr 1979-cu il tarixli Qətnaməsi ilə qəbul edilmiş Qadınlara Münasibətdə Ayrı-Seçkiliyin Aradan Qaldırılması Haqqında Bəyannamə kimi sənədlərdə qadın hüquqları ümumi insan hüquqlarının ən vacib və ayrılmaz tərkib hissəsi kimi dəyərləndirilmişdir.

İnkişaf və sülhün bərqərar olunması sahəsində keçirilən tədbirlərdə də gender bərabərliyi gələcək tərəqqinin əsasını təşkil edir. BMT Baş Məclisinin 2000-ci ildə 23-cü xüsusi Sessiyasında qəbul etdiyi 1325 saylı Qətnaməsində bu məsələ aktuallıq kəsb etmişdir: “... qadınların problemləri ümumi xarakter daşıyır və bu dünyada gender bərabərliyinə nail olmaq məqsədi ilə qadınların ancaq kişilərlə birlikdə, müttəfiqlik şəraitində çalışmaqları sayəsində mümkündür” [12, s.2].

Müasirləşən və yenilənən cəmiyyətdə kişi-qadın münasibətlərində mövcud olan yanaşma tərzi də müasirləşdi. Elə bu səbəbdən də gender tədqiqatları sahəsində dövrün tələblərinə uyğun olaraq tədqiqatların aparılması üçün şərait yarandı.

XX əsr bəşəriyyətin yaddaşında bütün dünyanı bürüyən beynəlxalq terrorizm, təcavüz, xarici işğal, silahlı münaqişələr dövrü kimi qaldı. İnsanlar, xüsusilə də mülki əhali, o cümlədən qadınlar kütləvi şəkildə qırıldı, təcavüzə məruz qaldı, doğma el-obasından ayrı düşdü, vəhşicəsinə qətlə yetirildi, itkin düşdü, girov götürüldü. Yaşadıqları coğrafi ərazidən asılı olmayaraq silahlı münaqişə və müharibələrdən ən çox əziyyət çəkən qadınlar oldu. Bunun məntiqi nəticəsində isə onların ailə başçılarını, atalarını, qardaşlarını, oğullarını, ev-eşiklərini itirdilər, fiziki, mənəvi, psixoloji, seksual və digər zorakılıqlara məruz qaldılar.

Bu gün dünyada 70 milyondan çox qaçqın və məcburi köçkün var. Onların 70-80%-ini qadınlar təşkil edir.

XX əsrdə bütün dünyanı bürüyən beynəlxalq terrorizm, təcavüz, xarici işğal, silahlı münaqişələr problemi Azərbaycandan da yan keçmədi. Bir əsrdə Azərbaycan xalqı dörd dəfə ermənilər tərəfindən soyqırıma məruz qaldı.

Ötən əsrin sonlarında baş vermiş bu qanlı hadisələrin tarixi-siyasi köklərinə nəzər salsaq, görərik ki, XX əsrin əvvəllərində Rusiya İmperiyasının apardığı müstəmləkəçilik siyasəti

nəticəsində 1905-1907, 1918-1920-ci illərdə baş vermiş ölkəmizə köçürülmüş ermənilərlə aborigen əhali olan azərbaycanlılar arasında baş vermiş və bu günə kimi davam edən münaqişədir.

1918-ci ilin mart hadisələri zamanı erməni şovinistlərinin qadınlara qarşı xüsusi qəddarlıq nümayiş etdirdikləri barədə Azərbaycan Xalq Cümhuriyyətinin Fövqəladə İstintaq Komissiyası tərəfindən toplanmış çox sayda şahid ifadələri mövcuddur [5]. Ermənilər çox yaxşı bilirdilər ki, azərbaycanlı kişisi üçün ailə namusu qadının etik statusu ilə bağlıdır. Xalqımızın mənəvi dəyərlərinə görə qadın ailənin namusu, qeyrəti hesab edilmiş, ona xüsusi qayğı və hörmət göstərilmişdir. Azərbaycanlı kişiyə mənəvi zərbə endirməkdən ötrü onun arvadını, bacısını və ya qızını öldürməkdən də betər onun namusunu ləkələməkdir.

Elə bu səbəbdən də 1918-ci ilin mart hadisələri zamanı erməni daşnakları Bakı və onun ətraf kəndlərində, Naxçıvan, Qarabağ, Zəngəzur, Cavanşir, Sürməli və digər qəzalarda qadınlara və azyaşlı qızlara qarşı misli görünməmiş vəhşiliklər törətmişdilər [4].

Sovet İttifaqı dağıldıqdan sonra etnik proseslərin tənzimlənməsi problemi bütün postsovet məkanında ən kəskin məsələlərdən birinə çevrildiyi dövrdə Azərbaycan Respublikası Ermənistanın diktator, separatçı və millətçi dövlət rejimi tərəfindən dəstəklənən xüsusi təhlükə ilə üzləşdi. Bu günə kimi davam edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə cəlb olundu.

Münaqişələr baş verdiyi zamandan və məkandan asılı olmayaraq  həmişə qan tökməklə, zorakılıq, eyni zamanda dinc mülki əhali, o cümlədən qadınlar arasında çoxsayda qurbanlar verməklə səciyyələnir [6, s.134.].

Münaqişənin təxminən dörd il davam edən aktiv dövründə baş vermiş hərbi əməliyyatlar nəticəsində günahsız insanlar həlak oldu, mülki əhali, o cümlədən yaşından asılı olmayaraq qadınlar qəbul olunmuş beynəlxalq humanitar normalarına zidd olaraq vəhşicəsinə qətlə yetirildi, itkin düşdü, girov götürüldü.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində itkin düşmüş hesab olunan 3888 şəxsdən 266 nəfəri qadın, 20 nəfəri azyaşlı qızdır.

Şahid ifadələrinə əsasən girov götürülüb, lakin bu günə kimi qaytarılmayan  871 şəxsin 98 nəfəri qadın, 7 nəfəri azyaşlı qızdır.

Əsir və girovluqdan azad edilmiş 1477 nəfər şəxsin 364 nəfəri qadın,74 nəfəri azyaşlıqızdır.

Əsir və girovluqda qətlə yetirilmiş 553 nəfərin 104 nəfəri qadın olub.

Girov götürülmüş qadınlar erməni işğalçıları tərəfindən heç bir müdafiə görməmiş, əksinə onlara qarşı beynəlxalq humanitar hüququn müdafiə prinsipləri məhz qadın olduqları üçün məqsədyönlü şəkildə kobudcasına pozulmuşdur.

Erməni işğalçılarının beynəlxalq humanitar hüquq normalarına zidd olaraq girov götürdükləri azərbaycanlı qadınlara qarşı Müharibə Zamanı Mülki Əhalinin Qorunması Haqqında 12 avqust 1949-cu il tarixli IV Cenevrə Konvensiyasının III bölməsinin I hissəsinin 16, 20, 27-ci [11, s.174, 176, 180], həmin Konvensiyanın 08 iyun 1977-ci il tarixli II Protokolunun II hissəsi, I bölməsinin 17-ci [11, s.275] və IV hissəsi, I bölməsi, II fəslinin 50, 51 (1,2) –ci maddələrini [11, s.298] ciddi şəkildə pozduqları təsbit edilmişdir.

Azərbaycan qadınlarının müraciət və tövsiyyələri nəticəsində 1995-ci ilin mart ayında BMT-nin Qadınların Statusu üzrə Komissiyasının 39-cu sessiyasında "Hərbi münaqişə ocaqlarında girov

götürülmüş qadın və uşaqların azad edilməsi haqqında" qətnamə qəbul olunmuşdu. Həmçinin Azərbaycan qadınları 1995-ci ildə Pekində keçirilmiş Qadınların IV Ümumdünya Konfransında BMT-nin qətnaməsinə uyğun olaraq Qarabağ münaqişəsi zamanı ermənilər tərəfindən girov götürülmüş qadınların pozulmuş hüquqlarının müdafiəsini bütün dünya qadınlarının nəzərinə çatdırmaq və onların azad edilməsi istiqamətində görülən işlərə yardım edilməsi tələbi ilə çıxış etmişdilər. Azərbaycan nümayəndə heyətinin səyləri nəticəsində PFP-ya "Girov götürmə" (116-cı maddə) zorakılıq forması kimi maddəsi daxil edildi [12, s.12].

**Açar sözlər**: gender bərabərliyi, erməni soyqırımı, Pekin bəyannaməsi, San-Fransisko Xartiyası, Cenevrə Konvensiyası.

## Ədəbiyyat

1. Аббасов А.С., Проблемы истории, теории и методологии познания, Баку, 2001.
2. Крилль А., Международное гуманитарное права о защиты женщин, Общий курс, МККК, Москва, 1994.
3. http://azkurs.org/
4. AR PİI SSA, f.277, siy.2, iş 16
5. AR PİI SSA, f.277, siy.2, iş 13, 14, 15, 25, 26.
6. Orucova E., Beynəlxalq Humanitar Hüququn Ermənistan-Azərbaycan Müharibəsi Nümunəsində Tətbiqi, Elmi məqalələr toplusu, Bakı, 2014.
7. Gender terminlərinin izahlı lüğəti, Bakı, 2005.
8. Hüquq Ensiklopedik lüğəti, Bakı, 1991.
9. 16 dekabr 1966-cı il tarixli İqtisadi, Sosial və Mədəni Hüquqlar Haqqında Beynəlxalq Pakt.
10. 18 dekabr 1979-cu il tarixli Qadınlara Münasibətdə Ayrı-Seçkiliyin Aradan Qaldırılması Haqqında Bəyannamə.
11. 12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyaları və Onlara Əlavə Protokollar, Bakı, 1999.
12. Pekin Bəyannaməsi və Fəaliyyəti Platformasının həyata keçirilməsi üzrə gələcək tədbir və təşəbbüslər, Bakı, 2000.
13. Mirzəzadə R. Gender: Cəmiyyət. İnsan Hüququ. Siyasət, Bakı, 2003.

## The rights of Azerbaijani women subjected to genocide by Armenians on the example of gender

The article addresses the issue of gender, which is an integral part of human rights, and is also discussed by the international community as a leading topic. It also refers to the value of women's rights as the most important and integral part of universal human rights and legal documents adopted in this field. It is emphasized that during armed conflicts and wars, women suffer more than men. At the beginning of the 20th century and during the Armenian-Azerbaijani, Nagorno-Karabakh conflict, Armenian terrorists, despite the principles of protecting international humanitarian law, deliberately and grossly violated the rights of Azerbaijani women only because they were women.

# GENDERDƏ SOSİAL ŞƏBƏKƏLƏR AMİLİ

**Asif Paşayev, Qabil Əliyev**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: asif.pashayev@au.edu.az

İnformasiya texnologiyalarının hər gün inkişaf etdiyi bir dövrdə bütün insanlar gündəlik peşə fəaliyyəti və şəxsi işlərindəki istifadə ilə informasiya cəmiyyətinin bilavasitə üzvlərinə-iştirakçılarına çevrilirlər. Bu fəaliyyətləri insanların üzərinə bir məsuliyyət qoyur. Belə ki, vitual məkanda sürətlə yeni vasitələr, proqramlar, sosial şəbəkə platformaları yaranır. İnsanların bu imkanlardan kortəbii istifadəsi bəzən faydalı olduğu qədər də təhlükəli olur. İnternet və əsasən də sosial media istifadəçilərinin əksəriyyətini gənclər təşkil edir.

İnternetin imkanları sosial media kimi çox nəhəng bir informasiya resursunun yaranmasına səbəb olmuşdur.Sosial media – insanlar arasında virtual İnternet alətləri vasitəsilə sosial ünsiyyət yaratmaq və müxtəlif məlumatları paylaşmaq imkanı yaradır. O, daha əlyetərli və veb əsaslı texnologiyalardan istifadə etməklə ünsiyyəti interaktiv dialoqa, informasiyanın cəmiyyətdə sürətlə yayılmasına, müxtəlif hadisə və proseslərə insanların münasibətinin güzgüsünə çevirir. Sosial media vasitələrinə İnternet üzərindən yayımlanan informasiya saytları, sosial şəbəkələr, bloqlar, mikrobloqlar, viki-layihələr, ani ünsiyyət proqramları, forumlar və s. layihələr daxildir [2].

Bu gün cəmiyyətdəki bir çox problemlərin yaranmasının ilkin səbəblərindən biri kimi internet, sosial şəbəkələrdən istifadə göstərilməkdədir. İnternet, sosial şəbəkə istifadəçiləri öz hesablarında istədikləri məlumatları yerləşdirə bildikləri üçün bəzən bilərəkdən əks cinsli kimi qeydiyyatdan keçirlər. Virtual aləmdə özlərini başqa rolda təqdim edə bilirlər ki bu da onların sonrakı fəaliyyətləri nəticəsində ciddi fəsadlar törədə bilir. Gender baxımından virtual aləm zahirən bərabərliyin ən bariz nümunəsi sayıla bilsə də cəmiyyətdə çox ciddi fəsadlar törədə bilir. Ailələrin dağılması, bəzi hallarda faciələrə səbəb ola bilir.

İstənilən mövzu barədə gənc nəslin nümayəndələri internet, sosial mediadan qısa zaman ərzində yeni informasiyalar almaq imkanlarına malikdirlər. Yeniyetmələr və gənclərin şəxsiyyətinin formalaşdığı dövrdə alınan yeni informasiyalar onların düşüncə tərzinə ciddi şəkildə təsir etmək gücünə məalik olur. Odur ki xüsusilə bu dövtlərdə sosial şəbəkə və digər internet xidmətləri faydalı olduğu qədər də təhlükəli ola bilir. Bir sözlə sosial şəbəkələr gənclərin qürurlu və məqsədli böyüməsinə səbəb olur, eyni zamanda gənclərin şəxsiyyətini formalaşmasına mənfi təsir göstərə bilir.

Ölkəmizdə gənclərin sosial şəbəkələrdən istifadəsi kütləvi xarakter almışdır. Belə ki, statistik məlumatlara görə hər 25 nəfərdən biri sosial şəbəkə istifadəçisidir və bu artan temlə inkişaf edir. Bunların da 50% dən çoxunu gənclər təşkil edir.

Psixoloji baxımdan, İnternetdə insan fəallığı üç əsas tələbat növünün ödənilməsinə əsaslanır [3]:

- kommunikativ (elektron poçt, sinxron və asinxron çatlar, konfranslar, göndəriş vərəqləri, forumlar, qonaq kitabları və s.);
- təfəkkür (şəbəkə mətbuatını oxumaq, informasiya axtarışı, cari xəbərlərlə tanışlıq, distant təhsil və s.);
- əyləncə (ənənəvi idman və azartlı oyunların elektron versiyası, kompüterdəki azartlı və intellektual oyunlar və s.).

Mütəxəsislərin fikrincə, yeniyetmə və gənclərin internetdən sosial şəbəkələrdən asılılığının əsas psixoloji fəsadları bunlardır:

- mobil telefon və ya kompüter arxasında özünü yaxşı hissetmə və eyforiyaya qapanma;
- mobil telefon və ya kompüterdən ayrılmağın problemə çevrilməsi;
- ailəyə, yaxın dostlara qarşı etinasızlıq;
- İnternet və sosial şəbəkə asılılığının artması bu vasitələrdən kənarda olarkən mənəvi boşluğun, əsəb gərginliyinin yaranması;
- işdə, təhsildə, insanlar arası münasibətdə problemlərin yaranması və s.



Araşdırmalar nəticəsində məlum olmuşdur ki, sosial media təkcə informasiya mənbəyi, bilik bazası deyil, həm də informasiya təsiri vasitələrindən biridir. Sosial media istənilən informasiyanı İnternetdən tez əldə etməklə, virtual məkanda müzakirələr aparmaq, müxtəlif tipli fayllar saxlanan virtual baza yaratmaq, digər İnternet istifadəçiləri ilə əməkdaşlıq üçün alətdir. Sosial media insanların peşəkar tənqidi düşünmə tərzinin inkişafına və əldə edilmiş informasiyanın sərbəst analizinə kömək edən, gündən-günə genişlənən və populyarlaşan layihələr toplusudur.Cəmiyyətdə vətəndaşların şüurunu idarə etməyə, kütləni mobilləşdirərək etiraz aksiyalarına cəlb etməyə çalışan müxtəlif radikal qruplar və təşkilatlar tərəfindən də istifadə olunur. Bütün bunları ümumiləşdirərək mövcud problemlərin həlinə dəstək vermək üçün ciddi maarifləndirmə işlərinə ehtiyac duyulur. Marifləndirmə isə cəmiyyətin aparıcı təbəqəsi olan bütün ziyalıların ümdə vəzifəsi olmalıdır. İlk növbədə gənclərin təhsil almaları və intelektual mədəni səviyyələrinin artırılması istiqamətində işlər

görülməlidir. İntelektual mədəniyyətin yüksəlməsi nəticəsində cəmiyyətdəki bir çox gender məsələlərinin həllinə yardımçı olmaq olar.

### Ədəbiyyat


1. Алекперова И.Я. О некоторых подходах к анализу информационного влияния пользователей в социальных сетях, Информационное общество, М., 2012, №3, с. 31- 381.
2. http://www.sosialmedia.net
3. Əliquliyev R.M., Mahmudov R.Ş. İnternetin mahiyyəti, xüsusiyyətləri və təsir imkanlarına dair bəzi baxışlar, İnformasiya cəmiyyəti problemləri, 2012, №1, s. 41-51.


### The factor of social networks in gender


This article explores the serious implications of the community and the causes of their emergence, as well as possible solutions to these problems when using such huge information resources as the Internet and social media.


## ГЕНДЕРНОЕ ПРЕДСТАВЛЕНИЕ В МОЛОДЕЖНОЙ СРЕДЕ


**Кенуль Гасымлы**
Университет Азербайджан, Баку, Азербайджан
e-mail: Kenul888@mail.ru


Молодежь - наиболее подвижная, адаптивная и одновременно инновационная часть общества, она быстро и остро реагирует на изменение социально-экономической и политической ситуации. В настоящее время все более усиливается ее роль во всех сферах общественной жизни. Изучение динамики социальной роли молодежи в гендерном измерении дает возможность глубже проникнуть в структуры ценностного пространства юношей и девушек, проследить жизненную практику, расширить научные знания о данном возрастном периоде жизни человека. Анализ специфики гендерных представлений молодежи приобретает особое значение в условиях радикальных социальных перемен в Азербайджане. Молодежь как особая социально-демографическая группа играет ведущую роль в воспроизводстве общества и сохранении его целостности, а будущее развитие азербайджанского общества во многом будет определяться системой ценностей современной молодежи. Гендер выступает фактором стратификации и является существенным барьером на пути достижения идеалов социальной справедливости. Однако это не воспринимается населением, в том числе молодежью, в качестве социальной проблемы.

Современная молодежь часто находится в более сложном положении, чем старшее поколение, так как ей приходится сочетать во многом противоположные составляющие. Гендерные стереотипы могут распространять на выбор профессии (для мужчин нормы более жесткие) и другие важные социальные действия, оставаясь при этом важным элементом

социального контроля. Стереотипы могут иметь как негативный, так и позитивный характер. Так, для представителя массового общества, слабо заинтересованного в развитии своей индивидуальности, отказ от свободы и необходимости делать самостоятельный выбор (заменяя его сложившимися стереотипами) является необходимой формой не только адаптации к вызовам внешнего мира, но и основным условием выживания.

Молодежь выступает активным субъектом социальной динамики. Зная характер тенденций взаимоотношений молодых людей с окружающей социальной средой, и принимая во внимание их предыдущее воспитание, можно с уверенностью прогнозировать определенную последовательность развития и достаточную стабильность поведения. В то же время в конкретных ситуациях во взглядах и поведении молодежи нередко обнаруживаются значительные изменения.

Таким образом, жизненное самоопределение юношей и девушек осуществляется в тендерном пространстве, для которого характерно конструирование и репрезентация нового типа отношений полов - отношения свободы, сотворчества, сотрудничества, что позволяет молодым мужчинам и молодым женщинам реализовать свою собственную свободу - свободу единения, примирения, гармонии и утверждения целостных (универсальных) форм жизни. Решающим аспектом таких отношений является осознание принципа «равенства в различии», единства как связи (а не тождества): мужчина вносит в мир многообразие изменений, а женщина гармонию, любовь, красоту, целостность. Возможности, открывающиеся для самореализации полов, их сотрудничества и сотворчества помогают подметить характер и формы превращения основных идей изменяющегося тендерного пространства, сдвигов в тендерных отношениях.

В Азербайджане в систематическом порядке реализуются проекты, направленные на развитие женщин и обеспечение гендерного равенства.“Стратегическая дорожная карта национальной экономики и основных секторов экономики”, Концепция развития “Азербайджан 2020: взгляд в будущее”, и Цели Устойчивого Развития на 2016-2030-е гг. создаются новые перспективы и благоприятные условия для обеспечения гендерного равенства, и защиты прав женщин и девочек во всех областях.

Молодежь, как активные члены общества должны играть активную роль во всех сферах развития. В настоящем времени в Азербайджане действуют свыше 4300 молодежных организаций, и они представлены на более чем 30 международных платформах. По линии “ASAN-volunteers”, "SABAH-group ” около 6 тысяч молодых участвовали в разных проектах. Новый проект «ABAD-ASAN”, целью которого служит поддержка социально-экономического развития регионов, обеспечение применения современных технологий в семейном бизнесе, посодействовал открытию новых рабочих мест, и развитию малого и среднего бизнеса среди сельских женщин. В 2018 году процент женщин-предпринимателей в нашей стране за последние 10 лет увеличился в 5 раз. 1февраля 1997 года Гейдар Алиев подписал указ об обьявлении 2–го февраля “Днем молодежи”, а также была создана “Золотая книга” молодых талантов и Фонд помощи молодым талантам.

Сегодня общественная активность молодежи в Азербайджане также растет быстрыми темпами. Молодежная политика Азербайджанской Республики, международные игры и конференции проводимые в этом аспекте успешно влияет на подрастающее поколение и усиливает процесс их социализации, а также интеграции в всеобщей глобализацию. Отрадно, что Азербайджанская Республика является образованной страной, где созданы все условия для нормального проживания молодого поколения.

**Ключевые слова:** гендер, гендерные стереотипы, гендерные представления, студенческая молодежь, гендерная социализация, гендерное неравенство.

**Литература**

1. Асланова К. Multikulturalizm ve gender, Multikultralizmə giriş, dərslik, Bakı, 2019, s.288.
2. Амирбекова Р. Женщины за устойчивое развитие глобального мира, Gender problem və muasir Azərbaycan II Respublika elmi konfransının materialları, s.28, Bakı 2018.
3. Бауман З. Текучая современность, СПб.: Питер, 2008, 240 с.

**Gender representation among youth**

The article discusses the features of gender perceptions and stereotypes of modern youth as a special social group. on which, in many respects, the possibility of overcoming gender inequality in our country in the near future depends.

## GENDER STEREOTİPLƏRİ VƏ STEREOTİPLƏŞMƏSİ

**Aysel Qasımova**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: aysel.gasimova@au.edu.az

Stereotiplər müəyyən sosial qrupların üzvləri haqqında ümumi gözləntiləri əks etdirir. Gender stereotipi qadın və ya kişilərin malik olmalı olduqları xaraketristikalar və ya atributlar və ya onlar tərəfindən həyata keçirilməli olan rollardır. Gender stereotipləşməsi yalnız hər hansı sosial qrupa üzv olduğuna görə qadın və ya kişiyə müəyyən atribut və ya xarakteristikaların aid edilməsidir. Gender stereotipi ümumilikdə bir inancdir və bu inanc şəxsə müəyyən qrupun üzvləri (qadınlar və kişilər) haqda ehtimallar irəli sürməyə imkan verir. Gender stereotipləşməsi isə əksinə, stereotiplə bağlı inancların şəxsə aid edilməsidir [4].

Stereotipləşmə insanların fərdi qabiliyyətlərini və şəraiti nəzərə almayan qərəzli fikirlər və ya ümumiləşdirmələr yaradır [3, s.119]. Gender stereotiplərinin təbiətinin və məzmununun müəyyənləşdirilməsi kişilərlə qadınlar arasındakı tipik fərqləri izah etməklə yanaşı, kişilərin və qadınların necə olmalarını və müxtəlif həyat sahələrində necə davranmalarını da şərtləndirir [1, s.276]. Qadınlara Qarşı Diskriminasiyanın Aradan Qaldırılması Komitəsi zərərli gender stereotiplərinin transformasiyasının və ədalətsiz gender stereotipləşməsinin aradan qaldırılmasının

vacibliyini vurğulayır. Stereotiplər qadın və ya kişilərin öz şəxsi bacarıqlarını inkişaf etdirməsini, professional karyerasını davam etdirməsini və öz həyatına dair seçimlər etmək bacarığını məhdudlaşdırdığı zaman zərərli hesab olunur. Mənfi və ya zərərsiz görünən stereotiplər əslində zərərli ola bilər. Məsələn, "Qadınlar daha qayğıkeşdir" stereotipi, adətən uşaqların böyüdülməsi və tərbiyəsi üzrə məsuliyyətin yalnız onların üzərinə düşməsi ilə nəticələnir [4].

Gender stereotipləşməsi insan hüquqlarının və fundamental azadlığın pozulmasına səbəb olduqda ədalətsiz hesab edilir: "Qadın kişinin cinsi əmlakıdır" stereotipi ailədaxili cinsi zorakılığın cəzalandırılmasının qanuniləşdirilə bilməməsinə gətirib çıxarır. Bundan əlavə, "qadınlar həyalı geyim və davranışla özlərini cinsi zorakılıqdan qorumalıdırlar" stereotipi də qadınlara qarşı cinsi zorakılığın effektiv şəkildə araşdırılması, mühakimə edilməsi və hökm çıxarılmasına maneə yaradır [4].

Gender stereotipləşməsi peşə seçimi və peşə rollarına da birbaşa təsir edir. Belə ki, 30 ölkədə keçirilmiş sosial tədqiqatlar və statistik məlumatlara görə, bəzi peşələr (məsələn, polis) kişilər, digər peşələr (məsələn, tibb bacısı kimi) qadınlar arasında daha çox üstünlük təşkil edir [1, s.277]. Karyeraları boyunca qadınların nüfuzlu vəzifələrə seçilmək və işdə yüksəlmək ehtimalı kişilərə nisbətən daha azdır. Məsələn, idarəetmə sahəsində qadın professorların obyektiv fəaliyyətlərində (akademik nəşrlər) və ya iş yerləri ilə bağlı fərdi vəziyyətlərdə (staj, nizam-intizam) heç bir fərq olmasa da, onlar kişi professorlardan daha nadir hallarda vəzifəyə layiq görülürlər [1, s.278]. Müxtəlif ölkələrdə və mədəniyyətlərdə qadınlar iş yerlərindən asılı olmayaraq kişilərə nisbətən ev işlərinə daha çox vaxt sərf edirlər. 2015-ci ildə ABŞ-da yaşayan cütlüklərin kişi və qadın üzvləri arasında ev işlərinə sərf olunan vaxtda gündə orta hesabla 50 dəqiqə fərq müşahidə edilmişdir [1, s.277].

Genderlə bağlı stereotipik gözləntilərin qadınların və kişilərin qabiliyyətlərini mühakimə etməyimizə təsir etdiyini göstərən çox sayda tədqiqat nəticələri var. Tədqiqatın həm kişi, həm də qadın qiymətləndiriciləri tədqiqat zamanı müəyyən situasiyanı nümayiş etdirən şəxsin cinsindən asılı olaraq eyni fəaliyyəti fərqli olaraq qəbul etməyə və dəyərləndirməyə meyllidirlər. Qadınların peşə fəaliyyətinin dəyərsizləşdirilməsinin daha geniş bir tendensiyası müxtəlif sahələrdə 378,850 işçi arasında aparılan 100-ə yaxın empirik tədqiqatın meta-analizində aydın görünür [2, s.1527]. Qadınların iş göstəricilərinin kişilərə nisbətən daha az dəyərləndirildiyi nəzərə alınsa belə, əmək haqqı, bonuslar və işdə yüksəlmə kimi mükafatlandırmada müşahidə edilən gender fərqləri fəaliyyət göstəricilərindən, demək olar ki, 14 dəfə yüksəkdir. Bu, fərdi nailiyyətlər haqqında eyni məlumatların qadın və ya kişiyə aid edildiyi eksperimental tədqiqatlardan da aydın olur [1, s.279].

Gördüyümüz kimi, qadın və kişilər üçün ənənəvi rollar və stereotiplər gender bərabərliyinə mane olan əsas amillərdir. Gender sterotipləşməsi qadın və kişilərin peşə seçimi, peşə rolları, o cümlədən onların qabiliyyətlərinin mühakiməsinə birbaşa təsir edərək insanların müxtəlif həyat sahələrində necə davranmalarını şərtləndirir və çox təəssüf ki, qadınların peşə fəaliyyətinin dəyərsizləşdirilməsinə, onların öz həyatına dair seçimlər etmək bacarığının məhdudlaşdırılmasına gətirib çıxarır.

**Açar sözlər:** gender, gender stereotipi, gender stereotipləşməsi.

**Ədəbiyyat**

1. Ellemers, N. The nature of gender stereotypes//Annual Review of Psychology, 2018, v.69, pp.275–298.
2. Joshi, A., Son, J., Roh, H. When can women close the gap? A meta-analytic test of sex differences in performance and rewards, *Academy of Management Journal.*, 2015, v. *58,* No 5, pp.1516-1545.
3. Sjöholm M. Gender-Sensitive Norm Interpretation by Regional Human Rights Law Systems. Boston: Martinus Nijhoff Publishers, 2017, 776 p.
4. https://www.ohchr.org/EN/Issues/Women/WRGS/Pages/GenderStereotypes.aspx

**Gender stereotypes and stereotyping**

Gender stereotypes are the prejudice about characteristics, attributesor roles perfomed by men and women. Gender stereotypes is attribution of these stereotypes to the person. Ttraditional roles and stereotypes for men and women are the main factors that impede gender equality. Gender stereotyping directly influence the choices of women and men in their career, occupational roles and even judgment of their abilities. Consequently, it also affects how women behave in different areas of life, and, unfortunately, undermines women's career choices and their ability to make their own choices in life.

## GENDER PROBLEMİNİN KLASSİK ALMAN FƏLSƏFƏSİ MÜSTƏVİSİNDƏ QİYMƏTLƏNDİRİLMƏSİ

**Ağalar Qəribov**
Qərbi Kaspi Universiteti, Bakı, Azərbaycan
e-mail: agalar.qeribov@gmail.com

1979-cu ildə J.F. Liotarın "Postmodernin vəziyyəti"ndə metanarrativlər dövrünün bitməsini bildirməsi ilə fəlsəfə fikirlərin istehsalından təkrar istehsalına keçid edib öz predmetində fəlsəfə tarixinin subyektlərinin fikirlərinin yenidən qiymətləndirilməsinə doğru çevriliş etdi. Hazırda davam etməkdə olan bu ənənənin nəticəsi kimi baş verən hadisə və mövcud problemlər müxtəlif məktəb və filosofların fəlsəfi təlimləri müstəvisində qiymətləndirilir. Aktuallığı ilə fərqləndirə biləcəyimiz gender məsələsi də bu diskursda istisna təşkil etmir. Məhz cari səbəbdən klassik alman fəlsəfəsi müstəvisində gender probleminin tədqiq edilməsi cəhdi fəlsəfənin mövcud istiqamətinə tamamilə uyğun, onun müəyyən etdiyi xətt üzərində dayanmaqla təlatüm və ətalətin ziddiyət təşkil etdiyi vəziyyətdədir.

Klassik alman fəlsəfəsi anlayışı öz daxilində bir-birindən bəzən köklü şəkildə fərqlənən ideyaları birləşdirir. Odur ki, klassik alman fəlsəfəsi müstəvisində hər hansı məsələyə, bizim

situasiyada gender probleminə yanaşarkən onun nümayəndələrinin tamamilə fərqli mövqedə dayana biləcəklərini də nəzərə almalıyıq. İ.Kantın yaradıcılığının analizi onun fəlsəfəsində mövcud olan cinsin metafizikasının avtomatik şəkildə insanın bədən başlanğıcı problemi və şərhinə yön aldığını ortaya çıxarır. Klassik alman fəlsəfəsinin banisinin "Əxlaqın metafizikası" və "Ucalmış və gözəl olanın hisslərinin müşayiəti" kimi traktatlarında gender probleminə toxunulduğunu müşahidə edə bilirik. Fəlsəfənin, idrakın, həqiqətin mahiyyətində cins problemini həll etməyə cəhd göstərərkən filosofun orijinal olmadığını vurğulamalıyıq. Kantın gözəl olanla yüksəlmiş olanın mahiyyətinə dair fikirlərində onları yalnız estetik şüura xidmət edən deyil, eyni zamanda real həyatda cinsi fərqlərin daşıyıcılarının xüsusiyyətləri qismində çıxış etdiyini fərqləndirdiyini görə bilirik [3]. Filosof etik və estetik məsələlərə həsr etdiyi əsərlərində J.Russo tərəfindən irəli sürülən cinslərin sosial differensasiyası paradiqmasından uzaqlaşmır. Kant qadının mahiyyətini təbii hadisə kimi anlayır və essensialist müstəvidə şərh edir. Onun "Praqmatik nöqteyi-nəzərdən antropologiya" əsərinin "Cinsin xarakteri" bölməsində də cinsi fərqlərin qadın və kişilərin cəmiyyətdə realizəsinin məxsusiliyində təbii amillərin rolunun ilkin əhəmiyyətini qeyd etməsi ilə daha öncəki fikirlərin növbəti təsdiqini müşahidə etmək mümkündür. Mütəfəkkir kişinin qadın üzərində dominantlığının tamamilə təbii olduğunu, qadının potensialının isə yalnız nəslin istehsalı və böyüdülməsinə xidmət etdiyini bildirir.

Əxlaq mədhiyyəsi kimi görünən "Əxlaq metafizikası" traktatında Kant xüsusi mülkiyyət məsələsinə gender problemini də daxil edir [4]. Xüsusi mülkiyyəti tarixi inkişafın nəticəsi kimi qiymətləndirən filosof onun vətəndaş cəmiyyətinin əsasını təşkil etməsi qənaətindədir. Kantın fikrincə, yalnız əşyavi-şəxsi hüquq sahəsinə daxil olan nikahda insanlar özlərini əşya kimi qiymətləndirməklə bir-birlərindən istifadəyə imkan yaradırlar. Mütəfəkkir nikahı müxtəlif cinsdən olan iki şəxsin ömürlük əsaslarla digərinin cinsi xüsusiyyətləri üzərində sahibliyi naminə birləşmə kimi xarakterizə edir. Bununla belə, o, nikaha daxil olan tərəflərin bərabərliyini qeyd edir. Bu bərabərlik yalnız həzzə dair bərabər keyfiyyətdə ifadə edilmir, həmçinin Kant kişi kimi qadının da boşanma hüququndan istifadəsindən danışır.

Azadlıq və bərabərlikk prinsiplərini fransız burjua inqilabından mənimsəyən və onları üçüncü - qardaşlıq - "vətəndaş müstəqiliyi" prinsipi ilə əvəzləyən Kant bu prinsiplərin dövlət hüquq münasibətləri sahəsinə daxil olunmasının zəruriliyini fərqləndirməklə vətəndaşların seçki hüququ ilə təmin olunmasından da vacib amil kimi bəhs edir. Məhz bu iddia insanların dövlətin azad və bərabər vətəndaşları kimi təsdiqlənməsinə səbəb oldu. Buna baxmayaraq filosof uşaqların, qadınların və xidmətçilərin seçki hüququndan məhrum edilməsinin tərəfdarı olmaqla fikirlərini onların qeyri-müstəqilliyi ilə əsaslandırır. Kantın bu fikri də dövrünün ictimai təfəkkürü ilə səsləşir. Məsələn, 1793-cü ilin yakobin konstituasiyası da qadınlara seçki hüququnu dəstəkləmirdi.

Əgər Kantın fəlsəfi yaradıcılığında gender probleminin həllinə dair təklif edilən tədbirləri ümumiləşdirsək, onun cins problematikasında yeni heç nə təklif edə bilmədiyinin, yanaşmasının ənənəvi gender stereotiplərinin inkişafına əsaslanan essential fikrə uyğun olmasını vurğulamalıyıq. Filosofun fikirlərini müasir diskurs və terminologiyaya daşısaq, kişi insan mahiyyətinin daşıyıcısı, yəni keyfiyyət, qadın isə insan nəslinin artımı, yəni kəmiyyət tərəfinin təmsilçisidir. Lakin bu, insan

vəziyyətləri, hiss və keyfiyyətlərinin dərin şəkildə analizinə əsaslanan Kant antropologiyasına və qnoseologiyasına kölgə salmamalıdır.

Klassik alman fəlsəfi fikrinin digər nümayəndəsi G.Hegel öz dövrü üçün ənənəvi olmayan baxışlar irəli sürməklə insanı cinsdən məhrum edilmiş varlıq kimi xarakterizə edirdi. Buna rəğmən o, insanın əsas xüsusiyyətlərindən birinin insan nəslinin bivalentliliyi - mövcudluğun kişi və qadın cinslərinə bölünməsini fərqləndirirdi. Məhz qadın və kişi cinslərinin qarşılıqlı fəaliyyəti sayəsində yeni həyat davam edir. Hegelə görə, kişi başlanğıcının insan mövcudluğundakı dərin mənası mənəviyyat kimi çıxış edir. Mənəviyyat adı altında filosof refleksivlik bacarığı, yaradıcılığı, özütranssendentallaşmanı başa düşürdü. Qadın başlanğıcının mənası isə mövcudluğa qayğı göstərilməsində, şəfqət və sevgidədir.

Gender problemi Hegelin hüquq fəlsəfəsinə dair əsərlərində daha aydın nəzərə çarpır. Bu müstəvidə gender məsələsini Hegel kişi və qadının ictimai-xüsusi ilə analogiyası üzrə dixotomiyası kimi qiymətləndirir. Qadın təbiətin, kişi isə ağılın təmsilçisi kimi çıxış edir [3]. Bununla filosof təbiət və Ruhun, qəlb və ağlın əlaqəsinin nikahda təqdim olunmasını əsaslandırmağa çalışır. Hegelə görə, məhz nikah sayəsində təbiət və Ruhun əlaqəsinin təmin edilməsi mümkündür [1].

Hegel fəlsəfəsində qadın partikulyarlığın, qabiliyyətsizliyin, təbiətçiliyin simvolu olduğu halda, kişi universallığın, qabiliyyətin, azadlıq və subyektivliyin nümayəndəsi hesab olunur. Mütəfəkkirin əzəmətli Ruh konsepsiyası belə ona genderin "naturalist" nəzəriyyəsi hüdudları kənarına çıxmağa və cinslərarası münasibətləri iqtisadi, sosial, simvolik və mədəni dünyaya çıxarmağa izn vermədi [4].

Klassik alman fəlsəfəsinin daha bir nümayəndəsi İ.Fixte özünün hüquq haqqındakı traktatında nikah və ailə anlayışları üzərində gender probleminə dair fikirlərini ifadə edib. Mütəfəkkir özünün cinslərin davranışları barəsindəki düşünşələrini "ikili standart" konsepsiyası ilə izah etməklə kişi və qadının müəyyənləşdirilmiş sosial azadlıqları və izn verilən davranış qaydalarının rəhbərlik formasında istifadə etməli olduqları fikrini irəli sürür [5]. Fixte cinsi bərabərsizliyi əsaslandıraraq yazırdı: "Ağıl üçün mütləq özfəaliyyət xarakterikdir, əzab vəziyyəti ağıla ziddir və onu tamamilə kənarlaşdırır. Bu səbəbdən ilk cinsin öz cinsi instinktini tətmin etmək istəməsi ağıla uyğundur, çünki bu, fəaliyyət vasitəsilə baş verir, ikinci cinsin cəhdi isə tamamilə ağıla zidd qaydada baş verir". Fixtenin "Qapalı ticarət dövləti" adlı utopiyasında nikah institutu iki fərqli cinsin nümayəndələrinin cinsi instinktlərinin realizəsinə əsaslanan formulla izah olunur. O cümlədən, Fixte qadın qabiliyyətlərinin qiymətləndirilməsində tolerant davranmaqla onun kişidən aşağı olmadığını vurğulayır, bu əsasla qadının insan və vətəndaş hüquqlarının məhdudlaşdırılmasını tənqid edirdi. Həmçinin qadının yalnız ailə qurduğu ana qədər azad olmasını nəzərə almaqla dövlət vəzifəsinin tutması fikrini irəli sürür, bununla onun həm tabe olan, həm də dominantlıq edən mövqeyə eyni anda sahib olacağını bildirirdi [6].

Beləliklə, klassik alman filosoflarının əsərlərində bir qayda olaraq gender probleminin dominatlıq və tabeçilik, cinslərin mahiyyəti haqqında stereotiplərə, daha öncəki nəsillər tərəfindən işlənib hazırlanmış fikirlərə uyğunluğuna rast gələ bilirik. Bu düşüncələr klassik alman fəlsəfəsinin paradiqması üzərində intişar tapan yeni tendensiyalarda daha rasional düşüncə və baxışların yaranmasına, keçmiş nəsillərin yanlışlarının nə ilə əlaqələndirilməsinin dərkinə ciddi töhfə verdi.

**Açar sözlər:** Gender, Kant, Hegel, Fixte, fəlsəfə, əxlaq, metafizika, bərabərsizlik.

### Ədəbiyyat

1. Hegel G., Hüquq fəlsəfəsi, Bakı, 2007, səh. 39.
2. Tülin B., Hegel, Bilinç Problemi, Köle-Efendi Diyalektiği Praksis Felsefesi, Birinci Baskı, İstanbul, "Alan Yay", 1987, s.178.
3. Гулыга А.В., Немецкая классическая философия. М.: Мысль, 1986. с.83.
4. Кант И., Основы метафизики нравственности, Сочинения в шести томах. М.: «Мысль». Т. 4. Ч. I. с.178.
5. Фихте И.Г., Философские произведения. М.: "Гаудеамус", 2013, с.71.
6. Фихте И.Г., Назначение человека, Сочинения в 2 т., Т.2 – СПб, 1993, с.165.

### The evolution of gender problem in the terms of the classic German philosophy prism

Thesis deals with the essence of classical German philosophers' views on gender problems, and analyzes the position of Hegel, Kant and Fixten in the philosophers' teachings. The thesis reviews the impact of the German philosophic mind on the gender philosophy ideas.

## ПОЛОЖЕНИЕ ЖЕНЩИН В АЗЕРБАЙДЖАНЕ В XIX-XX ВЕКАХ

**Гулиева Нушаба**
Университет Азербайджан, Баку, Азербайджан
e-mail: nushaba.guliyeva@au.edu.az

В разных общественно-экономических формациях положение женщин было не стабильным, но вместе с тем их объединяли общие черты: помимо того, что женщины подвергались эксплуатации вместе со всеми трудящимися, они были ещё закрепощены в семье, находились в экономической зависимости от родителей, мужа, были неравноправны с мужчинами в юридическом отношении, подвергались дискриминации. Кроме того, это был период, когда женщине, помимо своего семейного очага, негде было проявлять себя [1, с.19-20].

Ещё больше были закабалены женщины Востока, фактически не имевшие никаких прав. Искажая принципы ислама о женщине, реакционная часть духовенства проповедовала, что в умственном отношении женщины очень слабы, бесправие женщин в семье, вобществе, а также неравноправие, якобы, предписаны богом.

Между тем, история Азербайджана богата именами выдающихся женщин, которые проявили себя на поприще государственной деятельности, были дипломатами, поэтессами. Среди них Томрис, Нушаба, Сара-хатун, Мехсети, Натаван, Туту-Бика, Хаджар, которые ничем не уступали мужчинам.

В XVIII и XIX вв. расширение просветительского движения в Европе, а затем в России оказало огромное влияние на женское движение.

Женщины Востока в это движение включились в конце XIX и начале XX вв.Специфика гендерных отношений в Азербайджане заключалась в том, что женщина была удалена от сферы производства, здесь в отличие от европейских стран за права *и* свободу женщин активно боролась национальная интеллигенция, представленная мужчинам. Это способствовало тому, что гендерные противоречия и конфронтация здесь не приняли присущей Западу остроты *и* не оказалось необходимых условий для феминистского движения. Борьба мужчин за права женщин снимала остроту конфронтации [3, с.143].

Приступая в начале XIX в. к завоеванию Южного Кавказа, в том числе *и* Азербайджана, Российская империя установила колониальный режим и превратила Азербайджан в свою сырьевую базу. Развивались те отрасли хозяйства, которые были необходимы для российской капиталистической экономики.

Просветительские воззрения выдающихся представителей азербайджанской культуры нашли яркое отражение в составленном А.Бакихановым в 1832 году проекте учреждения новой школы в Баку [4, с.129]. В проекте отмечалось, что принужденная покорность народов Кавказа «не может долго продолжаться», и поэтому необходимо распространять просвещение на Кавказе. Однако проект не был принят.

Процесс образования, просвещения народных масс постоянно волновал азербайджанскую интеллигенцию, и она оказывала этому процессу посильную помощь. Представители интеллигенции проводили различные благотворительные мероприятия с целью оказания помощи культурно-просветительному развитию населения.

Перед представителями интелегенции Азербайджана стояли очень много задач, решение которых могло бы в корне изменить судьбу восточной женщины, решить и улучшить положение их в семье, в обществе, в государстве.

Борьба просветителями за обучение на азербайджанском языке, ликвидация безграмотности среди населения Азербайджана, открытие первых женских школ на Востоке, изменение положении женщин в браке, вовлечение женщин в общественно-культурную жизнь, и многие очень важные проблемы будут рассматриваться автором в дальнейшем.

Cinslərin bərabərhüquqluluğunun qəbul edilməsi pedaqoji cəhətdən düzgün və dərindən öyrənilməlidir. Gender bərabərliyi dəyərlərini pedaqoji-psixoloji və etik cəhətdən düzgün qiymətləndirə bilməyən qadın və qızlar onu qadın sərbəstliyi, çox vaxt isə özbaşınalıq kimi qəbul edirlər. Bir məsələni xüsusilə vurğulamaq lazımdır ki, hər iki cinsin arasındakı münasibətdə hansısa birinin hökmranlığı itdikdə onların yerini igidlik (kişi) və zəriflik (qadın) tutur. Gender üstünlüyündən imtina etmə zərurətinin dərk edildiyi zaman cinslərin qarşılıqlı münasibətlərinə dair mədəniyyət ön plana keçir. Qadınların daha çox "kişi" peşələrinə meyil etməsi, bizneslə məşğul olmaları, maddı cəhətdən kişidən asılı olmaması, əksinə bəzi vaxtlarda kişinin qadından maliyyə asılılığı, qadının sükan arxasında oturması bu gün Azərbaycan üçün real bir haldır. İnkar etmək olmaz ki, bu cür dəyişən münasibətlər fonunda həm qadın, həm də kişi əxlaq və davranışda başqa dəyərlərə və normalara ehtiyac duyur. Əks halda cinslərarası ziddiyyətlər anlaşmanı çətinləşdirir. Gender dəyərlərini pedaqoji-psixoloji cəhətdən düzgün dərk etməyən bəzi insanlar elə düşünürlər ki, gender bərabərliyi qadınların özbaşınalığından doğan əxlaqsızlığa səbəb ola bilər. Məhz bu şərt genderin pedaqoji istiqamətdə tədqiqini aktual edir. Azadlığın özbaşnalıq kimi deyil, əxlaqi normalara əsaslanan məsuliyyət kimi qəbul edilməsi üçün cinsindən asılı olmayaraq hər bir insanın öz davranışında əxlaqi çərçivəni saxlamağa daxili motiv olmalıdır. Gender tərbiyəsinin bir qütbündə bərabərhüquqluluq, mənəvi azadlıq durursa, digər qütbündə isə məsuliyyət, mənəvi azadlığın həqiqi dərk edilməsi durur. Müasir Azərbaycan təhsilinin qarşısında duran başlıca vəzifə yüksək intellektual hazırlığa, hərtərəfli inkişaf etmiş dünyagörüşə, ümumbəşəri və milli keyfiyyətlərə malik, əsil vətəndaşın – insanın yetişdirilməsindən ibarətdir. Gələcəkdə Avropa təhsil məkanında öz yerini tapacaq, Vətənimizi layiqincə təmsil edə biləcək yeni insanın formalaşması müasir təhsil sistemimizin başlıca strategiyalarından biridir. Bu vəzifənin öhdəsindən gəlmək üçün təlimin tərbiyəedici və inkişafetdiriçi funksiyalarından geniş istifadə etmək lazımdır.

Təlim prosesi yetişən gənc nəslin mənəvi tərbiyəsində mühüm rola malikdir. Təlimdə yalnız tələbələrin intellektual inkişafı deyil, eyni zamanda tərbiyəsi və şəxsiyyətinin inkişafı da həyata keçirilir. Pedaqoqlar haqlı olaraq qeyd edirlər ki, təlimin hər hansı hissəsi deyil, bütün təlim prosesi tərbiyə edir. İdrak prosesinə əsaslanan təlimin gedişində dərsin yaradıcı xarakterinin, tələbələri fəal düşünməyə, elmi biliklərin aydın dərk olunmasına, onların tərbiyə edilməsinə yönəldən şəraitin olması böyük əhəmiyyətə malikdir. Dərsin gedişində belə münbit şəraitin yaradılmasında müəllimin rolu danılmazdır. Böyük rus pedaqoqu K.D.Uşinski yazırdı: "Təlim tərbiyənin olduqca qüdrətli

üzvüdür və bu üzvdən məhrum olan müəllim uşaqlar üzərində ən başlıca və ən gerçək təsir vasitəsini itirmiş olur".

Tələbələrə gender bərabərliyi dəyərlərinin mənəvi və psixoloji cəhətdən aşılanması işini də təlim prosesində həyata keçirmək olar. Gənc nəslin insan hüquqlarının həm qadın, həm də kişi üçün bərabərliyini əsas götürən cəmiyyətdə yaşaması böyüyən uşaqların tərbiyəsi ilə sıx bağlıdır. Çünki gələcək nəsilləri indiki tələbələr ata - ana kimi tərbiyə edəcəklər. A.S.Makarenko demişdir: "Uşaqları tərbiyə etmək həyatımızın mühüm sahəsidir. Bizim uşaqlar ölkəmizin və dünyanın gələcək vətəndaşlarıdır. Bizim uşaqlar gələcək ata və analardır - onlar özləri də öz uşaqlarını tərbiyə edəcəklər. Bizim uşaqlar böyüyüb gözəl vətəndaş, yaxşı ata və ana olmalıdırlar". Müasir dövrdə aparılan gender tədqiqatlarının vacib problemlərindən biri təhsil sistemində gender bərabərliyinə nail olmaqdır. Cünki təhsil cinsindən asılı olmayaraq insanların ictimai həyatın bütün sahələrində iştirakına imkan yaradır. Bu mənada təhsil cəmiyyətdə gender bərabərliyinə nail olmaq vasitələrindən ən əsasıdır. Bu gün bütövlükdə təhsil sistemində gender bərabərsizliyi problemi xüsusilə aktualdır. Təhsildə gender bərabərliyinə nail olan cəmiyyət gələcəkdə özünün demokratik dəyərlərə əsaslanan davamlı inkişafını təmin etmiş olar. Son zamanlar Azərbaycanda gender təhsili ilə bağlı bir sıra tədbirlər həyata keçirilir. Respublikamızda mövcud olan bir sıra ali təhsil müəssisələrində təhsil proqramlarına gender problemlərini əhatə edən fənlər və xüsusi kurslar daxil edilmişdir. Təəssüflə qeyd etmək lazımdır ki, bu gün gender təhsilinə hələ orta məktəbdən başlamaq zərurəti olduğu halda burada tədris olunan fənlər arasında genderlə bağlı heç bir məlumat tapa bilmədik. Bu çatışmazlığı qismən də olsa aradan qaldırmaq üçün orta ümumtəhsil müəssisələrində müəyyən fənlərin tədrisi zamanı gender baxımından ortaya çıxan imkanlardan səmərəli istifadə etmək lazımdır.

Ayrı-ayrı fənlər üzrə müvafiq mövzuların tərbiyəvi cəhətlərinin nəzərə alınması orta ümumtəhsil müəssisələrində şagirdləri, ali məktəbdə isə tələbələri gender bərabərliyi – qadın və kişi arasında sosial bərabərlik, bu bərabərliyin elmi-psixoloji və mənəvi əsasları ilə bağlı zəruri biliklərlə silahlandıra bilər. Müasir dövrdə ölkəmizdə gender bərabərliyinin həllindəki lənglik, qadınların cəmiyyətin həyatında daha fəal mövqe tutmaq işinə cəlb edilməsi mexanizminin olmaması və s. digər problemlərin həlli tələb edir ki, ali təhsil müəssisələri yeni nəsillərin gender bərabərliyi əsasında tərbiyə olunması işinə daha diqqətli və məsuliyyətli yanaşsın. Tələbələrə gender dəyərlərinin aşılanması zamanı bir məsələni xüsusilə diqqət mərkəzində saxlamaq lazımdır: Azərbaycanda gender siyasətinin həyata keçirilməsində yerli milli adət-ənənələrin, xüsusiyyətlərin, milli mentalitetin, milli düşüncə tərzinin, cəmiyyətimizdə hələ də patriarxal qayda-qanunların mövcüd olmasının nəzərə alınması vacib şərtlərdən biri kimi qəbul olunmalıdır. İnsanın öz mənəvi dəyərini dərk edib özünün özünə qiymət verməsində özünü biruzə verən ləyaqət hissinə malik olan həm qadın, həm də kişi cinslərin gender bərabərliyi şəraitində öz hərəkətlərini cəmiyyətin dəyər və normalarına uyğunlaşdırır. Bu ali hissə malik olan fərd cinsindən asılı olmayaraq başqalarına qarşı münasibətdə intizamlı, məsuliyyətli, namuslu olur və cəmiyyətin ona verdiyi müsbət qiymət zəruri tələbat kimi meydana çıxır. Ləyaqət hissinin özündə mövcud olan bir sıra işıqlı fəzilətlərdən namusluluq, abır, həya, sadəlik, nəciblik, ismət gender bərabərliyi fonunda Azərbaycan qadını üçün

ən önəmli əxlaqi keyfiyyətlərə çevrilir. Müasir dövrdə gender probleminin qadınlar tərəfindən hərəkətlərdə tam sərbəstlik və açıq-saçıqlıq kimi qəbul edilməsində özünü biruzə verən yanlışlıq bu istiqamətdə tərbiyə işlərinin aparılmasını zəruri edir. Çünki müasir dövrdə mütərəqqi xarakterli milli adət-ənənələrimizdən uzaqlaşıb daha çox qərbə meyl edən, qərbin gender bərabərliyini milli xüsusiyyətləri nəzərə almadan öz ailəsində tətbiq edən qadın və qızlarımızdan bu gün ən çox umulan abırlı geyim və davranışdır. Öz hərəkət və əməllərinə görə məsuliyyət daşıyan həm qadında, həm də kişidə əxlaqi məsuliyyət hissi onun davranışını tənzimləyir, onda özünənəzarət hissini gücləndirir. Daxili mədəniyyətin göstəricisi olan nəzakətlilik hissinə malik qadın və kişi bütün hərəkətlərini davranış mədəniyyətinə uyğunlaşdırır. Davranış mədəniyyəti gender bərabərliyi probleminin həllində hər iki cins üçün yerinə yetirilməsi zəruri olan əsas şərtlərdən biridir. Davranış mədəniyyəti cəmiyyətimizin ümumi davranış mədəniyyəti ilə sıx bağlıdır və ondan nəşət edir, onun tərkib hissəsidir. Bir-birinə əks olan cinslərin qarşılıqlı münasibətlərində mövcud olan hörmət, ehtiram və nəzakət həm qadın, həm də kişi tərəfindən nəzərə alınmalıdır.

Pedaqoji prosesdə gender bərabərliyi dəyərlərinin aşılanmasında gənclərdə əməyə müəyyən münasibətin yaradılması önəmli yer tutur. Belə ki, insan inkişafının əsas amillərindən biri olan əmək, gender dəyərlərinin tərbiyə edilməsində qadınların cəmiyyətdə özlərini kişilərlə bərabər hüquqa malik hiss etmələri üçün əsas zəruri şərtdir. Çünki məhz əmək fəaliyyəti ilə qadın cəmiyyətdə müəyyən mövqe tuta bilər və ya cəmiyyətə müəyyən xeyir verə bilər. Cəmiyyətə yalnız kişilərin daha çox mənfəət verməsi fikrinin hakim olduğu müasir dövrdə əmək fəaliyyəti qadının özünü təsdiq edəcəyi sahədir. Çünki bu əmək nəinki qadına öz qiymətini dərk etməsinə kömək edir, həm də onun inkişafını, əxlaqi cəhətdən təşəkkülünü tənzimləyir. Artıq ölkəmizdə vətəndaş cəmiyyəti və hüquqi dövlətin formalaşması dövrü özünün çiçəklənmə mərhələsinə qədəm qoymuşdur. Azərbaycanda mövcud olan vəziyyət cəmiyyətin ailə dəyərləri ətrafında daha çox cəmlənməsilə səciyyələnir. İndi də əvvəllərdə olduğu kimi hər bir azərbaycanlı üçün ailə onun bütün mümkün vasitələrlə müdafiə etməyə hazır olduğu son istehkamıdır. Ailə Azərbaycanda cəmiyyətin mənəvi göstəricisini səciyyələndirən ilk və son özəkdir.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Əsas Qanunu (Konstitusiyası). Bakı, Qanun.
2. Azərbaycan Respublikası Təhsil Qanunu (Layihə). Bakı: Qanun, 2009.
3. Makarenko A.S. Seçilmiş pedaqoji əsərləri. Bakı, 1950.
4. Ağayeva K.C. Azərbaycan cəmiyyətində sosial-əxlaqi davranışın etik-gender təhlili. Fəlsəfə.üz.f.dok...dis. Bakı, 2009.


## Formation of gender equality values in pedagogical inferior high school students


In the process of teaching gender equality values in the pedagogical process, it is important to create a positive attitude towards young people. Thus, labor, one of the key factors in human development, is a prerequisite for the advancement of gender values for women to feel that they are equal in society. This is because a woman can take a certain position in society or give a certain benefit to society.

# ƏLİLLİYİ OLAN QADINLARIN İŞ YERLƏRİNDƏ GENDER ƏSASLI DİSKRİMİNASİYAYA MƏRUZ QALMASI

**Tünzalə Verdiyeva**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: tunzaleverdiyeva@mail.ru

Müasir elmi ədəbiyyatda, insanın cinsini bildirən iki termin istifadə olunur: bioloji və sosial cins. Bioloji cins “bir növün özünün ziddiyyət təşkil etdiyi generativ əlamətlərin məcmusu” kimi, sosial cins isə “gender” – kişi və qadınların sosial və hüquqi statusunu, şəxsin fərdiliyini təmin edən, somatik, reproduktiv, sosiomədəni və davranış xarakterinin kompleksi kimi müəyyən olunur. Y.P. Husaimovun təcrübələrində kişi və qadınlar arasındakı fərq intellektual fəaliyyət sferasında, kişi-qadın qrupları arasında və qrup daxilində özünü göstərir. Gender-rol sosiallaşması şəxsiyyətin bütün həyatı boyu davam edən prosesdir və o, dəyişən şəraiti və yeni təcrübəni əks etdirir. Son illərdə qadın və kişinin gender rolu haqqında təsəvvür bir çox mədəniyyətlərdə, o cümlədən də Azərbaycan mədəniyyətində daha çevik olmuşdur. Ənənəvi olaraq kişilik qəddarlıqla, təcavüzlə və müstəqilliklə əlaqələndirilmişdir. Kişinin rolu qərar qəbul etməkdən, ailənin firavanlığını təmin etməkdən, pul qazanmaqdan ibarət idi. Qadından isə dərdə şərik olmaq, yumşaqlıq, itaət tələb olunurdu. Onun marağı tamamilə ailə və ev işləri ilə məhdudlaşırdı. Cinsi rolların dəyişməsinin əsas səbəblərindən biri də işləyən qadınların sayının artması oldu. Müasir qadın kişi iradəsinin itaətkar icraçısı və işdə fəal qadın rollarını birləşdirməyə çalışır. Tədqiqatlar göstərir ki, qızlar öz analarının cinsi rol qaydalarını mənimsəyir. İşlə daha çox məşğul olan qadınlar övladlarında cinsi rola daha az ənənəvi, daha çox liberal münasibət aşılayırlar [1].

Müasir dövrün ən aktual problemlərindən hesab olunan gender əsaslı ayrıseçkilik bütün dünyada olduğu kimi bizim ölkəmizdə də müşahidə olunur. Daha çox əlilliyi olan qadınların məruz qaldığı sosial təcridetmə faktları həyat fəaliyyətinin müxtəlif sahələrində özünü göstərir. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsilin müxtəlif formalarından bəhrələnmək imkanı valideynləri tərəfindən qızlardan əsirgəndiyinə görə gənc və yetkin yaşda əlilliyi olan qadınların məşğulluğu məsələsi problemə çevrilir. Orta ümumi təhsil haqqında sənədləri olmayan əlilliyi olan gənclər ali təhsil müəsissələrinə daxil ola bilmirlər.

Əmək bazarı yüksək ixtisaslı bakalavr və magistr dərəcəsi olan profesional mütəxəssislərə üstünlük verildiyinə görə rəqabət qabiliyyəti zəif olan həssas qrupa çevrilirlər. Peşə bacarıqlarına yiyələnmək və müxtəlif peşə kurslarına getmək, nəzəri və praktik məşğələlərdə iştirak etmək üçün nəqliyyat infrastrukturu uyğun olmadığına görə əlçatımlılıq təmin olunmur. Zəif qrupların riskləri idarə etmək və yüngülləşdirmək bacarığının artırılmasına diqqət yetirilməklə, məşğulluq imkanlarına görə regional və gender fərqlərini aradan qaldırmaq üçün milli strategiya, siyasət və potensialın gücləndirilməsinə ehtiyac duyulur.Yerli əmək bazarında məşğulluq imkanlarına və tələblərə dair məlumat kifayət qədər deyildir və regionlarda bir çox qadınlar yerli əmək bazarı üçün

tələb olunan vərdişlərə malik deyillər. Belə ki, öz icmalarında mövcud gəlir əldə etmə imkanlarının azlığından əziyyət çəkirlər, vakant iş yerlərinə dair vasitələrə, iş tapmaq vərdişlərinə və özünü uğurlu şəkildə təqdim etmə imkanlarına məhdud çıxışa malikdirlər. Əlilliyi olan qadınlar vaxtlarının böyük bir hissəsini ödənişsiz əməyə sərf edirlər, bu da iqtisadi və sosial həyatda iştirak imkanlarının araşdırılmasında onlara mane olur.

Növbəti problem isə iş yerlərində kollektivin və müəsisə rəhbərliyinin əlilliyi olan qadınlara münasibətidir. Belə ki, rəhbərlik həssas qrupdan olan işçilərin iş keyfiyyətinin, tipik insanlarla müqayisədə aşağı olacağını düşünərək onları işə götürmək istəmirlər.“Sosial münasibətlər baryerləri” həmkarlarla ünsiyyət zamanı ortaya çıxan çətinliklərdəndir. Müəsisələrdə keçirilən korporativ şənliklərdə əlilliyi olan qadınların iştirakını təmin etmək üçün sosial işçi və psixoloq kollektivdə psixo-profilaktik iş aparmalıdır ki, rahat ünsiyyət və emosional əmin amanlıq təmin edilsin. Əlilliyi olan qadınların sosial həyata təşviq etmək üçün xüsusi proqramlar tərtib edilməli, onların cəmiyyətə adaptasiyası və əmək kollektivlərinə inteqrasiyasını reallaşdırmaq mümkün olsun.Evdə istehsal fəaliyyəti ilə məşğul olan əlilliyi olan xanımların hazırladıqları məhsullara bazarda müştəri tapmaqla sifarişçilərin sayını artırmaq mümkündür.

Beləliklə, məşğulluq probleminin aradan qaldırılması əlilliyi olan qadınların özünə inamını yüksəldər və maddi problemlərinin aradan qaldırılmasına səbəb olar. Onların sosiallaşması, cəmiyyətə və əmək kollektivlərinə inteqrasiyasını asanlaşdırar. “Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, əlilliyi olan şəxsləri işlə təmin etmək üçün müəssisə və təşkilatlarda kvota müəyyən edilir. “Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərə əlavə iş yerləri və sosial müəssisələr yaratmaq, onlar üçün uyğunlaşdırılmış təlim proqramları əsasında peşə hazırlığı kursları təşkil etmək, habelə kvota müəyyən etmək yolu ilə əlavə təminatlar verir. Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər üçün kvota tətbiq edilməsi qaydası və kvota şamil edilməyən müəssisələrin siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (Nazirlər Kabineti) tərəfindən müəyyən edilir. Kvotanın miqdarı müvafiq inzibati ərazi vahidində əmək bazarındakı vəziyyətdən asılı olaraq, müəssisələrdəki işçilərin orta siyahı sayının 5 faizindən çox olmamaq şərti ilə müəyyən edilir.Kvota müəyyən edilmiş iş yerlərinə əlilliyi olan şəxslər müvafiq icra hakimiyyəti orqanının (Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi) göndərişi ilə işə qəbul edilirlər. İşə düzəlmək üçün əlilliyi olan şəxslərə verilmiş göndəriş, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş kvota şamil edilməyən müəssisələr istisna olmaqla, mülkiyyət növündən və təşkilati hüquqi formasından asılı olmayaraq müəssisə və təşkilatlar tərəfindən qəbul edilməlidir [2].

**Açar sözlər:** gender, əlilliyi olan qadınlar,sosial cins, bioloji cins.

## Ədəbiyyat

1. Fərəcova F.F. Gender və mədəniyyət, Mühazirələr kursu, Bakı: Qərb Universitetinin Nəşriyyat-Poliqrafiya mərkəzi, 2002.
2. Rəsulbəyova N. Qadınların əmək hüquqlarının qorunması. Gender: qadın və hüquq, Bakı, 1998.

**Gender-based discrimination of women with disabilities at work**

The article analyzes the strengthening of national strategy, policy, and potential to close the gender gap in employment opportunities, with focus on improving the ability of vulnerable groups to manage and mitigate risks. At the same time, the article reflects the achievements and major challenges in the above-mentioned field in our country.

## GENDER AS METAPHOR: PERFORMANCES OF GENDER IN POPULAR CULTURE, CHILDREN'S LITERATURE & EDUCATION

**Victoria de Rijke**
Research Director in the Department of Education at Middlesex University, London, UK

If gender stereotypes, values and prejudices are linked to gender ideologies functioning to sustain hegemonic male dominance and female subordination, cultural understandings of gender difference are often reflected in the way femininity and masculinity are *metaphorised*. Can we change this for a fairer world?

Metaphors of European and Asian cultural interchange from the Silk Road to women's football carry complex meanings into C21st persistent gender inequalities and new diversities. Judith Butler's phenomenology (drawn from Merleau-Ponty and de Beauvoir) notes that both thinkers grounded their theories in 'lived experience', viewing the gendered body as having social audience and cultural interpretation founded on social practice. This presentation will examine 'performances of gender' from popular culture, children's literature and young learners, as positive ways of gendering equality in practice.

## ƏLİLLİYİ OLAN ŞƏXSLƏR ARASINDA GENDER ƏSASLI AYRISEÇKİLİK

**Əsli Xəlilova**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: esli_xelilova@mail.ru

Bəşəriyyətin mövcud olduğu zaman boyu əlilliyi olan şəxslər cəmiyyətin bir hissəsini təşkil edib. Məlum olduğu kimi cəmiyyətdə qadın olmağın meydana gətirdiyi bir sıra çətinliklərmövcuddur. Belə bir cəmiyyətdə əlilliyi olan qadın olmaq daha da çətindir. Əlilliyi olan qadınlar cəmiyyətin onlara təqdim etdiyi gender rollarını icra edərkən müxtəlif maneələrlə qarşılaşırlar. Bu gender rolları sırasında təhsil almaq, ailə qurmaq, uşaq sahibi olmaq, uşağın tərbiyəsi ilə məşğul olmaq və s. yer alır.Nəzərə almaq lazımdır ki, əlilliyi olan qadınların gender rollarından irəli gələn problemləri ilə yanaşı müxtəlif sosial problemləri də mövcud olur. Qeyd etmək lazımdır ki, əlilliyi olan qadınlar özlərinə peşə seçərkən də müxtəlif maneələrlə rastlaşırlar.

Mövcud statistikaya nəzər salsaq görərik ki, əlilliyi olan qadınların təhsil alması və ailə qurması səviyyəsi əlilliyi olan kişilərə nisbətdə aşağıdır [2]. Əlilliyi olan qadınlar və kişilərlə bağlı aparılan demək olar ki, bütün tədqiqatlarda görülür ki, cinsi, irqi, sosial birlik, sosial sinif və etnik baxımından cəmiyyətdən kənarda olanlar daha çox əlilliyi olan qadınlardır.

Cəmiyyətdə əlilliyi olan kişilərdən fərqli olaraq, əlilliyi olan qadınlar ailə qura və hətta uşaq sahibi ola bilməzlər şəklində fikirlər də mövcuddur. Bu fikirlər əlilliyi olan qadınların şəxsi keyfiyyətlərinin formalaşmasında problemlər yaradır. Bu sahənin mütəxəssisləri olan Lipson və Rogersin araşdırmalarına əsasən deyə bilərik ki,əlilliyi olan qadınlar gender rollarından irəli gələn vəzifələri yerinə yetirərkən bu istəklərini həm də ətrafında olan insanlara qəbul etdirməkdə müxtəlif çətinliklərlə rastlaşırlar. Uşaq sahibi olan əlilliyi olan qadınların üzərində sosial təzyiq daha çoxdur. Lipson və Rogers öz tədqiqatlarında qeyd etmişdilər ki, uşağı olan əlilliyi olan qadınlar qonşuları tərəfindən daimi olaraq təzyiqə məruz qalırlar və onlar əlilliyi olan bir ailənin övlad sahibi olmasını yadırğayır və əlilliyi olan valideynlərin uşaqlara zərər verə biləcəyini düşünürlər [1].

Ümumilikdə götürdükdə əlilliyi olan qadınların problemlərini aşağıdakı qaydada qruplaşdırmaq olar:

1. İşsizlik/iqtisadi problemlər;
2. Ailədaxili münasibətlərdən qaynaqlanan problemlər;
3. Təhsil problemləri;
4. Reabilitasiya problemləri və s. [2].

Əlilliyi olan qadınların problemləri və həlli yolları haqqında danışarkən BMT-nin “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvesiyasının “Əlil qadınlar” adlanan 6-cı maddasinə də diqqət yetirmək lazımdır:

1. İştirakçı dövlətlər əlil qadın və qızların çoxsaylı ayrı-seçkiliyə məruz qaldığını etiraf edir və bununla əlaqədar olaraq onların bütün insan hüquqlarını və əsas azadlıqlarını tam və bərabər həyata keçirməsini təmin etmək üçün tədbirlər görürlər.
2. İştirakçı dövlətlər qadınların bu Konvensiyada əksini tapan insan hüquqlarını və əsas azadlıqlarını həyata keçirməsinə və realizə etməsinə zəmanət vermək məqsədilə onların hərtərəfli inkişafının təmin olunması, vəziyyətlərinin yaxşılaşdırılması və hüquq və imkanlarının genişləndirilməsi üçün bütün lazımi tədbirləri görürlər [3].

Yuxarıda qeyd olunan fikirləri ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, əlilliyi olan qadınlar müxtəlif kateqoriyalardan olan əlilliyi olan şəxslərə nisbətən daha çox ayrıseçkiliyə məruz qalır.Əlilliyi olan qadınların cəmiyyət içərisində qarşılaşdıqları problemləri aradan qaldırmaq üçün sosial işçilər əlilliyi olan qadınlar və onların aid olduqları sosial mühit ilə birlikdə iş aparırlar. Mövcud problemlərin aradan qaldırılması üçün əlilliyi olan qadınlardan təşkil olunmuş müxtəlif icmalarda maarifləndirmə işləri aparmaq, əlilliyi olan şəxslərlə tipik şəxslər arasında cəmiyyətin sosial həyatında iştirak etmək və gender rollarını icra etmək baxımından heç bir fərq olmadığını müxtəlif maarifləndirmə tədbirləri vasitəsilə insanlara çatdırmaq lazımdır.

**Açar sözlər:** əlilliyi olan qadınlar, gender, ayrıseçkilik, sosial işçi.

**Ədəbiyyat**

1. Lipson J.G., Rogers J.G. (2000). Cultural aspects of disability. Journal of transcultural nursing, 11(3), 212-219.
2. Swain J., French S., Barnes C., Thomas, C. (Eds.). (2013). Disabling barriers-enabling environments. Sage.
3. http://www.e-qanun.az/framework/15641

## Gender dicrimination among disabled persons

Current statistics show that the more discriminated persons among the disabled are women. Disabled women come across with different problems while they are doing gender roles that the society presents them. Education, a marriage, choosing a job, bringing up a child etc. are among these gender roles. Generally , we can group the problems of disabled women in the following way:

Unemployed/economic problems

Problems coming out from family relationships

Ecucation problems

Rehabilitation problems etc.

The solve the problems that the disabled face based on the gender discrimination , social workers carry out both with the disabled themselves and the environment they belong.

# WOMEN'S RIGHTS IN TERMS OF LABOR LAW IN THE REPUBLIC OF AZERBAIJAN

**Nariman Khanahmedov, Sara Ahmedli**
Azerbaijan State University of Economics (UNEC), Baku, Azerbaijan
e-mail: nermanhan@gmail.com

The aim of this study is to find out how much importance is given to women both in the field of general law and in the field of labor law, whether in the Soviet Union or the Republic of Azerbaijan.

In 1920, there were 965 general education schools in Azerbaijan, where 80 thousand students were educated. In the years 20-30, 838 school buildings were built in cities and villages and 3.5 thousand new schools were opened. In the early 20s, 9 short pedagogical courses were opened. Here, more than a thousand primary school teachers were prepared. Seven-year schools were opened for young people working in 1924 and living in the village in 1926. In 1931/32, seven-year compulsory secondary education was introduced.

During the Azerbaijan Republic, which was established in 1918, the equal voting rights of all peoples and both sexes living within the borders of the country were determined by law. For the first time in the Republic, Azerbaijan was the first country in the east to grant women the right to vote. National womens’ policy in our country has gained state status during the glorious page of our history, Azerbaijan People's Republic. In the same period, granting women the right to vote and to be elected was seen as a historical achievement for the first time in the Muslim East. Thus, only in the East, and even before some European countries and the United States, considered the cradle of democracy, women were granted the right to participate in political processes in social life.

**Protection of Women's Rights in the Soviet Period**

1921 was the year of the first congress of women in the history of Azerbaijan. Neriman Nerimanov's presentation was held by women's freedom ideas. In a short time after the congress, great works were carried out in the field of education of Azerbaijani women and increasing their social activity. In 1921, the preschool education institute for girls was turned into a women's pedagogical institute a year later. The first women's team, founded by Ceyran Bayramova's initiative, played an important role in the development of the women's movement during this period. In 1923, the publication of the "Doğu Kadını (Eastern Women)" magazine was an important event in the history of the Azerbaijani women's movement.

Zuleyha Seyidmemmedova, Sona Nuriyeva, aviator, and Shevket Selimova, as well as female ship captain have grown. During the war, our women fought with strutting on the front, and showed labor and sacrifice on the back. All these are forgotten pages of the history of women's movement in Azerbaijan.

In the 20$^{th}$ century, Azerbaijani women have passed a path of equal development for centuries. There have been fundamental changes in their position in society, social life, and family.

One of the most important areas of political activity, the Soviet government has taken important measures in the field of decision-making - in the soviet (in the Indigenous Soviet), as well as in the areas of judiciary, the participation of women in government bodies.

Despite the negative effects of the political system in the Soviet Union on the family, the importance of one of the most important social institutions - Family, has been understood in this society and efforts are being made to strengthen the family structure.

The Soviet government was taking various measures to attract women to social-political activity by creating women's clubs, women's magazines and trade union organizations. In 1923, in addition to the Azerbaijani KP, “The Committee for the Improvement of Women's Order“ , the journal “Eastern Women“ were launched in December.

In this period, women began to be included in the field of legal domination. In 1920, 40 Azerbaijani women worked as public. As a result of the strengthening of totalitarianism in the 30s, women's branch, women's press and many women's organizations of the communist party were canceled.

In 1920, there were 965 general education schools in Azerbaijan, where 80 thousand students were educated. In the 30's, 838 school buildings were built in cities and villages and 3.5 thousand new schools were opened. In the early 20s, 9 short pedagogical courses were opened.

More than a thousand primary school teachers were prepared here. Seven-year schools were opened for young people in 1924 who is working in the village and in 1926 it was changed who living in the village. In 1931-1932, seven-year compulsory secondary education was started to implementing. In 1935, changes were made in the structure of school doctrine. Primary education was four grades. Primary education turned into a decade. In 1951, a general seven-year training and in 1962 a general eight-year training mission completed in the country. One of the major issues related to the school was its proletarization, the creation of conditions for the broad flow of working peasant youth to high school. It was necessary to bring higher education institutions closer to the public and to open it to the masses. At the beginning of 1920, the faculties of workers in Azerbaijan played a major role. In these faculties, thousands of students were preparing for the country's high schools. The cultural revolution in Azerbaijan was heavily linked to the problem of women's freedom with its participation in all areas of life.

In 30-40 years, the generation of new proletarian intellectuals of Azerbaijan began to form. The further developing formation traditions of Soviet Azerbaijan were created by Azerbaijani intellectuals during the period of the late XVIII century-early XIX century were broken up.

Half of them were shot and pressured in the second half of the 20s. As in other republics, Azerbaijan did not have such an area of economic and cultural construction (industrial production, agriculture, social life, cultural life) so that women-artists, composers and directors would not work there.

Higher education also began to develop gradually. Medical, history, physics-mathematics, orientalism, pedagogy and law faculties were operating in the Azerbaijan state university.

**Women's Rights in the Republican Era**

The establishment of the Azerbaijan Democratic Republic in 1918 created wide opportunities for Azerbaijani women to become active members of the democratic society.

Although the life of the Azerbaijani Democratic Republic is not long, many rights have been granted to women during the 23-month period. During the Azerbaijan Democratic Republic, which was established in 1918, the equal voting rights of all peoples and both sexes living within the borders of the country were determined by law. For the first time in the Republic, Azerbaijan was the first country in the east to grant women the right to vote. In our country, the national women's policy has gained state status during the period of Azerbaijan Democratic Republic, the glorious page of our history. In the same period, granting women the right to elect and be elected for the first time in the Muslim East was accepted as a historic achievement. Thus, only in the East, and even before some European countries and the United States, which are regarded as the cradle of democracy, women were granted the right to participate in political processes in social life.

The basis of national women's policy is based on three sources: the holy approach from the Islamic source to women, manhood from Turkism, heroism, and finally, the process of women's policy and the recovery period began in the Azerbaijan Democratic Republic.

The most effective lady of this period is considered Shefika Hanım Efendizade. Although she was not high educated, she possessed valuable activities both as a writer and an educator.

One of the older sons who served unconditionally in the political-social and cultural life of Azerbaijan until the end of his life, who did not spare his physical and spiritual power and the state of the nation, was Baku millionaire Hacı Zeynelabidin Tağıyev, a member of the Parliament of the People's Republic of Azerbaijan, one of the members of the national liberation movement. Although Emperor Alexander III did not allow Tagiyev to open a school, but in 1901 he finally opened a girls' school. The first girls' school in the Muslim East, combining Muslim traditions with European modernism, laid the foundation for secular women's education in Azerbaijan. Teachers from various regions of Russia were invited for qualified education. The girls were dressed in a European style white-collar, handsome hooded uniform.

The parliament of the Republic adopted a resolution of 27 June - one of the first measures that made a major contribution to the development of the education.

114 years ago, the first girls' school was opened in Baku in the east of Muslims. Now, in 1919, there were 23 state secondary schools in Azerbaijan: 6 people, 4 women gymnasiums, 5 real school, 3 teaching seminars, 3 "Holy Nina" girls' schools and business schools.

The history of the women's movement in the West and all over the world, its achievements require the determination, learning and development of feminism in Azerbaijan and its stages of development and the essential aspects of its development in order to determine the right strategy. However, it is very important to consider local national traditions, characteristics and mentality here. For this, it is necessary to take a look at history - to determine the role and place of women in the history of Azerbaijan and its historical accumulation.

The aim of the women's issue in history is to form an opinion on the completing history of both sexes.

**Result.** The stereotypes formed during the Soviet period sometimes did not pay attention national and traditional features and their female-specific aspects. The Soviet comprehension of women's development and the solution of women's problems were on the edge of many factors. The form of employment, the demonstrators were raised, the quality of labor, the appropriateness of this labor with women's domestic demand, and the possibilities of women to express their potential in labor were forgotten.

In the early years of Soviet rule in Azerbaijan, progressive changes took place in the field of women's social activity. In May 1, 1921, in the 79th paragraph of the Constitution of Azerbaijan adopted by the Soviet Congress of Azerbaijan, the equality of women and men was determined.

The intellectual women of the Republican era were mainly civil educators and social activists. These women who stood on the mission of enlightenment at the basis of both pedagogical and public activities were not lagging behind the men of the period. The reason for this was actually the proper policy of the republic administration in the direction of women's issues and women's rights. For the first time in the East, women are given the right to participate in the election. New girls' schools were opened and the ladies were raised for society. These steps increased the role of women in society.

**Keywords:** Woman’s rights, labor law, Soviet period.

## References

1. Constitution of the Republic of Azerbaijan, 12, November, 1995.
2. The Labor Code of the Republic of Azerbaijan.
3. Updated version of the European Legislation Guide on the Prohibition of Discrimination, which includes funds on anti-discrimination legislation and guidance mechanisms in the Republic of Azerbaijan, International Migration Organization, Baku, 2013.
4. UN Report on Human Development in the Republic of Azerbaijan-1997.
5. UN Human Development Report-1998.
6. Nagiyeva Sh., Tahirov K., People's Republic of Azerbaijan - 90: (1918 - 1920): Bibliography, 2008, 256 p.
7. Gadirova E.H. Azerbaijani women are active founders of communism, 1866-1980, Baku, 1982.
8. Council of Europe Convention on the Prevention and Combating Violence and Domestic Violence Against Women (Istanbul Convention), Council of Europe, Edited version, November 2012 Published by the Council of Europe.
9. Results of National Gender Facility Monitoring, Baku – 2010.
10. Bacak Benjamin, Yusuf Yigit, Assessment of Relevant Arrangements for Working Papers in Turkish Business Law, Jan. C: 9, S: 2/2007
11. Balci Yusuf. Family Politics in the Union of Socialist Republics, Family Politics, Publications of Family Research Institute, Ankara, 1991.

## DIVERSITY AND GENDER EQUALITY

**Summer Xia**
Country Director of the British Council in Azerbaijan
Global Accredited Diversity Facilitator

The presentation with be an overview of the British Council’s commitment and approach to Equality, Diversity, and Inclusion and why it is important for culture relations. He will then go into details about the British Council’s approach to gender equality such as empowering girls and women and reducing gender pay gap. He will give examples from the British Council’s programme on how this approach is mainstreamed.

# ƏLİ BƏY HÜSEYNZADƏNİN ƏDƏBİ-PUBLİSİSTİK YARADICILIĞINDA QADIN AZADLIĞI MƏSƏLƏSİ

**Narınc Zeynalova**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: Roza19961234@gmail.com

XX yüzilliyin əvvəllərində milli dirçəliş dövrünü yaşayan Azərbaycanın milli mətbuatı mövcudluğunun bütün dövrlərində olduğu kimi, həmin illərdə ictimai həyatın müxtəlif sahələrinə təsir göstərən qüdrətli vasitələrdən birinə çevrilmişdi. Milli mətbuatımızınsəhifələrində digər mühüm problemlərlə yanaşı qadının ictimai həyata cəlb edilməsi kimi mühüm və olduqca çətin bir vəzifə də daim diqqət mərkəzində saxlanırdı. Azərbaycanın qabaqcıl ziyalıları "qadın bir şəxsiyyət kimi azad olmayınca, onun problemləri həll olunmaz qalacaq"düşüncəsi ilə çıxış edirdilər [5].

XIX əsrin əvvəllərində Şimali Azərbaycanın Rusiya imperiyası tərəfindən ilhaqı ümumən tariximizdə və mədəniyyətimizin inkişafında keyfiyyətcə yeni bir mərhələnin başlanğıcını qoydu. Əli bəy Hüseynzadənin üçlü düsturu milli tərəqqi proqramını yalnız "avropalaşmaqla" bitirməmiş, bu məsələdə daha vacib məsələ olan milli və dini ənənələrin dirçəlməsini də zəruri bilmişdir. Əli bəy Hüseynzadə lap əvvəldən illüziyalara qapılmamışdır. Beləki o, Avropa dövlətlərinin Şərqin geridə qalmasından istifadə edərək onu müstəmləkələşdirməsi siyasətini, onların burada törətdikləri vəhşilikləri görür və Qərb sivilizasiyasının həqiqi qiymətini çox yaxşı başa düşürdü. Hələ I Dünya müharibəsindən qabaq, 1907- ci ildə yazdığı "Kasablanka faciəsi və Osmanlı-İran komediyası" əsərində Qərbin Şərqə qarşı pərdələnmiş irticaçı siyasətinin iç üzünü açanmışdı. Əli bəy bundan sonra özünün "avropalaşmaq" şüarının məğzini daha bir istiqamətdən açıqlayaraq yazırdı:"Biz avropalıların ədəbiyyatlarına, sənayelərinə, maariflərinə, kəşf və ixtiralarına müraciət etmək istiyoruz, özlərinə deyil!" [3, s.95-97].

Əli bəy Hüseynzadə qeyd edirdi ki, mədəniləşmək vacib şərtdir: "Bir millət üçün hər şeydən öncə arzu ediləcək şey qüvvətdir, bir millətin qüvvət qazanması eyni cinsli ünsürlər arasında mənəvi bağın artmasına bağlıdır. Məsələn, bir-birimizi tanımaq, sevmək, hüquqlarımızı bilmək və mədəniləşmək yolunda bir-birimizə yardım etmək məsələsidir" [1, s.203]. Böyük mütəfəkkir millətimizin maarifdən geri qalmasını, savadsızlığını xüsusilə, qadınlarımızın çarşaf altında gizlədilərək maarifdən, ictimai həyatdan təcrid olunmasını, hüquq və azadlıqlarının əllərindən alınmasını birbaşa xalqımızın məhv edilməsi sayırdı.

Öz səhifələrində qadın mövzusuna davamlı yer verən mətbu orqanımız "Füyuzat" jurnalı idi.Əli bəy Hüseynzadənin redaktorluq etdiyi bu jurnal ictimaiyyətin, ziyalıların, xalqın başında duranların diqqətini Azərbaycanda nikah, ailə-məişət problemlərinin vəziyyətinə və onun həlli yollarının hamılıqla axtarılıb tapılmasının zəruri olduğuna yönəltmək istəyirdi. O, "Füyuzat" jurnalı vasitəsilə Azərbaycanı orta əsrlərdən çıxarırdı. Despotik idarə üsulunu sarsıda bilən informasiyanın xalqa ötürülməsində də, vətəndaş haqları xüsusilə, qadın hüquq və azadlıqları, hürriyyət məşqinin ilk dərslərini də etiraf etməliyik ki, Azərbaycan ilk dəfə Əli bəydən öyrəndi [4, s.73].

İlk nömrəsindən başlayaraq “Molla Nəsrəddin” jurnalı qadın mövzusunu satirik publisistikaya yeni gətirilən üsul və vasitələrdən, sual-cavab, atalar sözü və başqalarını istifadə etməklə səsləndirirdi. Jurnal qadınların hamılıqla təhsilə cəlb olunmasının zəruriliyi məsələsini qaldırır, “Hicab”, “Daldan atılan daş topuğa dəyər” sərlövhəli satirik yazılarda bu sahədəki nöqsanların onların xoşbəxtliyi qarşısında yaratdığı problemlərdən söz açırdı [2, s.2].

Əli bəy Hüseynzadə “Molla Nəsrəddin” jurnalının qadın azadlığına dair 1907-ci ildəki yazılarını təqdir edənlər və jurnalın müdafiəçiləri sırasında idi. Onun nəşr etdirdiyi “Tərəqqi” qəzeti valideynlərin öz qız övladlarına qarşı mərhəmətsiz davranmalarını tənqid edir, onların hissiz, qayğısız buraxıldıqları və beləliklə, fəlakətə süründüklərini xüsusi vurğulayırdı [5].

Əli bəy Hüseynzadə XX əsrin ilk onilliklərində digər görkəmli ziyalılarımızla birlikdə qadın azadlığı uğrunda çıxış edir, qadınların təhsilə, ictimai işlərə cəlb olunmasını, onların hüquqlarının bərpa olunmasına çalışırdı.

**Açar sözlər:** Əli bəy Hüseynzadə, qadın azadlığı, avropalaşmaq, təhsil, Qərb sivilizasiyası.

## Ədəbiyyat

1. Akçuraoğlu Y. Türkçülüyün tarixi  Bakı, Qanun nəşriyyatı, 2010.
2. Qasımova A. Qadın azadlığının carçısı “Azərbaycan” qəzeti 9 iyul 2015.
3. Mirzə R.Türkçülüyün babası, Bakı, “Elm”, 2000.
4. Turan A. Əli bəy Hüseynzadə. Moskva, “Salam press” 2008 .
5. www.1905.az

## The feminine liberty in literary-publicistic power of Alibey Huseyzade

This article reflect the freedom and right of women. At the beginning of 20century, our intellectuals were trying to involve the women to education and society, restoration of women's rights and support their freedom through some press. Ali bay Huseynzade who was the director of journal of “Fyuzat"” was fighting of women's rights and freedom via this journal.